**AZƏRBAYJAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYJAN DÖVLƏT PEDAQOCİ UNİVERSİTETİ**

**SƏMAYƏ MUSTAFAYEVA**
**ZƏRİFƏ CAVADOVA**

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**DƏRS VƏSAİTİ**

***Azərbayjan Respublikası Təhsil Nazirliyinin EMŞ-nın 7 iyul 2010-cu il tarixli iclasının qərarına (pr № 3)və Azərbayjan Respublikası Təhsil Nazirliyinin 9 iyul 2010-cu il tarixli 1079 saylı əmrinə əsasən dərs vəsaiti kimi çap edilir.***

**BAKI – 2 0 1 0**

__________*Milli kitabxana*__________

**Elmi redaktor:** ***t.e.d, prof. Mais Əmrahov***

**Rəyçilər:** ***t.e.d, prof. Musa Həsənov***
***t.e.d, prof. Məmməd Fətəliyev***
***t.e.n, dos. Ərrəhman Əhmədov***
***t.e.n, dos. Naidə Hacinskaya***
***t.e.n Pirağa İsmayılzadə***

***S.Mustafayeva, Z.Cavadova. "Birinci dünya müharibəsi dövründə beynəlxalq münasibətlər". Dərs vəsaiti. Bakı ADPU nəşriyyatı.216 səh***



downloaded from KitabYurdu.org

# GİRİŞ

1997-ci ildən ölkəmizdə təhsildə magistratura pilləsinə keçilmişdir. Bu isə ali məktəblərdə magistratura pilləsində dərs aparan müəllimlərdən daha yüksək elmi hazırlıq tələb edir. Bu cəhəti də yaddan çıxarmaq olmaz ki, bu pillə zaman baxımından hələ yeni fəaliyyətə başladığına görə bu pillə üçün dərslik, dərs vəsaitlərinin yazılması vacib problem kimi qarşıda durur. «Avropa və Amerika ölkələrinin yeni və ən yeni tarixi» üzrə ADPU-da magistratura üçün yer ayrılması bu fənn üzrə ayrılmış ixtisas fənlərindən dərs deyən müəllimlər qarşısında da dərslik və dərs vəsaitləri hazırlamaq vəzifəsini qarşıya qoyur. Magistrlərimizin buna kəskin ehtiyacını nəzərə alaraq biz magistratura pilləsində ixitsas fənni kimi tədris edilən «Birinci Dünya müharibəsi dövründə beynəlxalq münasibətlərə» aid dərs vəsaiti yazmağı lazım bildik. Dərs vəsaitində Birinci dünya müharibəsinə hazırlıq dövrü, müharibə və ondan sonrakı ilk illərdəki beynəlxalq münasibətlər lazımi elmi səviyyədə şərh edilmişdir. Bu vəsaitdən ali məktəblərin tarix fakültəsinin müəllim və tələbələri də istifadə edə bilərlər.





# I fəsil

# Birinci Dünya müharibəsinə hazırlıq dövründə beynəlxalq münasibətlər.

## 1.XIX əsrin sonunda beynəlxalq münasibətlər.

XIX əsrin II yarısında ABŞ-da quldarlığın tamamilə ləğvi, Almaniyanın birləşdirilməsi, Yaponiyanın Şərqdə qüvvətlənməsi beynəlxalq münasibətlərə öz təsirini göstərdi. XIX əsrin sonunda kapitalist dövlətləri dəyişmiş şəraitə uyğun olaraq öz xarici siyasətlərini də dəyişməli oldular. Bununla bərabər onlar yenə də xarici siyasətlərində hakim siniflərin mənafelərini nəzərə alırdılar. Bu isə onların xarici siyasətinin təcavüzkar xarakter daşımasına səbəb olurdu.

Öz ölkələrinin xalqlarının belə bir xarici siyasəti bəyənməsini təmin etmək üçün hakim dairələr öz xarici siyasətinin sinfi məqsədlərinin ümummilli xarakter daşıdığını elan edirdilər. Millətçilik, başqa xalqlara münasibətdə inamsızlıq və düşmənçilik qızışdırılırdı. Təhlükəsizliyin qeydinə qalmağı və qonşu dövlətlərin militarizmini bəhanə gətirməklə silahların artırılmasına haqq qazandırılırdı. Başqa xalqların üzərində hökmranlığa, onları talan və istismar etməyə can atılması şovinizm və irqçiliklə – öz millətinin, öz irqinin üstünlüyünü, başqa millətlərə və irqlərə nifrət bəsləməyi təbliğ etməklə əsaslandırılırdı. Bu, başqa ölkələrin xalqlarını talan və istismar etməklə hakim siniflərin əldə etdikləri çox böyük üstəlik mənfəət hesabına öz ölkəsinin əhalisinin ayrı-ayrı təbəqələrinə sədəqələr verməklə möhkəmləndirilirdi. Kütləri bu cür aldatma, yayındırma sistemi hakim dairələrə onlardan öz təcavüzkar siyasətinin vasitəsi kimi – soyğunçulunq müharibələrində, məzlum xalqların azadlıq mübarizəsinə qarşı bir vasitə kimi istifadə etmək imkanı verirdi.

Kapitalizmin imperializm inkiaşf mərhələsinə qədəm qoyması ilə ən iri kapitalist dövlətlərinin xarici siyasətinin təcavüzkar xarakteri xeyli gücləndi. Bu da onun maliyyə oliqarxiyasının alətinə çevrilməsindən irəli gəlirdi.

Nəticədə XIX əsrin sonunda beynəlxalq ziddiyyətlərin hər iki əsas növü kəskin surətdə gərginləşdi. Birincisi, imperialist dövlətləri ilə digər ölkələr, xüsusilə xalqların müstəmləkəçilərə



downloaded from KitabYurdu.org

qarşı müqavimətinin gücləndiyi müstəmləkə ölkələri və asılı ölkələr arasındakı ziddiyyətlər kəskinləşdi.

İkincisi, imperialist dövlətlərinin özləri arasındakı ziddiyyətlər kəskinləşdi. Bu dövlətlərdən hər birinin hakim dairələri öz müstəmləkələrini və nüfuz dairələrini daha səylə genişləndirməyə çalışırdılar. İqtisadi inkişafın qeyri-bərabərliyi nəticəsində güclənmiş olan imperialist dövlətləri – Almaniya, ABŞ, Yaponiya – zəif ölkələri özlərinə tabe etməklə kifayətlənməyərək, müstəmləkələrin və nüfuz dairələrinin yenidən bölüşdürülməsinə çalışırdılar. Lakin başqa imperialist dövlətləri – İngiltərə, Fransa – əvvəllərdə işğal etdiklərini onlara güzəştə getməyə heç cür razı deyildilər. Bütün ölkələrin imperialistləri qarət etdiklərini daha da artırmağa can atırdılar. Bu, rəqabət mübarizəsini kəskinləşdirdi, kəskin beynəlxalq münaqişələr mənbəyi oldu və surətlə silahlanmanın güclənməsinə təkan verdi. Bütün imperialist dövlətləri dünyanın yenidən bölüşdürülməsi uğrunda müharibəyə hazırlaşmağa başladılar.

XIX əsrin son onillikləri dünya səhnəsinə yeni bir mərhələnin-imperializm mərhələsinin qədəm qoyduğu bir dövrüdür. Bu dövrün əsas təzahürlərindən biri Avropanın böyük dövlətlərinin yeni dəniz-arxası müstəmləkələrə yiyələnməyə maraqlarının artması idi. Bu bütöv kompleks amillərlə – sənaye inqilabının gələcək müvəffəqiyyətləri, yeni bazarlara sahib olmaq və azad ticarəti genişləndirmək, kapital ixracı, yeni hərbi texnologiyanın meydana gəlməsi və s. ilə bağlı idi. Yeni müstəmləkə imperiyasını təşkil etmək və onu möhkəmləndirmək üçün Böyük dövlətlərin genişmiqyaslı fəaliyyətləri də bu dövrün beynəlxalq münasibətlərinə öz təsirini göstərməyə bilməzdi.

**Böyük britaniya beynəlxalq münasibətlər sistemində.** Müstəmləkələrə sahib böyük dövlətlər içərisində Böyük Britniya və Fransa ilk yerləri tuturdu. XIX əsrin sonunda Böyük Britaniyanın müstəmləkə müdaxiləsinin əsas obyekti Afrika və Sakit okean hövzəsi idi. Bu məsələdə, 1869-cu ildə Süveys kanalının inşasının başa çatması da mühüm rol oynadı. Bu kanal Avropadan Hindistana və Cənub-Şərqi ASiyaya gedən yolu xeyli qısaltdı. Böyük Britaniya hökuməti Misir hökuməti ilə toqquşma





təhlükəsindən xilas olmaq üçün 1882-ci ildə «Süveyş kanalı kompaniyası»nın səhmlərini aldı və Misir ərazisində hərbi mühasirə rejimi şəraiti yaratdı. Bu hal İngiltərənin ən böyük müstəmləkəsi olan Hindistana gedişini asanlaşdırdı. 1882-ci ildə İngiltərə Misir xalqının milli-azadlıq üsyanını amansızcasına boğaraq Misiri işğal etdi və onu öz müstəmləkəsinə çevirdi. Bununla da, Böyük Britaniya çəkilişi qurtarmış, Atlantik okeanından və Aralıq dənizindən Hind okeanına gedən su yolunda ən mühüm strateji məntəqə olan Süveyş kanalı üzərində nəzarəti tamamilə öz əlinə aldı. XIX əsrin 80-ci illərində İngiltərə, Cənubi Afrikada Limpopo və Zambati çayı hövzələrini tutaraq Cənubi və Şimali Rodeziya müstəmləkəsini təşkil etdi. Həmin dövrdə İngiltərə indiki Uqanda, Keniyanı, Nigeriyanı və Somalinin bir hissəsini işğal etdi.

Böyük Britaniyanın hakim dairələri sənaye sahəsində hakim mövqelərini itirmələrinin əvəzini çox böyük müstəmləkə imperiyasını daha genişləndirməklə çıxmağa can atırdılar. İngilislər bir əməliyyat meydanı kimi Misir ərazisindən, habelə Misir qoşunlarından istifadə edərək Şərqi Sudanı işğal etdilər. 1898-ci ildə Sudanın işğalı başa çatdı. Həmin dövrdə Britaniya Şərqi Afrikası adlanan müstəmləkələr qrupu yaradıldı.

Eyni zamanda ingilis müstəmləkəçiləri Kap müstəmləkəsindən şimala tərəf irəliləyirdilər. Şimalda işğalların təşkilatçısı Sesil Rods idi. Rods kiçik zənci knyazlarından çox ucuz qiymətə torpaqlar almaq və zor işlətmək yolu ilə müstəmləkə yaratdı, həmin müstəmləkə Rodeziya adı aldı. O, ingilislərin işğal etdikləri torpaqları Keyptaun – Qahirə – Kəlkəttə (üç «K») dəmiryolu ilə birləşdirmək ideyasını irəli sürdü.

XIX əsrin axırında Böyük Britaniya Cənub-Şərqi Asiyada iri əraziləri işğal etdi. 1885-ci ildə İngiltərə Birmanı tutdu. Sonra Malayyanı, Yeni Qveneyanı, Şərqi Borisanı işğal etdi. İngilis müstəmləkəçilərinin yırtıcı pəncəsi Çinə, Əfqanıstana, Orta Asiyaya, Qərbi Afrikaya, Sakit okean adalarına da uzanırdı.

İmperiyanı mühafizə etmək və genişləndirmək, dəniz yollarında hökmranlığı qoruyub saxlamaq, Avropa qitəsində heç



downloaded from KitabYurdu.org

bir dövlətin hegemonluğuna yol verməmək – Böyük Britaniyanın xarici siyasətinin başlıca məqsədləri bunlardan ibarət idi.

XIX əsrin 90-cı illərinə qədər İngiltərənin başlıca rəqibləri Asiyada Rusiya, Afrikada Fransa idi. Lakin əsrin axırında İngiltərə – Almaniya ziddiyyətləri kəçskinləşdi. İngiltərənin hakim dairələri yəqin etdilər ki, «Almaniya İngiltərə ilə qərəzli və amansız rəqabətə başlayıb və Britaniyanın üstünlüklərini məhv etmək üçün var qüvvəsi ilə mübarizə aparır».

XIX əsrin axırına qədər İngiltərə «əlverişli təcrid» prinsipinə tərəfdar çıxırdı. Bu prinsipin mahiyyəti başqa ölkələrlə uzunmüddətli ititfaqlarla öz əl-qolunu bağlamamaqdan: onların arasındakı ziddiyyətlərdən istifadə etməkdən və yalnız münasib məqamda öz mənafeyini əsas tutmaqla tərəflərdən birini müdafiə etməkdən ibarət idi. İndi isə İngiltərə «əlverişli təcrid»dən imtina etməli oldu. O, «qitədə əsgərə»ehtiyac duyduğundan Fransa və Rusiya ilə yaxınlaşmağa başladı ki, bəlkə onların qoşunlarından Almaniyaya qarşı istifadə edə bilsin.

80-ci illərin ortalarında İngiltərə müstəmləkələrə yiyələnmək, xarici ticarətlə və kapital axını ilə məşğul olmağa başladı. 1865-ci ildə «Müstəmləkə cəmiyyəti» təşkil edildi. 1884-cü ildə Böyük Britaniya Federasiyası liqası yarandı. Tarixçi Car Sili «XVIII əsr İngiltərənin işğalları» adlı kitabında göstərirdi ki, müstəmləkə İngiltərinin qüdrəti və sərvəti üçün mühüm mənbədir. Şair Redzard Kiplin də İngiltərənin müstəmləkə siyasətinə haqq qazandırırdı.

1889-cu ildə Limpopo və Zambati çay arası ərazisi tutulduqdan və ora Rodeziya adlandırıldıqdan sonra. Transvalı tutmaq istəyi beynəlxalq mübahisələrə səbəb oldu. 1890-cı ildə Almaniya Zanzıbarı güzəştə getdi, əvəzində Şimal dənizində balaca Heosaloni adalarını İngiltərə ona verdi. Strateji cəhətdən bu adalar əlverişli idi. Britaniya imperiyasının əhalisinin sayı 370 mln. nəfər idi.

İngiltərə sürətlə silahlanmanı genişləndirərək 1887-ci ildə hərbi dəniz donanmasını genişləndirmək haqqında qanun qəbul edildi. O zaman bu qanun iki dəniz dövlətinə - Fransa ilə





Rusiyaya qarşı çevrilmişdi. İngiltərə ikisinin cəminə bərabər donanma yaratmağı planlaşdırırdı.

Artıq XIX əsrin sonunda bölünmüş dünyanı yenidən bölüşdürmək haqqında imperialist müharibələri başlandı. Bunlardan biri də 1899-1902-ci illərdə olmuş ingilis-bur müharibəsi idi. Afrika kontinentinin cənubunda münaqişənin baş verməsinin dərin kökləri vardır. Avropalılar Cənubi Afrikanın müstəmləkələşdirilməsinə XVII əsrin ortalarından başlamışdırlar. Bu dövrdə əvvəlcə Ümid burnunda hollandların qəsəbəsi meydana gəldi, bir qədər sonra isə paytaxtı Keyptau olan Kap müstəmləkəsi təşkil edildi. «**İtaət haqqında»** Nant ediktinin təxirə salınması Fransadan Cənubi Afrikaya mühacir axınının yeni dalğasına səbəb oldu. Hollandlar, fransızlar, ispanlar, almanlar portuqallarla qaynayıb-qarışdılar və «burlar» adı altında yeni xalq təşkil etdilər. Bu xalqa «afrikanyorlar» da deyilirdi. Bütün yuxarıdakı xalqların dillərinin qarışması nəticəsində onların yeni dili də yaranmış oldu. XIX əsrin 30-cu illərində burlar Oranj ə Transvaal respublikasının əsasını qoydular. Kap müstəmləkəsi isə İngiltərəyə keçdi. XIX əsrin 80-ci illərində Transvaalda və Oranjda qızıl-almaz yataqlarının kəşf edilməsi İngiltərə tərəfindən onun iqtisadi blokadaya alınmasına səbəb oldu. Yerli əhalinin bu hərəkətə qarşı mübarizəsi son nəticədə silahlı toqquşmaya gətirib çıxartdı.

Müharibənin başlanması üçün bəhanə Transvaal prezidenti P.Kryuqerin yeni köçən ingilislər üçün siyasi hüquqlar verilməsi məsələsində razılığa gəlməməsi oldu. 1899-cu ilin oktyabrın 12-də lord Solsberinin başçılıq etdiyi Britaniya hökuməti general R.Bullerin başçılığı altında Transvaal və Oranja on min nəfərlik korpus göndərdi. Almaniya burları açıq şəkildə müdafiə etməyə başladı. Bu hal Afrikadakı məhəlli müharibənin dünya əhəmiyyətli münaqişəyə çevrilməsinə səbəb oldu. İlk dəfə tarixdə bu müharibədə maskadan və qoruyucu kostyumlardan istifadə edilmişdir. Almaniyanın köməyi sayəsində burlar əvvəl əhəmiyyətli dərəcədə ingilislərdən üstün oldular. Kruppun artilleriyası və Mauzerin tapancası ingilis silahı Li-Metford ilə müqayisə edilməz dərəcədə üstün idi. Lakin qoşunun sayına görə



downloaded from KitabYurdu.org

ingilislər öndə idilər. Onların sayı 30 min idi. 1900-cu ildə isə onların sayı 250 minə çatdı. Hər iki bur respublikasının münaqişənin əvvəlində cəmi 45 min nəfərlik silahlı qruplaşması var idi. Tədricən hərbi əməliyyatlar Kap müstəmləkəsinə keçdi. Burlar Natalı tutdular və Ledismitin ingilis qarnizonunu mühasirəyə aldılar.

Dekabrın 9-u ilə 15-i arasında üç irimiqyaslı toqquşma baş verdi və ingilislər 900 adam itirdilər. General Bylleri üç hissəyə parçaladılar. Məğlubiyyət ingilisləri müharibə üsulunu dəyişməyə məcbur etdi. Cənubi Afrika qoşunlarının baş komandanı general Roberts, ştab rəisi isə general Kitçener təyin edildi. Onlar ordunu yenidən təşkil etməyə başladılar. «Atlı piyadalar» dəstəsi təşkil etdilər. Bütün görülən tədbirlər ingilis qoşunlarına uğur gətirdi. 1900-cu ilin yanvar-fevral aylarında olmuş ağır döyüşlərin gedişində bur qoşunları Transvaalın sərhədinə qədər sıxışdırıldılar. İngilis qalaları olan Ledismit və Mayfkinq mühasirədən azad edildi. Mart ayından general Robertsin qoşunu Oranj respublikasında bütün cəbhə boyu hücuma keçdi və iki ay ərzində burların müqavimətini qırdı.Təşəbbüs ingilis qoşunlarının əlinə keçdi. 1900-cu ilin may-iyun aylarında Transvaal məğlubiyətə uğramağa başladı. 1900-cu ilin sentyabrın 3-də burlar partizan müharibəsi aparsalar da, 1902-ci ilin yazında qəti məğlubiyyətə uğradılar. Hər iki tərəfdən 5 minə qədər ölən oldu. 1902-ci ilin may ayının 31-də Vereninqdə bağlanan sülh müqaviləsinə əsasən Böyük Britaniya ilhaq etdiyi respubilka-lardan təzminat almadı və onlara gələcəkdə özünüidarə hüququ verəcəyini vəd etdi. 1910-cu ildə Kap kaloniyası və keçmiş bur respublikaları Böyük Britaniya tərəfindən Cənubi Afrika İttifaqı adı altında birləşdi və ona dominion hüququ verildi.

**Fransa beynəlxalq münasibətlər sistemində**.1870-1871-ci illərdəki məğlubiyyətin əvəzini çıxmağa – revanşa can atan Fransanın hakim dairələri də itirdiklərinin yerini müstəmləkələri genişləndirməklə doldurmağa cəhd edir və Almaniyanın mövqelərinin zəiflədilməsinə çalışırdılar.

Fransa da öz müstəmləkə mövqeyini möhkəmləndirmək üçün fəaliyyətini artırdı. O öz diqqətini əsasən Afrika və Cənub-Şərqi




Asiya üzərində cəmləşdirdi. 1881-ci ildə Tunis üzərində onun protektoratlığının qurulması ilə Afrika qitəsində onun təsdiqinin başlanğıcı qoyulmuş oldu XIX əsrin sonlarında o, indiki Daqomli, Kot-Deİvuar, Qvineyanı tutmağa müvəffəq oldu. Fransa həmçinin Konqo çayı hövzəsinin xeyli hissəsini, Madaqaskar adasını da işğal etdi. Fransa Hind-Çin kimi geniş bir müstəmləkəyə də sahib oldu.

Fransanın Afrikada sonrakı müstəmləkə işğalları onun İngiltərə ilə toqquşmasına gətirib çıxardı. Almaniyaya barışmaz münasibət bəsləyən fransız hakim dairələri başa düşürdülər ki, İngiltərə ilə münasibətlərin kəskinləşməsi onun Almaniyaya qarşı mübarizə imkanını zəiflədə bilər. Onlar İngiltərəyə güzəştə getdilər və onunla Afrikanın bölüşdürülməsi barədə saziş bağladılar ki, bu, həm də Almaniyanın idialarına qarşı yönəldilmişdi. Həmin saziş Fransaya XX əsrin əvvəlində Mərakeşi işğal etmək və bir çox istiqamətlərdə ekspansiyanı davam etirmək imkanı verdi. Fransa Asiyada Kampuçiyanın (Kambocanın), Laosun, Vyetnamın (Tonkin və Annamın), Sakit okeanda çoxlu adaların işğalını başa çatdırdı. XIX əsrin 70-ci illərindən 1914-cü ilədək Fransa öz müstəmləkə ərazisini 10,5 dəfə artırdı. Fransa müstəmləkələr işğalında Almaniyanı xeyli ötüb keçdi, artıq mövcud olan Fransa-Almaniya ziddiyytələrinə üstəlik yeniləri – müstəmləkələr üstündə ziddiyyətlər əlavə olundu.

XIX əsrin sonunda Fransa Afrikada müstəmləkələrini 17 dəfə artırdı. 1960-cı illə müqayisədə 1999-da müstəmləkələrin sahəsi 0,2-mln.kv.km-dən 37 mln. kv.km-ə, əhalisi 3,4 milyondan 56,4 milyona çatdı. 1898-də Fransa Misirdə İngiltərə ilə toqquşdu. Fransa güzəştə getdi.

Əhalinin müxtəlif qruplarının narazılığından mürtece qüvvələr istifadə etdilər. Onlar revansa başlayaraq Fransanı Almaniyaya qarşı müharibəyə təhrik edirdilər. Bunun təbliğatçısı avantürist hərbi nazir general Bulanje idi. Ona Elzas və Lotaringiyanı qaytaracaq bir şəxs kimi baxırdılar.

Fransa XIX əsrin sonlarında Rusiya idə də yaxınlaşmağa başladı və 1893-cü ildə onunla müqavilə bağladı. Fransa ilə



downloaded from KitabYurdu.org

Rusiya arasında 1893-cü ildə qüvvəyə minmiş olan hərbi konvensiyada göstərilirdi:.

1. Əgər Fransa üzərinə Almaniya və Almaniyanın müdafiə etdiyi İtaliya hücum edərsə, Rusiya öz sərəncamında ola biləcək bütün qoşunlardan Almaniya üzərinə hücum üçün istifadə edəcəkdir.

2. Əgər Rusiya üzərinə Almaniya və ya Almaniyanın müdafiə etdiyi Avstriya hücum edərsə, Fransa öz sərəncamında ola biləcək bütün qoşunlardan Almaniya üzərinə hücum üçün istifadə edəcəkdir.

**Yaponiya beynəlxalq münasibətlər sistemində.**İmperialist münaqişəsinin bir ocağı da Uzaq Şərqdə yarandı. XIX əsrin sonunda Yaponiya da beynəlxalq münasibətlər sistemində mühüm yer tuturdu.

Hələ XIX əsrin 70-ci illərindən ərazi ekspansiyası yolunu tutan Yaponiya bir sıra müstəmləkə dövlətlərinə artıq bu sahədə çatmışdı. XIX əsrin sonunda Yaponiya dünya dövlətlərinin tamaşasında əsas rol oynayan iştirakçılardan biri idi.

Yaponiyanın ilk qurbanı 1872-ci ildə Rükü adaları, sonra da Tayvan oldu. Az sonra Yaponiya Koreya hökumətinə ölkənin bütün ərazisində yaponların maneəsiz ticarət – sənaye fəaliyyətini nəzərdə tutan müqaviləni zorla qəbul etdirdi.

XIX əsrin 90-cı illərinə yaxın yeni tipli ordunun təşkili və hərbi-dəniz donanmasına malik olması Yaponiyaya imkan verdi ki, Avropanın böyük dövlətləri ilə eyni yer tutsun. Yaponiyanın əsas iddia dairəsi qonşuluğunda yerləşən Çin və Koreya idi.

Yaponiya müasir hərbi qüvvələr yaradaraq daha təcavüzkar dövlətə çevrildi. 1894-cü ilin iyulunda onun qoşunları Koreyanın paytaxtı Seulda kral sarayını tutdular və paytaxt qarnizonunu tərksilah etdilər. Sonra ypon qoşunları müharibə elan etmədən Koreyada olan Çin hissələrinin üzərinə hücuma keçdilər. Yaponiya-Çin müharibəsi belə başladı.

1894-cü ildə baş verən Yaponiya-Çin müharibəsi zamanı Yaponiya tezliklə Çin ordusunu darmadağın etdi, Koreya və Cənubi Mancuriyanı tutdu. Orta imperiyanı, yəni Çini alçaldıcı sülh bağlamaq faktı qarşısında qoydu. 1895-ci ilin aprelin 17-də





bağlanan Simnosevsk sülhünə görə Çin Yaponiyaya külli miqdarda təzminat ödəməli və ona Lyaodun yarımadasını, Tayvan və Penxuledo adalarını verməli idi. Yaponiya Çində sənaye müəssisələri tikmək və onları istismar etmək hüququ aldı. Lakin tezliklə Yaponiya Fransa, Rusiya və Almaniyanın təzyiqi altında Lyuodun yarımadasını yenidən Çinə qaytardı. Sülhün şərtlərinə əsasən tezliklə Koreyanın Çindən ayrılaraq müstəqil olduğu elan edildi. Əslində isə Koreya Yaponiyanın təsiri altına düşmüş oldu. Qüdrətinin artması Yaponiyaya onun əvvəllər böyük Avropa dövlətləri və ABŞ-la bağladığı bütün qeyri-bərabər müqavilələri təxirə salmaq imkanı verdi.

Sürətlə silahlanmaq yolunu tutan Yaponiya tezliklə Rusiyaya qarşı müharibəyə hazırlaşmağa başladı. Çünki Uzaq Şərqdə Rusiyanın nüfuzunun artması onu narahat edirdi. Koreyada və Mancuriyada Yaponiyanın mənafeyi indi Rusiya hakim dairələrinin mənafeyi ilə daha çox toqquşurdu. İngiltərə və ABŞ Yaponiyanı Rusiyaya qarşı müharibəyə sövq edirdilər, çünki onlar Rusiyanın Uzaq şərqdə güclənməsindən qorxurdular. 1904-cü ilin fevralında Yaponiya donanması müharibə elan etmədən qəfildən Port-Arturdakı rus eskadrası üstünə hücum etdilər. 1904-1905-ci illərdəki Rusiya-Yaponiya müharibəsi Koreyanın və Mancuriyanın bölüşdürülməsi uğrunda aparılan imperialist müharibəsi idi. Rus-yapon müharibəsi zamanı Yaponiya ABŞ və İngiltərədən hərbi yardım və pul köməyi aldı.

Port Arturun ardınca yaponlar Koreya və Mancuriyaya soxuldular. Mukden yaxınlığında və Tsusima boğazındakı döyüşlərdə ruslar ciddi məğlubiyyətə uğradılar. Bu müharibə göstərdi ki, dünya səhnəsinə Uzaq Şərqdə yeni böyük hərbi-siyasi gücə malik dövlət çıxmışdır. Bu dövlət deynəlxalq münasibətlərdə real subyekt kimi çıxış etməyə qadirdir və o, ənənəvi hərbi-siyasi dövlətlərlə rəqabət aparmaq qabiliyyətinə malikdir. Bu müharibə 1905-ci ilin sentyabrın 5-də ABŞ-ın vasitəçiliyələ bağlanan Portsmit sülhü ilə başa çatdı. Lyoudun yarımadasının Rusiya tərəfindən icarə edilmiş hissəsi Yaponiyaya verildi. Saxalin Cənub hisəsi və Cənubi Mancuriya dəmiryolu da Yaponiyanın əlinə keçdi. Rusiyanın məğlubiyyəti nəticəsində



downloaded from KitabYurdu.org

Yaponiya Cənubi Saxalin və Mancuriyaya geniş surətdə soxulmaq hüququ aldı. Yaponiya öz nüfuzunu Koreyaya da yayırdı. Müstəmləkəçilər Koreyanı Yaponiyanın protektoratı elan etdilər. Yaponiya, Koreya üzərində müstəsna hüquq alda ki, bu da Koreyanın 1910-cu ildə Yaponiyanın müstəmləkəsinə çevrilməsinə səbəb oldu.

1910-cu ildə Yaponiyanın tələbi ilə Koreya imperatoru özünün bütün hakimiyyətini «həmişəlik» Yaponiya imperatoruna verdi. 1910-cu ildə Yaponiyanın Koreyaya zorla qəbul etdirdiyi müqavilədə yazılırdı:

1. Əlahəzrət Koreya imperatoru Koreya üzərindəki bütün suveren hüquqlarını əbədi olaraq tamamilə əlahəzrət Yaponiya imperatoruna verir

2. Əlahəzrət Yaponiya imperatoru birinci maddədə göstərilən hüquqverməni qəbul edir və Yaponiya imperiyası tərəifndən Koreyanın tam ilhaqı ilə razılaşır.

Koreya general-qubernatorluğu – Yaponiyanın müstəmləkəsi oldu. Yaponiyanın hakim dairələri Çinin zəbtinə hazırlığa başladılar.Bu vaxtdan başlayaraq, Yaponiya Uzaq Şərqdə əsas narahatçılıq mənbəyi olaraq qalırdı.

**Almaniya beynalxalq münasibətlər sistemində.**XIX əsrin sonunda Almaniya da birləşdikdən sonra beynəlxalq münasibətlərdə mühüm yer tutmağa başladı.

Fransa – Prussiya müharibəsinə Bismark Almaniyanın Avropa siyasətinin tərkib hissəsi kimi baxırdı. Bu, Antifransa istiqamətinin mühüm cəhətlərindən biri bu idi.İkinci istiqamət isə, Almaniyanın Avropada mövqeyini gücləndirəmək idi. Bismark hegemonluğa nail olmaq üçün bir sıra bloklar təşkil etmək, bir sıra dövlətləri neytrallaşdırmaq istəyirdi. Almaniya bu siyasətilə əslində başqa dövlətlərin ona qarşı etibarını itirirdi. Dünya sistemi yaratmaq da Almaniyanın XIX əsr sonu XX əsr əvvəllərində əsas siyasəti idi. Əvvəl Avrasiya, sonra dünya uğrunda mübarizə aparmaq nəzərdə tutulurdu. Bu zaman Bismarkı narahat edən əsas məsələ 20 il ərzində koalisiya təşkil edə bilməməsi idi.

Almaniyanın ancaq 1871-ci ildə çoxlu xırda parçalanmış dövlətlərdən vahid mərkəzləşmiş imperiyada birləşməsi prosesi





başa çatdı. Ona görə də Almaniya müstəmləkələr tutmaq işinə digər böyük dövlətlərdən bir qədər gec başlamış oldu və Cənub-Şərqi Afrikada bir sıra əraziləri, o cümlədən Toqo və Kamerunu, Sakit okean hövzəsində Marşal, Mariana və Karolin adalarını, Yeni Qvineyanın bir hissəsini tutdu. Almaniya Samoa adasını ABŞ-la bölüşdürdü. Bu mülklərin bütün iqtisadi və hərbi-strateji ehtiyatlarını Almaniya xeyli dərəcədə İngiltərə və Fransaya da güzəştə getməli oldu. Almaniyanın hakim dairələri Berlin-Bosfor-Bağdad dəniz yolunun çəkilməsinə daha çox ümid bağlayırdılar. Bu dəmiryolu xəttinin çəkilməsi üçün ilk dəfə konsessiya hüququnu Almaniya 1898-ci ildə aldı. Belə qlobal bir layihənin reallaşması bütün Yaxın Şərqdə qüvvələr nisbətini dəyişdirə və Asiyadakı Böyük Britaniya mülkləri üçün real təhlükə təşkil edə bilərdi.

Bismark Almaniya imperiyasının mövqelərinin möhkəmlənməsinə nail olmağa çalışaraq, Fransa respublikasını təcrid vəziyyətində saxlamağa can atırdı. 1882-ci ildə o, Almaniya, Avstriya-Macarıstan və İtaliya arasında gizli ittifaq müqaviləsinin imzalanmasına nail oldu. 1882-ci il mayın 20-də Vyanada Almaniya, Avstriya-Macarıstan və İtaliya arasında bağlanmış gizli ittifaq müqaviləsində göstərilirdi:

Maddə 3. Əgər (razılığa gələn) tərəflərdən biri və ya ikisi özləri birbaşa hədələmədən həmin müqavilənin iştirakçısı olmayan iki və ya bir neçə böyük dövlətlər tərəifndən hücuma məruz qalarsa və müharibəyə cəlb edilərsə, onda bu, bütün tərəflərin eyni bir vaxtda müharibəyə girməsinə səbəb olacaqdır.

**Maddə 4.** Həmin müqavilənin iştirakçısı olmayan hər hansı böyük dövlət tərəflərdən birinin ərazisinin təhlükəsizliyini hədələmiş olduğu və bununla hədələnən tərəf ona müharibə elan etmək məcburiyyətində qaldığı təqdirdə digər ikisi özlərinin müttəfiqi barəsində xeyirxah bitərəfliyi gözləməyə borcludur. Bu halda digər iki tərəfdən hər biri ondan ötrü əlverişli məqamda müttəfiqi ilə birlikdə ümumi işdə iştirak etmək üçün müharibəyə girmək ehtimalını özündə saxlayır.

İlk növbədə Fransa ilə Rusiyaya qarşı yönəldilmiş olan təcavüzkar hərbi-siyasi blok – Üçlər ittifaqı yaradıldı.



downloaded from KitabYurdu.org

1897-ci ildə nəşr edilən «Saterdey revyu» adlı ingilis jurnalında yazılırdı ki, Bismark artıq çoxdan etiraf edirdi ki, Avropada barışmaz, bir-birinə qarşı yönəldilmiş iki böyük qüvvə, bütün dünyanı öz mülkünə çevirmək və ondan ticarət xəracı tələb temək istəyən iki millət mövcuddur. İngiltərə… və Almaniya…alman ticarət agenti və ingilis səyyar ticarətçisi…bir-birinin yolunu kəsərək Yer kürəsinin hər bir güşəsində rəqabət aparırlar. Milyonlarla xırda toqquşmalar dünyanın indiydək görmədiyi ən böyük müharibə üçün bəhanə yaradır. Əgər Almaniya sabah Yer üzündən silinmiş olsa, ertəsi gün dünyada bir ingilis belə tapılmaz ki, bundan varlanmamış olsun.

Almaniya imperiyasının kansleri B.Bülovun 1899-cu il dekabrın 11-də reyxstaqdakı nitqində Almaniyanın xarici siyasətinin mahiyyəti açıqlanaraq deyilirdi:

Biz buna dözə bilmərik ki, hansı bir xarici dövlət, hansı bir yadelli Yupiter bizə desin: «Nə etməli? Dünya artıq bölüşdürülüb!» Biz heç kəsə mane olmaq istəmirik, lakin biz heç kimə yol verməri ki, yolumuzun qarşısını kəsin. Başqalarının dünyanı bölüşdürdüyü bir zamanda biz laqeyd surətdə kənarda dura bilmərik…Biz buna dözə bilmərik və dözmək də istəmirik. Bizim dünyanın bütün qitələrində öz mənafeyimiz var…Əgər ingilislər Böyük Britaniya barəsində, fransızlar yeni Fransa barəsində danışırlarsa, ruslar Asiyanı zəbt edirlərsə, onda biz də Böyük Almaniya yaradılmasını tələb edirik…Biz yalnız böyük qüdrətə, güclü orduya, güclü donanmaya malik olmadan bizim üçün rifahın mümkün olmadığını dərk etdiyimiz zaman yüksək mövqedə dura bilərik…Qarşıdakı yüzililkdə alman xalqı ya çəkic olacaq, ya da zindan".

80-ci illərdə Almaniya müstəmləkələr işğalına başladı. O, Afrikada xeyli ərazilərin üzərində nəzarət qoydu, Sakit okeanın bir sıra adalarını işğal etdi. 90-cı illər üçün Almaniyanın müstəmləkələri onun ərazisindən təqribən 5 dəfə böyük olsa da, ingilis müstəmləkələrinin ərazisindən hələ 12 dəfə az idi.

Alman imperiyasın xarici siyasətinin əsas cəhətlərindən biri millitarizmlə irticanın bütün ictimai həyatı əhatə etməsi idi. Almaniyanın Şərq siyasəti «Dranq nax Osten» adlandırırdı. 1900-





cu ilin oktyabrın 18-də qocalmış kansler Hohentol istefaya getdi. Onu qraf Byulov əvəz etdi. O, Almaniya tarixində xarici siyasətdə «təcəvüzkar», daxili siyasətdə isə «vətəndaş sülhü» tərəfdarı kimi məşhurdur. Əvvəl xarici işlər naziri olmuşdur. Onun təşəbbüsü ilə Kianqo, Karolina, Mariya, Samao adaları işğal edildi. Çinə qarşı müharibədə Almaniya da iştirak etdi. Yunker-burjuaziya maliyyə oliqarxiyası ilə ittifaq gücləndirildi. 1900-1903-cü illər böhranı dünyada vəziyyəti kəskinləşdirildi. XIX-XX əsrin hüdudunda dəniz dlnanması yaradılmasına başlanıldı və bu iş gücləndirildi. Bu İngiltərəyə toxundu. 1900-da qəbul edilmiş qanuna görə alman donanması 32 xətt gəmisi, 11 ağır, 34 yüngül kneyserdən və 100-ə yaxın minadaşıyan və s. gəmidən ibarət olmalı idi.

Bu dövrdə Almaniyanın xarici siyasətinin əsas vəzifələri aşağıdakılardan ibarət idi:

1) Dinc yolla müdaxilə. Bu siyasətin tərəfdarı Simens idi. 1898-ci ilin fevralında II Vilhelm Şərqə səfəri zamanı Bağdad-Berlin dəmir yolunun çəkilməsinə razılıq aldı.

2) Xarici siyasətinin ikinci əsas vəzifəsi Çinin bölüşdürülməsində iştirak etmək idi. II Vilhelm bunu «hun nittqi» adlandırırdı.

3) 80-ci illərdə Almaniya artıq günəş altında «boş yer» axtarırdı. Almaniyanın mülkləri 3 milyon kv.km sahəsi, 12 mln əhalisi olan geniş bir ərazini əhatə edirdi. Almaniya xarici siyasətdə artıq «silahlı dünya» xəttini yeridirdi.

90-cı illərin axırına yaxın Almaniyanın ekspansiyasında XX əsrin əvvəli üçün xarakterik olan bir neçə əsas səpgilər aşkar edildi. Əvvəla, Almaniyaınn Avropada hökmranlıq iddiası güclənirdi, qonşu dövlətləri məhv etmək, onların xalqlarını əsarət altına almaq planları işlənib hazırlanırdı, həm də Bismarkın eyni zamanda iki cəbhədə müharibə aparmağın təhlükəli olması və Rusiyanı məhv etməyin mümkün olmaması barədəki xəbərdarlığı rədd olundu.

İkincisi, dünya bazarlarında rəqabət mübarizəsi genişlənmiş və Almaniya burada Böyük Britaniyanın əsas rəqibi olmuşdu.

Üçüncüsü, alman imperializmi Afrika xalqlarını qarət etməyi gücləndirdi və Afrikanın bölüşdürülməsi uğrunda



downloaded from KitabYurdu.org

mübarizəyə girişdi ki, bu da Almaniyanın Fransa və İngiltərə ilə yeni toqquşmalarına səbəb oldu.

Dördüncüsü, Balkanda, Yaxın Şərqdə, Orta Şərqdə və Uzaq Şərqdə Almaniyanın «Şərqə hücum» («».Dranq nax Osten) adını alan və təkcə İngiltərə ilə deyil, həm də Rusiya ilə münaqişələrə səbəb olan ekspensiyası fəallaşdı.

Almaniyanın hakim dairələri «dünya siyasətinə» keçdiyini elan edərək, «günəşin altında yer» tələb edərək, bütün beynəlxalq ixtilaflardan öz xeyrinə istifadə etməyə can atırdı. Belə ki, Rusiyanın mənafeyinə məhəl qoymayaraq, onlar Balkanlarda Avstriya-Macarıstan ekspansiyasını müdafiə edirdilər. Almaniya Çinin bölüşdürülməsində başqa dövlətləri ötüb keçməyə can ataraq, Şandun yarımadası üzərində nəzarət qoydu. Çində xalq üsyanını yatırmaq üçün qoşun göndərən II Vilhelm demişdi: «Aman verməyin! Əsir almayın! Əlinizə kim keçsə, öldürün!» Mərakeşə göz dikən Almaniya Fransa ilə münaqişəyə girdi ki, bu da az qala müharibəyə gətirib çıxaracaqdı.

Almaniya Osmanlı imperiyasında üstün nüfuza nail ola bildi. Almaniya Berlin – Bosfor dəmir oylunun çəkilişini Bağdada və sonra da İran körfəzinə qədər davam etdirmək üçün konsessiya aldı. Sonralar Türkiyə ordusuna hərbi müşavirlər sifətilə alman zabitləri dəvət olundular.

Alman ekspansiyası hər yerdə İngiltərənin mənafeyinə toxunur və onun müqavimətinə rast gəlirdi. Kayzer «Almaniyanın gələcəyi sudadır» niyyətini elan edərək, «dənizlər hökmdarına» meydan oxudu. Almaniya sürətlə ən yeni hərbi gəmilər qayrılmasını genişləndirdi və onun hərbi donanması Britaniya donanmasından sonra iknci yerə çıxdı.

Almaniyanın hakim dairələri müharibə xətti götürmüşdülər. Artıq 1905-ci ildə Baş qərargahın rəisi general A.Şliffen iki cəbhədə – həm Fransaya, həm də Rusiyaya qarşı müharibənin planını işləyib hazırlamışdı. Müharibəyə iqtisadi, hərbi, eləcə də ideoloji hazırlıq cəhətdən Almaniya öz rəqiblərindən irəlidə gedirdi.

**ABŞ beynəlxalq münasibətlər sistemində.**XIX əsrin sonunda ABŞ da dünya səhnəsinə böyük dövlət kimi çıxmağa





başladı. O, Avropanın böyük dövlətləri ilə rəqabət aparmaq bacarığını sübut etdi. Öz ölkəsinin və Rusiyadan satın aldığı Alyaskanın çox böyük resurslarından istifadə etməklə məşğul olan ABŞ kapitalistləri müstəmləkələr və nüfuz dairələri əldə etməyə digər ölkələrdən gec başladılar. Əsas diqqət Karib hövzəsi və Sakit okean ölkələrinə yönəldildi.

Bu dövlətin hakim dairələinin xarici müdaxiləyə həvəsi, onun xarici siyasət strategiyası Mərkəzi və Latın Amerikası, Sakit okean hövzəsi və Şərqi Asiyaya münasibətdə özünü göstərdi. İqtisadi müdaxilənin ən mühüm təzahürü Şərqi Asiyaya, hər şeydən əvvəl Çinə tətbiq edilən «Açıq qapılar» doktrinasında özünü göstərdi. Bu doktrina regionda ticarət üçün bütün ölkələrin bərabər şərtlərə və imkanlara əməl etməsini tələb edilirdi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində aparıcı imperialist dövlətləri arasında qlobal münaqişələr üçün şərait yetişməkdə idi. Dünya ərazi cəhətdən artıq bölüşdürülüb qurtarmışdı. Türkiyə, İran, Çin kimi iri ölkələri müstəmləkəyə çevirmək mümkün olmasa da, onlar da böyük dövlətlər tərəfindən nüfuz dairələrinə bölünmüşdü.

İqtisadi cəhətdən surətlə inkişaf edən ABŞ və Almaniya müstəmləkə dünyasında yeni də əvvəlki kimi Böyük Britaniya və Fransanın liderlik etməsindən narazı idilər. Ona görə də onlar bölünmüş dünyanı yenidən bölüşdürmək uğrunda mübarizəyə başlamaq istəiyrdilər. Bu isə imperialist müharibəsi və münaqişəyə gətirib çıxarırdı. Belə xarakterli birinci münaqişə 1898-ci ildə İspaniya-ABŞ müharibəsində oldu. ABŞ çalışırdı ki, İspaniyaya axırıncı zərbə vursun və Latın Amerikasında ağalığını qəti olaraq möhkəmləndirsin. Birləşmiş Ştatların əsas iddia obyektləri Kuba və Filippin idi. Kuba Karib dənizi hövzəsində, Filippin isə Sakit okean hövzəsində strateji cəhətdən mühüm ərazilərdə yerləşmişdilər. ABŞ-ın hakim dairələri öz məqsədlərini reallaşdırmaq üçün Kuba xalqının ispan ağalığına qarşı üsyanından məharətlə istifadə etdilər. ABŞ-ın İspaniyaya müaribə elan etməsi üçün bəhanə ABŞ-ın «Men» gəmisində Havana limanında reydə çıxarkən 1898-ci ilin fevrlın 14-də partlayış olması idi. Hərbi əməliyyatlar Atlantik və Sakit okeanda



downloaded from KitabYurdu.org

aparılırdı. Filippin adası uğrunda döyüşlər gedirdi. 1898-ci ilin avqustun 13-də Maniladakı ispan qarnizonu təslim oldu. Kuba adası yaxınlığında ispan donanmasının əsas qüvvələri cəmləşmişdi. Birbaşa hərbi-dəniz vuruşmasından ehtiyat edərək amerikanlar öz qoşunlarını Kuba adasına çıxartdılar. Həlledici döyüş iyulun 1-də San-Xuan və El-Kani şəhərlərində oldu. Xeyli itki verməsinə baxmayaraq general-mayor U.Şefferin rəhbərliyi altında olan ABŞ qoşunu qələbə qazana bildi və mühasirədə olan böyük Santiyaqo qalasına girə bildi. İspanlar üçün uğursuz olan dəniz döyüşündən sonra qala təslim oldu. Hərbi kampaniya iyulun 25-də ABŞ-ın daha bir hərbi qruplaşmasının Puerto-Rikaya çıxarılması ilə başa çatmış oldu. 1898-ci ilin avqustun 12-də sülhün ilkin şərtləri, dekabrın 10-da işə sülh müqaviləsi imzanaldı. ABŞ-ın İspaniyaya 20 mln. dollar ödəməsi şərtilə Filippin ABŞ-a verildi. Bundan başqa Antil arxipelaqında Puerto-Riko, Sakit okeanda isə Quam adası da ABŞ-a verildi. Havay və Filippinin tutulması ABŞ-a imkan verdi ki, Cənubi və Şərqi Asiya istiqamətində ekspansiyasını genişləndirmək üçün həmin ərazilərdən bir plasdarm kimi istifadə etsin.

ABŞ prezidenti Mak-Kinli Filippinin işğalı haqqında 1898-ci ildə yazırdı ki,

…Bir gecədə özüm də bilmirəm, necə oldusa, ağlıma belə fikirlər gəldi:

1) biz Filippin adalarını İspaniyaya qaytara bilmərik – bu bizim üçün qorxaq və şərəfsiz bir hərəkət olardı;

2) biz Filippini Şərqdə ticarət rəqiblərimiz olan Fransaya və ya Almaniyaya verə bilmərik – bu bizim üçün pis və əlverişsiz iqtisadi siyasət olardı;

3) biz filippinliləri özbaşına buraxa bilmərik, çünki onlar özünüidarə üçün hazır deyildilər və Filippinin istiqlaliyyəti tezliklə İspaniya müharibəsindən də pis hərc-mərcliyə və sui-istifadələrə gətirib çıxarırdı;

4) bizim üçün bütün Filippin adalarını alıb filippinliləri tərbiyə etməkdən, qaldırmaqdan və mədəniləşdirməkdən, onlara xristian idealları aşılamaqdan başqa bir şey qalmır, çünki onlar





bizim bəşər qardaşımızdır, axı İsa onların da yolunda həlak olmuşdur.

Kubanın İspaniyadan asılı olmadığı elan edildi. Əslində ada ABŞ-ın nüfuz dairəsinə düşmüş oldu. Bundan sonra ABŞ-ın Cənubi və Mərkəzi Amerikada nüfuzunu gücləndirmək üçün əlverişli şərait yaradılmış oldu. Tezliklə ABŞ qoşunları Nikaraqua və Haitiyə soxuldular və bu ölkələrin təbii sərvətləri üzərində nəzarət hüququ qazandılar. Mərkəzi və Cənubi Amerikaya ABŞ-ın münasibətini ABŞ prezidenti T.Ruzvelt 1904-cü ildə son dəfə açıq şəkildə konqresə müraciətində bildirmişdi: "Ola bilsin ki, ABŞ Qərb yarəmkürəsində beynəlxalq polis qüvvələri rolunu öz üzərinə götürməyə məcbur olacaq". Yeni əraziyə sahib olmaq siyasəti yürüdən Birləşmiş Ştatlar Panama xalqının istiqlaliyyətə can atmasından istifadə etdi. ABŞ panamalıların Kolumbiya hökuməti əleyhinə çıxışına tərəfdar çıxdı. Bu dövrdə Antantik okeandan Sakit okeana daha qısa və optimal yol axtarışı qarşıda durdu. Bunun ən əlverişlisi Panama bərzəxindən istifadə idi. Həmin bərzəxin Kolumbiyada yerləşən hissəsindən kanal çəkmək ideyası meydana çıxdı. Fransa və İngiltərə ilə bu məsələ razılaşdırıldı. Razılaşmaya görə kanal üzərində ABŞ 100 il nəzarət etmək hüququna malik olmalı idi. 1903-cü ilin avqustunda Kolumbiya senatı bu təklifi rədd etdikdə, ABŞ Kolumbiyadan Panamanın ayrılmasına və 1903-cü ilin noyabrın 3-də onun «Müstəqil respublika kimi fəaliyyət göstərməsinə nail oldu. Həmin ayda ABŞ-ın Panama respubilkası ilə bağladığı qeyri-bərabər müqaviləyə əsasən ABŞ Panamaya birdəfəlik 10 milyon dollar, hər il isə icarə haqqı kimi 250 min dollar verməli idi. Bu çox cüzi bir məbləğ idi. Panama kanalı haqqında ABŞ ilə Panama respublikası arasında 1903-cü ildə bağlanmış müqavilədə göstərilirdi:

Maddə 2. Panama respubilkası adı çəkilən kanalın inşası, saxlanması, istismar olunması, sanitariya vəziyyətinə salınması və qorunması üçün Birləşmiş Ştatlara 10 millik zona hüdudlarında sualtı torpaqları və bəndləri həmişəlik istifadə etmək, tutmaq, nəzarətdə saxlamaq hüququ verir…Panama respublikası həm də



downloaded from KitabYurdu.org

eyni qaydada yuxarıda göstərilən zona daxilində bütün adaları və üstəlik bir qrup xırda adaları həmişəlik Birləşmiş Ştatlara verir…

Maddə 3. Panama respublikası zonada bütün hüquqları, səlahiyyitləri və bütün hakimiyyəti Birləşmiş Ştatlara verir…

Maddə 8. Panama respublikası Yeni Panama kanalı şirkətinin və Panama dəmiryol şirkətinin mülkiyyətinə olan indiki və gələcəkdə malik ola biləcəyi bütün hüquqlarını Birləşmiş Ştatlara verir…

Maddə 10. Panama respublikası razılaşır ki, kanala, dəmiryollara və yardımçı tikililərə heç bir vergi qoyulmaya-caqdır…

Həmin müqaviləyə əsasən Birləşmiş Ştatlar kanal çəkmək və təkcə tikinti zonası üzərində deyil, həm də əslində respublikanın bütün ərazisi üzərində nəzarət hüququ aldı. Kanal 10 ilə çəkildi. Onun sayəsində Amerikanın Atlantik okeanı və Sakit okean sahilləri arasındakı dəniz yolu xeyli qısaldı. ABŞ kapitalı tədricən Avropa kapitallarını sıxışdıraraq, Dominikan respublikasında, Haitidə, Nikaraquada, Hondurasda və Latın Amerikasının digər dövlətlərində kök saldı. ABŞ qərb yarımkürəsində polis roluna yiyələndi.

Kanalın tikilişi 1914-cü ildə başa çatsa da, istifadəyə ancaq Birinci dünya müharibəsindən sonra verildi.

Asiya materiki yaxınlığında mövqeyini möhkəmləndirən ABŞ 1899-cu ildə açıq qapı« doktrinasını (prinsipini) elan etdi. O, tələb etdi ki, Çində bütün dövlətlərin «nüfuz dairəsi» Şimali Amerika mallarının gətirilməsi üçün açıq olmalıdır. ABŞ özünün iqtisadi üstünlüyünə arxalanaraq, rəqiblərini Çindən sıxışdırıb çıxarmaq fikrində idi.

Birləşmiş Ştatlar hökuməti Latın Amerikası ölkələrindəki və Uzaq Şərqdəki trestlərin fəaliyyətini səylə müdafiə edirdi. ABŞ prezidenti U.Taft bildirdi ki, onların yürütdükləri «dollar diplomatiyası» siyasəti güya «güllə əvəzinə dollardan» istifadə edilməsinə əsaslanır.

«Dollar diplomatiyası» XX əsrin lap əvvəlində prezident T.Ruzveltin elan etdiyi «böyük dəyənək» siyasəti ilə möhkəmləndirilirdi. «Böyük dəyənək» siyasəti isə daim zor




işlətməklə hədələyərək Latın Amerikası ölkələrini ABŞ-ın amirliyinə (diktasına) tabe etməkdən ibarət idi.

XIX əsrin sonunda ABŞ-ın hakim dairələri belə bir fikrə düşdü ki, ABŞ Amerika kontinentinə sahib olmalı və bütün dünyada öz nəzarətini qurmalıdır. Lakin hərbi cəhətdən zəiflik və hələlik Avropadan iqtisadi asılılıq buna mane olurdu. Ona görə də ABŞ bu dövrdə əsas diqqəti Cənubi Amerikaya və Sakit Okean hövzəsinə verirdi. Monro doktrinası Panamerikanizm Amerikanın bütün ölkələrində ABŞ-ın iqtisadi-siyasi ağalığını təmin etmək demək idi. İngiltərəni bu qitədən çıxarmaq məsələsi 1889-cu ildə Vaşinqtonda keçirilən Panamerikan konqresində müzakirə edildi. ABŞ Latın Amerikası ölkələri gömrük və valyuta ittifaqını yaratmaq təklifini irəli sürdü ki, bu da Latın Amerikası maliyyə və ticarətinə rəhbərlik etmək demək idi. Ona görə də, Latın Amerikası ölkələri bunu rədd etdilər. XIX əsrin 80-90-cı illərdə ABŞ-ın hərbi qüvvələri bu və ya digər bəhanə ilə Kolumbiya, Argentina, Çili, Braziliya, Nikaraqua, Meksika və digər Latın Amerikası ölkələrinə soxulmuşdular.

1874-cü ildə ABŞ Koreyanı tuta bilmədi. 1882-ci ildə Yaponiyanın razılığı ilə ABŞ-la Koreya arasında qeyri-bərabər hüquqlu müqavilə bağlandı. ABŞ, Koreya dəmiryol xəttinin çəkilməsini icarəyə götürdü və orada qızıl axtarışına başladı ABŞ Koreyaya əlverişli plasdarm kimi baxırdı ki, oradan Çinə və Rusiyaya müdaxiləsini həyata keçirsin.

ABŞ Rusiya ilə yaxşı münasibətlər yaratdı ki, İngiltərəyə qarşı Rusiyadan istifadə etsin və həm də öz kapitalını oraya ixrac edə bilsin.

Çinə qarşı münasibətində ABŞ-ın mövqeyi ziddiyyətli idi. ABŞ belə hesab edirdi ki, ikibaşlı oyunla Çindən ticarət güzəştləri və əlverişli icarələr ala biləcəkdir. 1894-95-ci il Çin-Yapon müharibəsində ABŞ Yaponiyanı müdafiə etdirdi ki, gələcəkdə Yaponiyanın köməyi ilə digər kapitalist ölkələrini aradan çıxara bilsin. 1897-98-də Çini təsir dairələrinə bölünməsi uğrunda Almaniya, Rusiya, İngiltərə, Fransa, Yaponiya arasında gedən mübarizəyə ABŞ-da qoşuldu.



downloaded from KitabYurdu.org

ABŞ əhalisinin yüksək anqlo-saksı qrupuna mənsub olması haqqında «nəzəriyyə» yarandı.

1893-cü ildə ABŞ-ın «Polod kralı» Karnegin bildirirdi ki, bəşəriyyət ancaq o zaman sakit yaşayacaqdır ki, ingilislər bütün dünyanı öz mülklərinə döndərsinlər və bütün xalqlar arasında iqtisadi məsələlərə baxan məhkəmə rolunu oynasınlar.

Mexen isə göstərirdi ki, millətlər üçün real şans ancaq böyük dəniz dövləti olmaqla yaranır. Ona görə də ABŞ-ın dənizdə hegemonluğu təmin edilməlidir. 1900-cu ildə hərbi dəniz silahlı qüvvələrində ABŞ 12-ci yerdən 3-cü yerə çıxdı. 1889-cu ildə Samoa adası üzərində 3 dövlətin (ABŞ, İngiltərə, Almaniya) protektoratı təşkil edilmiş oldu. 1899-cu ildə ABŞ İngiltərənin Tanqodakı Salamon adalarındakı hissəsində ağalığını tanıdı. İngiltərə də Samoadakı öz hissəsini Almaniya verdi. Digər mühüm ada Havay adaları idi. 1875-ci ildə İngiltərə ilə Fransanın razılığı ilə orada ABŞ-ın ağalığı təmin edilmiş oldu. XIX əsrin sonunda adada 95 min yerli əhali qalmışdı (12%), Yerli əhalinin 70%-dən çoxu ABŞ tərəifndən qırılmışdı.XIX əsrin 80-cı illərində ABŞ Havay adalarını özünə tabe etdi.ABŞ bununla Amerikadan Asiyaya gedən yolda əlverişli strateji vəziyyət yaratmış oldu.

1887-ci ildə isə ABŞ Perl-Xarborda hərbi dəniz bazası yaratmaq hüququ aldı.Bu ABŞ-ın Sakit okyan hövzəsinə hərbi-siyasi müdaxiləsi üçün forpostlardan biri idi. 1893-cü ildə Amerikalılar Havay kralını devirdilər və orada oyuncaq diktator rejimi yaradıldı. Bundan sonra sonra Havay adaları ABŞ-a birləşdirildi. Lakin İngiltərənin qəti müqaviməti nəticəsində bu bir qədər uzadıldı. 1898-ci ildə İspaniya-ABŞ müharibəsindən sonra Havay adaları qəti olaraq ABŞ-a verildi.

XIX əsrin sonuncu rübündə kapitalist dövlətləri arasında dünyanın ərazicə bölüşdürülməsi əsasən başa çatdırılmış oldu.

**Müstəmləkələrin metropoliyalara qarşı mübarizəsi.** Müstəmləkəçilər zəif dövlətləri və tayfaları dağıdır, bəzilərini, demək olar, tamamilə məhv edirdilər. Müstəmləkəçilər «dolayı idarəetməni» üstün tutaraq yerli əyanlardan hökmdarlar təyin edir, yerli əhalidən polis dəstələri və qoşunlar təşkil edirdilər. Müstəmləkəçilər feodal-patriarxal münasibətlərdən və tayfa





münasibətlərindən kütlələri itaətdə saxlamaq üçün, yerli əhalinin dini fərqlərindən və irqi mənsubiyyətindən isə işğalçıların hökmranlığını möhkəmlətmək naminə onları bir-birinin üzərinə salışdırmaq üçün istifadə edirdilər.

XIX əsrin əvvəlində müstəmləkələr Asiyanın ərazisinin 56,6 faizini və bütün əhalisinin 47,6 faizini, Afrikanın ərazisinin 9,5 faizini və əhalisinin 6,2 faizini təşkil edirdi.

Kapitalist dövlətlər ilk dəfədən müstəmləkəyə çevirə bilmədikləri ölklərə son dərəcə ağır şərtli müqavilələri qəbul etdirir, iqtisadiyyat və siyasət üzərində nəzarət qoyur, konsessiyalar – yollar salmaq, parklar, müəssisələr tikmək hüquqları alır, strateji cəhətdən mühüm əraziləri icarəyə götürür, öz ölkələrinin sahibkarları üçün imtiyazlar təmin edirdilər. Bu imtiyazlar (yerli qanunlara və yerli hakimiyyətə tabe olmamaq, kömrük və vergi vermədən ticarətlə məşğul olmaq, hər cür sərvətləri idxal və ixrac etmək, yerli əhalini qeyri-məhdud tərzdə istismar etmək) sərfəli sövdələşmələrə və mənfəətin artmasına kömək edirdi. Nəticədə bir çox ölkələrin müstəqilliyi formal xarakter daşıyır, onlar yarımmüstəmləkələrə çevrilirdilər. Çin, Osmanlı imperiyası, İran, Əfqanıstan, Latın Amerikasının ayrı-ayrı dövlətləri bunların sırasında idi.

Müstəqil sayılan, lakin iqtisadi və siyasi cəhətdən hələ zəif olan çoxlu başqa ölkələr də, o cümlədən Portuqaliya, Balkan dövlətləri, Latın Amerikası ölkələrinin əksəriyyəti iri kapitalist dövlətlərindən müxtəlif dərəcədə asılılığa düşdülər. Onlar asılı ölkələr oldular.

1914-cü ildə müstəmləkələr, yarımmüstəmləkələr və asılı ölkələr Yer kürəsi ərazisinin təqribən 66,9 faizini və əhalisinin 60 faizini əhatə edirdi. Müstəmləkələr, yarımmüstəmləkələr və asılı ölkələr imperializmin müstəmləkə sistemini – kiçik bir qrup müstəmləkəçi imperialist dövlətləri tərəfindən bütün qitələrin əksər xalqlarının siyasi cəhətdən əzilməsi sistemini yaratdı.

XIX əsrin sonunda Afrika xalqlarının müstəmləkəçilərə qarşı mübarizəsi də beynəlxalq münasibətlərdə mühüm rol oynayırdı



downloaded from KitabYurdu.org

XIX əsrin 70-ci illərinə qədər Avropadan gələn mühacirlər Afrika qitəsinin cənub hissəsində – Kap müstəmləkəsində və qonşu Bur respubilkalarında, Əlcazairin şimal rayonlarında ən yaxşı torpaqları tutmuşdular.

O zaman Afrika ərazisinin 11 faizə qədəri kapitalist dövlətlərinə mənsub idi. Onların silahlı ekspedisiyaları sahilboyu raoynlara arxalanaraq, qitənin içərilərinə soxulur, əhalini talan edir və sağlam kişiləri tutub qul kimi ən çox Latın Amerikasına göndərirdilər. On milyonlarla çox qüvvətli və gənc adamların itirilməsi Afrika xalqlarını gücdən saldı, onların müstəmləkəçilərə qarşı müqavimətini zəiflətdi.

XIX əsrin axırıncı 20 ili ərzində müstəmləkəçilər qitə ərazisinin daha 80 faizini işğal edərək, onun bölüşdürülməsini əsasən başa çatdırdılar. Müstəmləkəçilər hər yerdə son dərəcə şiddətli, qızğın müqavimətə rast gəlirdilər. Afrikalıların başlıca qüvvəsini sınanmış döyüşçülər təşkil edirdilər. Yalnız bir para tayfa başçıları avropalılara xidmət göstərməyə başladı. Müqavimətin əsas forması silahlı mübarizə idi. Əhali torpaqları işğal edilməsinə, zorla xristianlaşdırmaya, xarici ticarətçilərə, təzminatların və vergilərin ödənilməsinə, əmək mükəlləfiyyətinə qarşı müqavimət göstərirdilər.

XX əsrin əvvəlinədək Afrika ərazisinin 34 faizini işğal etmiş olan Fransı müstəmləkəçilərinə qarşı şiddətli mübarizə aparılırdı.

1871-ci ilin martında Əlcazair şəhərində fransız və əlcəzairli fəhlələrin Parisdəki hadisələri müdafiə edən çıxışları baş verdi. Nümayişçilərin əllərindəki plakatlarda bu şüarlar yazılmışdı: «Yaşasın Paris!», «Rədd olsun Versal». Bu çıxışlar ərəblərin və bərbərlərin üsyanına təkan verdi. Yüzlərlə tayfa silahla vuruşurdu. Onlara din xadimləri və yerli feodalların bir hissəsi başçılıq edirdi. 1872-ci ilə qədər vuruşan üsyançıların qəhrəmanlığına baxmayaraq, fransız qoşunları bu hərəkatı yatırdı, bir çox rayonlarda əhali, demək olar, tamamilə məhv eildi.

Tunis əhalisi Fransa protektoratının elan edilməsinə qarşı üsyanla cavab verdi. Müstəmləkəçilərin qoşunları üsyançıların pis





silahlanmasından və zəif təşkil olunmasından, habelə feodal əyanlarının xəyanətindən istifadə edərək onu yatırdılar.

80-ci illərdə Qərbi Afrika xalqları fransız qoşunlarına qarşı çıxışa başladılar. Bu çıxışlara fransızların «Sudan Bonapartı» adlandırdıqları istedadlı sərkərdə Samori Ture başçılıq edirdi. Samorinin rəhbərliyi altında afrikalılar 18 il silahlı mübarizə apardılar. Fransız qoşunlarının silahlanma cəhətdən üstünlüyü və amansızlığı 1898-ci ildə Samorini təslim olmağa məcbur etdi.

Fransa Madaqaskarı özünün protektoratı elan etdikdə bu ölkənin əhalisi qəsbkarlara tabe olmaq istəmədi. Qanlı cəza tədbirlərinə, xalqların bir-birinin üzərinə salışdırılmasına və yerli əyanların pula ələ alınmasına baxmayaraq, 90-cı illərdə müqavimət kütləvi şəkil almışdı. Ayrı-ayrı raoynlarda üsyanlar qalxır, partizan müharibəsi aparılırdı.

Afrika xalqları XX əsrin əvvəlinədək qitə ərazisinin 30 faizindən çoxunu işğal etmiş olan ingilis müstəmləkəçilərinə qarşı da qətiyyətlə müqavimət göstərirdilər. 70-ci illərdə ingilis qoşunları Limpopo çayından cənubda yaşayan zuluların böyük və yaxşı təlim keçmiş qoşunu ilə toqquşdu. Döyüşçülərdən bir hissəsinin odlu silahı var idi, lakin zülular əlbəyaxa vuruşmada xüsusilə güclü idilər. 1879-cu ilin əvvəlindəki ilk böyük döyüşdə zulular ingilislərə qalib gəldilər: onlar qarğıdalı tarlalarında və otluqlarda gizlənərək, yarğanlardan istfadə edərək düşmən düşərgəsinə lap yaxınlaşdılar və döyüş harayı ilə onun üzərinə atıldılar. Müstəmləkəçilərə qarşı vuruşmalarda zulular dəfələrlə müvəffəqiyyət qazandılar. Lakin 1879-cu ilin yayındakı həlledici döyüşdə ingilislər hücuma keçən zuluları tüfənglərdən və toplardan qızğın atəş açaraq böyük tələfata uğratdılar və onları əlbəyaxa vuruşma üçün yaxına buraxmadılar. Geri çəkilən zulular ingilis süvarilərinni zərbəsi altına düşdülər və qılıncdan keçirildilər. İngiltərə hökuməti zuluların ərazisini kəsb etdi.

1881-ci ildə Misirdə xaricilərə verilmiş imtiyazlara qarşı «Misir misirlilər üçündür!» şüarı altında üsyan oldu.

Bu üsyana Misir ordusunun zabitləri – müstəqil milli siyasət tərəfdardarı rəhbərlik edirdilər. Onların lideri Əhməd Ərəbi idi. Misirlilər ölkəyə soxulan ingilis qoşunlarına qarşı müdafiə təşkil



downloaded from KitabYurdu.org

etdilər. Lakin qüvvələr olduqca qeyri-bərabər idi. Misir qoşunları məğlubiyyətə uğradı. Bundan sonra Misir əslində İngiltərənin müstəmləkəsinə çevrildi. Ölkəni ingilis konsulu idarə etməyə başladı.

Misir üzərində nəzarət qoyduqdan sonra ingilislərin öz qoşunlarını yeritdikləri Şərqi Sudanda bütün xalq işğalçılara qarşı müqəddəs müharibəyə qalxdı. Bu hərəkatın başında özünü Mehdi, yəni «allahın elçisi» elan edən Məhəmməd-Əhməd durdu. O, müstəqil Mehdiçilər dövləti yaratdı. İşğalçılar ölkəni tərk etdilər.

Yalnız 90-cı illərin axırında ingilislər bura yenidən soxulmaq qərarına gəldilər. İngilis qoşunları silah cəhətdən xeyli üstün idi. Xartum yaxınlığındakı həlledici döyüşdə (1898-ci il) köhnə tüfənglərlə və soyuq silahla silahlanmış olan mehdiçilər qoşununu pulemyot atəşi və karteçlə qırdılar. Onların 40 min nəfərindən 11 min nəfəri öldürülmüş və 10 min nəfəri yaralanmışdı. İngilislər 430 nəfər itirmişdilər. Kütləvi mütəşəkkil müqavimət qırıldı, lakin ölkənin cənubunda mübarizə uzun illər sakitləşmədi. Şərqi Sudanda əhalinin çox hissəsi həlak olmuşdu. 1880-ci ildə orada 8 milyon adam yaşayırdı, 1903-cü ildə isə cəmi 1 milyon 870 min nəfər qalmışdı. Rəsmən Şərqi Sudan İngiltərə və Misirin birgə idarəsi altına verildi. Əslində isə orada ingilislər ağalıq edirdilər.

Konqo çayı mənsəbinin sağ sahilində kiçik bir ərazini Fransanın işğal etdiyi dövrdə onun aşağı və orta axını boyu Belçika kralı II Leopoldun yaratdığı «Beynəlxalq Konqo cəmiyyəti» fəaliyyət göstərirdi. Bu təşkilatın birləşdirdiyi müstəmləkəçilər ölkə ərazisinin içərilərinə soxulur, orada əhalini istismar etmək üçün dayaq məntəqələri yaradırdılar. 80-ci illərdə onlar «Azad Konqo dövləti» yaratdılar, burada hakimiyyəti Belçika kralı təmsil edirdi. Konqo hövzəsinin xalqları müstəmləkəçilərin dəstələri və dayaq məntəqələri üzərinə hücumlar edirdilər, çox vaxt ciddi vuruşmalar baş verirdi.

Limpopo və Punqve çayları arasında (Mozambik ərazisi) Vatua dövləti uzun müddət Portuqaliya müstəmləkəçilərinə ciddi müqavimət göstərdi. Yalnız XIX əsrin axırında onun qoşunları darmadağın olundu. Lakin bundan sonra da Mozambik xalqlarının




portunaliyalılara qarşı silahlı müqaviməti hələ 20 ilə yaxın davam etdi. Anqola tayfaları da portuqaliyalılara qarşı dəfələrlə üsyana qalxdılar.

Lakin o dövrdəki mübarizədə yalnız Efiopiya qələbə çaldı. 80-ci illərdə Qırmızı dəniz sahilboyu ərazilərinin bir hissəsini zəbt etmiş olan İtaliya bu ölkənin üzərinə hücum etdi. Bütün xalq işğalçılara qarşı mübarizəyə qalxdı. Efiopiya hökuməti İtaliyanın güclənməsini istəməyən Fransadan silah ala bildi. Rusiyanın qabaqcıl ictimaiyyəti Efiopiyaya böyük kömək göstərdi. Rusiyada vəsait toplanışı təşkil edildi, Efiopiyaya Qırmızı Xaç cəmiyyətinin dəstəsi göndərildi. Fədəkar işlərinə görə müharibədən sonra dəstənin bütün iştirakçıları Efiopiya ordenləri, medalları və fərmanları ilə təltif edildilər.

Efiopiya qoşunları italyanları bir sıra məğlubiyyətlərə uğratdılar. Həlledici vuruşma 1896-cı ildə Auda şəhəri yaxınlığında baş verdi. Efiopiya qoşunları imperator II Menelikin rəhbərliyi latında hücuma keçdi və bir-birinin ardınca işğalçıların üç dəstəsini darmadağın etdi. 11 min nəfər, o cümlədən iki general və zabitlərin çox hissəsini itirən italyanlar vahimə içərisində qaçmağa başladılar. İtaliya Efiopiyanın istiqlaliyyətini tanımağa məcbur oldu.

Ölkənin istiqlaliyyətinin möhkəmlənməsi onun ticarətinin canlanmasına, yol çəkilişinə imkan yaratdı. Lakin hakimiyyət mülkədar torpaq sahibliyinin möhkəmlənməsinə kömək edən imperatorun əlində cəmləşmişdi. Efiopiya hələ də geridə qalmaqda davam edirdi. Ölkənin kapitalist dövlətlərinin nüfuz dairələrinə bölünməsi qorxusu var idi.

XIX əsrin axırında Afrika xalqlarının işğalçılara qarşı mübarizəsi Efiopiyadan başqa heç yerdə məqsədinə nail olmadı. Bu onunla izah olunur ki, Afrika ökləələri müasir sənayeyə, silahlara və təşkilata malik deyildilər. Həm də lazımi birlik və həmrəylik yox idi. Müstəmləkəçilər xeyli güclü idilər və dövlətlər arasındakı, tayfalar arasındakı, xalq kütlələri ilə əyanlar arasındakı çəkişmələrdən istifadə edirdilər.

XX əsrin əvvəlində Afrikada Milli-azadlıq hərəkatı gücləndi. Getdikcə güclənən soyğunçuluqdan və rəhmsiz



downloaded from KitabYurdu.org

istismardan son dərəcə ümidsiz vəziyyətə düşən Afrika xalqları XX əsrin əvvəlində müstəmləkə əsarətindən azad olmağa dəfələrlə cəhd göstərmiş, silahlı mübarizəyə qalxmışdılar. Böyük və kiçik üsyanlar demək olar ki, ara vermirdi. Bunlardan ən böyüyü Herero və nama tayfalarının Cənub-Qərbi Afrikada (Namibiyada) alman müstəmləkəçilərinə qarşı üsyanı idi.

1904-cü ildə bütün Herero tayfaları alman müstəmləkə-çilərinə qarşı mübarizəyə qalxdılar. Bir neçə alman dəstəsi məhv edildi. Lakin Almaniyadan kömək gəldi. Pulemyotlar və Kruppun topları mübarizənin nəticəsini həll etdi. Hererolar əzildi. Onlardan sağ qalanları şimala qaçdı. Yolda xeyli adam həlak oldu. Hereroların sayı beş dəfə azalaraq 15-16 min nəfərə endi. Kayzer II Vilhelmə deyəndə ki, alman əsgərlərinin hərəkətləri xristian mənəviyyatına uyğun deyildir, o belə cavab vermişdi: «Xristian ehkamları bütpərəstlərə və vəhşi qəbilələrə aid deyildir».

Hereroların darmadağın edilməsindən sonra nama tayfaları üsyana qalxdılar. Onların çıxışlarına Hendrik Vitboy başçılıq edirdi. O, namaları birləşdirə və onları azadlıq üsyanına qaldıra bildi. Vitboy tam bir il- həlak olana qədər döyüşlərə bacarıqla rəhbərlik etdi.Onun ölümündən sonra namalar silahlı mübarizəni iki il də davam etjirdilər. Lakin burada da alman texnikasının üstünlüyü özünü göstərdi. Almaniya baş qərargahının rəisi Fon Şliffen hələ üsyanın əvvəlində bildirmişdi ki, Hentotların (almanlar namaları belə adlandırırdılar) kökünü kəsmək lazımdır. Bunun nəticəsində 200 min namanın ən çoxu 60 min nəfəri sağ qaldı. 1905-ci ilin avqustunda Almaniya Şərqi Afrikasının (Tanqanika) cənubunda və mərkəzi hissəsində başlayan üsyan bir ildən çox davam etdi. Alman qoşunları 120 min afrikalını məhv edərək bu üsyanı yatırtdılar. Yüz illər boyu bu ərazidə yaşayan böyük tayfalar tamamilə məhv edildi.

1907-ci ildə Fransanın və İspaniyanın Mərakeşdəki işğalçı qoşunlarına qarşı xalq üsyanı baş verdi. Bütün dağlılar və Rabat rayonunun tayfaları silahlı mübarizəyə qoşuldular. 1912-ci ildə ölkənin pytaxtı Fəsdə iri silahlı çıxış başladı və bir rayondan digərinə keçərək fasilələrlə iyirmi ilə qədər davam edən ümumxalq üsyanına çevrildi.





Keniya xalqları ingilis qoşunlarına qarşı uzun illər arası kəsilmədən mübarizə apardılar.

**2.XX əsrin əvvəllərində beynəlxalq münasibətlər**

**Avropada iki hərbi-siyasi blokun təşkilinin başa çatması.** XX əsrin əvvəllərində Avropa artıq dünya siyasətinin mərkəzi idi. Kontinentə hegemonluq üstündə böyük Avropa dövlətlərinin mübarizəsi iki hərbi-siyasi blokun – Üçlər İttifaqını (Almaniya, Avstriya-Macarıstan və İtaliya) və Fransa, Rusiya sazişinin təşkili ilə yeni mərhələyə qədəm qoymuş oldu..

Kapitazilmin imperializm mərhələsinə qədəm qoyması və iqtisadi inkişafın qeyri-bərabərliyinin artması XX əsrin əvvəlində ən iri kapitalist dövlətləri arasında ziddiyyətlərin kəskinləşməsinə səbəb oldu. Bütün dünya iki hərbi-siyasi ittifaqın qarşıdurma meydanına çevrildi.

Bu ititfaqlardan birinin – Üçlər ittifaqının başlanğıcı hələ 1882-ci ildə Almaniya tərəfindən qoyulmuşdu. XX əsrin əvvəlində bu blokda Almaniyanın aparıcı rolu gücləndi. Ona bu rolu Balkan ölkələrini zəbt etməyə can atan və burada Rusiyanın mənafeləri ilə toqquşan Avstriya-Macarıstan təklif etmişdi. İtaliya Üçlər İttifaqında etibarsız vəsilə oldu, çünki o, Balkanda iqtisadiyyatı gücləndikcə Avstriya-Macarıstanla daha çox toqquşurdu, Fransa isə Aralıq dənizinin şərq hissəsində onun işğallarına etiraz etmirdi. Almaniya Türkiyəni öz tərəfinə çəkməyə və Balkanda müttəfiqlər tapmağa can atırdı.

Digər hərbi-siyasi ititfaqın əsası 1893-cü ildə qüvvəyə minən Fransa-Rusiya hərbi konvensiyası və İngiltərə ilə Fransa arasında 1904-cü ildə əldə edilmiş «xeyirxah razılıq», yəni nüfuz dairələrinin genişləndirilməsi və bunları qoruyub saxlamaq üçün qarşılıqlı surətdə kömək haqqında sazişlə qoyulmuşdu. 1904-cü ilin aprelin 8-də İngiltərə-Fransa sazişi imzalandı ki, bu “Ürək sazişi«» adını aldı. Müqavilənin bağlanması rus-yapon müharibəsinin başlanması ilə bir vaxta düşürdü. Rusiyanın məğlubiyyəti Fransanı hədsiz məyus etdi. Çünki o, rus ordusunun gücündən istifadə etməyi planlaşdırmışdı. Rusiyanın məğlubiyyətindən sonra fransızlara yeni bir imkanlı müttəfiq tapmaq lazım idi ki, Almaniyaya qarşı dura bilsin. Müqavilənin



downloaded from KitabYurdu.org

əvvəlcədən dərc edilmiş mətnində Afrikada müstəməkə mübahisələrini nizama salmaqdan – söhbət gedir, Misir İngiltərənin, Mərakeş is Fransanın təsir dairəsinə daxil edilirdi.

Müqavilənin gizli hissəsində göstərilirdi ki, vəziyyətin diktəsindən asılı olaraq müqaviləyə imza atan tərəflər Misir və Mərakeşdə öz siyasətlərini dəyişə bilərlər, başqa sözlə desək, bu ölkələri öz müstəmləkələrinə çevirə bilərlər. Belə olan təqdirdə Mərakeşin sahilboyu zolağının Cəbəlütariq boğazına qədər uzanan hissəsi İspaniyaya verilməli idi. İngiltərə Cəbəlütariq boğazını sığorta elədi ki, güya İspaniyanın təhlükəsizliyi üçün onun İngiltərədə qalması məsləhətdir.

Siamın (Cənub-Şərqi Asiya) İngilltərə ilə Fransa arasında təsir dairələrinə bölünməsi ilə əlaqədar ayrıca bəyənat verildi. Asiyada İngiltərə ilə Rusiya arasındakı bir sıra ziddiyyətlər nizama salındı. İngiltərənin hegemonluq iddiasında olduğu, Fransaya və Rusiyaya zərbə qüvvəsi rolunun ayrıldığı bu ittifaq Antanta (fransızca Entente - razılıq) adlandırıldı.

Bir sıra kiçik əhəmiyyətli məsələləri yoluna qoyan İngiltərə-Fransa sazişi bağlandıqdan üç il sonra, yəni 1907-ci ilin avqustun 31-də İngiltərə Rusiya sazişinin bağlanması ilə Antantanın təşkili prosesi qəti olaraq başa çatdı. XIX-XX əsrlərin qovşağında Rusiya ilə İngiltərə arasındakı rəqabət tam qızğın şəkil almışdı. Bu rəqabət bütün Balkan yarımadasının Şərqindən Çinə qədər olan geniş bir ərazini əhatə edirdi. Rəqabət Rusiya-Yaponiya müharibəsi zamanı ən yüksək nöqtəsinə çatmışdı. Bu dövrdə İngiltərə fəal surətdə Yaponiyaya kömək edirdi. İngiltərə Rusiyanın mövqeyinin Əfqanıstanda, Tibetdə və Balkan yarımadasında zəifləməsinə çalışırdı. Müharibədə Rusiyanın məğlubiyyəti, Rusiyada 1905-ci ildə burjua-demokratik inqilabının başlanması Forun ofisinin Rusiya əleyhinə kursunda müəyyən dəyişikliyə səbəb oldu. İngiltərə görürdü ki, Romanovlar imperiyasının zəiflədiyi indiki şəraitdə Britaniya siyasətinə Rusiya daha təhlükəli deyildir. Bu dövrdə Peterburqda da bu fikrə gəldilər ki, alman-rus münasibətlərində soyuqluq yarandığı bir dövrdə İngiltərə ilə saziş bağlanılması Rusiyanın mövqeyini möhkəmləndirə bilər. Rusiya Böyük Britaniya ilə saziş




bağlayarkən güman edirdi ki, Orta Asiyada İngiltərəyə güzəştə getsə də, Balkanlarda uğur qazana bilər.

1907-ci il ingilis-rus sazişi hər iki tərəf üçün mübahisəli olan İran, Əfqanıstan və Tibet məsələsini nizama saldı. İran təsir dairələrinə bölündü. Təsir dairələri bir-birindən neytral zolaqla ayrılırdı. Əfqanıstan İngiltərənin təsir dairəsinə daxil edildi. Tibetə münasibətlə hər iki dövlət onu Çinin tərkib hissəsi hesab etdilər. Dövlətlər status-kvonu pozmamaq və orada xüsusi imtiyaza nail olmağa çalışmamaq barədə öhdəlik götürdülər.

Almaniya fransız-ingilis, ingilis-rus ixtilaflarından istifadə edək Fransa-Rusiya hərbi-siyasi ittifaqını və Antantanı pozmağa çalışırdı.

İngiltərə çalışırdı ki, onun donanması gəmilərin sayına və atəş gücünə görə digər iki ən böyük dövlətin birlikdə götürülmüş donanmasından həmişə üstün olsun. Ona görə də Almaniyaınn öz hərbi donanmasını artırmasına cavab olaraq İngiltərənin hakim dairələri ingilis hərbi donanmasını gücləndirmək proqramını həyata keçirirdilər. Fransa öz silahlarını durmadan ayırırdı. Milli mənafeləri qorumaq şüarı altında soyğunçu müharibə hazırlamaq üçün 1913-cü ildə burjua partiyalarının mürtəce bloku R.Puankareni prezident seçdi. R.Puankare Almaniyaya qarşı qisas müharibəsinin başlıca təbliğatçılarından biri idi. Apardığı siyasətə görə oun adı müharibə simvoluna çevrilmişdi.

Zəif ölkələrə qarşı soyğunçu müharibələrin və müstəmləkə işğallarının, demək olar ki, ardı-arası kəsilmirdi. Dünyanın yenidən bölüşdürüləmsi uğrunda müharibələr baş verirdi: Üçlər itittifaqının və Antanta blokunun üzvləri arasında Mərakeş, Osmanlı imperiyasına qarşı azadlıq mübarizəsinin başa çatmaqda olduğu Balkan yarımadası üstündə münaqişələr daha tez-tez baş verir və getdikcə kəsiknləşirdi. Böyük dövlətlər arasında müharibənin başlanması yalnız ona görə təxirə salınırdı ki, onların silahlanmanı artırmaq planları həyata keçirilməmişdi.

Bütün böyük dövlətlər ən yeni hərbi texnika ilə sürətlə silahlanır, ordunun və donanmanın kontingentini artırır və onlara təlim keçir, döyüş aviasiyası yaradırdılar. Bu ölkələrin hakim dairələri əhalidən alınan vergiləri çoxaldaraq getdikcə artıq hərbi



downloaded from KitabYurdu.org

sifarişlərin xərclərini ödəyirdilər. Həmin sifarişlər hərbi sənaye sahiblərinin, maliyyə oliqarxiyasının üstəlik mənffət götürmələrinin mühüm mənbəyi olmuşdu. 1900-1913-cü illər ərzində Avropanın böyük dövlətləri hərbi məqsədlər üçün 90 mlrd. markaya yaxın vəsait sərf etmişdilər. Bunun da nəticəsində 80-ci illərdən 1903-cü ilədək olan dövr ərzində onların silahlı qüvvələrinin tərkibi 25 faiz, 1914-cü ilə yaxın isə daha 30 faizə qədər artmış və 4,6 mln. nəfərə çatmışdı.

Dünya barıt çəlləyinə bənzəyirdi. Hər iki tərəfin imperialitsləri dünyanın yenidən bölüşdürülməsi uğrunda müharibəyə başlamaq üçün fürsət gözləyirdilər.

Dünyanın böyük dövlətlər arasında bölüşdürülüb qurtarması dünyanın böyük dövlətləri arasında satış bazarları və xammal mənbələri üstündə ziddiyyətlərin kəskinləşməsinin artması meyli ilə müşahidə olunurdu. Bu ziddiyyətlərin ən qatı təzahürlərini Afrika, Asiya və Okeaniyanın hələ tutulmamış ərazilərinə görə mübarizə daha qabarıq üzə çıxarırdı. Bu ərazilər üstündə Almaniya-İngiltərə, İngiltərə-Fransa, Almaniya-ABŞ, Rusiya-ABŞ, Rusiya-Yaponiya ziddiyytələri getdikcə kəskinləşirdi.

Almaniyanın Avropa kontingentində ağalıq mövqeyi iddiaları alman-fransız və alman-rus münasibətlərinin kəsiknləşməsinə səbəb oldu.

**Almaniya-İngiltərə ziddiyyətlərinin ön yerə keçməsi.** Əgər XIX əsrin son qərinəsində Avropada əgər Almaniya-Fransa ziddiyyətləri birinci yer tuturdusa, XX əsrin əvvəllərində beynəlxalq münasibətlər sistemində Almaniya-İngiltərə ziddiyytələri başlıca yer tuturdu. Bu dövlətlər ən çox müstəmləkələrə müdaxilə məsələsndə bir-biri ilə rəqabət edirdilər. İngilis-bur müharibəsi zamanı əlverişli vəziyyətdən istifadə edən Almaniya dərhal İngiltərə əleyhinə təbliğatı genişləndirdi. Bu İngiltərəni narahat etdi. Böyük Britaniyanın siyasi elitası Fransa ilə yaxınlaşmağı daha üstün tuturdular. Fransa hökuməti də həmçinin Fransa-Rusiya sazişini genişləndirmək, İngiltərə və İtaliya ilə saziş yolu ilə Fransanın beynəlxalq əlaqələrini genişləndirməyə çalışırdı. Bütün bunlar isə




Almaniyanın hegemonluq ididalarının güclənməsinin qarşısını almağa xidmət etməli idi.

1905-ci ilin martın 31-də alman imperatoru II Vilhelm öz yaxtasında Mərakeşin Tanjer limanına səfər etdi. II Vilhelm burada Mərakeşə münasibətdə bu ölkəyə aid heç bir sazişi tanımadığını bəyan etdi. O göstərdi ki, Almaniya bu ölkədə öz imperialist maraqlarını qorumağa hazırdır. Məhəlli münaqişə yaratmaq təşəbbüsü özünü doğrultmadı. Kobud diplomatik təzyiq kəskin beynəlxalq böhrana səbəb oldu. Almaniyanın təkidi ilə 1906-cı ilin yanvar ayında Axzesirassada keçirilən konfransda Almaniya təcrid olunmuş vəziyyətdə qaldı. Təkcə İngiltərə və Fransa deyil, həmçinin İtaiya da Fransanın tərəfində çıxış etdi. Mərakeş Sultanının müstəqilliyi tanınsa da, Fransa Mərakeşin maliyyə sistemində böyük sərvətə malik oldu və daxili qayda-qanunun qorunması üzərində nəzarət hüququ aldı.

II Vilhelmin şəxsən özü Fransanın beynəlxalq nüfuzunu azaltmaq üçün nisbətən daha uğurlu «cəhd» göstərdi. 1905-ci ilin iyulunda o, II Nikolayla Berkedə görüşdü. Hansı ki, bu dövrdə çar mütləqiyyətinin daxili və xarici siyasət mövqeyi xeyli zəifləmişdi. Rusiya xaricdən kömək axtarırdı. Kayzer çarı inandırdı və onlar, yəni Rusiya və Almaniya əgər bu müqaviləni bağlayan dövlətlərdən biri üzərinə hücum olarsa, digərinin onun köməyinə gəlməsi barədə sənəd imzaladılar. Berke müqaviləsi əslində ilk növbədə Fransa-Rusiya ittifaqına qarşı çevrilmişdi. II Nikolay öz nazirlərinin təzyiqi altında, II Vilhelmə məlumat verməyə məcbur oldu ki, əgər Almaniya ilə Fransa arasında müharibə olarsa, müqavilə qüvvəsini itirmiş olacaq. Bu isə əslində Berke müqaviləsinin əhəmiyyətini itirməsi demək idi.

1911-ci ildə ikinci Mərakeş böhranı baş verdi. 1911-ci ilin yazında Mərakeşin paytaxtı Fesdə üsyan qalxdı. Qayda-qanunu bərpa etmək bəhanəsi ilə fransızlar paytaxtı mühasirəyə aldılar. Mərakeşin Fransanın hakimiyyəti altına keçməsi aydın idi. Almaniyanın imperialist dairələri öz hökumətlərini Mərakeşdəki uğursuz siyasətlərinə görə kəskin tənqid etməyə başladılar.

II Vilhelm bu dəfə Fransa əleyhinə kəskin demarş elədi. 1911-ci ilin iyulun 1-də Mərakeşin Aqadir limanında



downloaded from KitabYurdu.org

Almaniyanın «Pantera» qayığı arxasınca isə»Berlin» kreyseri gəldi. Bu bütün dünyanı həyəcanlandırdı. İngiltərənin mövqeyi Almaniyanı geri çəkilməyə məcbur etdi. Lloyd Corc öz nitqində aydın bildirdi ki, müharibə baş verəcəyi təqdirdə İngiltərə Almaniyanın tərəfində olmayacaq.

Alman diplomatiyasının bütün səylərinə baxmayaraq Antantanı dağıtmaq mümkün olmadı. İngiltərə-Almaniya ziddiyyətləri başqa dövlətlər arasında olan ziddiyyətlərdən daha kəskin idi. Özünün təcavüzkar dünya siyasəti ilə, təxribatçı metodları ilə alman imperializmi Antanta blokunun konsildasiyasını daha da möhkəmləndirdi. Lakin Üçlər İttifaqında bunun əksi olan proses gedirdi. XX əsrin əvvəllərindən başlayaraq bu ittifaqda əlaqələrin zəifləməsi müşahidə olunurdu. İtaliyanın xarici siyasət kursu dəyişilməkdə idi.

**XX əsrin əvvəllərində İtaliya beynəlxalq münasibətlər sistemində.**Afrikada (Efioniyada) italyan müdaxiləsinin baş tutmaması, 1896-cı ilin mayında Adua yaxınlığındakı məğlubiyyət Apennin yarımadasında dərin siyasi böhran yaratdı. İtaliya öz müttəfiqləri olan Almaniya və Avstriya-Macarıstandan gözlədiyi köməyi görə bilmədi. Krallığın hakim dairələrində belə bir fikir formalaşdı ki, Üçlər İttifaqı İtaliyaya heç bir uğur gətirməyəcək. Həm də İtaliya müşahidə edirdi ki, getdikcə Fransanın beynəlxalq mbvqeyi artır, onun Rusiya ilə ittifaqı möhkəmlənir. İngiltərə isə artıq Mərkəz dövlətləri müdafiə etməkdən uzaqlaşır.

İtaliya üçün müstəmləkə müdaxiləsinin yenidən əsas obyekti Aralıq dənizi hövzəsi – Tripolitaniyanın və Kirenaikanın Liviya vilayəti, həmçinin Albaniya oldu. Adriatik dənizinin çıxışı da italiyanlar üçün Balkanlara soxulmaqdan ötrü mühüm strateji əhəmiyyətə malik idi.

İtaliyanın yeni xarici siyasət proqramı aşağıdakıları özündə birləşdirirdi. Üçlər ittifaqına sədaqət (İtaliya krallığı alman bazarında öz kənd təsərrüfat mallarını satmaqda maraqlı idi. Həmçinin, Vyana ilə olan mürəkkəb münasibətində Burlinin müdafiəsini qorumağı arzu edirdi), Fransa və Rusiya ilə səmimi münasibətlər, İngiltərə ilə isə dostluq.





XIX əsrin 90-cı illərinin sonunda Roma Tunis üzərində Fransanın protektorantlığını tanıdı və Parislə ticarət sazişi bağladı. Bu sazişlə on illərlə davam edən Fransa-İtaliya «gömrük müharibəsi»nə son qoyulmuş oldu. 1901-ci ilin dekabrında İtaliya ilə Fransa arasında bağlanan sazişə görə III Respublika Tripolitaniya və Kurenaikanın İtaliyanın nüfuz dairəsinə düşməsi ilə razılaşdı. İtaliya da Fransanın Mərakeş üzərində olan xüsusi hüquqlarını tanıdığını bildirdi. 1902-ci ilin martında İngiltərə də Liviya vilayətində İtaliyanın maraqlarını qorumaq barədə öhdəlik götürdü. 1902-ci ilin noyabrında bir italyan-fransız siyasi sazişi də imzalandı. Sazişə görə əgər onlardan hər hansı birinə bir və bir neçə dövlət hücum edərdisə, əgər hətta bu dövlətlərdən biri «öz şərəf və təhlükəəsizliyini qorumaq üçün» başqa bir dövlətə hücum etsə də, yenə də onlar öz bitərəfliklərini qorumalı idilər. İtaliya Fransa qarşısında Üçlər İttifaqında iştirakı məsələsinə də yenidən baxacağı barədə öhdəlik götürürdü. Avstriya 1908-ci ilin oktyabrında Bosniya və Hersoqovinanı ilhaq etdikdən sonra İtaliya və Rusiya arasında diplomatik münasibətlərdə istilik yaranmağa başladı. Osmanlı sultanının Balkanlarda mülki hesab edilən iki Cənubi Slavyan əyaləti hələ 1878-ci ildə Avstriya tərəfindən işğal edilmişdi. Habsburqlar monarxiyasının yarımadanın içərilərinə doğru irəliləməsi, Balkan yarımadasının şimal-qərb hissəsi üstündə İtaliya-Astriya rəqabətinin güclənməsinə gətirib çıxartdı. 1909-cu ilin oktyabrında Rakkonijidə Rusiya və İtaliya Xarici İşlər Nazirlərinin notalar mübadiləsi oldu. Tərəflər aşağıdakı məsələlərdə şərtləşdilər ki, Balkanlarda statuz-kvo pozularsa, hər iki tərəf yarımadada Avstriyanın hegemonluğuna qarşı birgə hərəkət edəcəklər. İtaliya Rusiyanın Qara dəniz boğazlarında, Rusiya isə İtaliyanın Tripolitaniya və Kirenaikada hərəkət azadlığını tanıyırdı. Məhz bunun nəticəsi idi ki, İtaliya həm Antantanın, həm də ortağı olduğu Üçlər İttifaqının razılığı əsasında 1911-ci ilin sentyabrın 24-də Türkiyədən Trablisi ona verməyi tələb etdi. Cavabı gözləmədən sentyabrın 25-də İtaliya Türkiyəyə müharibə elan etdi; sayca çox az olan türk qoşunları bir-birinin ardınca məğlubiyyətə düçar olurdu. Lakin gənc zabitlərdən Ənvər paşanın və Mustafa Kamal Paşanın



downloaded from KitabYurdu.org

topladıqları könüllü qüvvələr italyanları geri oturtdular. Ancaq bu, müharibənin gedişinə əsaslı təsir göstərə bilmədi. Osmanlı dövləti sülh müqaviləsi bağlamağa məcbur oldu.

1912-ci il oktyabrın 18-də Lozannada bağlanmış sülh müqaivləsinə görə, Trablis və Kirenaika Liviya adı altında İtaliyanın müstəmləkəsinə çevrildi.

Osmanlı imperiyasının hərbi məğlubiyyəti İtaliyaya imkan verdi ki, Tripolitaniya, Kirenaikanı və Egey dənizində Dodekanez adasını özünə birləşdirsin.

**İqtisadiyyatın hərbiləşdirilməsi və sürətlə silahlanması.**XX əsrin əvvəllərində dünyada beynəlxalq münasibətlərin son dərəcə kəskinləşməsi meyli aydın şəkildə özünü büruzə verirdi. Dünyanın aparıcı dövlətləri hələlik birbaşa toqquşmalardan çəkilsələr də, onlar iqtisadiyyatların hərbiləşdirilməsi və sürətlə silahlanma yolunu artıq tutmuşdular. Bu planda ən mühüm yer Almaniya və Yaponiyaya məxsus idi. Məsələn, Alman donanması əgər XIX əsrdə dünyada beşinci yeri tuturdusa, 1914-cü ildə ikinci yeri tuturdu. Böyük Britaniya hərbi-dəniz donanmasında dünyada birinciliyini heç kimə verməK istəməyərək 1911-ci ilə hərbi dəniz-qüvvələrinə çəkilən xərcləri iki dəfə artırdı. Yeni, daha güclü tipli hərbi gəmilərin istehsalına birinci başladı. Bu gəmilər drednout adlandı. 1905-1914-cü illərdə o, hərbi xərcləri 3 dəfə artırdı. 1913-cü ildə Fransanın hərbi dəniz donanması dünyada üçüncü yeri tutdu. 1908-ci ildən başlayaraq ABŞ ildə iki drednout inşa etməyə başladı. 1914-cü ilə böyük Avropa dövlətlərinin ordusunun sayı 4,5 milyon nəfərə yaxın idi.

**Sülh uğrunda mübarizə.**Bu dövrdə sülh tərəfdarlarının bütün bu prosesləri sükutla qarşıladığını demək düz olmazdı. Bu dövrdə sürətlə silahlanmaya qarşı sülhü müdafiə edən müxtəlif hərəkatlar meydana gəldi. Bu sahədə sosialistlər daha fəal çıxış edirdilər. Onlar imperializm və militarizmə kapitalist rəqabətinin məhsulu kimi baxırdılar. Sosialistlər bildirirdilər ki, əgər imperialistlər müharibəyə başlasalar, fəhlə sinfi bu müharibədə iştirak etməkdən imtina edəcəkdir.

Fransa fəhlə sinfinin rəhbərlərindən biri olan Jores proletariatı «insanların sülhü sevən və müharibəyə nifrət edən




hisəssi kimi səciyyələndirirdi. II İnternasionalın 1912-ci ildə Bazeldə keçirilən konqresində göstərilirdi ki, fəhlə sinfi «bütün dünyada sülh istəyir və müharibəyə qarşı müharibə»» elan edir.

İki əsrin qovşağında sülh uğrunda mübarizəyə liberal hərəkat da qoşuldu. 1900-cü ilin məlumatına görə, Skandinaviya ölkələri, Almaniya, Böyük Britaniya, ABŞ-da 450-ə qədər təşkilat sülh uğrunda mübarizə aparırdı. Onlar 1899 və1907-ci illərdə keçirilən Haaqa konfranslarında nəzərə çarpacaq müvəffqiyyət qazandılar. Bu konfranslarda insana qarşı bir sıra silah növlərinin işlədilməsinin qadağan edilməsi tələb edilirdi. Lakin liberal hərəkatın özündə də daxili ziddiyyətlər mövcud idi.

**Balkan müharibələri.**Balkan müharibələri – dünya münaqişələri ərəfəsi idi. Avropada beynəlxalq münasibətlərdə Şərq məsələsi mühüm məsələ olaraq qalmaqda davam edirdi. Balkan yarımadası üstündə böyük dövlətlər arasında ziddiyyətlər güclənirdi. Digər tərəflən, Balkan dövlətlərinin özlərində hakim dairələr arasında millətçilik və hegemonçuluq cəhdləri artırdı. Başqa bir tərəfdən isə, əzilən xalqların Osmanlı imperiyası və Avstriya-Macarıstana qarşı milli-azadlıq hərəkatı yüksəlməkdə idi.

Gənc türklərin 1908-ci ildəki inqilabı və 1911-ci il İtaliya-Türkiyə müharibəsi Bosniya və Hersoqovinada azadlıq hərəkatının başlanmasına təkan verdi ki, Habsburqlar imperiyasının onsuz da laxlamış mövqeyini təhlükə altına aldı. Cənub-Şərqi Avropa ölkələri arasında daxili vəziyyət gərginləşdi. Vyanada Balkanlara qarşı hücum xətti müəyyənləşmişdi. Habsburqlar monarxiyasının Egey dənizi sahillərində möhkəmlənməsi isə əsas məqsəd idi. Məqsəd Bosniya və Hersoqovinadan sonra Serbiyanı darmadağın etmək idi. Çünki, Serbiya Avstriya-Macarıstanın slavyan əhalisinin mərkəzi idi. «Hərbi partiya» nın fikrincə, Serbiyanın şimal-şərq hissəsi Avstriyanın tərkibinə keçməli idi, onun bir neçə cənub-şərq rayonları isə Bolqarıstana verilə bilərdi. Bununla Avstriya-alman bloku güclü iqtisadi və siyasi mövqe qazanmış olardı. İstanbulun diqqətini yayındırmaq məqsədi ilə Vyana rəhbərliyi bolqar knyazı Ferdinand Koburqla razılaşdı ki, Avstriyanın Cənubi Slavyan əyalətlərini ilhaq etməsi ilə eyni



downloaded from KitabYurdu.org

vaxtda Bolqarıstan da Türkiyənin vassal asılılığından çıxdığını bildirsin. Bosniya böhranının başlanğıcında Avstriya-Macarıstan imperatoru Frans İosif 1908-ci ilin oktyabrın 5-də Bosniya və Hersoqovinanın ilhaqı haqqında sərəncama imza atdı. Eyni zamanda Boqarıstan da özünü müstəqil krallıq elan etdi.

Vyananın ilhaq planları Rusiya diplomatiyası üçün gizli deyildi. Pevreski körpüsündə başa düşdülər ki, Rusiya müharibəyə hazır deyil «Rusiyanın Xarici işlər Naziri İzvolski ilə Habsburqlar imperiyasının Xarici İşlər Naziri A.Erental arasında Buxlauda 1908-ci ilin sentyabr ayının 15-16-da olan görüşdə şifahi razılıq alındı ki, Bosniya və Hersoqovinanın kompensasiyası kimi Avstriya-Macarıstan Rusiyanın boğazlara münasibətində iddialarını müdafiə edir, Fransa hökuməti İzvolskinin planını müdafiə etmədi, çünki Bosniya və Hersoqovinanın Avtriya tərəfindən ilhaqı Fransanın maraqlarına cavab vermirdi. İngiltərə hökuməti də Avstriya-Macarıstanın Cənub-Şərqi Avropadakı torpaqlara sahib olması ilə heç cür razılaşmaq istəmirdi. Bunun üçün o, Sultan Türkiyəsinin maraqlarını müdafiə etdiyi» ni bildirdi. Lakin, bu sadəcə bir bəhanə idi. Qara dəniz boğazları haqqında Rusiyanın təklifləri Londonda təxirə salındı Türkiyə 1909-cu ilin əvvəllərində Bosniya və Hersoqovinanın ilhaqını və Bolqarıstanın müstəqilliyini tanıdı.

Cənubi slavyan torpaqlarının işğalı Balkanlarda əlverişsiz vəziyyət yaratdı. Avstriyanın slavyan əyalətlərini azadlıq uğrunda mübarizə bürüdü. Belqrad və Tsetində ərazi konpensasiyası tələb etdilər və faktiki olaraq Habsburqlar monarxiyası ilə diplomatik münasibətləri kəsdilər. Vyana rəhbərliyi də öz növbəsində Serbiya hökumətini hərbi müdaxilə ilə hədələməyə başladı. Rusiya Serbiya və Çernoqoriyanın milli maraqlarını müdafiə etdi və 1909-cu ilin yazında Rusiya-Avstriya münasibətləri son dərəcə kəskinləşdi. Almaniya böhranın bütün mərhələlərində Avstriyanı açıq və fəal surətdə müdafiə etdi və Rusiya-Türkiyə münasibətlərinin kəsiknləşməsinə çalışdı. 1909-cu ilin martın 21-də Almaniya ultimatum formasında Rusiyaya ilhaqı tanımağı və bu məsələdə Serbiya və Çernoqriyanı da bunun üçün məcbur




etməyi təklif etdi. Peterburq başa düşdü ki, Rusiyanın müttəfiqləri hələ onu müdafiə etmək fikrində deyildilər. Onlar ancaq Rusiyanı məhdud formada diplomatik müdafiədən o yana getmirlər. Ona görə də Rusiya Avstriyanın ilhaqını tanımağa məcbur oldu.

1908-1909-cu illərin Bosniya böhranı zamanı Rusiyanın diplomatik məğlubiyyətindən sonra Balkan ölkələrinin ittifaqının zəruriliyi fikri onun siyasi rəhbərliyində möhkəmlənməyə başladı. Onlar belə hesab edirdilər ki, Avstriya-Macarıstana qarşı ittifaqa Türkiyəni də cəlb etmək məqsədəuyğun olardı. Ümumavropa müharibəsi baş verərdisə, bu Cənub Şərqi Avropa cəbhəsi təşkil etmək üçün xidmət edə bilərdi. Bu İttifaq Rusiyanın başçılığı ilə olacaq və o, mərkəz dövlətlərinə qarşı çevrilməli idi. Rusiya bununla Qara dəniz boğazları məsələsini də həll etmiş olardı. Eyni zamanda Sultan imperiyası ilə əməkdaşlıq Balkan ölkələrinin maraqlarına o qədər də cavab vermirdi. Çünki onların məqsədləri osmanlı zülmünü Cənub-Şərqi Avropada ləğv etmək idi.

Balkan ölkələrinin burjua-mülkədar dairələri milli hərəkata rəhbərliyi öz əllərinə almaq qərarına gəldilər. Lozanna müqaviləsi Türkiyənin beynəlcalq aləmdə onsuz da aşağı düşmüş nüfuzu üçün ciddi zərbə oldu. Rusiyanın təsiri altında muxtariyyat almaq adı altında Makedoniya və Frakiyada antitürk hərəkatı başlandı. Balkan manarxları mart-sentyabr aylarında «Dördlər bloku» təşkil etdilər ki, onun üzvləri Serbiya, Çernoqoriya, Bolqarıstan və Yunanıstan idilər. Həmin ilin oktyabrında müttəfiqlərin Türkiyə ilə müharibəsi başlandı. Bu tarixdə I Balkan müharibəsi adlandı. Bu müharibə milli-azadlıq mübarizəsi xarakteri daşıyırdı. Türk qoşunları bütün cəbhələrdə ciddi məğlubiyyətə uğradılar. Müharibəyə hazır olmayan Türkiyə qoşunları elə ilk günlərdən Frakiyanı tərk edərək Camalçaya doğru geri çəkilmək məcburiyyətində qaldılar. Serblər Kimovoda, yunanlar isə Salonikdə türkləri məğlub etdilər. Bu məğlubiyyəti gözləməyən Avropa dövlətləri təşvişə düşərək 1913-cü il mayın 3-də barışıq sazişi imzalamağa nail oldular. Serblər Kosovo, Makedoniyanın xeyli hissəsini, Şimali Albaniya əyalətini, yunanlar Saloniki, Egey dənizindəki adaların bir hissəsini, Cənubi Albaniya rayonunu,



downloaded from KitabYurdu.org

bolqarlar Adrinopolla birlikdə Frakiyanı tutdular. Çernoqoriyalılar Albaniyada Skutarini mühasirə etdilər. 1913-cü ilin mayın 30-da Londonda qalib dövlətlərlə sultan imperiyası arasında sülh müqaviləsi bağlandı. Türkiyənin Avropada İstanbula əlavə olunan (Gnos-Midiyanın Şərq xətti) nəzərə çarpmayacaq dərəcədə kiçik bir ərazisi qaldı. Bu müqavilənin şərtlərinə görə OSmanlı imperiyası Balkanlarda və Egey dənizində olan torpaqlarının çoxundan əl çəkmək məcburiyyətində qaldı. Albaniya müstəqil knyazlıq elan edildi.

Antanta dövlətləri müharibə zamanı Balkan ittifaqını müdafiə etdi. Almaniya və Avstriya-Macarıstanın gücü isə müharibənin uzanmasını, Balkanlarda daha çox qan tökültəsini, onların ittifaqlarının parçalanmasını istəyirdi. Serbiya və Çernoqoriyanın hərbi müvəffəqiyyətləri, xüsusilə onların Albaniya ərazisini mühasirə etmələri və serb qoşunun Adriatik dənizi sahillərinə çıxması (onlar alban liman olan Duratsonu tutmuşdular) ikili monarxiyanın ekspansiya planına güclü zərbə vurdu. 1912-ci ilin noyabrında alban torpağında baş verən milli-azadlıq üsyanı, Balkan yarımadası regionunda Vyana və Roma arasındakı rəqabət onları Albaniyanın taleyi ilə əaqədar seperat danışıqlara gətirib çıxardı. Onlar Albaniyanı slavyan xalqlarına qarşı qaldırmaq istəyirdilər. Vyanada gündəliyə yenə də Serbiya, həmçinin Rusiya ilə müharibə məsələsi qoyuldu. Çünki Belqradın Adriatik dənizində möhkəmlənməsi bu məsələyə münasibəti müəyyən edirdi. Bununla belə, Avstriya millitaristləri müharibə etmək qərarına gəlmədilər. Almaniya bu iş üçün sanksiya vermədi. İngiltərə hökumətinin bəyanatı ilə Almaniya hesablaşmalı oldu. Öz tərəfindən Rusiya diplomatiyası Serbiyanı inandırmağa məcbur oldu ki, o, öz qoşununu Adriatik dənizi sahillərindən geri çəksin. Çernoqoriya qoşunları isə Skutaridən çıxarıldı Sülh danışıqlarının gedişində müttəfiqlər arasında ixtilaflar ön plana keçdi.

Serbiya, Bolqarıstan və Yunanıstan Makedoniya və Albaniya əraziləri üstündə mübarizə aparırdılar. Yunanıstan bütün Egey dənizi sahillərini tələb edirdi. Kavalla limanını bolqarlar tutmuşdu. Vuruşmayan dövlət olan Rumıniya da Balkanlarda




status-kvonun pozulmasından istifadə edərək Bolqarıstanın tərkibində olan Silistriya ilə birlikdə Cənubi Dobruça hesabına ərazi kompensasiyası tələb edirdi. 1913-cü ilin yazında Bolqarıstana Makedoniyada güzəştə getməmək barədə Serbiya və Çernoqoriya öz aralarında seperat hərbi ittifaq haqqında saziş bağladılar. Balkanlarda hökmranlığına çalışan Avstriya-Macarıstan və Almaniya tərəfindən təhrik edilən Bolqarıstan 1913-cü ildə Serbiyaya və Yunanıstana qarşı qoşun çıxartdı. Çernoqoriya və Rumıniya Serbiyanın və Yunanıstanın köməyinə gəldilər. Osmanlı imperiyası da Bolqarıstana qarşı çıxdı.

Vyananın təhriki ilə çar Ferdinand Koburq iyunun 29-da bolqar qoşunlarına serb və yunan mövqelərinə hücum etmək haqqında əmr verdi. II Balkan müharibəsi başlandı ki, buna bəzən ittifaqlararası müharibə də deyilir. Bolqarıstan əleyhinə Rumıniya və Türkiyə də müharibəyə girdilər. 1913-cü ilin iyulunda Boqarıstan təslim oldu və sülh danışıqlarına başlamaq üçün vasitəçilik etmək üçün Rusiyaya müraciət etdi.

Neva sahillərində Koburqa etibar etməsələr də, yenə də çar hökuməti Bolqarıstanı Antanta düşərgəsinə cəlb etmək istəyirdi. Rusiya çalışırdı ki, sülh danışıqlarında Bolqarıstanın maraqlarını qorusun. Adrionopol dairəsi və Egey dənizində Kavalla limanı Bolqarıstanda qalsın. Adriatik dənizi məsələsində Avstriya-Almaniya diplomatiyası qətiyyətlə Portunu müdafiə edirdi, Adrionopolun qaytarılması tələbinə nə London, nə də Paris əleyhinə deyildi. Kavalla haqqında bolqar-yunan mübahisəsində Rusiya gözlənilmədən Avstriyanı müdafiə etdi. Bununla o, Bolqarıstanın hakim dairələrində öz nüfuzunu möhkəmlən-dirməyə çalışırdı. Kavalla limanı məsələsinin həllinin Fransa Yunanıstanın xeyrinə olmasına çalışırdı, İngilərə də onu dəstəkləyirdi.

Bununla Fransa Aralıq dənizinin şərqində öz mövqeyini möhkəmləndirməyə çalışırdı. Parisdə, həmçinin Londonda belə hesab edirdilər ki, Ellin krallığı slavyan ölkələrinin amibisiyalarına qarşı hasar rolunu oynaya bilər. Həmçinin bu həm də Rusiyanın Cənubi Slavyan dünyasında hegemonluğuna mane olar. Almaniya da Kaovallanın Yunanıstana verilməsi tərəfdarı



downloaded from KitabYurdu.org

idi. O, bu yolla Yunanıstanı Üçlər İttifaqına cəlb etmək niyyətində idi. Çar hökuməti isə Kavalla limanının Yunanıstana verilməsinin əleyhinə idi. Çünki bu rayon Dardanelin yaxınlığında yerləşirdi. Limanın Yunanıstana verilməsi çarizmin Yaxın Şərq siyasəti maraqları üçün təhlükəli ola bilərdi. Cənubi Dobruça məsələsində isə Antanta onun Buxarestə verilməsi tərəfdarı idi. Vyanada belə fikirləşirdilər ki, Dobruçanın əvəzində Salonikin Bolqarıstana verilməsinə nail olacaqlar. Həmçinin onlar Bolqarıstanla Rumıniyanı barışdırmağa səy göstərəcəklər. Buxarest və İstanbul sülh müqavilələrinə əsasən (10 və 26 sentyabr 1913-cü il) Bolqarıstan Makedoniyaya qarşı olan bütün ərazi iddialarından əl çəkdi. Ona ancaq Pirins Makedoniyasında kiçik bir rayon qaldı. Şərqi Frakiya Adrionopolla, Cənubi Dobruça Silistriya ilə birlikdə Bolqarıstanda qaldı. Serbiya Makedoniyanın qərbi və mərkəzi hissəsini, Yunanıstan onun cənub hissəsini (Salonik və Kavalla, Cənub Elir, Qərbi Frakiya, Egey dənizindəki bütün adalar və Krit adası daxil olmaqla) aldı.

Çernoqriya da slavyan torpaqları hesabına öz ərazisini xeyli genişləndirdi. Balkan müharibəsi təkcə iki blok dövlətlər arasındakı ziddiyyətləri kəskinləşdirməklə qalmadı, həm də bu dövlətlərdən hər birinin mövqeyini açıqladı. Cənub-Şərqi Avropada qüvvələrin yenidən qruplaşması baş verdi. Serbiya və Çernoqoriya geniş sərhədləri olan dövlətə çevrilməklə Balkan yarımadasının cənubunda Habsburqlar imperiyasının ekspansiyasına qarşı dura biləcək əhəmiyyətli gücə malik oldular. Ferdinand Koburqun başçılıq etdiyi bolqar dövləti qəti olaraq mərkəz dövlətlərlə yaxınlaşdı. Rumıniya Bolqarıstanın hesabına ərazisinin genişlənəcəyinə arxayın olduğu üçün Antantaya üz tutdu.

Makedoniya və Kosovanın etnik qrupları arasında ziddiyyətlər kəskinləşdi. Albaniya yenə də Balkan qonşuları tərəfindən iddia obyekti, Avstriya-Macarıstan və İtaliya arasında isə parçalanmış alma vəziyyətində qalmaqda davam edirdi. Balkanlar Avropanın «barıt çəlləyinə» çevrilmiş oldu.

1913-cü il iyunun 30-da başlanan İkinci Balkan müharibəsi həmin il avqustun 10-a kimi davam etdi. Bolqarıstan ağır





məğlubiyyətə uğradıldı. Yaranmış fürsətdən «Gənc türklər» istifadə edərək, Ədirnəni və ətrafdakı yerləri Türkiyəyə qaytardılar. Osmanlı dövləti Avropadakı torpaqlarının bir hissəsini itirmiş oldu.

Birinci Balkan müharibəsi alman ittifaqını zəiflətdi. Lakin İkinci Balkan müharibəsi Almaniyaya bir neçə uğur gətirdi. Əgər 1913-cü ilə qədər Antanta Balkan blokunu mərkəz dövlətlərə qarşı çevirməyi bacarmışdırsa, ikinci Balkan müharibəsi belə bir imkanı məhv etdi və Balkan bloku mövcudluğunu itirdi. 1913-cü ilin sonuna yaxın alman rəhbər dairələrində İtaliyanın loyallığına inam artdı.

Bolqarıstan və Rumıniya Antanta ilə mərkəz dövlətlərin mübarizə obyektinə çevrildilər. Hər iki qruplaşma onları öz tərəfinə çəkməyə cəhd göstərirdi. Artıq 1914-cü ildə bu hər iki dövlətin mbvqeləri müəyyənləşməkdə idi.Bolqarıstan mərkəz dövlətlərə, Ruminya isə Antantaya meyl edirdi.

Hər iki imperialist qruplaşmanın hakim siniflərinin nümayəndələri belə hesab edirdilər ki, müharibə inqilabi yüksəlişin qarşısının alınmasına kömək edər və fəhlə hərəkatının gücünü zəiflədər. Lakin bu fikrin əleyhinə olanlar da vardır. Məsələn, çar Rusiyasında təkcə Stolipin deyil, ifrat sağ deputatlardan Purişkeviç, Markov – ikinci, Durnov müharibənin əleyhinə idilər. Onlar deiyrdilər ki, Almaniya ilə müharibə Rusiya üçün deyil, İngiltərə və Fransa üçün lazımdır. Onlar təsdiq edirdilər ki, Rusiya üçün müharibə heç bir xeyir gətirməyəcək. Müharibədə həm xalq təsərrüfatı dağılacaq və həm də o, ölkədə sosial partlayışa səbəb olacaqdı. Rusiyada o dövrdə hakim burjua partiyaları olan kadetlər və oktyabristlərin əksər nümayəndələri isə belə hesab edirdilər ki, müharibədə Rusiyanın qələbəsi onun Yaxın Şərqdə mövqeyini möhkəmləndirəcəkdir.

Digər imperialist ölkələrində də siyasi xadimlər müharibəyə və inqilabi mübarizəyə münasibətdə müxtəlif inqilabi fikirdə idilər. Bir qismi belə hesab edirdi ki, müharibə inqilabı daha da yaxınlaşdıracaq. Əksəriyyəti isə belə hesab edirdi ki, «Vətənpərvərlik hissinin yüksəlişi» nə səbəb olan «Milli birliyi» möhkəmləndirər, inqilabi mübarizəyə ya son qoyar, ya da onu



downloaded from KitabYurdu.org

zəiflədər. Xüsusilə Avstriya-Macarıstanın hakim dairələri tam əmin idilər ki müharibə Habsburqlar imperiyasındakı milli-azadlıq hərəkatını zəiflədər.

**Siyasi qüvvələrin yerləşməsi və hərbi hazırlıq.**1914-cü ilə yaxın ümumi beynəlxalq siyasi vəziyyət əsas imperialist ziddiyyətlərinin son dərəcə kəskinləşməsi ilə müəyyən edilirdi. Bunlar ingilis-alman, rus-alman, Rusiya_Avstriya, fransaz-alman və digər ziddiyətlər idi. Bu ziddiyyətlər iki imperialist bloku arasında baş verirdi. Ziddiyyətlərin bölünməsi nəticəsində Atnantanın üç böyük dövləti, yəni İngiltərə, Fransa, Rusiya Almaniya-Avstriya ittifaqına qarşı dayanmışdı. İngiltərə və Almaniya arasındakı ziddiyyətlər daha güclü idi. Almanları təkcə Fransa və Rusiyanın gücü ilə təcrid etməyin mümkün olmaması İngiltərənin Fransa və Rusiyanın tərəfində çıxış etməsini qaçılmaz edirdi. Əgər müharibə Fransa-Rusiya qruplaşması ilə Almaniya-Avstriya qruplaşması arasında olardısa, İngiltərə, şübhəsiz, birinciləri müdafiə edəcək idi. Yaranmış şərait Fransa və Rusiyaya bunu nəzərə almağa imkan verirdi. İngiltərənin xarici işlər naziri Qreylə Frasanın xarici işlər naziri Kambon arasındakı məktublar mübadiləsi, xüsusilə ingilis-fransız hərbi-dəniz konvensiyası bu ümidi daha da artırırdı. Bütün bunlarla bərabər Rusiya və Fransa siyasətinin rəhbərləri öz subyektiv fikirlərində İngiltərənin mövqeyinə tam inanmırdılar.

Almaniya və Avstriya-Macarıstan daha çox o imkanla hesablaşırdılar ki, öz düşmənlərinə qarşı ikilikdə müharibə etməli olacaqlar. Onlar İtaliyanın kömək etməyəcəyini nəzərdən qaçırmır və hətta İtaliya-Avstriya sərhədində bir neçə qoşun hissələri yerləşdirməyi məsləhət bilirdilər.

Kiçik dövlətlərdən Serbiya və Belçikanın Antantanın sıralarında olması qaçılmaz idi. Bir tərəfdən, Avstriya-Serbiya ziddiyyətlərinin dərinliyi, digər tərəfdən Şliffen planının xüsusiyyətləri Serbiya və Beçikanı Antanta tərəfə sürükləyirdi.

İngiltərənin Fransa-Rusiya qrupu ilə əməkdaşlığı İspaniya, İtaliya və Sakndinaviya ölkələrinin bitərəfliyini təmin edirdi. Bütün bu ölkələrdə (Danimarka və Norveçdən başqa güclü nəhəng alman qruplaşmaları vardı və onlar hakim dairələrdə və iri




kapitalın nümayəndələri arasında xüsusi nüfuz sahibi idilər. Dənizlə bağlılıq onları dənizdə hökmran edən İngiltərə-Fransa donanması ilə hesablaşmağa və Antantanın tərəfinə gəlməyə məcbur edirdi.

Nəzərə almamaq olmazdı ki, Almaniyanın yeganə sadiq müttəfiqi Avstriya-Macarıstan idi. Bu dövlət isə güclü deyildi. Avstriya-Macarıstandakı milli mübarizə onu hər an dağıda bilərdi. Bu isə onu xəbər verirdi ki, yaxın illərdə Almaniya üçün dünyada siyasi şərait kəskin surətdə pisləşə bilər. Əgər Avstriya-Macarıstan imperiyasının dağılması başlanacaq müharibədən əvvəl baş verərdisə, Almaniyanın vəziyyəti daha da ağırlaşa bilərdi.

Son illər ərzində Almaniya üçün Ən böyük siyasi uğur ingilis-fransız Antantası yaradıldıqdan sonra Türkiyəni öz tərəfinə çəkməyi bacarması oldu. Balkan müharibəsindən sonra bu əsas fakt oldu.

İtaliyanın Avstriya ilə arasında olan ziddiyyətlər də onu Antanta düşərgəsinə itələyirdi.

1902-ci il İngiltərə-Yaponiya sazişi Antanta üçün Yaponiyanın bitərəfliyini təmin edirdi. O cümlədən, Fransa-Yaponiya və Rusiya-Yaponiya sazişləri də bu bitərəfliyi möhkəmləndirirdi.

ABŞ-ın mövqeyi də mühüm əhəmiyyət kəsb edirdi. Ciddi ziddiyyətlər ABŞ-ı təkcə Yaponiyadan deyil, İngiltərə və Almaniyadan da ayırırdı. Bununla yanaşı, Amerika imperializmi İngiltərə ilə mürəkkəb qarşılıqlı münasibətlər şəbəkəsi ilə bağlı idi. İngiltərə Kanada və Vest-İndiyanın təhlükəsizliyini təhlükə altında qoymamaq, ABŞ və Latın Amerikası ölkələrinə qoyduğu nəhəng kapitalını itirməmək üçün ABŞ-la mübahisə etməyi bacarmırdı. Öz növbəsində ABŞ da Mərkəzi və Cənubi Amerikada ingilis-amerikan rəqabətinin kəskin olmasına baxmayaraq İngiltərə ilə yola getməyə məcbur idi. Bunun səbəblərindən biri o idi ki, İngilis-yapon sazişinin olmasına baxmayaraq İngiltərə ABŞ üçün Yaponiyaya qarşı duran bir ölkə idi. İkincisi, İngiltərə ilə iqtisadi əlaqələrin kəsilməsi ABŞ-ın iqtisadi çiçəklənməsinə zərbə vurmaq demək idi. Bu hərəkət



downloaded from KitabYurdu.org

nəticəsində iqtisadi zərbə o qədər amansız olardı ki, Amerikan burjuaziyası bunu heç vaxt öz hökumətinə bağışlamızdı. 1913-cü ildə İngiltərəyə 600, Kanadaya isə 420 mln. dollar həcmində amerikan malları daxil olmuşdu ki, bu da Birləşmiş Ştatların bütün ixracının 2/5 hissəsi demək idi. İngiltərə ilə münasibətlərin kəsilməsi təkcə İngilis bazarının bağlanması demək deyildir. Həm də bu, böyük bir dövlətlə – dənizdə hökmranlıq edən bir dövlətlə münaqişə ABŞ üçün Latın Amerikasından başqa bütün Yer kürəsinin bazarlarının bağlanması demək idi. Axı, Britaniya donanması öz müttəfiqi Yaponiya ilə birlikdə Avropa, Afrika, Cənubi Asiya və Uzaq Şərqə gedən dəniz yüklərini əhatəyə ala bilərdi.

ABŞ İngiltərə və Rusiyanın qələbəsini və güclənməsini arzu etmirdi. Ancaq Almaniyanın qələbəsi, onun bütün Avropada hegemonluğunun bərqərar olması onu daha çox qorxudurdu. ABŞ-ın rəhbər dairələri belə hesab edirdilər ki, Antantanın bir-biri ilə rəqabət aparan üç dövlətinin Almaniya üzərində qələbəsi Antantanın ancaq Avropada deyil, həm də köhnə dünyanın xeyli hissəsində bölünməz hegemonluğuna səbəb olacaqdı. Nəticədə isə bu üç dövlətin toqquşması nəticəsində bərabər hərəkət edən, müəyyən istiqaməti olan ABŞ siyasəti qalib gələcək, Antanta ABŞ-ın daha xeyirxah bitərəflik siyasəti ilə əhatə olunacaqdı.

**Hər iki imperialist qruplaşmasının hərbi potensialı.**Hərbi intizamın aşağıdakı amilləri xarici siyasət və diplomatiya fəaliyyəti məsələlərinin həllində mühüm təsirə malik idi.

Çar Rusiyasının hərbi gücünün zəifləməsi Antantanı narahat edirdi. Digər tərəfdən isə, beynəlxalq hadisələri düzgün anlamaq üçün yaddan çıxarmaq olmazdı ki, çar Rusiyası 1914-cü ildə hərbi münasibətlərə hələ hazır deyildi. Bununla belə, hər halda onun müharibəyə hazırlığı vəziyyəti o qədər də acınacaqlı da deyildi. Onun hazırlığı Bosniya böhranı və Birinci Balkan müharibəsi dövründəkindən müqayisəedilməz dərəcədə yaxşı idi. Rusiyanın hərbi hazırlığı başa çatdırmaması ilk növbədə insan ehtiyatları məsələsində idi ki, bu da Antanta üçün çox vacib idi. Lakin hadisələrin gedişi göstərirdi ki, bu məsələ də Rusiyada tezliklə yerinə yetiriləcəkdir.





1914-cü il yaxın Almaniya Rusiya və Fransadan daha yüksək hərbi hazırlıq vəziyyətində idi. Almanların əsas sərvəti yüksək səviyyəli ağır səhra artilleriyasının olması idi. Hərbi texnika və silahlı qüvvələrin təşkilində də əsas üstünlük Almaniyaya məxsus idi. Ehtiyat hissələri və döyüş hazırlığı, komandir kadrlarının da hazırlıq səviyyəsi yüksək idi. Zabit kadrlarının sayına görə də Almaniya bütün dövlətlərdən irəli idi. Almaniya çox geniş, hərbi yüklər üçün hazır olan dəmiryolu şəbəkəsinə malik idi. Almaniyanın hərbi sənayesi və onun potensialı, İngiltərəni çıxmaq şərti ilə, bütün Antanta dövlətlərininkindən çox idi.

Avtriya-Macarıstan ordusunun mənəvi əhvall-ruhiyyəsi çox aşağı səviyyədə idi. Slavyan hissələri xüsusilə ruslara qarşı vuruşmaq istəmirdilər.

İngiltərənin ekspedisiya qoşunu böyük deyildi, cəmisi 6 diviziya idi, lakin yüksək səviyyədə idi. Müstəmləkələrdə və dominionlarda xeyli hissəsi təlimsiz olsa da, böyük canlı qüvvə ehtiyatı var idi. Hindistanda 160 min nəfərlik **tuzemna** ordusu var idi ki, müstəsna hazırlıq vəziyyətində idi. O, ehtiyatda saxlanılırdı. Bu qoşunun bir hissəsi Avropaya gətirilə bilərdi, lakin bu, vaxt tələb edirdi. İngiltərənin Rusiya və Fransa ilə birləşməsi Antantanın hərbi sənaye potensialını Almaniyanın potensialı ilə bərabərləşdirirdi.

1914-cü ilə yaxın da Almaniya dənizdə yenə də İngiltərəni ötüb keçmək səviyyəsində deyildi. İngiltərənin dənizdə 30 drednoutu yerləşirdi ki, bu da birlikdə götürüldükdə Fransa və Rusiyanınkına bərabər idi.

İngiltərənin 44 xətt gəmisinə qarşı Almaniya ancaq 30, Avstriya isə 20 xətt gəmisi qoya bilərdi.

Gəmidaşıyan gəmilər üzrə də İngiltərə üstün idi, lakin bu gəmilər kifayət qədər tam gücə malik deyildi. İngiltərə və Fransanın 26 ağır zirehli kresyerinə qarşı Alman bloku ancaq 5-ni qoymaq iqtidarında idi. Nəhayət, İngiltərə və Fransa 52 itisürətli yüngül kreyserə malik olsa da, alman bloku ancaq 28 beləsinə sahib idi.



downloaded from KitabYurdu.org

Antantanın dənizdə üstünlüyü onun Almaniyanı blokadaya almaq imkanını təmin edirdi. Bu da göstərirdi ki, Almaniya ancaq xammal və ərzaq resurslarını (ehtiyatlarını) ələ keçirməyə istiqamətlənməyə məcbur idi. Bu ehtiyatların mənbəyini isə ancaq Mərkəzi və Cənubi-Şərqi Avropada, Asiya Türkiyəsində axtarmalı idi. Bu dövrdə bütün dünyanın resursları Antantanın xidmətində idi. Dənizdə hökmranlıq ABŞ-ı Antantanın arsenalına çevirdi. Bununla belə, 1914-cü ildə kontinentdə müharibə aparmaq üçün bütün bunlar kifayət hesab edilmirdi. Kontinentdə baş ştablar və hökumətlər qısa müharibə aparmağı planlaşdırırdılar. Ona görə də Almaniya tezliklə müharibəyə başlamaq istəyirdi. Bunun əsas səbəbini isə Almaniya Rusiyanın böyük hərbi proqramının hələ başa çatmaması, Avstriya-Macarıstanın hələ parçalanmaması, İtaliyanın hələ tam əks-mövqe tutmaması, Balkan blokunun iflası ilə əlaqədar Antanta qüvvələrinin zəifləməsindən istifadə ilə əlaqələndirirdi. Alman hökuməti yüksək hazırlıq səviyyəsini nəzərə alaraq dərhal sürətli fəaliyyətə başlamağı lazım bilirdi. Fransa və Rusiya üçün isə tam bir neçə il gözləmək gərək idi. Əhəmiyyətli vaxt lazım idi ki, canlı qüvvənin və ehtiyatarın miqdarına münasibətdə Antantanın sərvəti döyüşən gücə çevrilsin.

Müharibəyə səfərbərlik ehtiyatları 16 milyon silah, 24,6 min pulemyot, 25 min artileriya silahından, 10 mlrd-a yaxın patrondan və 26,6 milyona yaxın mərmidən çox idi.

Müharibə ərəfəsində alman ordusunun tərkibində 3800 min, onun rəqiblərində isə 5800 min adam var idi. Silahların müqayisəsi 9383 və 12294, təyyarələrdə 311 və 597, Xətt gəmilərində 53 və 101, kreyserlərdə 62 və 156, sualtı qayıqlarda 35 və 174 şəklində idi.

1911-ci ildə Almaniyada təxminən 10 min nəfər qoşunun şəxsi heyətini artırmaq qərara alınmışdı. 1912-ci ildə tərkib daha 29 min nəfər artırıldı. Sürətlə silahlanma 1913-cü ildə daha da gücləndi. Reyxstaq sülh zamanında ordunun sayının 136 min nəfərə çatdırmaq haqqında qərar qəbul etdi. Bunun üçün büdcədən 898 milyon marka pul ayrılmalı idi. Bu dövrdə Almaniyada 64 milyon, Fransada isə 40 milyon adam yaşayırdı.





Çar Rusiyası da 1913-cü ildə «böyük hərbi proqram» qəbul etdi ki, o, 1917-ci ilə qədər həyata keçirilməli idi. Ordunun şəxsi heyətinin sayı 480 minə çatdırılmalı, yəni 39% artırılmalı idi. Bu 500 milyon rubl xərc tələb edirdi. Proqramın həyata keçirilməsinə 1914-cü ildə başlanılmalı idi. Rus ordusunun ən zəif yeri onun səfərbərliyinin və sərhədlərdə cəmləşməsinin uzun vaxt tələb etməsi idi.

Birinci dünya müharibəsi üçün Fransanın strateji planını baş ştabın rəisi general Joffer hazırlamışdı. Planda almanların Cənubi Belçika və Lüksemburqdan olan hücumunun qarşısını almaq əsas diqqətdə idi. Qərb cəbhəsindəki əməliyyatlarda ingilis ekspedisiya korpusunun iştirakına xüsusi əhəmiyyət verilirdi. Bundan başqa İngiltərə Antantanın dənizdə bütün kommunikasiya sərvtələrini də nəzarətdə saxlamalı idi. Rusiyanın köməyinə ümid böyük idi.

Balkan müharibələri beynəlxalq münasibətləri daha da gərginləşdirdi. Təsadüfi deyildir ki, Balkan yarımadasını Avropanın həm «yumşaqqarınaltısı» adlandırır, həm də «barıt çəlləyi» hesab edirdilər. Doğrudur, bu müharibələr nəticəsində Balkan yarımadasında yaşayan slavyanlar Türkiyə zülmündən xilas oldular. Lakin digər tərəfdən, Balkan dövlətləri arasındakı ziddiyyətlər daha da kəskinləşdi. Türkiyə zülmü qətnamə nəticəsində deyil, Balkan monarx hökumətlərin müharibəsi nəticəsində devrildi. Bu müharibə Türkiyəyə qalib gələnlər arasında amansız müharibəyə səbəb oldu.

Balkan müharibəsinə başlamaq üçün qisas hissi alışdı. Yunanıstan və Serbiya Albaniya üçün müəyyən edilmiş sərhədlərlə razı deyildi. İtaliya Dodekanez adalarını hələ təmizləməmişdi. Bu vaxt Türkiyə də Egey adalarını almaq üçün əlverişli fürsət gözləyirdi. Lakin bütün bunlar hələ hamısı deyildi. Balkan dövlətlərinin arxasında Yaxın Şərqdə böyük təsir gücünə malik olan böyük imperialist dövlətləri dururdu. Rusiya və İngiltərə çalışırdı ki, Türkiyəni necə olursa-olsun Almaniyanın təsir dairəsindən kənarlaşdırsınlar. Sofiya, Buxarest və Afinada, Antanta ilə Alman bloku arasında Balkan hökumətlərinin siyasi



downloaded from KitabYurdu.org

orientasiyası, hərbi qüvvələri uğrunda amansız mübarizə gedirdi. Avstriya Serbiya ilə düzəlişməyə çalışırdı.

Cənubi slavyanları Avstriya-Macarıstan zülmündən azad olmağa çalışırdılar. Serb hökuməti cəhd edirdi ki, «Böyük Serbiya»nı təşkil etsin. Rusiya isə onu himayə edirdi.

Avstiya–Macarıstanın rəhbər dairələri Serbiya və Cənubi Slavyan təbliğatında Avtriya-Macarıstan imperiyasının mövcudluğu üçün təhlükəni görürdülər. Rusiya Balkan plaşdarmında Serbiyanı Avstriyaya qarşı özünün ən yaxşı dayağı hesab edirdi. Avstriya isə Almaniyanın sanksiyası olmadan Serbiyaya qarşı müharibəyə başlaya bilməzdi. Əgər belə bir müharibə başlayırdısa, deməli, Almaniya artıq dünyanı bölüşdürmək uğrunda müharibəyə başlamaq haqqında qərar qəbul etmişdir. Fransa isə bu zaman Rusiyanı müdafiə etməyə bilməzdi. Çünki, Rusiyanı Fransanın müdafiə etməməsi təkcə Rusiyanın darmadağın edilməsi deyil, həm də Fransanın özünü alman imperializmi qarşısında müdafiəsiz qoyardı. Nəhayət, İngiltərə də Almaniya kimi təhlükəli və güclü rəqibinə qarşı mübarizədə Fransanı köməksiz qoya bilməzdi. Çünki bunu ilk növbədə İngiltərənin özünün dövlət və milli mənafeyi tələb edirdi. Bu dövrdə Balkanlar Avropanın barıt çəlləyinə çevrilmişdir. Ümumavropa partlayışı üçün ona ancaq bir kibrit vurmaq kifayət idi.

1914-cü ilin birinci yarısında hər iki qruplaşma güclü hazırlıq tədbirləri görür və öz mövqelərini gücləndirirdilər ki, gözlənilən qaçılmaz toqquşmaya hazır olsunlar. 1914-cü ilin iyununda Rusiya çarı II Nikolayla Rumıniya kralı Konstanse Sazanov arasındakı danışıqlardan sonra, Rumıniya qəti şəkildə Antanta tərəfinə keçmiş oldu. Lakin Bolqarıstan bu addımı atmadı.

Bolqarıstan Balkan blokunu bərpa etməyə çalışır və hətta güclə də olsa, Rumıniyanı da buraya cəlb etmək istəyirdi. Öz növbəsində Avstriya-alman diplomatiyası da Bolqarıstanın diqqətini özünə cəlb etmək istəyirdi. Bunun üçün ona Türkiyə ilə yaxınlaşmaq məsləhət bilinirdi ki, bloqar-türk birləşmələrinin





gücü ilə Balkan dövlətlərinin Antanta qrupunu, ilk növbədə Serbiyanı iflic vəziyyətinə salsınlar.

Rumıniya-macar qarşıdurması Transilvaniya ilə əlaqədar olaraq xüsusilə kəskin xarakter almışdı. Artıq Macarıstan Rumıniyanın mərkəz dövlətlərə qarşı münasibətində müsbət nəticənin alınmasına ümid etmirdi. Almaniya hökuməti isə, əksinə Rumıniyanı öz tərəfində saxlamaq üçün Macarıstandan tələb edirdi ki, Transilvaniya məsələsində Rumıniyaya güzəştə getsin. Bu nöqteyi-nəzəri vəliəhd Frans-Ferdinand da müdafiə edirdi. Onun macarlara simpatiyası yox idi. Macarlar da onu sevmirdilər. 1914-cü ilin iyununda Kononistdə görüş zamanı II Vilhelm və Frans-Ferdinand Rumıniya ilə ittifaqı möhkəmləndirmək, nəhayət, Rumıniya ilə Bolqarıstanın barışması üçün diplomatik proqramı hazırlamaq haqqında razılaşdılar.

**1913-cü ildə və 1914-cü ilin əvvəllərində ingilis-alman münasibətləri.**Gərgin beynəlxalq mübarizədə başlıca rəqiblər Almaniya və İngiltərə idi. İngilis-alman antoqonizmi imperialist mübarizədə əsas amil idi ki, bu da 1914-cü ildə müharibəyə gətirib çıxartdı. Bununla belə, istər 1913-cü ildə, istərsə də 1914-cü ilin birinci yarısında Britaniya diplomatiyasının gücü alman-ingilis ziddiyyətlərinin kəskinliyini ört-basdır etməyə yönəldilmişdi. Bu illərdə İngiltərə, əvvələn, Üçlər İttifaqı və Almaniyanın sərhədlərinin müəyyən edilməsi, ikincisi, Portuqaliya müstəmləkələrinin bölünməsi haqqında 1898-cu il müqaviləsinə yenidən baxmaq məsələsi haqqında danışıqlarda, nəhayət, Bağdad dəmiryolunun maliyyələşdirilməsində Almaniyaya üstünlük verilməsi məsələsində, demək olar ki, oynayırdı. Almaniyanın 1898-ci il sazişinə yenidən baxmaqda məqsədi Afrikanın içərilərinə doğru irəliləmək və onun resurslarına daha çox yiyələnmək idi.

Alman bankı olan «Diskonto-qezelişaft» «Katanqinin sənaye və dağ-mədən cəmiyyəti»nin üzərində nəzarət qoymuşdu. O, Konqoda dəmiryolu tikintisini maliyyələşdirirdi. Müharibədən əvvəl Almaniyanın maliyyə oliqarxiyası Portuqaliya Anqolasının



downloaded from KitabYurdu.org

dəniz sahillərindən Katanqiyə qədər olan ərazidə çəkilmiş dəmir yollarına sahib idi.

Portuqaliya müstəmləkələrinin bölünməsi haqqında danışıqlar kral V Qeorqun Berlinə 1913-cü ilin mayında səfəri zamanı əsasən həll edilmiş oldu. Əslində səfərdən əsas məqsəd ingilis-alman yaxınlaşmasını nümayiş etdirmək idi. 1913-cü ilin avqustunda Portuqaliya koloniyaları haqqında saziş təsdiqləndi. Britaniyanın xarici işlər naziri Qreyin bu sahədə böyük xidmətləri oldu. Qəti razılaşma 1914-cü ilin iyulunda müharibəyə bir neçə gün qalmış əldə edildi.

Bağdad dəmiryolu məsələsi də Portuqaliya müstəmləkəlirinin taleyi ilə bərabər həll edildi. Belə bir məsələ gündəlikdə durdu ki, türk kömrük ödənişinə 4% əlavə edilsin, gələcəkdə isə bu, malın dəyərinin 15%-i qədərində artırılsın. İngiltərə üçün çox vacib olan İran körfəzi sahilindəki yerlər ona təqdim edildi. Almanlar Bağdad dəmiryolunun İran körfəzindən Bəsrəyə qədər olan hissəsinin tikintisi məsələsində də razılığa gəldilər.

Hələ 1912-ci ilin payızında İngiltərə bildirirdi ki, əgər Türkiyə İran körfəzinin İngiltərənin təsir dairəsinə daxil edilməsi ilə razılaşarsa, kömrüyün 4% artırılması ilə razılaşmağa hazırdır. Bundan başqa İngiltərə tələb etdi ki, İngiltərənin xüsusi razılığı olmadan, Bağdad dəmiryolu Bəsrənin arxasına qədər çəkilə bilməz. İngiltərə tədricən ona da nail oldu ki, Bağdad və Bəsrə limanları üzərində nəzarətdə onun xüsusi imtiyaza malik olduğunu Türkiyə təsdiq etsin. Həmçinin Tiqr və Şaft-El-Araba üzrə gəmiçilikdə onun üstünlüyü təmin edilməli idi.

Nəhayət, Bağdad dəmiryolunun idarə edilməsində iki ingilis nümayəndəsinin də iştirakı təmin edildi.

Birinci Balkan müharibəsindən sonra Osmanlı dövlətinin böyük vəziri Londona gəldi. Burada əsas məsələ sülh danışıqlarında İngiltərənin müdafiəsini almaq idi. O, İngiltərəni arzuladıqları ilə qane edəcəyinə əmin etdi. Öz növbəsində Almaniya da bildirdi ki, İngiltərənin icazəsi olmadan o, Bəsrə arxasında dəmir yolu çəkməyəcək və Şaft-El-Arabada İngiltərənin «xüsusi marağı»nı tanıyacaqdır. Bu zaman Mosul rayonunda




zəngin neft yataqları aşkar edildi ki, bunun da yenə 50%-i İngiltərəyə məxsus edilirdi. Səhmlərin digər yarısı isə Almaniya və Hollandiyanın neft kompaniyaları arasında bölünürdü. Hollandiyanın neft kapitalı ilə ingilislərin əlaqəsi imkan verirdi ki, Mosul neftini İngiltərə çıxartsın. İngilis-alman konvensiyasının da məzmunu bundan ibarət idi. Bu konvensiya 1914-cü ilin iyunun 15-də imzalanmalı idi. Lakin müharibənin başlanması onun imzalanmasına imkan vermədi. Həmin müqavilədə həmçinin, İraqın sərvətlərinin ingilis və alman inhisarları arasında bölüşdürülməsi də nəzərdə tutulurdu.

Qrey ingilis-alman qarşıdurmasını, ilk növbədə, Britaniya kabinetində almanpərəst müxalifətin olması təhlükəsindən qorxaraq yumşaltmağa çalışırdı. Məhz onun zəifliyi, hətta ola bilsin ki, ikiüzlülüyü alman təcavüzünün genişlənməsi kimi ağır nəticələrə gətirib çıxartdı. Pasifist jest və manevrlərin nəticəsi olaraq Berlində və Vyanada belə bir inam möhkəmləndi ki, İngiltərə Almaniya əleyhinə müharibədə iştirak etmək istəmir. Berlində belə güman edirdilər ki, ancaq İranda ingilis-alman ziddiyyətlərinə ümid etmək olar.

İngiltərə-alman yaxınlaşmasının əlamətləri Paris və Peterburqda güclü narahatlığa səbəb oldu. Almaniya ilə danışıqlar İngiltərəni partnyorlarının gözündə aşağı saldı. Əslində İngiltərə onları özündən uzaqlaşdırmaq fikrində deyildi. Ona görə də 1914-cü ilin yazında İngiltərə kralı V Georq xarici işlər naziri Qreylə birlikdə Parisə səfər etdi. Parisdə Puankare Qreyi Rusiya ilə daha yaxın münasibətlər qurmağa, hərbi-dəniz konvensiyası bağlamağın vacibliyinə inandırdı. Qrey məsələni müzakirə etməyə razılıq verdi. Tezliklə ingilis-rus danışıqları başlamış oldu. Bu barədə almanlar dərhal xəbər tutdular. Bu xəbəri onlara Londondakı rus səifrliyində işləyən katibələrdən biri çatdırmışdı. Alman mətbüatında bu barədə ifşaedici sensasiyalı materiallar dərc edilməyə başladı. 1914-cü il iyunun 11-də Böyük Britaniyanın xarici işlər naziri Qrey parlamentdə hamının gözü qarşısında Rusiya ilə dəniz konvensiyası haqqında hər hansı bir danışıqların aparılmasnı qəti surətdə inkar etdi.



downloaded from KitabYurdu.org

**Alman imperializminin müharibəyə başlamaq qərarına gəlməsi.** 1914-cü ilin avqustunda başlanan müharibənin günahkarları əslində bütün ölkələrin imperialistləri idi. Almaniya Avropanın və dünyanın artıq ən inkişaf etmiş və müharibəyə daha yaxşı hazırlaşmış ölkələrindən idi. Artıq 1914-cü ilin iyulunda Almaniyanın Xarici işlər nazirliyinin nümayəndəsi Londondakı alman səfirinə bildirdi ki, Rusiya hazırda müharibəyə hazır deyil, İngiltərə və Fransa isə müharibə istəmirlər. Rusiyanın döyüşə hazır vəziyyətinə gətirilməsinə hələ bir neçə il lazımdır. Ona görə də biz indi müharibəyə başlamalı və ancaq bu yolla qələbəyə nail olmalıyıq.

1914-cü ilin iyununda Avstriya-Serbiya münaqişəsinin yenidən yaranması Almaniyanın planının reallaşmasına imkan verdi.

**Sarayevo qətli.**Avstriyanın Slavyan vilayəti olan Serbiyada bir sıra təşkilatlar yaranmışdı ki, onlar Serbiyanın azadlığı uğrunda mübarizəyə başçılıq edirdilər. Bu təşkilatların siyasi fikirləri eyni deyildi Serb ordusunun zabitləri içərisində «Qara əllər» adlı gizli təşkilat fəaliyyət göstərirdi. Onların məqsədi Serbiyanın Avstriya-Macarıstanın zülmündən azad edib, «Böyük Serbiya» dövlətini təşkil etmək idi. «Qara əllərin» üzvləri bir-birini tanımırdılar. Təşkilatın üzvü ancaq özündən əvvəlkini tanıyırdı və ona sadiq idi. Təşkilatın rəhbəri polkovnik Draqutin idi. O serb əks-kəşfiyyatının rəisi idi. Bundan başqa, bir neçə Milli təşkilatlar da var idi ki, onlar demokratik xarakter daşıyırdı ki, bunlardan biri də «Mlada Bosna» idi.

Avstriya imperatoru qoca Frans-İosif ömrünün son günlərini yaşayırdı. Onun qohumu, taxtın varisi Frans-Ferdinand siyasi həyatda əsas rol oynayırdı. Onun məqsədi isə Habsburqlar imperiyasını daha da möhkəmləndirmək idi. Cənubi Slavyan azadlıq hərəkatının rəhbərləri Trans-Ferdinandı 1914-cü ilin iyununda Bosniyaya manevrə gələrkən aradan götürməyi planlaşdırdılar. Bu terror aktını «Mlada Bosna»nın üzvlərindən Qabriel Prinsip və Nadelko Qabrinoviç həyata keçirməli idilər. Serb hökuməti bu qəsdi bəyənmədi. Onlar Rusiyanın hələ müharibəyə hazır olmamasından qorxurdular. Serb hökuməti





Vyanaya xəbərdarlıq etdi ki, prinsin buraya gəlməsi təhlükəlidir. Vyanada buna əhəmiyyətsiz bir şey kimi baxdılar və diqqət vermədilər. 1914-cü ilin iyunun 28-də Frans-Fendinand Bosniya şəhəri olan Sarayevoda Prinsip tərəfindən öldürüldü. Bu hadisə Vyanada çox həyəcanla qarşılandı.

**Potsdam danışıqları.**Avstriya baş ştabın rəisi Konrad fon Getsendorf Serbiya əleyhinə müharibəyə başlamağı tələb etdi. Yüngülağıllı xarici işlər naziri qraf Berxtold da onu müdafiə etdi. Bununla yanaşı kifayət qədər nüfuza malik olan Macarıstanın baş naziri Tiso isə «hərbi partiya»nın planına qarşı çıxdı. Qoca imperator tərəddüd etdi, yaşadığı üzün ömrün təcrübəsi ona artıq bir şey öyrətmişdi: Onun fikrincə, yüksək siyasi müdriklik ona gətirib çıxarmalıdır ki, imkan daxilində heç bir məsuliyyətli qərar qəbul etməyəsən. Lakin Konrad fon Getsendorf da başa düşürdü ki, Almaniyanın köməyi olmadan müharibəyə risk etmək mümkün deyildir. Böhranın birinci mərhələsində müharibə haqqında məsələ faktiki olaraq Berlində həll edilirdi. II Vilhelm imperitor Frans-İosifə Avstriyanın Balkan siyasəti ilə əlaqədar olaraq şəxsi məktub, Vyana hökumətinə isə memorandum göndərmişdi. Bu sənədləri xarici işlər dəftərxanasının rəisi qraf Xoyos təqdim etmişdi. Məktubda Serbiya dövlətinin məqsədinin bütün cənubi slavyanları öz ətrafında birləşdirmək və Habsburqlar evinə yiyələnmək olduğu aydın göstərilirdi. Həmçinin qeyd olunurdu ki, Balkanlarda Serbiya mühüm siyasi amildir və bunu nəzərə almamaq olmaz.

Avstriya-Serbiya münaqişəsi yenilik deyildir. Onların arasında son illərdə toqquşma çox olmuşdu. Lakin müharibədən qaçmaq mümkün olmuşdu. Gah Rusiya hərbi cəhətdən hazır olmadığı üçün Serbiyanı güzəştə getməyin vacib olduğuna inandırmışdı, gah da Almaniya müharibəyə başlamaq üçün əlverişli məqam olmadığını nəzərə alaraq öz müttəfiqi Avstriyanı saxlamağı bacarmışdı. Lakin bu dəfə Almaniya müharibəyə başlamaq üçün şəraitin əlverişli olduğu qənaətinə gəlirdi. Bunu Almaniya Rusiyanın müharibəyə kifayət qədər hazır olmaması ilə əlaqələndirirdi. Berlində belə qənaətə gəlmişdilər ki, əgər Rusiya Balkanlarda əsas dayağı olan Serbiyanı müdafiə etmək üçün



downloaded from KitabYurdu.org

müharibəyə başlayardısa da, hazırlıqsızlığı ona qələbə gətirə bilməyəcəkdir. Berlində belə hesab edirdilər ki, əgər Rusiya, Avstriya-Serbiya münaqişəsinə müdaxilə etməzsə, Avstriya Serbiyanı məhv edəcək, bu da Avstriya-Almaniya bloku üçün ciddi uduş olacaqdır. Yox əgər Rusiya müharibəyə başlasa, bu Almaniya üçün əlverişli böyük müharibəyə çevriləcəkdir. Lakin onu da yaddan çıxarmaq olmazdı ki, tezliklə bu şərait alman imperializmi üçün pis tərəfə dəyişə bilərdi.

1914-cü ilin iyulun 5-də II Vilhelm Potsdam sarayında Avstriyanın səfiri Segeni qəbul etdi və ona aydın cavab verdi ki, Serbiya əleyhinə çıxışa başlamağa mane olmaq lazım deyildir. Bununla Almaniya hökuməti Vyanada hərbi partiyanı qələbə ilə təmin etməyə inandırmaqla dünya müharibəsinə doğru həlledici addımı atmış oldu. Avstriyanın Serbiya ilə hesablaşmaq planını bəyənən II Vilhelm dərhal Postadama hərbi və dəniz komandanlığı nümayəndələrini çağırdı. O, onları müharibənin başlanması ehtimalı ilə əlaqədar xəbərdar etdi. Komandanlıqlar imperatora bildirdilər ki, onlar müharibəyə hazırdılar. Alman Baş ştabı mənzil qərarganının rəisi bildirdi ki, 1914-cü ilin mart ayının 31-nə qədər səfərbərlik planının həyata keçirilməsi başa çatmışdır. Həmişə olduğu kimi, ordu döyüşə hazır vəziyyətdədir. Almaniya, həqiqətən müharibəyə hazır vəziyyətdə idi.

Potsdam danışıqlarından sonra adi diplomatik pərdələnmək üçün görüləcək tədbirlər qəbul edildi. Almaniya siyasətinin rəhbərləri bu hadisədən sonra istirahətə göndərildilər.

1914-cü ilin iyulun 7-də Berlindən cavab gəldikdən sonra Vyanada Nazirlər Sovetinin iclası keçirildi. İclasda qərara alındı ki, Serbiyaya müharibə elan etməmişdən qabaq beynəlxalq ictimaiyyətin gözündən düşməmək üçün ona bir neçə tələbəlr verilsin. Onlar elə güman edirdilər ki, tələblər alcaldıcı olduğu üçün Serbiya bu tələbəlri qəbul etməyəcəklər. Bu da onlara imkan yaradacaqdır ki, Serbiyaya qarşı müharibəyə başlasınlar.

Vyanada bu işə dərhal başlanmadı. Çünki Macarıstanın baş naziri Tiso yenə də müharibəyə başlamağa etirazını bildirdiyi üçün onu sakitləşdirmək lazım idi. O, müharibəyə başlamağın faydasız olduğunu göstərirdi. O, deyirdi ki, Avstriya-Macarıstan




dualist dövlətdir. Onun ikinci tərəfi Macarıstan müharibəsinin əleyhinədir. Macarıstan ehtiyat edirdi ki, müharibə nəticəsində Avstriya-Macarıstan-Slavyan trialist dövləti yaradılmış olar ki, bu da Macarıstanın bu dövlətdə rolunun azalmasına səbəb olar. Onun fikrincə, müharibədə məğlubiyyət köhnə Habsburqlar monarxiyasının süqutuna və parçalanmasına səbəb olacaqdır. Çox çətinliklə müharibə tərəfdarları Tisonu öz tərəflərinə çəkə bildilər. Bu məsələnin iyulun ortalarına qədər uzanması Berlini razı salmadı. Hansı tələbləri serblərə vermək məsələsinə gəldikdə II Vilhelm aşağıdakı təklifi verdi: «Deşik açmaq lazım gəldikdə sancağı dərhal təmizləmək lazımdır».

Avstriya-Macarıstan hökuməti necə hərəkət etməyi ölçüb-biçərkən Antanta dövlətlərinin diplomatları bu qiymətli vaxtı itirmədilər. Daha mürəkkəb diplomatik oyunu oynamaq İngiltərə hökumətinin üzərinə düşdü.

**Eduard Qrey diplomat kimi.**1905-ci ilin sonundan 1916-cı ilin dekabrına qədər Britaniya Xarici İşlər Nazirliyinin başında Eduard Qrey durudu. Tarixçilər mübahisə edirlər Ki, o xaricən gözəl tərbiyə almış, mehriban, sakit, nəzakətli, centlemenliyi saxlayan insan təsiri bağışlayırdı. Ser Eduard danışmağı sevirdi, amma danışığında bəzən aydın olmayan məqamlar var idi. Onunla söhbət eləyən adam bilmirdi ki, onun nitqi çox əhəmiyyətli işarələrlə doludar, yoxsa sadəcə tam mənasız bir şeydir.

Bir çox tarixçilər Eduard Qreyi elə bir insan kimi təsvir etməyə çalışırlar ki, güya o müharibənin qarşısını almaq üçün rəqib dövlət olan Almaniyanı qızışdırmamağa çalışmışdır. Lakin faktlar Eduard Qreyin siyasətinin tam mənzərəsini çəkməyə imkan verir.

Britaniya xarici işlər nazirliyi hər şeyin vəziyyəti haqqında gözəl məlumata malik idi. Sareyevo qətlindən dərhal sonra Qrey bildirdi ki, bu terror aktından Vyana hökuməti Serbiyaya qarşı təcavüzə başlamaq üçün istifadə edəcəkdir.

Həmçinin Qrey Almaniyanın razılığı ilə bu işin baş verəcəyini də gözəl dərk edirdi. Bir qədər sonra Qreyə aydın oldu ki, Rusiya bu dəfə Avstriya-Almaniya blokuna güzəştə getmək



downloaded from KitabYurdu.org

fikrində deyildir. Onda Qrey dünyanı və sülhü necə qorumalı idi? O, necə hərəkət etməli idi? Bu sullara cavabı onun xüsusi praktik təcrübəsi cavab verirdi. Hələ 1911-ci ildə Aradir böhranı baş verən zaman Ümumavropa müharibəsi təhlükəsi yaranmış oldu. O zaman İngiltərə hökumətinin başçısı Lloyd Corc və xarici işlər naziri Qrey açıq şəkildə Almaniya hökumətinə bildirdilər ki, onlar Fransanı müdafiə edəcəklər. Onda Almaniya geri çəkilməli oldu. 1912-ci ilin sonunda yenə həmin ona oxşar vəziyyət yarandıqda İngiltərə bildirdi ki, bitərəf qalmayacaqdır.

Bu təcrübə təsdiq edirdi ki, 1914-cü ilin yayında Qrey istəsə idi, sülhü xilas edə bilərdi. Berlinə belə bir illüziya səpmək lazım idi ki, İngiltərə başlanacaq Aropa müharibəsində bitərəf qalır. 1913-1914-cü illərdə Berlində belə bir ümid yaratmaq vacib idi ki, Britaniya güya öz bitərəfliyini saxlayacaq.

Eduard Qrey 1914-cü ilin iyunun 29-da parlamertdə açıq şəkildə imperator Frans-İosifin kədərinə şərik olduğunu bildirdi. Bu nəzakət aktı idi. Sareyevo qətlindən keçən bir neçə gün ərzində Qrey heç bir ciddi tədbir görməsə də, sadə informasiya toplamaqla kifayətlənmirdi. II Vilhelmlə Segenin Potsdamda görüşündən bir gün sonra, yəni 1914-cü ilin iyulun 6-da Qrey Londonda alman səfiri knyaz Lixnovski ilə görüşdü. Səfir Qreyə bildirdi ki, imperitor Vilhelm ingilis eskadrasının Kil havanasına gəlişini çox dərin razılıq hissi ilə qarşılayır. Bir qədər adi danışıqdan sonra Lixnovski Qreyə aydınlaşdırmağa çalışdı ki, irəliyə doğru hərəkət edən beynəlxalq gərginlikdə İngiltərə necə mövqe tutur? Bu məqsədlə o, Avstriyanın Serbiyaya hücum etməyə hazırlaşdığını qeyd etdi. Qrey ondan soruşduqda ki, yəqin ki, Avstriya-Macarıstan hansısa bir ərazi tutmaq istəyir, Lixnovski cavabında dedi ki, onlar yəqin ki, ərazi tutmaq üçün müharibəyə başlamırlar. Sonra Lixnovski, Almaniyanın mövqeyini açıqlayaraq bildirdi ki, əgər Almaniya Avstriya-Macarıstana kömək etməsə, Avstriya-Macarıstan ondan narazı qalacaqdır. Əgər Almaniya Avstriya-Macarıstanı müdafiə edirsə, onda ola bilsin ki, Rusiya ilə münasibətlər ciddi şəkildə kəskinləşsin. Səfiri Ən çox narahat edən məsələ isə Rusiya ilə




İngiltərə arasında dəniz konvensiyası haqqında danışıqların aparılması idi ki, bunlar da Rusiyanı Avstriyaya qarşı çevirirdi.

Qrey Lixnovskini Rusiyanın sülhsevər dövlət olduğuna inandırdı. Bununla bərabər gərginlik artarsa, o, təhlükəni dəf etmək üçün bütün tədbirləri görməyə çalışacağını bildirdi. Ancaq söhbət əsnasında Qrey onu da deməyi unutmadı ki, İngiltərə Fransanın məhv edilməsinə yol verməyəcəkdir. Qrey bundan uzağa getmədi. Ancaq nə kayzer, nə də onun hökuməti edilmiş işarədən heç bir nəticə çıxarmadılar.

Ondan iki gün sonra, yəni iyulun 8-də Qrey Rusiya səfiri Benkendorfla söhbət etdi. Qrey vəziyyətin bütün mürəkkəbliyini ona başa saldı. Onda Benkendorf həyəcanlı dünyada situasiyanı dəyişmək üçün cəhd göstərməyi məsləhət gördükdə Qrey etiraz etdi. O, Avsriyanın çıxışınının həqiqət olduğuna əminliyini bildirməklə yanaşı Almaniyanın Rusiyaya nifrətini də qeyd etdi.

İyulun 9-da Qreylə Lixnovskinin yeni görüşü oldu. İngilis naziri yenə də Rusiyanın sülhsevər əhval-ruhiyyəsi haqqında danışdı. Qrey bildirdi ki, İngiltərə Rusiya və Fransa ilə heç bir ittifaq öhdəliyi götürməyib, onlar tam sərbsət fəaliyyət göstərə bilərlər. Alman səfiri bilməyə çalışdı ki, Avstriya-Serbiya münaqişəsi zamanı Peterburqun sakit dayanacağına İngiltərə çalışacaqdırmı? Qrey bildirdi ki, əgər Avstriya Serbiyaya müəyyən edilmiş çərçivədə münasibət bəsləyərsə, onda, əlbəttə, Peterburq da daha çox dözümlülük nümayiş etdirməyə çalışacaqdır. Avstriya müəyyən edilmiş sərhədləri keçməməlidir. Əks-təqdirdə Rusiyanın slavyanlara rəğbəti onu Avstriyaya qarşı döndərəcəkdir. Qrey yenidən Lixnovskiyə bildirdi ki, o, çalışacaqdır ki, böyük dövlətlər arasında müharibə baş verməsin.

Maraqlıdır ki, Qrey Benkendorfla söhbətində qəmgin idisə, Lixnovski ilə görüşündə optimist idi. Rus səfiri ilə söhbətində o, Avstriyanın idarəedilməz olduğunu, vəziyyətin son dərəcə ciddi olduğunu bir daha xəbərdar edirdi. Qrey alman imperialistlərinin müharibəyə doğru getdiklərini görsə də, onları saxlamağa cəhd etmirdi. O, 1911 və 1912-ci il təcrübəsindən istifadə etmirdi. Bəlkə Qrey kabinetin «pasifist» qanadından qorxurdu ki, onlar Almaniya əleyhinə hay qaldırmaqla «İngiltərəni müharibəyə



downloaded from KitabYurdu.org

sürükləsinlər. Hər halda Qreyin götürdüyü xətt müharibənin qarşısını ala bilməzdi. Əksinə Qreyin siyasəti Almaniyaya təcavüzkarlığını genişləndirmək üçün imkan yaratmış oldu. Ümumiyyətlə, İngiltərinin nöqteyi-nəzərinə görə müharibə üçün vaxt xoşagələn deyildir. L.Corc «Son üç ildə biz yaxşı hazırlaşmadıq» cümləsini tez-tez təkrar edirdi. O, Askvitin kabinetində admirallığın birinci lordu postunu tuturdu. Lakin hər halda, İngiltərə Almaniyadan dənizdə güclü olaraq qalmaqda idi.

Avstriya Serbiyaya ultimatum göndərdikdə İngiltərə Sazanova təklif etdi ki, onu qəbul etsin və bildirdi ki, İngiltərə, Fransa və Rusiya birlikdə Vyana hökumətinə təsir göstərəcəklər. İyulun 23-də, yəni Avstriyanın ultimatumu Serbiyaya verdiyi gün Qrey Londondakı Avstriya səfiri Mensdorfla görüşdü. Londonda yaxşı bilirdilər ki, avstriyalılar Serbiya üçün necə fitnəkar sənəd hazırlamışdılar. Çünki hələ iyulun 22-də «Tayms» qəzeti onun tam mətnini vermişdi. Qrey üzdə təəssüflə bildirdi ki, ultimatuma cavab üçün müddət az verilmişdir. Qrey həmçinin bildirdi ki, müharibə dörd böyük dövlətin ticarətinə ciddi ziyan vuracaqdır. Söhbətin sonunda Mensdorf aşağıdakı sözlərlə görüşə yekun vurdu ki, o «həmişə soyuqqanlı və obyektiv olmşudur, sizin bizə simpatiyanızın olub-olmamasından asılı olmayaraq biz sizinlə dostluq əhval-ruhiyyəsindəyik».

**Puankarenin Peterburqa səfəri. Serbiyanın Avstriya-Macarıstana ultimatumu.** Frans-Ferdinanda qəsdin ilk günlərində Rusiya diplomatiya maşını öz gedişi ilə işləməkdə idi. Vyanadakı səfirdən sakitləşdirici xəbərlər gəlirdi. Xarici işlər nazirliyində Türkiyənin kömrüyü 4% artırması, Almaniya imperiyasının dövlət borclarının tənzim edilməsində Rusiyanın yeri, Monqolustan üçün istiqraz məsələsi ilə məşğul idilər.

Birinci həyəcan siqnalı Peterburqa Londondan Benkendorfdan gəldi. Sonra İtaliyadakı rus səfiri Avstriyanın hələdəyici mövqeyi barədə xəbər verdi. İyulun 7-də Sazanov Serbiyadakı rus səfiri Tartbiqə göndərdiyi məktubda göstərirdi ki, Avstriyada son dövrdə baş verən hadisələr sübut edir ki,





antiserb əhval-ruhiyyəsi kəskin surətdə pisləşməkdədir. Serb hökuməti məsələyə son dərəcə ehtiyatla yanaşır.

Sonrakı günlər Sazanov öz mülkünə getdi. Oradan iyulun 18-də qayıtdı. Onu vağzalda Nazirliyin məsləhətçisi Şillinq qarşıladı və ona vəziyyətin son dərəcə təhlükəli olması barədə məlumat verdi. Sazanov həmin vaxt dərhal bir neçə səfirlə görüşdü. Sazanov bilirdi ki, Rusiyanın siyasəti dinc yolla gedir, lakin passiv deyildir. Bu o demək idi ki, Rusiya artıq Bosniya və Balkan böhranından fərqli olaraq Serbiya böhranında Sakit və bitərəf dayanmayacaq, Serbiyanı müdafiə edəcəkdir. Rusiya artıq güzəştə getməyəcəkdir. Sazanov həmçinin almanlara hiss etdirmək istəyirdi ki, Avstriya-Macarıstannın rəftarı İngiltərədə müzakirə edilir. Sazanov İtaliya səfirinə elan etdi ki, Rusiya Avstriyaya Serbiya ilə hədələyici dillə danışmağa və ona qarşı hərbi ölçü götürməyə imkan verməz. Avtriyanın səfiri Sazanovla danışığında onu əmin etdi ki, Avstriya-Macarıstan sülh tərəfdarıdır.

1914-cü ilin iyulun 20-də Rusiyaya Fransa prezidenti Puankare və Nazirlər Sovetinin sədri Vivianı gəldilər. Onlar elan etdilər ki, müharibə baş verərsə, Fransa öz müttəfiqlik öhdəliklərini yerinə yetirəcəkdir. Çar hökuməti isə qərara aldı ki, 1909, 1912, 1913-cü illərdən fərqli olaraq bu dəfə artıq müharibə təhlükəsi yarandıqda güzəştə getməyəcəkdir.

Vyanada ultimatumu Puankare Fransaya qayıtdıqdan sonra Serbiyaya təqdim etməyi planlaşdırdılar. Puankare Parisə qayıtdıqdan sonra iyulun 23-də Avstriya Serbiya hökumətinə ultimatum verdi və onun 48 saat ərzində həyata keçirilməsini tələb etdi. Ultimatumda tələb edilirdi ki, 1909-cu ildə Bosniya böhranının ləğvi ərəfəsində Serbiya tərəfindən qəbul edilmiş antiavstriya hərəkətlərini dayandırmaq haqqında şərtə əməl edilsin.

Həmçinin Serbiyadan tələb edilirdi ki, Avstriya-Macarıstan əleyhinə bütün təbliğat və təşviqat yığışdırılsın. Serb mətbuatında Avstriya-Macarıstana qarşı düşmənçilik



downloaded from KitabYurdu.org

təbliğatı qadağan edilsin, Avstriya əleyhinə olan təşkilatların fəaliyyəti dayandırılsın. Məktəb təlimlərində antiavstriya təbliğatı kənarlaşdırılsın. Antiavstriya təbliğatı ilə məşğul olan serb zabitləri və vəzifəli şəxsləri dərhal vəzifələrindən çıxarılsınlar. «Avstriya Macarıstanın ərazi toxunulmazlığına» qarşı çevrilmiş hər cür cəhdin qarşısı alınsın; Sarayevo qəsdi ilə əlaqəsi olanlara ciddi cəza verilsin; Sarayevo qəsdi ilə əlaqədar olaraq Serb hökuməti özü açqılama versin; Serb hökuməti Avstriya-Macarıstan hökumətinin bütün tədbirlərini öz ərazisində həyata keçirsin.

Serb hökumətinə aydın idi ki, dövlətin ancaq müstəqilliyini və şərəfini itirmək hesabına bu sənədi qəbul etmək olar. Ona görə də Serb hökuməti dərhal müdafiə üçün Rusiyaya müraciət etdi və göstərdi ki, bu ultimatumun qəbul edilməsi Serbiyanın öz müstəqillik və suverenliyindən əl çəkməsi deməkdir. Bu cür şərtləri heç bir dövlət qəbul edə bilməzdi. İyulun 24-də Sazanova Vyananın yeni teleqramı gəldi ki, o bunu oxuduqdan sonra həyəcanla demişdir: «Bu ki Avropa müharibəsidir.» Elə həmin gün Nazirlər Sovetinin iclası keçirildi. İclasdan sonra Sazanov qoşunu sərhəddən çəkmək haqqında əmr verdi. O, Avstriyanın notasına kifayət qədər skitliklə cavab vermək tərəfdarı idi. Lakin Sazanov Almaniya səfiri ilə sərt danışaraq bildirdi ki, bu ancaq Avstriyanın Serbiya ilə müharibəsi deyil, həm də Fransa və Rusiya ilə müharibədir. İyulun 25-də Serbiya bildirdi ki, o, ultimatumun 9 maddəsini qəbul edir. Ancaq bir maddə ilə - Serbiya ərazisinə Avstriya nümayəndələrini buraxmaq və şahzadənin həyatına qəsd ilə əlaqədar təhqiqat aparılmasına razı olmadığını bildirdi. Serbiya hökuməti izah etdi ki, bu konstitusiya və qanunu pozmaqdır və cinayətdir.

Belə olduqda elə həmin gecə Avstriya-Macarıstan nümayəndə heyəti Belqradı tərk etdi. Sazanov iyulun 25-də Qreyə müraciət edərək Avstriya hökumətinin siyasətini mühakimə etməyi xahiş etdi. Ona oxşar xahiş Fransa hökuməti





tərəfindən də Londondan edildi. Sazanov bildirdi ki, İngiltərənin öz mövqeyini bildirməsi Almaniyanın siyasətinə həlledici təsir edə bilər və müharibənin qarşısı alına bilər. Sazanov bildirirdi ki, əgər İngiltərə qəti surətdə bildirsə ki, o, Fransa və Rusiyanı müdafiə edəcək, Almaniya müharibəyə başlamağa cəsarət etməyəcək.

**İngiltərinin mövqeyi.** İyulun 24-də Avstriya səfiri Mensdorf Avstriyanın notasının surətini Qreyə təqdim etli. Qrey bildirdi ki, bu sənəd diplomatiya tarixində onun tanış olduğu ən heyrətedici notadır. Həmin gün səfir Lixnovskini Qrey qəbul edərək bu müharibənin Avstriya ilə Serbiya arasında lokal, yəni məhəlli müharibə olduğunu göstərdi və qeyd etdi ki, bunun İngiltərəyə aidiyyəti yoxdur. Qreyin fikrincə, müharibə dörd dövlət arasında, yəni Almaniya, Avstriya-Macarıstan, Fransa və Rusiya arasında başlasa da, tezliklə ona beşinci dövlət, yəni İngiltərə də daxil ola bilər.

İyul ayının 26-da kral V Georq Almaniya imperatorunun qardaşı şahzadə Henrix Prusski ilə söhbət etdi. Söhbət haqqında prins inandırıcılıqla şərh edirdi ki, İngiltərə tam neytral mövqedə dayanacaqdır. Prins bildirirdi ki, Almaniya üçün İngiltərənin uzun müddət bitərəf qalması tələb olunmurdu. Çünki Şliffen planına görə Almaniya bir neçə həftə ərzitndə Fransanı məhv etməli idi. Hətta qısamüddətli İngiltərənin bitərəfliyi alman imperializminin öz məqsədlərinə nail olması üçün kifayət idi. Aydın görünürdü ki, ingilis diplomatiyası Rusiya və Fransanı Mərkəz dövlətlərə qarşı müharibəyə doğru itələmək üçün onlarda cəsarət hissi aşılamağa çalışır.

Qrey hələ iyulun 24-də təklif etdi ki, dörd dövlətin İngiltərə, Fransa, Rusiya, İtaliyanın vasitəçiliyi ilə böhranın qarşısını almaq məsələsi müzakirə edilsin.

İyulun 28-də Avstriya-Macarıstan hökuməti teleqrafla Serbiyaya müharibə elan etdi. Hərbi əməliyyət başlandı. Peterburqdan və Parisdən İngiltərədən öz mövqeyini bildirməsi



downloaded from KitabYurdu.org

tələb edildi. İyulun 29-da Britaniya donanması Portlanddan hərbi bazaya gəldi. İyulun 29-da Qrey iki dəfə Lixnovski ilə görüşdü. Qrey, nəhayət, ikinci görüşdə Alman səfirinə özünün əsas mövqeyini bildirdi. Nazir dedi ki, Britaniya hökuməti Almaniya ilə əvvəlki dostluğunu saxlamağı arzulayır və İngiltərə bu mövqedə ancaq müharibə Avstriya ilə Rusiya arasında davam edənə qədər qalacaqdır. Lakin müharibə uzanarsa, biz və Fransa mövqeyimizi dəyişmək məcburiyyətində qalacağıq.

Qreyin bəyənatı Berlində sarsıdıcı hisslə qarşılandı. Lixnovskidən teleqramı aldıqdan sonra kayzer yazırdı ki, “İngiltərə öz kartını o an açdı ki, artıq biz küncə dirənmişik və çıxış yolu olmayan vəziyyətdə qalmışıq. Alçaq ticarət yolçusu olan əclaf bizi nahar və nitqlərlə aldatmağa çalışmışdır. O, yaramaz, it oğlu imiş».

Həmin gün aydın oldu ki, İtaliya və Rumıniya da öz müttəfiqlərinin tərəfində vuruşmaq istəmirlər. İtaliya diplomatiyası inciklikIə bildirdi ki, Serbiya əleyhinə müharibəyə onun xəbəri olmadan başlanmışdır. İtaliya müharibədən yayınmaq üçün Avstriya-Macarıstanı ittifaq müqaviləsinin şərtlərini pozmaqla günahlandırırdı. Bütün bu xəbərlər kayzer və onun hökumətinə soyuq duş kimi təsir etdi. İyul ayının 30-da Lixnovski Qreylə söhbəti haqqında teleqram göndərdikdən sonra vəziyyət birdən-birə dəyişdi. İyulun 30-da gec olmasına baxmayaraq gecə saat $3^{00}$-da Qreyin xəbərdarlığı Vyanaya çatdırıldı. Həmin gün Berlin nə qədər teleqram göndərsə də, artıq gec idi. Çünki Avstriya-Macarıstan Serbiya ilə müharibəyə başlamışdı. Almaniyanın vasitəçilik təklifi qəbul edilmədi.




**Almaniyanın Rusiyaya ultimatumu**.Almaniyanın strateji planında Fransanı ildırım surəti ilə dağıtmaq nəzərdə tutulurdu. Həm də bu iş 40 gün ərzində başa çatmalı idi. Rusiyada səfərbərliyin ləngliyi və rus ordusunun hələ cəmləşməməsindən Almaniya istifadə etməyə çalışırdı. Almanların fikrincə, bu dövrdə Rusiya öz müttəfiqlərinin köməyinə gəlmək iqtidarında deyildir. Fransa ilə hesablaşdıqdan sonra Almaniya bütün qüvvələri Rusiyaya atmaq və onunla qurtarmaq istəyirdi. Rusiya hərbi hazırlıqla məşğul olduğundan Almaniya üçün hər ötən gün təhlükəli idi.Rusiyanın səfərbərlik tədbirlərini ləngitməyə çalışmalı idi. Serbiyanı müdafiə etməyi qərara olan çar hökuməti öz gücünə o qədər də inanmırdı. İyulun 28-də Avstriya-Macarıstan ordusunun səfərbərliyə alınması başlandı. Onda Rusiya hökuməti qərara gəldi ki, o da səfərbərliyə başlasın. Bununla yanaşı, iyulun 28-də çar II Vilelmə müraciət edərək Vyanaya təsir göstərməyi xahiş etdi. Çar xahiş edirdi ki, Almaniya müttəfiqi «Avstriyanın çox uzağa getməsinə mane olsun». II Vilhelm sözdə çar II Nikolayın təklifini bəyəndiyini bildirsə də, iyulun 29-da Rusiyaya səfərbərliyi saxlamaq haqda teleqraf göndərildi. Bu an Avstriyanın Belqradı bombalaması da məlum oldu. Elə həmin gün, yəni iyulun 29-da çar II Nikolay ümumi səfərbərlik haqqında fərmanı imzaladı. Axşam saat 9-da baş ştabın səfərərlik şöbəsinin rəisi Dobrorolski Peterburq baş teleqrafının binasına gələrək imperiyanın bütün ucqarlarına da səfərbərlik haqqında fərmanı teleqrafla çatdırdı. Lakin bir az sonra Dobrorolski çardan sərəncam aldı ki, fərmanı göndərməsin. Demə, çar II Vilhelmdən yeni teleqram alıbmış. Həmin teleqramda II Vilhelm vəd edirdi ki, Avstriya ilə Rusiyanı barışdırmağa çalışacaqdır. Teleqramla tanış olduqdan sonra çar hərbi nazir Suxomlinova xəbər verdi ki, ümumi səfərbərlik haqqında fərmanı təxirə salsın. Çar ancaq məhdud dairədə səfərbərlik keçirməyi məsləhət gördü ki, onu ancaq Avstriyaya qarşı göndərsin. Çarın II Vilhelmin təsiri altına



downloaded from KitabYurdu.org

düşməsi Sazanovu, Danişkeviçi və Suxomlinovu çox narahat edirdi. Onlar iyulun 30-da səhər tezdən çarla görüşüb onu inandırmağa çalışdılar ki, o, təsir altına düşməsin. Onlar son nəticədə II Nikolayı inandırmağı bacardılar ki, müharibə qaçılmazdır və ümumi sfərbərlik lazımdır. İyulun 31-də Avtriya-Macarıstanda da ümumi sfərbərlik başlandı. İyulun 31-də gecə yarısı Almaniya səfiri Sazanova bildirdi ki, Rusiya əgər ümumi səfərbərliyi saxlamasa, Almaniya da ümumi səfərbərliyə başlayacaqdır və bununla müharibəyə fövqəladə dərəcədə yaxın olacaqlar. Rusiya səfərbərliyi dayandırmadıqda avqustun 1-də Almaniya da ümumi səfərbərliyə başladı.

1914-cü ilin avqustun 1-də axşam Almaniya səfiri yenidən Sazanovun yanına gələrək notaya xoşa gələn cavab verilib-verilməyəcəyini soruşdu. Sazanov bildirdi ki, cavab mənfidir. Rusiya ümumi səfərbərliyi dayandırmayacaq. Almaniyanın səfiri qraf Portulus növbəti dəfə təkrar soruşduqda yenə mənfi cavab aldı. Səfiri bu çox həyəcanlandırdı. O bu dəfə Sazanova yeni notanı təqdim etdi. Bu da Almaniyanın Rusiyaya müharibə elan etməsi ilə bağlı idi. Rus-alman müharibəsi başlanmış oldu. Almaniya müharibə elan etsə də, o, Rusiyanın hazır olmadığına əmin olaraq Fransaya qarşı hərbi əməliyyat aparmağı planlaşdırdı. Byulov öz memuarlarında yazır ki, Ballin otağa girdiklə kanslerin otaqda əsəbi formada var-gəl etdiyini gördü. Onun yanında gizli məsləhətçisi Kriq var idi. Kansler Betman tez-tez Kriqə sual verirdi ki, Rusiyaya müharibə elan etməyə hələ hazır deyilik? Mən indi Rusiyaya müharibə elan etməliyəm. Betman belə qərara gəlmişdi ki, Almaniya hökuməti Rusiyaya çarizmlə mübarizə pərdəsi altında müharibə elan etməlidir. O, fikirləşirdi ki, bu şüar irəli sürülsə, alman sosial-demokratları öz alman imperialistlərini dünya müharibəsində müdafiə edəcəklər. Yəqin ki, burada da müəyyən həqiqət var idi. Daxili siyasət nöqteyi-nəzərindən kansler səhv etmirdi.





**İngiltərə kabinetində mübarizə.** Askvitin başçılıq etdiyi nazirlər kabineti yaxşı dərk edirdi ki, ingilis imperializminin mənafeyi Almaniya ilə mübarizə aparmağı tələb edir. Bir şey aydın idi ki, İngiltərə Fransa və Rusiya ilə həmrəylik fikrində idi. Ancaq neytralistlər Almaniyanı Fransa və Rusiyanın əli ilə darmadağın etmək fikrində idilər. Neytralistlərin liderlərindən biri lord Morley idi. Ehtiyatlılıq Askvit-Qrey qrupunu məcbur edirdi ki, ictimaiyyətin nəzərində təcavüzkar hərəkətdən qaçan kimi görünsünlər. Alman-ingilis ziddiyyətlərinin kəskinləşməsi istər-istəməz İngiltərənin Fransa və Rusiyadan asılılığını artırırdı. İngiltərə ona görə Fransa və Rusiyanı müdafiə edirdi ki, alman imperializminin güclənməsi İngiltərənin böyük dövlətçilik maraqlarına zərbə idi. Lakin onlar özləri üçün əlverişli anda müharibəyə girmək istəyirdilər.

Bunu etmək o qədər də çətin deyildir Fransanı tezliklə darmadağın etməyə çalışan Almaniya hərbi əməliyytalara Qərb cəbhəsindən başlamaq niyyətində idi. Ona görə Fransa hökuməti dözümlü olmalı idi. 1914-cü ilin iyulun 30-da Fransa hökuməti qoşunu sərhəddən 10 km. içəri çəkməyə başladı. İyulun 31-də Almaniya hökuməti Fransa hökumətinə nota göndərdi ki, Rusiya ilə müharibəyə başlayardısa, Fransa bitərəfliyini saxlayacaqdırmı? Cavab üçün 18 saat vaxt verilirdi. Əgər cavab müsbət olardısa, Almaniya səfiri Tul və Verden qolalarının girov formasında verməyi tələb edirdi. Güya bundan məqsəd Fransanın bitərəfliyi gözləməsinə nail olmaqdır. Fransı qəti şəkildə cavab verdi ki, Fransa bu məsələ ilə əlaqədar heç nəyi əvvəlcədən deyə bilməz. Avqustun 1-də Puankare səfərbərlik haqqında əmr verdi. Almanların buna etirazı çətin idi. Çünki Almaniya özü ümumi səfərbərlik keçirirdi.

Alman Baş Ştabının rəisi Qərb cəbhəsində hərbi əməliyyatlara tezlliklə başlamağı tələb etdi. Artıq avqustun 1-də Fransaya müharibə elan etməyin mətnini Betman tərtib etdi.



downloaded from KitabYurdu.org

Bu aktı əsaslandırmaq üçün Betman belə bir yalandan istifadə etdi ki, güya sərhəddə qanun pozuntusu baş vermişdir və Fransa aviasiyası Almaniya ərazisi üzərində uçuş keçirmişdir. Fransaya müharibə elan etmək haqqında nota Almaniya tərəfindən 1914-cü ilin avqustun 3-də axşam təqdim edildi.





## II fəsil

## Birinci dünya müharibəsinin gedişi və bu dövrdə beynəlxalq münasibətlər

### 1.Birinci dünya müharibəsinin gedişi

**Birinci dünya müharibəsinin başlanması.**Hərbi-siyasi blokların qlobal qarşıdurması şəraitində başlanan Avstriya-Macarıstan və Serbiya arasındakı «məhəlli müharibə» tezliklə bütün qabaqcıl Avropa dövlətlərinin geosiyasi maraqlarını üzə çıxartdı. Artıq iyunun 29-da Rusiya qismən səfərbərlik elan etdi. Bundan istifadə edən Almaniya avqustun 1-də Rusiyaya, avqustun 3-də onun müttəfiqi Fransaya müharibə elan etdi. Avqustun 4-də Almaniya Belçikanın birətəfliyini oradan Fransaya soxulmaq üçün pozdu. Avqustun 5-də Böyük Britaniya Almaniyaya müharibə elan etdi. Bir qədər sonra Türkiyə və Bolqarıstan Almaniya ilə ittifaqa girdilər və «Dördlər ittifaqı» təşkil edilmiş oldu. 1914-cü ilin avqustunda Yaponiya Almaniyaya müharibə elan etdi. 1915-1917-ci illərdə İtaliya da Antanta ilə ittifaqa girdi. Dördlər ittifaqına qarşı həmçinin Portuqaliya, Rumıniya, Yunanıstan, ABŞ müharibəyə başladı. Hərbi əməliyyatlarda iştirak etməsə də, Çin, Liberiya, Siam, Latın Amerikasının on dörd dövləti də mərkəz dövlətlərə müharibə elan etdi.

Beləliklə, Balkanlarda başlayan məhəlli münaqişə böyüyərək tarixdə birinci dəfə olaraq dünya müharibəsinə çevrildi. Öz xarakteri etibarilə bu müharibə imperialist müharibə idi. Avropa kontinentində ağalıq, müstəmləkə mülkrəni bölmək, ucuz xammal mənbələri və satış bazarları ildə etmək uğrunda iki qrup dövlətlər arasında gedən müharibə idi. Dünya müharibəsi kapitalist dünyasının XIX-XX əsrlər qovşağında inkişafının qanunauyğun nəticəsi idi. O, kapitalist sisteminin daxili tranformasiyasından doğulmuşdu. Müharibə kapitalist dövlətlərinin getdikcə artan



downloaded from KitabYurdu.org

sosial-iqtisadi, siyasi və mənəvi böhranından xarici ekspansiya yolu ilə çıxmaq cəhdi idi.

**1914-cü ildə müharibənin gedişi.**1914-cü il avqustun lap əvvəlində müharibə edən Avropada üç cəbhə yaradılmışdı. Qərb cəbhəsi Şimal dənizindən İsveçrəyə qədər, Şərq və ya rus cəbhəsi Baltik dənizindən Rumıniyaya qədər, Balkan cəbhəsi isə Dunay çayı boyunca uzanırdı. 1914-cü ilin payızında yaranan Qafqaz cəbhəsi isə Batumdan Urmiya gölünə qədər olan ərazini əhatə edirdi.

1914-cü ilin avqustun 2-də Almaniya ordusu Lüksemburq ərazisini mühasirəyə aldı. İki gün keçdikdən sonra almanlar Belçikaya soxuldular 11 günlük mübarizədən sonra Belçika qoşunlarının əsas sərhəd müdafiə məntəqəsi olan Lyej qalası alındı. Alman qoşunları ölkənin içərilərinə doğru irəliləməyə başladılar. Neytral ölkənin müdafiəsiz sərhədinə gözlənilməz hücum Almaniyanın Qərb cəbhəsində strateji təşəbbüsü ələ almasına səbəb oldu. Fransız komandanlığı cavab hərəkəti planını dəyişdirməyə məcbur oldu. Fransız ordusunun Elzaz və Lotaringiyadakı cavab əməliyyatları uğursuz oldu və tezliklə dayandırıldı. Şimal istiqamətində əsas zərbə nəzərdə tutulurdu. Şelda və Muzeldən 250 km-lik aralı cəbhədə avqustun 20-də görünməmiş miqyasda sərhəd vuruşması oldu. Bu vuruşmada 5 alman, 3 fransız və 1 ingilis ordusu iştirak edirdi. Döyüş hər iki tərəfdən çoxlu sayda hücumlarla və əks-hücumlarla, inadlı əməliyyatlarla, fəal manevrlərlə gedirdi. Almaniya ordusu döyüşün gedişində daha yüksək hazırlıq səviyyəsində olduğunu nümayiş etdirdi. Onun tərəfində lazımi ləvazimat və ağır artilleriya var idi. Ordu ən yaxşı taktiki manevrlər edirdi. Komandanın tərkibi qətiyyətli və təşəbbüskar idi. Bu döyüşdəki qələbə almanlara Parisə yolu açmış oldu.





Almanların Qərb cəbhəsində hücumunun inkişafına rus ordusunun Şərqi Prussiyaya hücumu mane oldu. Şərqə dərhal Almaniya ehtiyat hissələrini göndərməyə məcbur oldu. Halbuki bu hissələrdən, əvvəlcədən müəyyən edildiyinə görə, Fransaya həlledici zərbə vurmaq üçün istifadə edilməli idi.

Rus ordusu Şərqi Prussiyada sayca Almaniya ordusundan çox idi. Lakin komandanlığın ləngliyi, texniki təchizatın geriliyi, əsas qüvvələrin parçalanması rus ordusuna qələbə gətirmədi. Almaniya rus ordusunu ilk andan məğlub etdi və əkshücuma keçdi. Avqustun sonu sentyabrın əvvəllərində Mazur gölü sahilində olan qanlı döyüşdə rus qoşunlarının bir hissəsi darmadağın edildi, bir hissəsi isə Neman çayına doğru sıxışdırıldı.

Şərqi Prussiyada məğlub olmasına baxmayaraq artıq 1914-cü ilin avqustunda Rusiya Baş ştabı Cənub-Qərb cəbhəsində Qalişiya əməliyyatı deyilən əməliyyatın strateji hücum planını hazırlamağa başladı. Hücumun uzunluğu 400 km, dərinliyi 200 km-ə qədər idi. Bu hücumda rus ordusunun artilleriya zərbəsinin təsiri altında Cənub-Qərb cəbhəsindəki Avstriya-Macarıstan qoşunları ciddi məğlubiyyətə uğradılar. Əks tərəfin itkisi 400 minə qədər idi. Bu isə əks tərəfdən döyüşən ordunun yarısı demək idi. Ruslar Qaliç və Lvovu tutdular. Bununla da, demək olar ki, bütün Qalitsiya rus ordusu tərəfindən tutulmuş oldu. Habsburqlar imperiyasının hərbi gücü sındırıldı. Bundan sonra müharibənin sonuna qədər Almaniyanın köməyi olmadan Avstriya-Macarıstan qoşunları müstəqil hərbi əməliyyat apara bilmədilər. Rus ordusu da ağır itki verdi, 230 minə qədər adam itirdi. Qalitsiya əməliyyatı birinci dəfə birinci dünya müharibəsinin hərbi taktiki xüsusiyyətlərini nümayiş etdirdi. Bunlar, manevr strategiyasından və hərbi texnikadan kifayət qədər istifadə edilə bilməməsi, frontal döyüş əməliyyatlarına



downloaded from KitabYurdu.org

yiyələnmək, hər iki tərəfdən böyük itkilərin müşahidə edilməsi idi.

1914-cü ilin qalan aylarında Şərq cəbhəsində döyüşlər fasilələrlə və müvəffəqiyyətlə keçdi. Avstriya-Almaniya birləşmiş qoşunları general P.Hindenburq və E.Lyudendorfun komandanlığı altında Varşava və Visla rayonlarında hücumu genişləndirmək istədilər. Rus ordusu buna Şərqi Prussiya və Karpat istiqamətində hərəkət etməklə cavab verdi. Rus qoşunları onları 100 km-dən çox geri oturtdular. Almaniya Fransadan daha altı korpus Şərq cəbhəsinə göndərdi. Fransa təhlükədən xilas edildi. Hərbi əməliyyatlar burada uzunsürən mövqe xarakteri aldı. Rus qoşunlarının irəliləməsi Almaniya üçün mühüm sənaye raoynları olan Siliziyanı və Poznanı təhlükə altına aldı.

Rus qoşunlarının Mazur gölü raoynundakı məğlubiyyəti Alman komandanlığına imkan verdi ki, Qərb cəbhəsində daha fəal əməliyata başlasın. Lakin eyni zamanda ehtiyat qoşunlarını daim Şərq cəbhəsinə göndərilməsi və Qərbi Lotaringiyada cəbhənin möhkəmləndirilməsi Parisə əhatəli zərbə vurmaq ideyasından Almaniyanı imtina etməyə məcbur etdi. Qoşun qarşısında Fransa paytaxtına doğru sürətlə irəliləmək vəzifəsi qoyuldu. Parisdən şimal-şərqdə yerləşən Marna çayı sahilində alman ordusu ingilis-fransız birləşmiş ordusu ilə toqquşdu. Bu vaxt Parisin bütün fortlarından Verden qalasına qədər olan geniş bir sahədə Birinci dünya müharibəsinin ən böyük və həlledici döyüşü baş verdi. Sertyabrın 2-də Fransa hökuməti Parisi tərk etdi və Bordoya köçdü. Bir həftə yarım çəkən döyüşdə bir neçə məhəlli vuruşma oldu. Həlledici hadisə sentyabrın 6-8-də oldu. Bu zaman fransız ordusu cavab hücumuna keçdi və döyüş əməliyyatları xüsusilə amansız xarakter aldı.





Bu məsuliyyətli mərhələdə həlledici rolu Fransa komandanlığı özünün sürətli manevrləri ilə döyüşün həlledici sahələrinə sahib olmağı bacarması ilə oynadı. Paris qarnizonunun hissələri döyüşün gedişində dönüş yaradaraq şəhər avtomobil taksilərində Marnaya buraxıldılar. Bu tarixdə birinci təcrübə idi ki, avtomobil nəqliyyatından hərbi məqsədlər üçün istifadə edilirdi. Alman komandanlığı isə döyüşün gedişində əvvəlki hücumu tempini saxlaya bilmədi. Sentyabrın 9-da Antanta qoşunlarına əks tərəfi Parisin möhkəmləndirilmiş raoynlarından uzaqlaşdırmaq və bütün cəbhə boyu hücuma keçmək nəsib oldu.

Marna yaxınlığındakı məğlubiyyətdən sonra Alman ordusu Belçika ərazisinə çəkildi. Ağır döyüşlərdən yorulmuş hər iki tərəf Ena çayı sahilində müdafiəyə keçdilər. Eyni zamanda Şimal dənizi ilə Uaz çayı arasındakı 200 kilometrik geniş ərazi sərbəst qaldı. Sentyabr ayının 16-dan başlayaraq alman və fransız ordusunun manevr əməliyytaları başlandı ki, bu «dənizə qaçış» adlanırdı. Bu cəhdlərin nəticəsində düşmən cəbhələri oktyabrın 16-na yaxın strateji cəhətdən əlverişli şəkildə yerləşə bildilər və sahilə qədər çıxdılar. 1914-cü ilin sentyabr-oktyabr aylarındakı qanlı döyüşlərdən sonra hər iki tərəf öz cəbhələrini Rade-Kale boğazına qədər uzatdı və İsveçrə sərhədindən Şimal dənizinə qədər məsafədə mövqe  müdafiə etməsinə keçdi. 1914-cü ilin noyabrında fasilələrlə Flandriyada uğurlu döyüş nəticəsində 1914-cü il kampaniyası başa çatmış oldu. İlin sonuna yaxın 700 kilometrik ərazidə, hansı ki, Flandriya sahillərindən İsveçrə sərhədlərinə qədər mövqe cəbhəsi yaranmış oldu. Müharibə manevr müharibəsindən mövqe müharibəsinə çevrilmiş oldu. Almanların «ildırım sürətli müharibə» planı uğursuzluğa düçar oldu.

1914-cü ildə hərbi əməliyytaların başqa cəbhələrində üstünlük Antanta və onun müttəfiqlərinə məxsus idi.



downloaded from KitabYurdu.org

Almaniyanın Afrikadakı müstəmləkələrində, Şərqdə və Sakit Okeanda hərbi əməliyytaları davam etdirilirdi. Almaniya Böyük Britaniya dəniz yollarında kreyser müharibəsini genişləndirmək istəsə də, 1914-cü ildə onun okeanlarda kreyserləri batırılmışdı. Yaponiya Tsindao hərbi-dəniz bazasını və Almaniyanın Sakit okeandakı müstəmləkə mülklərini tutduqdan sonra iş zamanın öhdəsinə verildi. İngilis-fransız qoşunlarının hücumu Almaniyanın Afrikadakı müstəmləkələrində də davam edirdi. Balkan cəbhəsində Serbiya qoşunu iki dəfə Avstriya-Macarıstan qoşunları üzərinə hücuma keçmiş və onu ərazinin sərhədlərindən uzaqlaşdırmışdı. Qafqaz cəbhəsində rus qoşunları Sarıqamış əməliyyatının gedişində türk ordusunu hiss ediləcək dərəcədə məğlubiyyətə uğratmışdılar. Türklərin 90 minlik qoşunun 70 mini bu döyüşdə ölmüşdü.

Almaniya dənizdə hərbi əməliyyat aparmaq planını reallaşdıra bimədi. Bu plan əks tərəfi zəiflətmək üçün «kreyser müharibəsi» aparmağı, düşməni tamamilə darmadağın etməyi nəzərdə tuturdu. Almaniyaya dənizdə Böyük Britaniyanın güclü hərbi-dəniz qüvvələri ilə təkbaşına müharibə aparmaq lazım gəldi. Çünki Türkiyənin və Avstriya-Macarıstan eskadralarının Aralıq dənizində üzməsinin qarşısı alınmışdı. Rus donanması isə faktiki olaraq Baltik dənizində alman donanmasını mühasirəyə almışdı. Alman hərbi gəmilərinin Şimal dənizində ingilis hərbi gəmiləri ilə tqquşması almanlar üçün uğurlu olmadı. Alman sualtı qayıqlarının fəallığına baxmayaraq İngiltərənin hərbi-dəniz qüvvələri Almaniyanın sahillərinin blokadaya alınmasını təşkil etməyi bacardı.

İngiltərənin müharibədə Üçlər ittifaqına qarşı çıxış etməsi Antantanın dünya okeanında üstünlüyünü təmin etdi. Alman donanması Baltik dənizində, Avstriya-Macarıstan





donanması isə Adriatik dənizində qapanıb qaldı. Üçlər ittifaqı dövlətləri dəniz blokadasına alındı.

Britaniya donanmasının tam üstünlüyü ələ alması metropoliyadan köməkdən məhrum olmuş Afrika və Okeaniyadakı alman müstəmləkələrinin tezliklə əldən getməsinə səbəb oldu. Yeganə müqaivmət ocağı Şərqi Afrikada qaldı. Burada kiçik-alman qruplaşması, demək olar, müharibənin sonuna kimi əlahiddə yarımpartizan hərəkətlərini davam etdirdi.

1914-cü ildəki hərbi əməliyyatlarda təşəbbüsü Üçlər ititfaqı ölkələri, hamıdan əvvəl Almaniya möhkəm surətdə öz əlində saxlayırdı. Ancaq təşəbbüsə malik olmalarına baxmayaraq, onlar ciddi müvəffəqiyyətlər qazanmadılar, strateji baxımdan 1914-cü il onlar üçün uğursuz idi. Almaniya Fransanı sıradan çıxara bilmədi, müharibə uzunsürən xarakter aldı, vaxt isə Almaniyanın xeyrinə işləmirdi. Çünki Almaniya iki cəbhədə ümumi qüvvəsi xeyli çox olan dövlətlərlə vuruşurdu. Üstəlik Almaniya dənizdən ingilis donanması tərəfindən blokadaya alınmışdı. Avstriya-Macarıstan və Osmanlı imperiyasına gəldikdə isə onlar 1914-cü il kampaniyası nəticəsində nəinki hər hansı strateji üstünlük əldə etmədilər, hətta onların qoşunarı lap əvvəldən bir sıra məğlubiyyətlərə uğradılar.

Beləliklə, 1914-cü il kampaniyası bütövlükdə Antanta üçün əlverişli oldu. Almaniyaya müharibə ərəfəsində səfərbərlikdə əldə etdiyi ləvazimat və qoşunların cəmləşməsindən istifadə etməyi bacarmadı. Bu zaman, yəni müharibənin ilk aylarında hər iki koalisiyada birgə fəaliyətdə fikir birliyi o qədər də yox idi. Bu dövrdə manevr döyüş əməliyyatları aparılsa da, tərəflərdən heç biri öz üstünlüyünü tam nümayiş etdirə bilmədi. Hər iki tərəf ancaq səfərbərliyə alınmış vasitələrindən istifadə etdilər. Silah ehtiyatları sürətlə sıradan çıxmağa başladı. Hərbi ehtiyatların



downloaded from KitabYurdu.org

çatışmazlığı, silahların atəş gücünün artması cəbhədə əlavə itkilərə səbəb oldu. Bu dövrdə əsas itki kadrlarda və hazırlıq hissələrində oldu. 1914-cü il kampanyasından çıxan əsas nəticə bu idi ki, daha çox ehtiyat kontingenti yaratmaq, müharibə edən bütün dövlətlərin sənaye bazarlarını «hərbi relsə» keçirilməsi lazımdır.

**1915-ci ildə Birinci dünya müharibəsinin gedişi.**1915-ci ilin yazında Şərq cəbhəsi Birinci dünya müharibəsinin mərkəzi cəbhəsinə çevrilmişdi.

1915-ci ilidən hərbi əməliyyatlarda şərq teatrında əsas hadisələr baş verirdi. Fransa və İngiltərə komandanlığı mövqe müharibəsi şəraitində öz ölkələrində hərbi istehsalın modernləşdirilməsi üçün vaxt udmağa çalışırdılar. Onlar qəti qələbə üçün ehtiyatlar toplamaq niyyətində idilər. Öz növbəsində Almaniya da Qərb cəbhəsində hərbi əməliyyatları fəallaşdırmaq arzusunda deyildi. O özünün bütün qüvvələrini Şərq cəbhəsində mərkəzləşdirmək və Rusiyanı seperat sülh bağlamağa məcbur etmək niyyətində idi. Rus komandanlığı isə kəskin silah çalışmamazlığına və böyük insan itkisinə baxmayaraq, fəal hərbi əməliyyatlara keçməyi planlaşdırırdı. Əvvəlki kimi bu kampaniya da iki istiqamətdə – Şərqi Prussiya və Karpat istişamətində olmalı idi. Bu dövrdə hər iki müharibə aparan qrup çalışırdı ki, neytral ölkələri öz tərəfinə çəksin.

Rusiyanı qəti məğlubiyyətə uğratmaq üçün alman komandanlığı 1915-ci ilin fevralında rus qoşunlarının cəmləşdiyi yerdə tam məhv etmək üçün hücuma keçməyi qərara aldı. Şərq cəbhəsinin baş komandanı Hindenburqun imperiyanın bütün strateji ehtiyatları, demək olar ki, sərəncamında idi. O, Şərqi Prussiyada manevr hücumunu etmək üçün plan hazırladı ki, bu planda sürətli zərbələr vurmaq nəzərdə tutulurdu. Plan «Avqust əməliyyatı»da adlanırdı. Cəbhənin bütün uzunluğu boyu almanların hücumu, rus ordusunun ehtiyatsız qalması və pis idarə edilməsi, ona böyük itkilər gətirdi. Ruslar geri çəkilməli oldular.

1915-ci ilin başlıca hadisələri Şərq cəbhəsində cərəyan etdi. Şərq cəbhəsinin komandanı general fon Hindenburqun təklifi ilə





alman komandanlığı 1915-ci ildə Avtriya-Macarıstan ordusunun qüvvələri ilə birlikdə Rusiyanı darmadağın etmək qərarına gəldi. Fevral-martda alman qoşunları rus qoşunlarını Şərqi Prussiyadan sıxışdırıb çıxardılar.

1915-ci ilin mayında Üçlər ittifaqı dövlətlərinin Qalisiyada, avqustda isə şərq cəbhəsinin şimal hissəsində hücumları başladı. Cəbhə, demək olar, hər yerdə sarsıldı. Rus ordusu faciəli itkilərə məruz qaldı: 850 min ödən və yaralanan oldu, 900 min nəfər əsir düşdü. Bundan əvvəl ələ keçirilmiş Qalisiya, habelə Polşa və Litvanı ruslar tərk etdilər. Ancaq 1914-cü ildə olduğu kimi, kampaniyanın başlıca məqsədinə çatması mümkün olmadı: Rusiyanı birtərəfli sülhə məcbur etmək baş tutmadı.

Bununla belə, rus ordusunun Osovets qalasını qəhrəmanlıqla müdafiə etməsi alman ordusunun uğurlarına maneə yaratdı. Bu möhkəmlənmiş rayon altı aydan artıq iki rus ordusu tərəfindən əhatə olundu və onu alman mühasirə korpusunun hücumlarından qorudu. Mart ayında əvvəlki tempini itirdi və sonra tamamilə dayandırıldı. Rus ordusunun hissələri hətta cəbhənin ayrı-ayrı sahələrində əks-hücuma keçməyə müvəffəq oldular. Lakin qüvvələrinin çatışmaması onları müdafiəyə keçməyə məcbur etdi.

1915-ci ilin yanvar ayının sonunda Karpat cəbhəsində (Karpat əməliyyatı) almanlar fəal hərbi əməliyyatlara başladılar. Rus və Avstriya-Macarıstan qoşunlarının qarşılıqlı hücumunda mürəkkəb dağ şəraitində hər iki tərəf böyük itki verdi. Rus ordusunun döyüş ləvazimatının və ərzağının azlığı Bukovinadakı ilk uğurları inkişaf etdirməyə imkan vermədi. Mart ayında bu əməliyyat dayandırıldı. Çünki heç bir tərəfdən o, strateji təşəbbüslə təmin edilməmişdi. Situasiyanı Antanta tərəfində İtaliyanın çıxış etməsi ilə dəyişmək olardı. 1915-ci ilin iyulun 26-da İtaliya ilə bağlanan gizli müqaviləyə əsasən ona müharibədən sonra Cənubi Tirol, Triyest, İstriya, Dalmasiya və Türkiyənin bir sıra əyalətləri verilməli idi. İtaliya, Serbiya və rus ordusunun birgə hərəkəti Avstriya-Macarıstanın varlığını təhlükə altına ala bilərdi. Öz müttəfiqini xilas etmək üçün Alman komandanlığı Qorlitsa rayonunda daha bir hücum əməliyyatı keçirdi. Bütün strateji ehtiyatlardan istifadə etmək alman ordusuna cəbhəni



downloaded from KitabYurdu.org

yarmaq və Varşavanın Şərqinə doğru hücumu inkişaf etdirmək imkanı verdi. Kütləvi surətdə minomyotlardan, xüsusilə kimyəvi silahlardan istifadənin də bu işdə böyük əhəmiyyəti oldu. Qorlitsa əməliyyatı geniş miqyaslı möhkəmlənmiş cəbhənin strateji **yarılması** sahəsində müharibə tarixində birinci təcrübə idi. Yorulmuş rus ordusu qış döyüşlərindən sonra ağır itki verərək Qalisiyanı tərk etdi. Şimal-Şərq cəbhəsinin komandanı general Alekseyev mühasirə təhlükəsindən qaçmaq üçün, qoşunları Neman çayının arxasına çəkməyə başladı. Avqustun əvvəlində Varşava, sentyabrda isə Vilnonu rus qoşunları tərk etdilər. Oktyabr ayında cəbhə xətti sabitləşdirildi. Artıq bu dövrdə Almaniya ordusu bütün Polşa ərazisinə və Pribaltikanın xeyli hissəsinə nəzarət edirdi.

Şərq cəbhəsində kifayət qədər uğurlar qazanmasına baxmayaraq Almaniya Rusiyanı seperat sülh bağlamağa məxbur edə bilmədi. Almaniya o biri cəbhələrdə geniş miqyaslı əməliyyata başlamaq imkanı qazana bilmədi. Hər iki tərəf güclü möhkəmləndirilmiş xətt yaratmış oldular. Ənənəvi olmayan silahlardan istifadə etmək cəhdi müharibəyə qorxulu xarakter verdi. 1915-ci ilin aprel ayının 22-də İpranın yanındakı mövqedə ingilis-fransız qoşunlarına qarşı müharibədə boğucu qazları tətbiq etməmək haqqında müharibədən əvvəl bağlanmış konvensiyanı pozaraq almanlar ilk dəfə zəhərli qazlardan istifadə etdilər. 15 mindən artıq adam, xlordan zəhərləndi, onlardan 5 mini öldü. Lakin bu ancaq taktiki müvəffəqiyyəti təmin etdi. Bundan sonra əleyhqaz əsgərlərin vacib hərbi əşyası oldu. Sonra hər iki tərəfdən zəhərli qazlardan daha çox istifadə edilməyə başladı.

Qərb cəbhəsində müharibə digər cəbhələrdə olduğundan daha əvvəl klassik mövqe müharibəsi xarakterini aldı. Rəqilər özlərini minalanmış sahələrlə, tikanlı məftilli sədlərlə əhatə etdilər. Əsgərlər daha çoz səngərlər və rabitə girişləri qazır, istehkamlar, atəş nöqtələri və pulemyot yuvaları hazırlayırdılar. Müharibə romantik mənzərəsini itirdi, nəhəng kişi kütlələri üçün yeksənəq, lakin təhlükəli işə çevrildi. Müharibə artıq əsgərlərin üzbəüz çarpışması deyildi, əsgərlər öz rəqibinin üzünü görmədən mərmilərdən, güllələrdən, qaz hücumlarından həlak olurdular. Bu




ölüm fabrikində təmtəraqlı mundirlər və papaqlar gülünc görünürdü; onu bütün geyimlər üçün eyni olan bozyaşıl, müdafiəedici rəng əvəz etdi. Başı mərmilərdən qoryuan polad dəbilqədən, kaskadan istifadə olunmağa başlandı. Ordu əsgərlərdən daha çox ixtisaslaşma tələb edirdi. Piyadaların içərisində pulemyotçular fərqlənirdilər. Topçuların rolu surətlə artırdı. Avtomobil sürücüləri daha çox tələb olunurdu. Cəbhəarxası xidmət daha da mürəkkəbləşdi: o nəhəng qoşun kütlələrini bütün zəruri şeylərlə təmin etməli idi. Fransız ordusu ayda 8100 min mərmi, almin ordusu isə 9000 min mərmi atırdı. Alman ordusunun aylıq patron təchizatı 250 milyon idi. Rus ordusunu ərzaqla təmin etmək üçün sutkada 300 vaqon tələb olunurdu.

Almaniya diplomatik mübarizədə də müvəffəqiyyətsizliyə uğradı. Antanta İtaliyanı öz tərəifnə cəlb edə bildi. İtaliya Üçlər ittifaqının üzvü olsa da, müharibəyə girməyə tələsmir, özünə əlverişli şərtlər axtarırdı. Avstriya-Macarıstan İtaliyaya Fransanın Aralıq dənizi sahilini, Korsika və Tunisi təklif edə bilərdi. Ancaq İtaliya əhalisinin əksəriyyəti avstriyalılar olan Tİrolu tələb edirdi ki, buna da Avtsriya-Macarıstan razılaşmırdı. Antanta isə İtaliyaya həm Tirolu, həm də Triesti və Adriatik dənizinin şərq hissəsini vəd edirdi. Aprelin 26-da müvafiq müqavilə bağlandı və bir ay sonra İtaliya Antantanının tərəfində müharibəyə başladı. İtalyan qoşunlarının hücumu o qədər də müvəffəqiyyətli olmadı və artıq iyulda İtaliya cəbhəsində də müharibə mövqe xarakteri aldı. İtaliyanın müharibəyə qoşulmasının əsas faydası Avtsriya-Macarıstanın 10-12 diviziyanı şərq cəbhəsindən götürüb İtaliya cəbhəsinə göndərməsi oldu.

1915-ci ilin payızında Bolqarıstanın Almaniya tərəfindən müharibəyə girməsi alman diplomatiyasının müvəffəqiyyətsizliyinin əvəzini qismən çıxdı. Nəticədə Üçlər ititfaqının yerinə Almaniya, Avstriya-Macarıstan, Osmanlı imperiyası və Bolqarıstandan ibarət Dördər ittifaqı yarandı. Bolqarıstan və Avstriya-Macarıstan birlikdə Serbiyanı darmadağın etdilər. Serb ordusunun qalıqları Adriatik dənizi sahilinə çəkildi və ingilislər tərəfindən oradan evakuasiya edildi. Yunan şəhəri Salonikdə



downloaded from KitabYurdu.org

sahilə çıxarılmış və bolqar ordusunun cinahına zərbə vurmaq istəyən iki fransız diviziyasının duruş gətirməsi və Serb cəbhəsi əvəzinə Salonik (Balkan) cəbhəsinin yaranması Antanta üçün təsəlli oldu.

1915-ci ildə Almaniyaya öz sualtı donanmasının fəal hərbi əməliyyatlarını dayandırmaq lazım gəldi. 1915-ci ilin yanvarın 24-də Şimal dənizində Doqqer-bankçi yaxınlığındakı alman və ingilis-kreyserləri arasındakı döyüşdə «Blyuxer» adlı alman kreyseri batırıldı. İyulun 2-də Qotland adaları yaxınlığındakı rus kreyserləri ilə uğursuz toqquşmada sübut olundu ki, sualtı müharibədə İngiltərə donanması ilə müqayisədə alman donanması kifayət qədər güclü deyildi. Belə şəraitdə başlıca vəzifə düşməni qoşunun maddi təminatına imkan verməmək idi. O, İngiltərəyə lazımi xammal və ərzaq gətirilməsinin qarşısını alaq üçün ilk dəfə yeni silahdan-sualtı qayıqlardan geniş istifadə etdi. Fevralın 4-də Almaniya bildirdi ki, ingilis blokadasına cavab olaraq Böyük Britaniyanı əhatə edən bütün suları döyüş əməliyyatı zonası elan edir və bu zonadakı bütün gəmilər sualtı qayıqların hücumuna məruz qalacaqdır. Yüzllərlə gəmi məhv edildi, onların heyətləri və sərnişinləri həlak oldu. Mayın 7-də iri ingilis sərnişin gəmisi «Luzitaniya» 1196 sərnişin ilə birlikdə batırıldı. Sərnişinlərdən 128 nəfəri amerikan olduğuna görə ABŞ bu hadisəyə qəti etirazını bildirdi. Almaniya ABŞ-ın Antanta tərəfində müharibəyə girməsindən ehtiyat edərək sualtı müharibəni məhdudlaşdırmalı oldu. Sərnişin gəmiləri xəbərdarlıq edilmədən batırılmırdı. İngiltərə isə gəmiqayırmanı sürətləndirmək yolu ilə, habelə sualtı qayıqlara qarşı səmərəli mübarizə tədbirləri hazırlamaqla başı üzərini almış təhlükəni aradan qaldırdı.

1915-ci ilin xüsusiyytələrindən biri Avropanın cənubunda hərbi əməliyyatların daha fəal getməsi idi. Bir qədər gözlədikdən sonra təxminən bir milyona qədər ordusu olan İtaliyanın Antanta tərəfində müharibəyə girməsi qüvvələr nisbətində əsaslı dəyşikliyə səbəb oldu. İtalyan ordusu İzotso çayı raoynunda bir sıra döyüş əmədiyyatlarında əks-tərəfin müqavimətini qıra bilmədi.




Ən mühüm hadisələrdən biri də 1915-ci ilin oktyabr ayının 11-də Bolqarıstanın alman bloku tərəifndə müharibəyə girməsi idi. 500 min nəfərlik bolqar ordusunun köməyi sayəsində mərkəz dövlətlərinin qoşunları Serbiya ordusunun müqavimətini qıra bildilər. Avstriya-Macarıstanın Berlindən İstanbula doğru vahid yol təşkil etmək haqqında planının reallaşması və Avstriya-Macarıstan təhlükəsi artmış oldu.

Türk ordusunun diqqətini Qafqaz cəbhəsindən yayındırmaq, Dardanel və Bosfor boğazlarından keçməklə Rusiya ilə əlaqələri bərpa etmək məqsədi ilə ingilis-fransız donanması 1915-ci ilin fevralında Dardanel istehkamlarını atəşə tutdu. Rusiya ilə gizli müqaviləyə əsasən Antanta qələbə çalardısa, İstanbul Rusiyaya verilməli idi. Lakin bu hücum da uğursuz oldu. Bir aydan sonra müttəfiqlərin donanması itki verərək geri çəkildi.

Aralıq dənizinin şərqindəki kommunikasiya xətləri üçün təhlükə yaranması Antantanı bir sıra tədbirlər görməyə vadar etdi. Okyabr ayında Yunanıstan ərazisinə ingilis-fransız ekspedisiya korpusları çıxarıldı və yeni Salonik cəbhəsi yaramış oldu. Bundan başqa yarımmilonluq korpus da Halipol yarımadasına yerləşdirildi. Onun məqsədi Dardanel üzrində nəzarətə sahib olmaq idi. Bununla belə, türk ordusu qarşı tərəfə böyük itki verdi və onların bütün hücumlarını dəf etdi.

1916-cı ilin yanvarına yaxın ingilis-fransız komandanlığı desant evakuasiya etməyə məcbur oldu.

Türk ordusu Qafqaz cəbhəsində və Suriyada bu aylarda vəziyyəti sabitləşdirməyə müvəffəq oldu. Çox böyük çətinliklə ingilis ordusu türklərin Misir və Süveyş kanalı istiqamətində hücumunun qarşısını ala bildilər. Beləliklə, 1915-ci il kampaniyası təkcə cəbhədə qayda-qanun yaratmadı, həm də alman blokuna strateji təşəbbüsü ələ almaq imkan gətirdi.

**1916-cı ildə Birinci dünya mharibəsinin gedişi.**Antanta dövlətləri belə qərara gəlmişdilər ki, iki cəbhədə müharibə Almaniya üçün reallığa çevrilməlidir. 1915-ci ildə tənəffüs əldə edən ingilislər və fransızlar Qərb cəbhəsində 1916-cı il kampaniyasına əsaslı surətdə hazırlaşırdılar. Qoşunların sayında yarımmilyonluq üstünlk əldə edildi, alman ordusunun ağır



downloaded from KitabYurdu.org

artilleriyada üstünlüyü ləğv edildi, dərin müdafiə sistemi yaradıldı. Alman ordusunun iri hücum əməliyyatları uğursuzluğa məhkum oldu. Lakin alman komandanlığı ayrı cür düşünürdü. O, belə hesab edirdi ki, Rusiyanın artıq «kitabı bağlanmışdır» və ingilis və fransızları darmadağın etmək vaxtı çatmışdır. Avstriyalılara da hərbi əməliyyatların ağırlığını italyan cəbhəsinə keçirmək təklif olunurdu.

Almaniya və onun müttəfiqlərinin 1916-cı ilə aid planları bütün cəbhələrdə status-kvonu qoruyub saxlamaq idi. Bütün ehtiyatlardan istifadə edilərək Qərb cəbhəsində ingilis-fransız qoşunlarına məhvedici zərbə vurulmalı idi.

Parisin 300 kilometrliyində yerləşən Fransının müdafiəsinin əsas məntəqələrindən olan Verden qalasına hücum Almaniyanın 1916-cı ildə əsas məqsədi idi.

1916-cı ilin fevralın 21-də alman qoşunları Verden yaxınlığında cəbhənin cəmi 40 km.-lik sahəsi boyunca, 9 saatlıq artilleriya hazırlığından sonra hücuma keçdilər. Alman komananlığı burada çox böyük qüvvə toplamışdı və fransız ordusunun axırına çıxmaq ümidində idi. Lakin alman piyadası hücuma keçdikdə gözlənilmədən fransızların qızğın atəşinə rast gəldi. Burada yarım il davam edən döyüşlərdən sonra almanlar cüzi (7 km dərinliyə) irəliləyə bildilər. Rus ordusunun Pribaltikada başlanmış gözlənilməz hücumu və injilis-fransız qoşunlarının Sommadə hücumu almanları Verdendə hücum əməliyyatlarını dayandırmağa məcbur etdi. «Verden qəssabxanasında» almanların 125 diviziyasından 50-si, fransızların diviziyasından 65-i qaldı.

Somma çayı sahilində 1916-cı ilin iyulunda ingilis-fransız qoşunları ilk böyük hücuma keçdilər. Bu hücum da almanların Verdendəki hücumu kimi davam edirdi. Vuruşmanın sonuna kimi hücum edənlər cəmi 3-8 km irəli gedə bildilər. Sommada ingilislər tarixdə ilk dəfə olaraq tanklardan istifadə etdilər. 79 tankın irəliləməsi düşmənin əsgərlərinə böyük psixoloji təsir göstərdi. Verden və Somma döyüşlərində tərəflər iki milyona qədər itki verdilər. Təkcə «Verdendə 1 milyona qədər fransız





əsgər və zabiti qırıldı. Hər iki tərəfdən şəxsi heyətin itkisi 70-100% oldu.

Verden və Somma döyüşləri Birinci dünya müharibəsinin ən qanlı vuruşmaları idi.

İngilis-fransız qoşunlarına üstün gəlməyi bacarmayan Almaniya müdafiəyə keçməyə məcbur oldu. O, Qərb cəbhəsində təşəbbüsü itirdi.

Digər cəbhələrdə uğurlar Almaniyanın Qərb cəbhəsində müvəffəqiyyətsizliyinin əvəzini ödəyə bilmədi. Avstriyalılar italyanların cəbhəsini yarıb, onları geri çəkilməyə məcbur edə bildilər. Lakin İtaliyanı tamamilə darmadağın etmək mümkün olmadı, çünki rus ordusunun yay hücumunun başlanması Avstriya-Macarıstanı qüvvələrini İtaliya cəbhəsindən Şərq cəbhəsinə keçirməyə məcbur etdi.

1916-cı il iyunun 5-də general A.Brusilovun komandanlığı ilə Cənub-Qərb cəbhəsinin qoşunları Avstriya-Macarıstan cəbhəsini yardılar və 60-100 kilometrə qədər irəliləyib 25 min kvadrat kilometr ərazini tutdular. Bu zərbə Dördlər ititfaqı ölkələrinə şaşırdıcı təsir göstərdi. Yalnız 400 min nəfər əsir götürən ruslar Macar düzənliyinə bilavasitə yaxınlaşdılar, bu düzənliyə çıxış Avstriya-Macarıstanın məğlubiyyəti demək olardı. Yalnız Verden yaxınlığından alman qoşunlarının və İtaliya cəbhəsindən Avstriya qoşunlarının gətirilməsi rus hücumunu dayandırmağa imkan verdi.

Ancaq rus qoşunlarının müvəffəqiyyəti çox gözlənilməz şəkildə Şərq cəbhəsində vəziyyəti pisləşdirdi. Bu vaxta kimi öz bitərəfliyini saxlayan Rumıniya məqamı müharibəyə girmək üçün əlverişli saydı. Avqustun 17-də Antanta ölkələri onunla gizli müqavilə bağlayıb müharibədən sonra Avstriya-Macarıstanın tərkibinə daxil olan Transilvaniya, Bukovina və Banatı ona vreməyə vəd etdilər. Lakin öldürülməmiş ayının dərisinin bölüşdürülməsinə tələsən Rumıniya hərbi cəhətdən zəif hazırlaşmışdı. Onun qoşunları dərhal darmadağın edildi. Rumıniyanın düşmən qoşunları tərəifndən işğal edilməsi Rusiyanı öz cəbhəsini daha 500 kilometr uzatmağa məcbur etdi. İndi Şərq



downloaded from KitabYurdu.org

cəbhəsi, demək olarki, Baltik dənizindən Qara dənizə qədər uzanırdı.

Türkiyə ilə müharibədə rus və ingilis qoşunları Qara dənizdən İran körfəzinə qədər, demək olar, bütöv cəbhə yaratdılar. Türkiyənin müqəddəs müharibəyə (cihad) çağırışı İranın və Cənubi Azərbaycanın bir çox tayfalarını ayağa qaldırdı. Rusiya ora ekspedisiya korpusu göndərib Türk-İran sərhədində baryer qoydu və Mesopotamiyadakı ingilis qoşunları ilə təmasa girdi. Rus qoşunları hücumu davam etdirərək bir sıra uğurlar qazandılar.

1916-cı ilin yayında Şərq cəbhəsində də hərbi əməliyyatlar sürətləndi. Müharibənin uzanması rus hərbçiləri içərisində narazılığı gücləndirdi. Rusiyanın iqtisadiyyatı artıq hərbi yükü çəkmək iqtidarında deyildi. Verden vuruşmasında düşmənin gücünü parçalamaq üçün rus komandanlığı Balikdən Rumıniyaya qədər cəbhəboyu hücuma keçmək haqqında plan hazırladı. Əsas zərbəni Qərb cəbhəsinin hissələrinə vurmaq nəzərdə tutulurdu. Cənub-Qərb və Şimal-Qərb cəbhələrinin qoşunlarını yayındıraraq, köməkçi zərbə vurulmalı idi. Bununla yanaşı, rus ordusu hələ belə bir zərbə üçün tam hazır deyildi. Başqa bir taktiki planı cənub-Qərb cəbhəsinin komandanı general A.A.Brusilov təklif etdi. Təzə plan manevrli «bölüşdürücü» hücumu nəzərdə tuturdu. Bu hücum eyni vaxtda 450 kilometrədək enində bir neçə istiqamətdə olmalı idi və cəbhənin hissələrini əhatə etməli idi. Belə olan təqdirdə əks-tərəf əsas zərbə üçün bütün qüvvələrini toplaya bilmirdi.

Litsk istiqamətində Cənub-Qərb cəbhəsinin hücumu iyunun 4-də başlandı. Əks-tərəfin ordusunun sayındakı üstünlüyünə və artilleriyada öndə olmasına baxmayaraq rus ordusu cəbhəni yarmağı və 11 gün ərzində 70-75 km irəliləməyi bacardı.

Birinci dünya müharibəsində belə surətlə hücum hələ olmamışdı. Rus qoşunları qəfil taktikanın səmərəsindən istifadə etdilər. Hücum əməliyyatında mühəndis təchizatından dəqiqliklə yararlanmaq mümkün oldu. Düşmən hasarlarını aradan qaldırmaq üçün şturm komandalarından istifadə edildi. Brusilovun yenilikçi strategiyası özünü bütünlüklə doğrultdu. Ruslar Qalitsiyanın bir





hissəsini tutdular. Lakin müvəffəqiyyətləri inkiaşf etdirmək üçün onlarda əlavə güc yox idi. Arxa ilə əlaqənin uzaqlığı və döyüş sursatının çatışmaması onların irəliləməsinə mane oldu. Ona görə də artıq iyul ayının birinci yarısında Brusilovun ordusuna Avstriya-Macarıstan qoşunlarına qarşı əks-hücumu dayandırmaq lazım gəldi. İyulda təkrar hücumun uğursuzluğu üzündən Qərb və Şimal-Qərb cəbhələrində qoşunlar fəal əməliyyata başlamalıdılar. Cənubda gedən döyüşlər hər iki tərəfdən böyük itki hesabına başa əldi. Ruslar yarımmilyona, Avstriya-Macarıstan isə 1,5 milyona qədər itki verdilər. Brusilov yarığı, müasirlərinin adlandırdıqları kimi, həlledici strateji qələbəyə gətirib çıxara bilmədisə də, çox mühüm əhəmiyyəti var idi. Verden uğrunda döyüşün ən qızğın vaxtında Almaniya qoşunlarının bir hissəsinin Qərb cəbhəsindən buraya gətirməli oldu. Avstriya-Macarıstanın hərbi qüdrətinə sarsıdıcı zərbə vurulmuş oldu. Bu faktiki olaraq italyan ordusunun darmadağın edilməkdən xilas etdi və Rumıniyanın isə Antanta tərəfində müharibəyə girməsini sürətləndirdi.

İtaliya, Balkan, Asiya və Qafqaz cəbhələrində hərbi əməliyyatlar 1916-cı ildə çox ləng jedirdi. İtaliya ordusu 1916-cı ilin may-iyun aylarında Trentinoda Avstriya-Macarıstan ordusunun müvəffəqiyətli hücumundan sonra ağır vəziyyətə düşdü. Ancaq rus ordusunun Brusilov yarığı italyanlara yenidən əks-hücuma keçməyə və əvvəlki vəziyytələri bərpa etməyə imkan verdi. Bununla belə, İzontso rayonunda gedən döyüşdə italyan hissələrinin noyabr ayına qədər hücumları kəsilməsə də, dönüş yaratmaq istəyi baş tutmadı. 1916-cı ilin avqustunda Rumıniyanın müharibəyə daxil olması da Antantaya gözlənilən uğuru gətirmədi. Azsaylı və pis hazırlanmış rumın ordusu Transilvaniya üzərinə təklikdə hücuma başlasa da, tezliklə müdafiəyə keçməyə məcbur oldu. Noyabr ayında Avtsriya-Macarıstan və Almaniyanın qoşun hissələrinə Dunayı keçmək və Buxaresti tutmaq nəsib oldu. İngilis, fransız, rus və serb qoşun hissələrindən təşkil edilmiş və Salonik cəbhəsi də yerləşən 300 minlik qruplaşma ancaq yerli əhəmiyyətli döyüşlər apardı. Beləliklə, Antantaya cənubda mərkəzləşdirilmiş hücum təşkil etmək nəsib olmadı. Avstriya-Macarıstan qoşunu da son dərəcə ağır vəziyyətə



downloaded from KitabYurdu.org

düşdü. Türkiyə ətrafında da buna oxşar vəziyyət yaranmış oldu. Rus və ingilis qoşunlarının Qafqaz və Asiya cəbhələrində dağınıq, lakin kifayət qədər müvəffəqiyyətli hərbi əməliyyatları Türkiyəni hərbi iflas həddinə gətirib çıxartdı. 1916-cı ilin yanvar-martındakı Ərzurum, aprelindəki Trabzon əməliyyatlarında, 1916-cı ilin yazında Misirdə və 1917-ci ilin martında Mesopotamiyada Bağdadın tutulması ilə nəticələnən döyüşlərdə türk ordusu ciddi məğlubiyyətə düçar oldu.

1916-cı ildə dənizdə də müharibə davam edirdi. Həmin ildə Şimal dənizində bütün müharibə ərzində ən böyük dəniz vuruşması baş verdi. ABŞ hökumətinin ultimatumu Almaniyanı məcbur etdi ki, 1916-cı ilin aprelində qeyri-məhdud sualtı müharibədən imtina etsin. 1916-cı ildə Almaniya ingilis donanmasını darmadağın etməyə və dəniz blokadasını ləğv etməyə cəhd göstərdi. Onun bütün donanması Şimal dənizinə hərəkət etdi. Britaniya donanmasını parçalamaq və hissə-hissə məhv etmək məqsədi ilə edilən uğursuz cəhddən sonra alman eskadrası Danimarka sahillərindən qərbdə ingilis donanması ilə toqquşdu. 1916-cı ilin mayın 31-də tarixdə ən böyük dəniz döyüşü – Yutlandiya dəniz vuruşması oldu. Hər iki ölkənin dəniz donanmasının əsas qüvvələri – 250 gəmi iştirak edirdi ki, onlardan 150-si ingilislərin, 99-u almanların idi. Qüvvələr nisbəti ingilislərin xeyrinə idi. Vuruşmada 44 drednout, 14 xətt gəmisi, 46 kreyser, 144 esmines iştirak edirdi. Britaniya donanması alman eskadrasını öz bazasından ayırmaq istədi. Alman eskadrası düşmənin qüvvəcə üstün olduğunu görüb dərhal geri çəkilməyə cəhd etdi. Döyüş heç bir tərəfə uğur gətirə bilmədi. İngilis donanması 3 xətt kreyseri və  və 12 başqa gəmi, almanlar isə 1 xətt kreyseri, 9 başqa gəmi itirdi. Alman donanması aradan çıxa bildi. Alman komandanlığı bundan sonra bir daha ingilis donanması ilə dyöüşə girməyə cəhd etmədi.

Bütövlükdə 1916-cı il kampaniyası ardıcıl surətdə Dördlər ititfaqının gücünün zəifləməsinə doğru gedirdi. O da aydın idi ki, qəti qələbə üçün daha çox qüvvəni cəmləşdirmək lazımdır. Müharibə daha şiddətli xarakter alırdı. Bütün tərəflərə aydın oldu ki, qələbə daha çox arxada müəyyən olunur. Döyüşən tərəflərin




komandanlığı qısamüddətli müvəffəqiyyətə ümid etmiş, böyük silah və hərbi sursat ehtiyatı yaradılmamıışdı. 1915-16-cı illərdə hamı ordunu təchiz etməyin çətinliyi ilə qarşılaşmışdı. Aydın oldu ki, hərbi istehsalın həcmi kəskin surətdə artırılmalıdır. İqtisadiyyatın yenidən qurulması başlandı. Bu bütün ölkələrdə, hər şedən əvvəl, sərt dövlət nizamlanmasının tətbiqi demək idi.

Dövlət zəruri istehsalın həcmini müəyyən edir, sifarişləri verir, xammal və işçi qüvvəsi ilə təmin edirdi. Demək olar, bütün yetkin kişilərin orduya çağırılması ilə yaranmış işçi qüvvəsinin çatışmazlığını azaltmağa imkan verən əmək mükəlləfiyyəti tətbiq olundu. Hərbi istehsal dinc istehsalın hesabına genişləndirildiyindən istehlak mallarının çatışmamazlığı yarandı. Bu, qiymətlərin nizamlanmasını və istehlakın normalaşdırılmasını tətbiq etməyə vadar etdi. Kişilərin səfrəbərliyə alınması və atların müsadirəsi kənd təsərrüfatına böyük zərbə vurdu. İngiltərə istisna olmaqla, bütün vuruşan ölkələrdə ərzaq istehsalı ixtisara düşdü, bu, yeyinti məhsullarının bölüşdürülməsinin kartçoka sisteminin tətbiqinə səbəb oldu. Ənənəvi surətdə ərzaq idxal edən Almaniyada blokada üzündən xüsusən acınacaqlı vəziyyət yarandı. Burada hökumət heyvanları taxıl və kratofla yemləməyi qadağan edərək, qida məhsullarının cürbəcür az qidalı əvəzedicilərindən istifadə etməli oldu.

Nəticədə vuruşan dövlətlərin əhalisinin əksər hissəsinin həyatı kəskin surətdə dəyişdi. Hər yerdə onun səviyyəsi aşağı düşdü. Uzuniş günü, pis qidalanma mülki əhali arasında ölüm hallarını artırdı. Ağır gündəlik əmək, növbələrdə durmaq, aclıq və soyuq milyonlarla adamın nəsibi oldu.

Artilleriya atəşləri cəbhəyanı zonada mülki əhalinin həyatının ayrılmaz cığırdaşı oldu. Arxadakı mülki obyektləri bombalamaq üçün aviasiyadan istifadə olunmasına başlandı. Əməliyyatların gedişində mülki əhali düşmən ordusunun işğalı altına düşürdü. İşğalçı hakimiyyət orqanları adətən yerli əhali ilə sərt rəftar edirdilər; müsadirələr, təzminatlar adi hal idi. Aydındır ki, dinc əhali işğaldan qaçmağa çalışırdı: qaçqınlar (didərginlər) problemi yarandı.



downloaded from KitabYurdu.org

Əhalinin əksəriyyəti bütün bu əziyyətlərə öz dövlətinin mənafeyi ilə bəraət qazandırırdı. Vuruşan dövlətlərin çoxu milli hisslərin güclü yüksəlişinə səbəb oldu. Məsələn, Rusiyada alman adlı şəhərlərin adlarının dəyişdirilməsi kampaniyası başlandı. Həmin vaxt, Sankt-Peterburq Petroqrad oldu. Mənşəcə Almaniyanın Hannover vilayətindən olan ingilis kral ailəsi yeni familiya – Vindzor familiyasını qəbul etdi. Vətənpərvərlik dalğası səfərbərliyi keçirmək və iqtisadiyyatın yenidən qurulmasına başlamaq üçün əlverişli şərait yarandı. Bu dalğa enməyə başladıqdan sonra isə onu süni surətdə yüksəltməyə başladılar, bunun üçün xüsusi təbliğat təsisatları yaradılırdı.

Ancaq artıq 1916-cı ildə vuruşan ölkələrdə getdikcə daha çox adam dərk etməyə başladı ki, heç bir məqsəd verilmiş qurbanlara bəraət qazandıra bilməz. İnsanlar müharibədən yorulmuşdular və ancaq bircə şey – onun qurtarmasını istəyirdilər. Dövlətin müəyyən etdiyi şərtlərlə işləmək istəməmək bu yorğunluğun əlaməti oldu. 1914-cü ildə tamamilə sönmüş tətil hərəkatının genişlənməsi başladı. Almaniyada 1916-cı ilin 1 May nümayişi və bu nümayişdə sosial-demokrat Karl Libknextin «Rədd olsun müharibə!», «Rədd olsun hökumət!» şüarlarını elan etməsi həqiqi sensasiya oldu. Libknext dərhal həbs olundu və tezliklə 4 illik katorqa cəzasına məhkum olundu. Avstriya-Macarıstanda digər sosial-demokrat Fridrix Adler müharibəyə etiraz əlaməti olaraq 1916-cı il oktyabrın 21-də nazirlər soveti sədrini güllə ilə vurdu.

1916-cı ildə qanlı döyüşlərdə Rusiyadan 9 milyon, İngiltərə və Fransadan təxminən 6 milyon, Almaniya və onun müttəfiqlərinin isə 12 milyon nəfər əsgər öldürülmüş, yaralanmış və əsir düşmüşdü. Həmin ölkələrin iqtisadiyyatına dəyən zərər isə ölçüyə gəlmirdi.

Bütövlükdə, 1915 və 1916-cı illərin kampaniyası ardıcıl surətdə Dördlər ittifaqının gücünün zəifləməsinə doğru apardı. Ancaq aydın idi ki, qəti qələbə üçün daha çox qüvvəni cəmləşdirmək lazımdır. Müharibə daha şiddətli xarakter alırdı.

Hərbi əməliyyatlarda Antantanın xeyrinə dönüşün başlanmasının müşahidə olunması fonunda müharibə əleyhinə





əhvali-ruhiyyənin meydana çıxması alman hökumətini sülh bağlanması mümkünlüyünü yoxlamağa vadar etdi. 1916-cı ildə dekabrın 12-də II Vilhelm müvafiq bəyənat verdi. Lakin bəyanatın bu forması qarşılıqlı cavaba az şans verirdi. İmperator yüksək əda ilə iddia edirdi ki, Antanta artıq müharibəni uduzmuşdur: belə ki, alman qoşunları düşmənin ərazisindədirlər və onun sülh danışıqlarına başlamaq haqqında təklifi yalnız «faydasız qanaxıtma»nın qarşısını almaq zərurətindən irəli gəlir. Bu zaman Vilhelm işğal olunmuş ərazilərin müqəddəratı barədə susurdu. Dekabrın 18-də ABŞ prezidenti Vudro Visson bütün vuruşan dövlətlərə müraciətlə çıxış etdi. O, tərəflərə sülh bağlamağa razı olacaqları şərtləri bəyan etməyi təklif etdi. Antanta II Vilhelmin bəyənatına 30 yanvar 1917-ci il tarixli qısa bəyənatla cavab verdi. Danışıqların ilkin şərti kimi Almaniya və onun müttəfiqlərinin tərəfindən məğlubiyyətlərinin etiraf olunması və sülhün qorunmasına təminat verən tədbirlərin görülməsinə əminlik vermələri irəli sürülürdü. Bu şərtlər Almaniya üçün qəbul olunmaz idi. Vilsonun müraciətinə cavabda Antanta ölkələri öz tələblərini geniş şərh etdilər. Dördlər ittifaqı ölkələri öz qoşunlarını tutduqları ərazilərdən çıxarmalı idilər. Belçika və Serbiya mütləq bərpa edilməli idi. Dördlər ittifaqı üzvləri Avropanın milli prinsip əsasında yenidən təşkil edilməsinə razı olmalı idilər – italyanlar, slavyanlar və rumınlar yadelli əsarətdən xilas olunmalı idi (yəqin ki, Avstriya-Macarıstanın yenidən qurulmasından söz gedirdi). Türkiyə Avropadan sıxışdırılıb çıxarılmalı, əvvəllər işğal olunmuş ərazilər (Elzas və Lotaringiya nəzərdə tutulurdu) qaytarılmalı idi. Bu təkliflər də Dördlər ittifaqı ölkələri üçün qəbulolunmaz idi və daha çox müharibənin ədalətli məqsədlərini nümayiş etdirməklə müharibə əleyhinə olan qüvvələr tərəfindən tənqidi zəiflətmək məqsədi güdürdü. Daha da çox bu təklifər Amerika ictimai fikrini Antantanın xeyrinə yönəltməyə xidmət edirdi. ABŞ müharibənin əvvəlində öz bitərəfliyini elan etmişdi. Prezident Vilson 1916-cı ildə yeni müddətə prezident ən çox ona görə seçilmişdi ki, bu mövqeyi dəyişmək üçün tələsik qərarlar çıxarılmasının əleyhinə idi. Amerikanlar növbəti sülalələrarası münaqişə hesab etdikləri



downloaded from KitabYurdu.org

müharibəyə cəlb olunmaq istəmirdilər. Bununla bərabər amerikan cəmiyyəti və V.Vilsonun özü anlayırdı ki, dünyanın ən qüdrətli iqtisadi dövlətinə, İngiltərə və Fransanın başlıca kreditoruna çevrilmiş Amerika uzun illərlə dünya siyasətinin inkişafını müəyyənləşdirəcək müharibənin nəticəsini passiv müşahidə edə bilməz. Lakin bu zaman müharibənin özü ədalətli məqsədlər naminə müharibə cizgiləri almalı idi. Antantanın Vilsona cavabı müharibənin məqsədlərini amerikalılar üçün məqbul şəkildə formalaşdırmaq üçün taktiki cəhd idi. Antanta bu zaman onun iştirakçılarının «milli prinsip»i pozaraq artıq Türkiyəni bölüşdürdükləri, İtaliyaya avstriyalı və slavyan əhalisi ilə məskunlaşmış vilayətlərin vəd olunduğu barədə riyakarlıqla susurdu. Amerikanların, ümumiyyətlə, gizli müqavilələrdən xəbəri yox idi. Lakin ehtimal özünü doğrultdu. Amerikanın ictimai rəyi daha çox Antantaya tərəf meyl edirdi. Antantanın sülh danışıqlarından rəsmən imtina etməsindən Almaniya onun tərəfindən müharibənin müdafiə xarakteri daşıdığını sübut etməkdə istifadə üçün imkan verdi və bu müharibəni sərtləşdirməsi, arxanı səfərbər etməsi üçün əlavə tədbirlər görülməsində ona əlverişli bəhanə verdi. Beləliklə, «sülh hücumu» həqiqi sülhün ərəfəsi olmadı, yalnız müharibənin yeni raundu qarşısında tənəffüs oldu.

1916-cı il avqustun 29-dan baş komandan vəzifəsinə təyin olunmuş general-feldmarşal Hindenburq, hər şeydən əvvəl, bütün cəbhələrdə hücum əməliyyatlarından imtina etmək və cəbhə xətlərini qısaltmaq məqsədi ilə qoşunların əvvəlcədən hazırlanmış mövqelərə geri çəkilməsini qərara almışdı. Eyni zamanda texnika və hərbi sursat istehsalını artırmaqdan ötrü iqtisadiyyatın daha da reqlamentləşdirilməsi üçün tədbirlər nəzərdə tutulurdu. İqtisadiyyat üzərində bütün nəzarət bilavasitə hərbi nazirliyə verilmişdi. Tətillər fərariliyə bərabərləşdirilirdi.

**1917-ci ildə müharibənin gedişi.** 1917-ci il kampaniyasının əvvəllərində mərkəz dövlətlərin koalisiyası artıq strateji təşəbbüsü tamamilə itirmişdi. Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstan ordusu hər hansı bir hərbi əməliyyat keçirmək iqtidarında deyildirlər. Bu ölkələri kəskin siyasi və sosial-iqtisadi böhran bürümüşdü. Almaniya özü də material və insan ehtiyatları cəhətdən kəskin çatışmazlıq hiss edirdi. Alman ordusu «uzunmüddətli mövqeyini möhkəmləndirmək üçün bütün ehtiyatlarından istifadə edərək strateji müdafiəyə keçməyə məcbur olmuşdu. 1916-cı il göstərdi ki, üstünlük artıq Antantanın




tərəifndədir. Bu, ABŞ 1917-ci ilin aprelində Antantanın tərəfində müharibəyə giridkdən sonra daha aydın hiss edilməyə başladı.

Antanta canlı qüvvə cəhətdən 40%-li üstünlüyə malik idi. Antanta ölkələrinin komandanlıqları, nəhayət, öz ordularının hərəkətlərini əlaqələndirməyə başladılar. Onların kampaniya planı artıq ilin əvvəlində təşəbbüsü ələ almaq məqsədi ilə ümumi hücuma keçmək və yayda həlledici zərbə vurmağı nəzərdə tuturdu.

1917-ci ildə həlledici zərbəni qeyri-məhdud sualtı müharibəyə başlayıb, İngiltərəyə endirmək nəzərdə tutulurdu. Bu, ABŞ-ın müharibəyə daxil olmasını labüd edirdi. Əgər nəzərə alınsa ki, Almaniyanın sərəncamında hərbi əməliyyatlara hazır olan cəmi 40 sualtı qayıq var idi, onda İngiltərəni darmadağın etmək planı kifayət qədər əsaslı görünmürdü. Buna baxmayaraq 1917-ci il fevralın 1-də qeyri-məhdud sualtı müharibə başladı. I Vilhelm hətta İngilərə tərəfə üzən talaşanı belə batırmağa çağırırdı. Üç ay ərzində bütün 1916-cı ildə batırıldığından çox gəmi batırıldı. Hətta bitərəf ölkələrin sərnişin gəmiləri də alman sualtı qayıqlarının hücumlarına məruz qalırdı.

Almaniyanın qeyri-məhdud sualtı müharibəyə başlaması ABŞ-ın müharibəyə girməsinə təkan verdi. Qeyri-məhdud sualtı müharibə başlayan günün ertəsi ABŞ Almaniya ilə diplomatik münasibətləri kəsdi. Alman hökumətinin Meksika prezidentinə ABŞ Almaniyaya müharibə elan edəcəyi təqdirdə Meksikanın ABŞ-a basqın etməsi təklifi olan məktubunun amerikanların əlinə keçməsi müharibəyə qoşulmaq üçün əlverişli bəhanə verdi. 1917-ci il aprelin 6-da ABŞ Almaniyaya müharibə elan etdi. Alman komandanlığının proqnozlarına rəğmən artıq iyunun 26-da ilk amerikan hissələri Fransaya gəldilər: Bir ildən sonra isə 2 milyon amerikan əsgəri Qərb cəbhəsində vuruşurdu. ABŞ-ın iqtisadi potensialını və itkiyə məruz qalmamış insan ehtiyatlarını nəzərə alsaq, ABŞ-ın müharibəyə daxil olması Antantanın qələbəsinin həlledici amillərindən biri oldu.

İngilis-fransız qoşunlarının Qərb cəbhəsi üçün hazırlanan hücum planını dəyişmək lazım gəldi. Çünki hücumun başlanmasına az qalmış alman qoşunları Hindenburqun planına əsasən əvvəlcədən hazırlanmış mövqelərə çəkilməyə başladılar. Hücum, demək olar, hər yerdə ənənəvi xarakter daşıyırdı. Əvvəlcə çoxsaatlı artilleriya hazırlığı, sonra tanklarla birlikdə piyadanın irəliyə doğru yavaş-yavaş hərəkəti. Bütün bunlar elə bil rəqibi hücum yeri barədə xəbərdar edir, ona öz ehtiyatlarını gətirmək və hücum edənlər qarşısında əlavə manelər yaratmağa imkan verirdi.



downloaded from KitabYurdu.org

Döyüşlər adətən əhəmiyyətsiz qələbələrlə nəticələnərək, bütövlükdə vəziyyəti dəyişmirdi.

Rusiyada fevral inqilabı şərq cəbhəsində vəziyyəti kəskin surətdə dəyişdi. Sovetlər və müvəqqəti hökumətin ordunu demokratikləşdirmək üzrə tədbirləri intizamın aşağı düşməsinə səbəb oldu. Fərarilik kütləvi hal aldı. Aprel ayında cəbhədə qardaşlaşma dalğası başladı: üz-üzə duran hissələrin əsgərləri onların sahələrində hərbi əməliyyatları dayandırmaq barədə razılığa gəlirdilər. Belə şəraitdə rus ordusunun iyun ayında başlanmış hücumu ya təchizatın çatışmazlığı, ya da əsgərlərin hücuma getmək istəməməsi üzündən dərhal boşa çıxdı. Hakimiyyət başına gəlmiş bolşeviklər müharibəni dayandırmaq istədiklərini bildirdilər və dekabrın 15-də Almaniya-Avstriya komandanlığı ilə barışıq bağladılar. Daha əvvəl, dekabrın 9-da Rumıniya barışıq bağlamışdı. Beləliklə, bütün Şərq cəbhəsində hərbi əməliyyatlar dayandı.

İtaliya cəbhəsində alman və Avstriya komandanlığı əlavə qüvvələr gətirərək, 1917-ci ilin oktyabrında Kaporetto yaxınlığında italyanların cəbhə xəttini yardılar. İtaliya ordusunun xeyli hissəsi darmadağın edildi, 130 min nəfər əsir alındı. Yalnız Nitsadan avtomobillərdə tələsik gətirilən 14 ingilis və fransız diviziyası İtaliyanın müharibədən çıxması qorxusunu aradan qaldırdı və cəbhəni sabitləşdirdi. Asiyada, Qafqaz cəbhəsində 1917-ci ildə hərbi əməliyyatlar, demək olar kəsildi. Ancaq Mesopotamiya və Fələstin cəbhəsindəki ingilis qoşunları fəallaşdılar. 1916-cı ildəki nisbi uğursuzluqlardan sonra ingilislər Dəclə çayının aşağı axarında güclü dayaq məntəqəsi yaradaraq Bağdada hücuma başladılar və 1917-ci ilin martında onu aldılar. Yayda ingilislər Fələstində Sinay yarımadası ərazisindən hücuma başladılar. Eyni zamanda Ərəb Lourensi adlandırılan mahir ingilis diplomatı və kəşfiyyatçısı Tomas Lourensin məharətli təşviqatı nəticəsində ərəb tayfalarının üsyanı başladı. Payızda osmanlı türkləri bütün Ərəbistan yarımadasını və Fələstinin bir hissəsini itirdilər.

Beləliklə, 1917-ci ildə də Antanta ökləələri öz planlarını gerçəkləşdirə bilmədilər. Onların üstünlüyü rus ordusunun hücum əməliyyatlarına qadir olmaması və sonra şərq cəbhəsində barışıq ilə neytrallaşdırıldı. Dördlər ittifaqı ölkələrinin vəziyyətinin əsaslı surətdə yaxşılaşdığını da söyləmək olmaz. Sualtı müharibə İngiltərəni diz çökdürmədi, ABŞ-ın müharibəyə daxil olması isə mərkəz dövlətlərin vəziyyətini ümidsiz etdi. ABŞ-dan başqa Çin və Braziliya kimi iri dövlətlər də Dördlər ititfaqına qarşı mübaribə elan etdilər.




Dördlər ititfaqının əsas qüvvəsi olan Almaniyanın imkanları tükənirdi. Bütün əhali artıq səfərbər olunmuşdu. Atların çatışmaması bütün alman süvarilərini piyadalara çevirdi. Müharibə əleyhinə ovqatlar artıq ordunun özünə daxil olurdu. Şərq cəbhəsində alman əsgərləri qardaşlaşmalarda iştirak edirdilər. İyunda hərbi dənizçilər ümumi tətil vasitəsilə sülh uğrunda mübarizə məqsədi ilə gizli təşkilat yaratdılar. İyulda həmişə müti olan reyxstaq sülhün zəruriliyi barədə qərar qəbul etdi.

«Dördlər İttifaqı»nı qəti darmadağın etmək üçün Antanta dövlətləri həlledici hücum əməliyyatına keçməyi planlaşdırdılar. 1917-ci ilin aprelinə yaxın qırara alındı ki, Reynlə Suasson arasında həlledici hücuma keçilsin. Burada əsas güc- 100-dən çox diviziya, 1000 təyyarə, 200-dən çox tank, 5597 silah cəmləşdirildi. Fransa qoşunlarının yeni komandanı general Nevel təklif edirdi ki, əvvəlcə əks tərəfin canlı qüvvəsi güclü zərbə ilə məhv edilsin. Aviasiyadan, o, cümlədən bombardman etməkdən istifadəyə böyük əhəmiyyət verilirdi. Hücum aprelin 9-da başladı, lakin alman qoşun hissələri əvvələdən hazırlanan möhkəmləndirimiş mövqeyə – «Ziqfrid xəttinə» çəkilməyi bacardılar. Lakin burada əks-tərəfin güclü müqaviməti ilə qarşılaşdılar. «Ziqfrid xəttini» yarmağa Antanta qüvvələri aprelin 16-da müvəffəq ola bilmədilər. Döyüşlər yenidən mövqe xarakteri aldı. Beləliklə, may ayında aydın oldu ki, Antantanın bu dəfə də həlledici əməliyyatı baş tutmadı. Hər iki tərəfdən 200 minə qədər adam öldü. Sonrakı aylarda hərbi əməliyyatlar məhəlli xarakter aldı. Qoşunun Messiya yaxınlığında, Verden raoynunda və Kare yaxınlığındakı döyüşlərindəki ayrı-ayrı uğurları ancaq taktiki məna kəsb edirdi. İngilislərin Mesopotamiya, Suriya və Almaniya Şərqi Afrikasında 1917-ci ildəki müvəffəqiyyətləri belələrindən idi. Bu döyüşlər ingilis-fransız qoşunlarının mənən ruhlandırsa da, Avropada işlərin ümumi vəziyyətinə o qədər də təsir edə bilmədi. Qərb cəbhəsində strateji hücum planının iflasa uğraması müharibənin yenidən uzanmasına səbəb oldu. Bu vəziyyət Avropadakı digər cəbhələrə təsir etdi.



downloaded from KitabYurdu.org

Salonik cəbhəsində 600 min nəfərdən çox adamı birləşdirən Antanta qruplaşması aprel-may aylarında bolqar ordusuna qarşı hücumda heç bir irəliləyişə nail ola bilmədi. Bir çox hissələr əsgər qiyamları baş verdi. İtalyan ordusunun vəziyyəti daha ağır idi. İzontsoda İtaliya ordusunun inadlı hücum əməliyyatına dözüm gətirən Avstriya-Macarıstan ordusu almanların köməyi ilə Koporetto dağlıq rayonunda italyanlara qarşı hücuma keçməyə müvəffəq oldu. Fəal hücum nəticəsində 1917-ci ilin oktyabrında İtaliya cəbhəsi yarıldı, Avstriya-Macarıstan qoşunları İtaliya ərazisinə 100 km-ə qədər irəlilədilər. İtaliya ordusundan bu döyüşlərdə yarı milyona qədər adam öldü və yaralandı. Avstriya-Macarıstan imperiyasının iflası isə yenə də bir qədər təxirə salındı.

Rusiyada inqilabi hadisələrin başlanması Şərq cəbşəsində vəziyyəti dəyişdirdi. Çarizmin devrilməsi və hakimiyyətə Müvəqqəti hökumətin gəlməsi Rusiyanın müharibədən çıxmasına səbəb olmadı. Rus ordusunun döyüş qabiliyyəti pisləşdi. Əsgərlər bolşeviklərin təsiri altında müharibənin uzanmasına qarşı çıxırdılar. Müttəfiqlər qarşısındakı öhdəliyini yerinə yetirmək və ölkə daxilində sabitliyə nail olmaq üçün Müvəqqəti hökumət Cənub-Qərb cəbhəsində ordunun hücuma keçməsini təşkil etmək qərarına gəldi. İyulun 1-dən 7-nə qədər davam edən döyüşlər nəticəsində general Kornilovun qoşunu Lvov istiqamətində cəbhə xəttini yardı. Lakin Almaniya-Avstriya-Macarıstan qoşunlarının Tornopol **yarığı** Cənub-Şərq cəbhəsinin qoşunlarını tələsik əvvəlki mövqelərinə qayıtmağa məcbur etdi. Yaranmış vəziyyətdən məharətlə istifadə edən almanlar Dvin ətrafında müvəffəqiyətli əməliyyat keçirdilər və Riqanı tutdular. Bir ay sonra donanma və quru qoşunlarının köməyi ilə almanlar Moonzund adalarındakı güclü möhkəmləndirilmiş rayonları tutdular. Moonzund arxipelaqındakı itkilərlə əlaqədar olaraq rus donanması Riqa körfəzini tərk etməyə məcbur oldu.

1918-ci ilin yazında alman silahlı qüvvələri Avropaya gəlib çıxana qədər komandanlığı ABŞ-ın iri fransız və ingilis qoşunlarını darmadağın eməyə cəhd göstərdi. Nəyi mümkünsə Şərh cəbhəsindən Qərbə gətirən, Qərb cəbhəsində diviziyaların 80




fazini, artilleriyanın 90 faizini cəmləşdirən alman komandanlığı 1918-ci ilin martında son hücuma keçdi. Komandanlıq əsgərləri inandırmağa çalışırdı ki, bu həlledici və son döyüş olacaqdır.

Alman qoşunları başlıca zərbəni Arras yanında ingilis və fransız qoşunlarının arasına yönəltdilər. Almanlar cəbhəni yardılar və 60 kilometrə qədər irəliləyib bir tərəfdən Parisə, digər tərəfdən sahil yaxınlığında ingilis qoşunlarına mühasirə təhlükəsi yaratdılar. Birinci dünya müharibəsinin ən müvəffəqiyyətli hücumlarından birini tezliklə ehtiyatların çatışmazlığı üzündən dayandırmaq lazım gəldi. Bu zərbənin bilavasitə təsiri altında İngiltərə və Fransa, nəhayət, birgə komandanlıq yaratmaq qərarına gəldilər. Fransız generalı Foş  Antanta qoşunlarının ümumi baş komandan təyin olundu.

Bu vuruşma tərəflərə 300 minə qədər ölən və yaralanan hesabına başa gəldi. Sonra alman qoşunları yenidən Marnada hücuma başladılar və yenə Parisin 70 kilometrliyinə kimi gələ bildilər. İyunun 15-də onlar bu istiqamətdə daha bir və sonuncu, ancaq nəticəsiz zərbə endirdilər. İyunun 18-də fransız qoşunları hücum edən alman diviziyalarının cinahına əks-hücuma başladılar və almanlar geri çəkilməli oldular. Müharibə ərzində ikinci dəfə Marnada döyüşlər hərbi əməliyyatlarda dönüşə səbəb oldu. Bu andan Antanta dayanmadan hücum edirdi. General Foş 1918-ci ildə gələn ildə həlledici zərbə endirmək üçün strateji mövqelər təmin etməyi planlaşdırırdı.

Antantanın ümumi hücumu Hinderburqa sübut etdi ki, müharibədə Almaniya uduzmuşdur. Avqustun 14-də o, II Vilhelmə nə qədər ki, alman qoşunları düşmən ərazisindədirlər müharibəni diplomatik yolla qurtarmağı təklif etdi. Sentyabrın sonunda Antantanın Şimal dənizindən Maas çayınadək məsafədə iri hücumu başladı. Həmin vaxtdan digər cəbhələrdə vəziyyət Dördlər ittifaqı üçün daha böhranlı idi.

Sentyabrın 15-də müttəfiq qoşunları Bolqarıstana və Salonik cəbhəsindəki Avstriya-Macarıstan qoşunlarına zərbə endirdilər. Sentyabrın 28-də bolqarlar sülh xahiş etdilər. Rumıniya yenidən Antantanın tərəfinə keçdi. Avstriya-Macarıstan oktyabrın 29-da barışıq istədi. Asiya cəbhələrində ingilislər Dəclə çayı boyunca yuxarıya doğru hərəkət edərək bilavasitə türk əhalisinin yaşadığı rayonlara çıxdılar.



downloaded from KitabYurdu.org

Sentyabrda Fələstin cəbhəsində həlledici hücum başladı. Oktyabrda Osmanlı imperiyası barışıq istədi.

Belə bir şəraitdə Almaniya da barışıq haqqında danışıqlara başladı. Oktyabrın 4-də II Vilhelm şahzadə Maks Badenskini kansler təyin etdi. Badenskinin ilk addımı barışıq barədə xahişlə ABŞ prezidenti Vilsona müraciət etməkdən ibarət oldu.

Noyabrın 3-də Almaniyada inqilab başladı. Noyabrın 3-4-də Kil limanında hərbi dənizçilər üsyan etdilər. Onlar müharibənin dayandırılmasını tələb edirdilər. Üsyançılar Almaniyada ilk Sovet yaratdılar. Noyabrın 6-da Vilsondan alınmış teleqramda deyilirdi ki, marşal Foşa alman komandanlığı nümayəndələrini qəbul etmək səlahiyyəti verilmişdir. Noyabrın 9-da dənizçilərin qaldırdığı inqilab dalğası Berlinə çatdı. Maks Badenski kayzer II Vilhelmin taxt-tacdan əl çəkdiyini bildirdi və hakimiyyəti sosial-demokrat Ebertə verdi. Noyabrın 10-da artıq Sovetlərə arxalanan hökumət təşkil olundu.

1918-ci il noyabrın 11-də sübh çağı Kompyen meşəsində, marşal Foşun ştab-vaqonunda Almaniya ilə onun rəqibləri arasında barışıq bağlandı. Birinci dünya müharibəsi qurtardı.

1914-cü ildə Almaniya müharibəyə öz rəqiblərindən yaxşı hazırlamışdı. Lakin dünya müharibəsi Dördlər ittifaqının məğlubiyyəti ilə qurtardı. Antantanın canlı qüvvə və maddi ehtiyatlar cəhətdən üstünlüyünün həlledici əhəmiyyəti oldu. ABŞ-ın Antanta tərəfindən müharibəyə qoşulması onun üstünlüyünü şəksiz etdi.

## 2.Müharibənin gedişində beynəlxalq münasibətlər

**Alman qoşunlarının Belçikaya soxulması.** Almaniya vaxtında başqa dövlətlərlə birlikdə Belçikanın bitərəfliyinə təminat verdiyini bildirimişdi. Güya onun Belçikaya soxulması sadəcə olaraq Şliffen planının tələblərindən irəli gəlirdi. Betmannın qarşısında daha bir çətin iş – Almaniyanın Belçikaya girməsini diplomatik şəkildə «rəsmiləşdirmək» qalırdı. Bu həm çox asan, həm də kobud formada həyata keçirildi. Hələ iyulun 29-da Belçika hökumətinə Almaniya belə bir ərizə ilə müraciət etdi ki, güya Fransa öz qoşunlarını Maasda cəmləşdirir ki, oradan Namyura zərbə üçün istifadə etsin. Belçika isə öz qüvvəsi ilə bu hücumu qarşısını ala bilməz. Güya ona görə Almaniya ordusu




Belçika ərazisinə girmək məcburiyyətində qalmışdır. Almaniya Belçikanın öz hissələrini Anterverpenə aparmasını, alman qoşunlarının hərəkətinə təsir etməməsini xahiş edirdi. Bunun əvəzində Belçikanın ərazi bütövlüyünə və müstəqililiyinə təminat verilir və hətta ona Fransanın hesabına ərazi də vəd edilirdi. Belçikaya cavab üçün 1 sutka vaxt verilirdi. Berlin diplomatik dəftərxanasında aydın idi ki, Fransanın Namyura hücumu gözlənilmir. Buna baxmayaraq avqustun 2-də Almaniya ultimatumu Belçika hökumətinə təqdim etdi.

Belçikada iyulun 31-də səfərbərlik başlandı. Ultimatumu olan kimi Belçika hökuməti kömək üçün İngiltərəyə müraciət etdi. Bax bu zaman Qrey öz pasifist kolleqləri üzərində qələbə çaldı. Çünki hər bir ingilislərə aydın idi ki, İngiltərənin təhlükəsizliyi üçün Belçikanın sahilləri nə dərəcədə əhəmiyyətlidir. Almanların Belçikaya soxulması Qrey və onun həmfikirlərinə bəhanə verdi ki, imperialist müharibəsinə müdaxilə etsin. Avqustun 2-də mühafizəkarların liderləri Askvitə vəd edirdilər ki, əgər onlar müharibə qərarına gələrlərsə, mühafizəkarlar onları müdafiə edəcəklər.

Avqustun 2-də Qrey Kambonu yazılı surətdə əmin edilirdi ki, İngiltərə donanması Fransanın sahil limanlarını və Atlantikanı dəniz konvensiyasını şərtlərinə uyğun şəkildə müdafiə edəcəkdir. Avqustun 3-də kabinetin səhər iclasında müharibəyə girmək haqqında qərar qəbul edildi. Səhər Qrey parlamentdə çıxış etdi. O, göstərdi ki, İngiltərə müharibəyə girmədən Avropa «qoruna bilməz». Qrey bildirdi ki, onun bütün fəaliyyəti sülhün qorunmasına yönəldilmişdir. O, nitqinin sonunu Belçikaya həsr etdi və göstərdi ki, Belçikaya yad ölkə hücum edirsə, İngiltərə bitərəfliyini saxlaya bilməz. Qrey palatadan Böyük Britaniyanın quru və dəniz silahlı qüvvələrindən istifadə üçün kabinetə qeyri-məhdud səlahiyyətlər verilməsini xahiş etdi. Mühafizəkarlar, hətta irlandlar da hökumətə etimad göstərdi. Səhərəsi günü, yəni avqustun 4-də Britaniya hökuməti Almaniyaya ultimatum verdi və tələb etdi ki, Belçikanın bitərəfliyin heç bir danışıq olmadan gözləsin. Cavabın verilməsi üçün 11 saat vaxt müəyyənləşdirildi.



downloaded from KitabYurdu.org

Həmin gününü axşamı kabinet toplaşsa da Almaniya qoyulan vaxta qədər heç bir cavab vermədi. Belə olduqda Qrey alman səfiri Lixnovskiyə belə bir məktub göndərdi ki, hər iki ölkə arasında saat 11-dən müharibə vəziyyətidir. Bununla da, birinci dünya müharibəsi başlamış oldu.

1914-1918-ci illərin birinci dünya müharibəsi imperialist ziddiyyətlərini xeyli dərəcədə kəskinləşdirdi. Kapitalist dövlətləri arasındakı tarazlıq pozulmuş oldu. Alman imperializmi dünyanı köklü surətdə bölüşdürməyə çalışırdı. Bunun üçün o, iqtisadi gücünə arxalanırdı. Polad istehsal Almaniyada 1870-ci ildə 300 min ton idisə, 1914-cü ildə 14 milyon tona çatmışdı. Almaniya bu dövrdə 12 milyon əhali yaşayan müstəmləkələrə malik idi. İngiltərədə 1870-ci ildə 700 min ton polad istehsal edilirdisə, 1914-cü ildə cəmi 6,5 milyon tona qədər polad istehsalı artmışdı. Əgər 1870-ci ildə Almaniya sənaye məhsulu istehsalına görə İngiltərə və Fransadan geridə qalırdısa, 1914-cü ildə onların hər ikisini ötüb keçmiş, Avropada birinci, dünyada isə ABŞ-dan sonra ikinci yeri tuturdu. Britaniyanın müstəmləkələrində bu dövrdə 400 milyon əhali yaşayırdı. Alman imperializmi İngiltərənin müstəmləkələrdə və dənizdə olan birinciliyinə son qoymaq istəiyrdi. İngiltərə isə öz rəqibini məhv etmək istəyirdi.

İngiltərə imperializmi həm də Yaxın Şərqə yiyələnmək, Osmanlı imperiyasının ərazisinin xeyli hissəsinə sahib olmaq istəiyrdi.

Müharibəyə gətirib çıxaran ən mühüm ziddiyyətlərdən biri də rus-alman ziddiyyətləri idi. Alman imperializmi Balkan ölkələrini və Türkiyəni özünə tabe etməyə çalışırdı. O, Çar Rusiyasının imperialist siyasətinə qarşı da çıxırdı.

Rus imperializmi özünün alman rəqibini məhv etmək, Konstantinopolu, boğazları, Türkiyə Ermənistanını tutmaq, Avstriya-Macarıstanı parçalamaq və ondan Qərbi Ukrayna və Polşa torpaqlarını qoparmaq niyyətində idi.

Fransa imperializmi çalışırdı ki, Elzas və Lotaringiyanı geri qaytarsın, Almaniyadan Saar hövzəsini, mümkün olarsa, Reyn vilayətini qoparsın. Onun rəqibi olan Almaniya Fransa Lotaringiyasına və Fransanın digər cənub rayonlarına, Mərvakeşə





və Afrikadakı müstəmləkələrinə, Belçikaya və onun müstəmləkə mülklərinə göz dikmişdi.

**Yaponiyanın müharibəyə girməsi.**Yapon imperialistləri vəziyyəti tezliklə qiymətləndirməyi bacardılar. Bütün Avropa dövlətlərinin gücləri Avropada gedən müharibədə özünü göstərirdi. Belə bir, şəraitdə Yaponiya Uzaq Şərqə müdaxiləsini genişləndirmək üçün daha geniş imkan qazanmış olurdu.

1914-cü ilin avqustun 15-də Yaponiya hökuməti qısamüddətli diplomatik danışıqlardan sonra Almaniyaya ultimatum verdi. Ultimatumda tələb edilirdi ki, Almaniya heç bir şərt və kompensasiya irəli sürmədən Tzyaçyojou limanını yaponlara qaytarsın. Cavaba 8 gün vaxt verilmişdi. Yaponiya hökuməti elan edirdi ki, bu «dostcasına təklif» Şərqi Asiyada sülhün möhkəmlənməsinə xidmət edir, Yaponiya heç bir ərazi iddiasında deyildir. Almaniya ultimatuma cavab vermədi. Onda 1914-cü ilin avqustun 23-də Yaponiya Almaniyaya müharibə elan etdi. Hərbi əməliyyatlara başlayan Yaponiya Tzyançjou limanını, Cindao-Tsinan dəmir yolunu, həmçinin Almaniyanın Sakit okeanda yerləşən bir sıra adalarını işğal etdi. Yaponiyanın güclənməsi təkcə ABŞ-ı deyil, Böyük Britaniyanı da narahat etrməyə başladı. Xüsusilə Britaniya dominionları olan Avstraliya və Yeni Zelandiyada çaşqınlıq yarandı.

Londonda lap əvvəldən Yaponiyanın hərəkətlərinə şübhə ilə yanaşmağa başladılar. İngilis diplomatiyasına aydın idi ki, Yaponiya Avropadakı müharibədən sadəcə olaraq Uzaq Şərqdə müstəmləkə mövqeyini gücləndirmək istəyir. O, Almaniyaya qarşı müharibənin ağırlığından heç bir pay götürmək niyyətində deyildir. İngilislər səhv etmirdilər. Yaponiyanın başlıca məqsədi Almaniyanın müstəmləkələrini tutduqdan sonra Avropadakı müharibədən istifadə edərək Çinə müdaxilə etmək idi. Tzyaçjounun işğalından sonra Yaponiya, demək olar ki, heç bir hərbi əməliyyat aparmadı. Ancaq Rusiyaya bir sıra köhnəlmiş hərbi ləvazimat göndərdi. Rusiya Yaponiyanın Antanta tərəfindən müharibəyə başlamasını aqışladı. Çünki bu Rusiyanın Uzaq Şərqdəki mülklərinin yapon təcavüzündən qorunması üçün təminat verilməsi demək idi.



downloaded from KitabYurdu.org

**Türkiyənin müharibəyə girməsi.**Birinci dünya müharibəsinin ilk döyüşləri tərəflərin müharibəni tezliklə qurtarmaq üçün qüvvələrinin çatışmadığını göstərdi. Hər iki tərəf müharibədən kənarda qalmış dövlətləri öz müttəfiqinə çevirməyə çalışırdı.

Üçlər ittifaqı Osmanlı imperiyasının öz tərəfinə cəlb edə bildi. İtaliya – türk və Balkan müharibələri nəticəsində Türkiyə 1 milyon 201729 kv.km. torpaq itirmişdisə də, hələ dünyanın ərazicə xeyli böyük dövlətlərindən biri kimi qalırdı. Almaniya Türkiyəni öz siyasətinin orbitinə çəkməyə çalışaraq hələ 1913-cü ildə general fon Sandersin başçılığı ilə hərbi missiyanı ora göndərmişdi. Almaniyanın türk ordusunu yeni silahlarla təchiz edib gücləndirəcəyindən qorxuya düşən Rusiya Türkiyə torpaqlarını tutmağa tələsdi. 1914-cü il fevralın 21-də II Nikolayın razılığı ilə xarici işlər, hərbi və dəniz nazirləri «Böyük Avropa müharibəsi təqdirində» «Şərq məsələsi»ni İstanbulda, Bosfor və Dardanel boğazlarında hökmranlığa nail olmaq yolu ilə Rusiyanın xeyrinə həll etmək haqqında birgə qərar qəbul etdilər.

Qeyd etmək lazımdır ki, Türkiyədə Antanta, o cümlədən Rusiya ilə yaxınlaşma tərəfdarları da az deyildi (o cümlədən hakim üçlüyün üzvü olan Camal paşa). Lakin Türkiyə ilə ittifaq Rusiyanın planlarına daxil deyildi, çünki bu zaman rusların İstanbulu və boğazları zəbt etmək imkanı yoxa çıxardı. Türkiyə dilemma qarşısında qalmışdı. Antanta onu bir dövlət kimi məhv edib bölüşdürmək, Almaniya isə özündən asılı vəziyyətə salmaq istəyirdi. O, daha az bəlanı – Almaniyanı seçmək qərarına gəldi. 1914-cü il avqustun 2-də Almaniya ilə Türkiyə arasında gizli ittifaq müqaviləsi bağlandı.

Lakin avqustun 4-də İngiltərənin müharibəyə qoşulması, üçlər ittifaqının üzvü olan İtaliyanın bitərəflik elan etməsi gənc türklərə böyük təsir göstərmiş və hətta hərbi nazir Ənvər paşanın tərəddüdünə səbəb olmuşdu. Türk siyasətçilərində hələlik alman – Avstriya koalisiyasın üstünlüyü və dəqiq məlum olmayınca dünya münaqişəsindən kənarda qalmaq arzusu yaranmışdı.

Almaniya əvvəlcə Türkiyəni hərbi hazırlığı başa çatdımadan müharibəyə qoşulmasını istəmirdi. Ancaq az sonra, rusların almanlara qarşı hücuma başlamaları, Qərbi cəbhəsində hərbi





əməliyytaların almanların arzuladığı kimi getməməsi nəticəsində Almaniya Türkiyəni müharibəyə girmək üçün tələsdirməyə məcbur etdi.

Müharibə edən tərəflərdən hər biri Türkiyəni öz tərəflərinə çəkmək üçün mübarizə aparırdılar. Bu ölkəyə təsir göstərmək üçün Antanta və Avstriya-alman bloku arasında ciddi yarış gedirdi. Gənc türklər hökuməti Almaniyaya daha çox meylli idi. Lakin bu əks-hərəkət demək idi. Çünki, Türkiyə Antantadan maliyyə-iqtisadi asılılıqda idi ki, bu da az əhəmiyyət kəsb etmirdi. Buna görə də inanmaq çətin deyildir ki, Berlin dialomatiyası maskalanmışdır. Onun Türkiyənin ərazi bütövlüyünü saxlamaq vədinə inanmaq olmazdı. Lakin Almaniyanın Xarici işlər naziri Yaqov TÜrkiyəni öz tərəflərinə çəkməyə xüsusi səy göstərirdi.

Türkiyə 1914-cü ildə müharibə edən tərəflərin heç birindən özünə qarşı bir xeyirxahlıq gözləmirdi. Antanta onu bölüşdüşməklə hədələyirdi. Gənc türklər isə Rusiya və İngiltərəyə məxsus olan ərazilərdə işğalçı pantürksist planlarını genişləndirmək istəyirdilər. Pantürklər Qafqazı, Krımı tutmaq, Volqa və Kama çaylarının içərilərinə doğru irəliləməyi planlaşdırırdılar. Panislamist şüarları altında isə Misir və Şimali Afrikadakı bütün ərəb ölkələrinə, Hindistana qarşı iddialar irəli sürürdülər. Pantürkist və panislamist iddialar onları Almaniyaya tərəf çəkirdi.

Bir sözlə, İstanbulda heç bir mübarizəsiz qərar qəbul edildi. Böyük vəzir, yəni hökumətin başçısı şahzadə Səid-Həlim-paşa Almaniya ilə ittifaqın tərəfdarı idi. Gənc türklərin rəhbərlərindən Ənvər və Tələt paşa Almaniyanın, Camal paşa isə Antantanın tərəfdarı kimi çıxış edirdi. 1941-cı il iyulun 22-də Almaniyanın səfirinə hərbi nazir Ənvər paşa hökumətin üzvlərinin rəyini almadan bildirdi ki, o və baş vəzir bu qərara gəliblər ki, Türkiyə qonşu Bolqarıstanla birlikdə Üçlər İttifaqının tərkibinə daxil olur.

Alman səfiri Vangengeyn Osmanlı imperiyasının Üçlər İttifaqına qoşulmaq istəyini şübhə ilə qarşılasa da, bu barədə Berlinə məlumat verdi. Kayzer öz səfirinə yazdı ki, «nəzəri cəhətdən sənin dediklərin doğrudur, lakin hazırki dövrdə bunun yeri deyil. İndii ancaq onun haqqında düşünmək lazımdır ki,



downloaded from KitabYurdu.org

Avstriya-Macarıstanın tərəfində Balkanlarda slavyanlara qarşı güllə atılsın. Buna görə Bolqarıstan-Türkiyə İttifaqının bizə qoşulmasını bəyənirik. Bu daha yaxşıdır ki, nəinki Türkiyəni nəzəri xəyallarla Antanta tərəfə itələmək.

1914-cü ilin avqustun 2-də çox gizli şəkildə alman-türk ittifaq müqaviləsi imzalandı. Onun mahiyyəti aşağıdakı kimi idi. Əgər Rusiya, Avstriya-Serbiya münaqişəsinə müdaxilə edərdisə, Türkiyə Avstriyanın təraifndə çıxış edərək, Rusiyaya müharibə elan etməli idi. Müqavilə Türkiyə ordusunu Almaniyanın tam sərəncamına verirdi. Müqavilənin 3-cü maddəsində Almaniya vəd edirdi ki, Türkiyənin cənubi Qafqazın müəyyən hissəsini tutmasına imkan yaradacaqdır. Egey adaları və bir sıra ərazilər də Türkiyəyə vəd edilirdi. 1914-cü il avqustun 2-də Türkiyədə səfərbərlik elan edildi. Buna baxmayaraq Almaniya və Türkiyə birgə Türkiyənin bitərəfliyi haqqında bəyanat imzaladılar. Bu akt sübut edirdi ki, Türkiyə hələ hərbi münasibətlərə hazır deyildir. Camal Paşa yazırdı ki, «Biz ona görə özümüzü bitərəf elan etdik ki, vaxt udaq. Biz səfərbərliyi qurtarana qədər gözləməli, sonra müharibədə iştirak etməli idik».

Almaniya ilə müqavilə imzalanan zaman Ənvər Paşa həmçinin Rusiya ilə «danışıqlar aparır, onlara Almaniya əleyhinə müqavilə bağlamağı təklif edirdi. Bunun üçün isə Türkiyə Egey adalarının, Bolqarıstanın Frakiya hissəsinin ona qaytarılmasını tələb edirdi. Rusiyanın Xarici İşlər naziri Sazanov Ənvər Paşanın təklifinə çox böyük şübhə ilə yanaşır və onun səmimiliyinə inanmırdı. Sonralar aydınlaşdı ki, Ənvər Paşanın Rusiyaya təklifi sadə bir yalan imiş. Həqiqətən o, Rusiyaya hücuma hazırlaşırmış və alman hərbi gəmilərinin Aralıq dənizindən gəlişini gözləyirmiş. Bu gəmilər Qara dənizdə münasibətləri dəyişdirir, Rusiyanın cənub sahilləri üçün təhlükə yaradırdı. Aralıq dənizində hökmranlıq edən Britaniya donanması alman gəmilərinin məqsədinə çatmasına mane olmadı. İngiltərə hökuməti boğazlarda və Konstantinopolda rus müttəfiqlərinin yol açmasına çətinlik törətməyə şad idilər. Avqustun 10-da «Qeben»» və «Breslau» gəmiləri Dardanellə daxil oldular. Bir neçə gün sonra onlarda türk bayrağı dalğalandı, «Qeben»in komandiri isə





Türkiyə hərbi-dəniz qüvvələrinin komandanı təyin edildi. İndi təkcə türk ordusu deyil, türk donanması da alman komandanlığının rəhbərliyi altına keçdi.

Çar hökuməti Türkiyə ilə müharibədən qaçmaq istəyirdi. Almaniya ilə müharibənin vacib olduğu bir vaxtda qüvvələri Cənubi Qafqaza toplamaq, orada əlavə cəbhə açmaq Rusiya üçün əlverişli deyildi. Türkiyə ilə heç olmasa müharibənin başlanması vaxtını uzatmaq üçün Rusiyanın müttəfiqlərinə Xarici İşlər Naziri Sazanov təklif etdi ki, Türkiyənin ərazi bütövlüyünə təminat versinlər və Lemnos adasını Türkiyəyə qaytarsınlar. Lakin Qrey birinci təkliflə razılaşsa da, Lemnos adasının Türkiyəyə qaytarılmasına qəti etirazını bildirdi. Türkiyə hökuməti sentyabrın 9-da bütün ölkələrə məlumat verdi ki, 1914-cü ilin oktyabrın 1-də kapitulyasiya rejimini təxirə salır. Türkiyənin bu cəhdi özünəməxsus diplomatik nəticələr verdi. İstanbulda yerləşən xarici ölkələrin səfirlikləri buna etiraz əlaməti olaraq dərhal Türkiyə hökumətinə nota göndərrdilər. Türkiyədə imtiyazlara malik olmaq mənafeyi hətta düşmən dövlətləri də bu dövlətə qarşı birləşdirirdi.

Bu notalardan sonra Almaniya diplomatiyası bir daha Türkiyəni inandırmağı bacardı ki, onun müharibəyə başlamaqdan başqa yolu yoxdur. Bu zaman isə Antanta ölkələrinin kapitulyasiyaya münaisbət haqqında məsələsi öz-özünə yox olurdu.

Antanta dövlətləri də öz növbəsində kapitulyasiya məsələsini müzakirə etməyə hazır olduqlarını bildirdilər. Lakin onlar belə bir şərt irəli sürdülər ki, Türkiyə öz birətərəfliyini bütün müharibə dövründə qoruyub saxlasın. Kapitulyasiya haqqında danışıqlar ancaq sentyabr ayı ərzində davam etdi.

Almanların Marnada məğlubiyətindən sonra aydın olurdu ki, müharibə tezliklə qurtarmayacaq. Bu isə müttəfiqlərin işi üzrə diplomatiya fəaliyyətini daha gərgin şəkil almasına gətirib çıxarırdı. Almaniya 1914-cü il oktyabrın 11-də Türkiyəyə istiqraz təqdim etdi. Şərt qoyuldu ki, Türkiyə bu istiqrazı aldıqdan sonra müharibəyə girsin.



downloaded from KitabYurdu.org

Bununla bərabər bu dövrdə Türkiyə hökumətinin əksəriyyət üzvündə müharibə qabağı qorxu artdı. Onların içərisində baş vəzir də var idi. Almaniyanın Marnada məğlubiyyəti və rus ordusunun Qalisiyadakı uğurları bu qorxunu daha da artırırdı. Bu an Ənvər Paşa və alman komandanlığı ölkəni düzəldilməsi mümkün olmayan fakt qarşısında qoydular. Belə ki, 1914-cü ilin oktyabrın 29-da Türkiyə donanması alman admiralı Şuşonun komandanlığı altında dənizə çıxdı və müharibə elan etmədən, gözlənilmədən Rusiyanın sahil şəhəri olan Sevastopol güllə açmağa başladı. Elə həmin gün, yəni oktyabrın 29-da İstanbuldakı rus səfiri bu barədə məlumat aldı. Türkiyə hökumətinin bir çox üzvləri də bu fitnəkar hərəkətdən qorxuya düşdülər. Baş vəzir istefa vermək istəsə də, onu çox çətinliklə öz vəzifəsində qalmağa razılaşdırdılar. Noyabrın 1-də Sazanovun yanına baş vəzirin nümayəndəsi Fəxrəddin bəy gəldi. Nazir onu qarşılarkən dedi ki, mən hazırlaşıram ki, sizin pasportu göndərim. Türkiyə diplomatı isə kəkələyə-kəkələyə dedi ki, amma mən sizə sülh təklif edirəm. O, Türkiyə hökumətinin teleqramını Sazanova oxudu, hansı ki, orada olmuş hadisəyə Türkiyə hökumətinin təəssüfləndiyi bildirilirdi. Sazanov cavabında bildirdi ki, sülhü bərpa etməyin birinci şərti bütün alman zabitlərinin dərhal Türkiyə ərazisindən çıxarılmasıdır. Bu tələbə isə baş vəzir, hətta istəsə belə, əməl edə bilməzdi.

O zaman baş verən bir sıra hadisələr Türkiyənin müharibəyə doğru sürüklədi. Bunların ən mühümü ingilis donanması tərəifndən təqib edilən «Geben» və «Breslau» adlı alman hərb gəmilərinin 1914-cü il avqustun 10-da Çanaqqala boğazını keçib, türklər tərəifndən sığınacaq alması idi. Bu gəmilərin Türkiyə tərəfindən satın alındığı elan edildi, adları dəyişdirildi («Yavuz» və «Midilli»).

Nəhayət, 1914-cü il oktyabrın 20-də məhdud kabinet iclasında (Ənvər paşa, Tələt bəy, Camal paşa, Xəlil bəy) Rusiyaya qarşı müharibəyə başlamaq qərara alındı.

Oktyabrın 28-də admiral Suşonun başçılıq etdiyi alman-türk donanması hərbi təlim keçirmək bəhanəsi ilə Qara dənizə çıxdı.





Burada, açıq dənizdə şəxst heyətə rus donanmasına hücum etmək barədə əmr verildi.

Oktyabrın 29-30-da alman türk donanması Sevastopol, Odessa, Feodosiya və Novorossiysk liminlarına basqın etdi. Bir neçə rus paroxodu və o cümlədən iki hərbi gəmi və bir fransız ticarət gəmisi batırıldı. Adları çəkilən limanların sahil istehkamları əhəmiyyətli dağıntılara məruz qaldılar. Noyabrın 2-də Rusiya Türkiyəyə müharibə elan etdi. Noyabrın 3-də Qafqazda hərbi əməliyyatlar başlandı.

İngiltərə və Fransa da Türkiyəyə müharibə elan etdilər. Osmanlı imperiyasının müharibəyə daxil olması ilə daha bir neçə cəbhə yarandı. Qafqaz cəbhəsi Batumdan Urmiyə gölünədək 350 km məsafədə uzandı. Rus qoşunları Sarıqamış yanında türklərin hücumunu dəf etdilər və əks-hücuma keçib döyüş əməliyytalarını Osmanlı imperiyasının ərazisinə keçirdilər. İngilislər İran körfəzi raoynunda Şatt-Əl-Ərəb çayı sahilinə desant çıxartdılar və Mesopotamiya cəbhəsi belə yarandı. İki ingilis diviziyası Sinay yarımadasında Süveyş kanalına can atan türk qoşunları ilə vuruşmağa başladı. Bu, Fələstin cəbhəsi idi. Serbiya cəbhəsində avstriyalılar iki dəfə Belqradı ələ keçirsələr də, serbləri təslim olmağa məcbur edə bilmədilər.

**İtaliyanın müharibəyə girməsi.**Müharibə aparan qruplar arasında İtaliyanı öz tərəflərinə cəlb etmək uğrunda amansız diplomatik mübarizə gedirdi. Müharibə başlayan andan İtaliya hansı dövlətin qələbə qazanması məsələsində tərəddüd edirdi. O, gözləyirdi ki, onlardan hansı əldə etdiklərindən ona daha çox verməyi vəd etsə, onun tərəifndə müharibəyə başlasın. İtaliya Üçlər İttifaqı haqqında müqavilə üzrə götürdükləri öhdəlikləri yerinə yetirmək niyətində deyildi. İtaliya hökuməti Berlinə və Vyanaya bildirmişdi ki, Üçlər İttifaqı müdafiə xarakterli ititfaqdır. Lakin, Avstriya-Macarıstan buna əməl etməmiş, Serbiyaya hücum etmişdir. Həmçinin İtaliya incikliyini də birdirirdi ki, Avstriya-Macarıstan Serbiya hücum edəcəyi barədə ona məlumat verməmişdi. Əgər Avstriya Balkanlara hücum edərdisə; İtaliyanın ondan kompensasiya tələb etməyə ixtiyarı vardı. İtaliyanın Almaniya və Avstriya Macarıstanla bağladığı müqavilənin 7-ci



downloaded from KitabYurdu.org

maddəsinə əsasən döyüşmək İtaliyanın vəzifəsi deyildir. Məhz buna görə, 1914-cü ilin avqustun 3-də İtaliya kralı II Vilhelmə bildirirdi ki, indi başlanan müharibə Üçlər İttifaqının mahiyyətinə uyğun gəlmədiyi üçün İtaliya müharibəyə girmir. Elə həmin gün İtaliya hökuməti bitərəflik haqqında bəyannaməni dərc etdirirdi.

Bununla bərabər, İtaliyanın xarici işlər naziri markiz di San-Dyuliano Almaniya səfirinə bildirdi ki, Almaniya İtaliyanı yaxşı mükafatlandırarsa, İtaliya öz müttəfiqlərini müdafiə etmək haqqında məsələyə baxa bilər.

Sonrakı gün, yəni avqustun 4-də İtaliya hökumətinin Rusiyanın Xarici İşlər naziri Sazanova mərkəz dövlətlərinə öz mövqeyi haqqında məlumat verirdi. Bu dövrdə İtaliya çalışırdı ki, Antanta ilə danışıqlar aparsın ki, Almaniya və Avstriya-Macarıstan ona daha çox imtiyazlar versin. Artıq 1914-cü ilin avqustunda Antanta hökumətləri italyanlara Trentino, Triyest və Vallonu təklif etdi. Avstriya ərazisi, Albaniya və Türkiyə hesabına da İtaliyaya ərazilər veriləcəyi vəd edilirdi. Almaniyanın vəziyyəti son dərəcə ağır idi. Çünki Avstriya hesabına İtaliyanın ərazisinin genişləndirilməsinə razı olmaq təbii və sədaqətli müttəfiq olan Avstriya-Macarıstanla münasibətlərin gərginləşdirilməsi demək idi. Almaniya ancaq Fransanın Şimali Afrikadakı mülkləri, Korsika və Savoyya hesabına İtaliyanı öz tərəfinə çəkə bilərdi.

Hələ danışıqların getdiyi müddətdə İtaliya hökuməti fürsəti itirmədən 1914-cü ilin oktyabrında Balkan körfəzində yerləşən Saseno adasını, dekabrda isə Albaniyanın Adriatik dənizi sahillərində yerləşən Vallon ərazisini işğal etdi.

Baş nazir Salandra İtaliya diplomatiyasının prinsiplərini özünəməxsus siyasi və hətta əxlaqi əsaslarla verdi. O, öz ölkəsinin sərhədsiz olduğunu heç bir mühakimə yürütmədən irəli sürdü.

İtaliyanın son dərəcə dənizlə bağlılığı, dənizdə isə İngiltərə-Fransa donanmasının ağalığı, həmçinin Antanta dövlətlərindən iqtisadi asılılıq. İtaliyanı mərkəz dövlətlərin tərəfində müharibədən çəkindirirdi. Əməli olaraq İtaliya hökuməti qarşısında Antanta tərəfində müharibəyə qoşulmaq, ya da





bitərəfliyini qorumaq dururdu. İki başlıca amilə əsasən İtaliya üçün bu məsələ həll olundu. Bu amillərdən biri döyüşən dövlətlərdən hansı ilə daha çox münasibətləri kəsməyin mümkün olması idi. Digəri isə bu qruplardan hansının daha çox qələbəyə şansının olması ilə əlaqədar idi.

İtaliyada 1914-cü ilin avqustunda almanların Belçikaya hücumu Almaniya ilə danışıqlara və bitərəfliyə meyli gücləndirdi. Ona görə ki, bitərəfliyə nail olmaq hərbi əməliyyatlara qoşulmaqdan daha əlverişli idi.

Lakin Marna yaxınlığındakı döyüş və almanların hücumunun dayandırılması İtaliyada vəziyyəti dəyişdirdi. Salandra öz müttəfiqlərini hədələməyə başladı və İtaliyada «ictimai rəy» Antanta tərəifndə çıxış etməyə istiqamətləndirildi. İtaliyalı nazir tərəb edirdi ki, İtaliyanın bitərəfliyə əməl etməsi üçün Avstriya-Macarıstan Trentino və hətta Triyesti ona versin. Almaniya hökuməti Vyanaya təzyiqi artırdı. 1914-cü ilin dekabrında Romaya keçmiş kansler Bülov səfir təyin edildi. Onun İtaliyada nüfuzu çox böyük idi. Vyanada aparılan danışıqları kəsmədən İtaliya hökuməti 1915-ci ilin martından başlayaraq Antanta ilə də öz ticarətini gücləndirdi. Trentino, Triyest, Valon, Saseno adası, Dalmasiya sahilləri və onun adaları, Afrika müstəməkələrindən güzəştlər, Albaniya üzərində protektoratlıq və s. Antantadan tələb edilirdi. Bundan başqa İtaliya Londondan 50 milyon funt-sterlinqlik istiqraz da ididasında idi. Nəhayət, İtaliya hərbi konvensiya imzalanmasında inad edirdi. Romada Rusiyanın Qalisiya cəbhəsində öz hücumlarını zəifltətməmək, Avstriya donanmasına qarşı mübarizədə ingilis-fransız donanmasının kömək etməyi arzu edilirdi.

İngiltərə bütün bunları ona vəd etməyə hazır idi. Eyni zamanda Rusiya Serbiya ilə əlaqələrinə də diqqət yetirir və cənubi slavyan əhalisinin yaşadığı ərazinin bir hissəsinin İtaliyaya verilməsinin əleyhinə idi. Fransa hökuməti isə öz rəqibi İtaliyanın Aralıq dənizində güclənməsində maraqlı deyildi.

Tezliklə, İtaliyaya Antantaya təzyiq göstərmək üçün yeni vasitələr tapdı. 1915-ci ilin martın 8-də Vyanada qərara alındı ki, İtaliyaya Habsburqlar evinin xüsusi mülkləri hesabına ərazi



downloaded from KitabYurdu.org

kompensasiyaları edilsin. Bu zaman İtaliya ilə mərkəz dövlətləri arasında mübahisə başlandı ki, bu ərazilər İtaliyaya tezliklə, yoxsa müharibə qurtardıqdan sonra veriləcək.

İngiltərənin təzyiqi altında çar Rusiyası güzəştə getdi. Dalmasiyanın əhəmiyyətli hissəsinin İtaliyaya verilməsi ilə razılaşdı. Bu qayda ilə, Antanta İtaliyanın bütün iddiaları ilə razılaşmış oldu. Nəhayət, 1915-ci ilin aprelin 26-da Londonda İtaliya hökuməti ilə Antantanın böyük dövlətlərinin arasında saziş imzalandı. İtaliya öhdəlik götürdü ki, bir aydan sonra öz müttəfiqlərinə qarşı müharibəyə başlayacaqdır. Bunun üçün İngiltərə ona lazımi miqdarda istiqraz verdi.

1915-ci ilin may ayının 3-də İtaliya hökuməti Üçlər İttifaqı ilə müqaviləni pozduğunu bildi. Onda Bülov, onun ayağını qazacaqlarını hiss etdikdə, ən qatı diplomatik gediş etdi. Bülov öz memuarında yazırdı ki, mayın 9-da imperatorun və krallığın səfiri Makkio «Malta» villasında mənim yanımda oldu. Onda mən ona danışıqlar üçün mənim diktəm əsasında ərizə yazmağı xahiş etdim. Hansı ki, həmin gün gizli qayda üzrə İtaliya hökuməti Avstriya-Macarıstandan Tirolun italyanların yaşadıqları hissəsini, Trentinonu, həmçinin Tradsku və İzontsonun qərb sahilini ona verməyi tələb etdi. Çünkü bu ərazilərdə də italyanlar yaşayırdı. Triest imperiya sərbəst şəhəri elan edilir, orada italyan dilində universitet və bələdiyyə idarələri yaradıla bilərdi. Avstriya İtaliyanın Valonluğu üzərində suverenliyini tanıyır və Albaniyaya siyasi «maraqsızlığını» elan edirdi. Bülovu belə hesab edirdi ki, qorxaq Makkioya güclü təzyiq göstərmək vasitəsi ilə, yanvarda olduğu kimi, indi də arzu edilən nəticəni əldə edə bilər.

Belə sənədlər haqqında Bülov dərhal İtaliya «neytralistləri»nin lideri Dceolittiyə xəbər verdi. Sonra Romaya gəldi. Bu zaman İtaliya parlamentinin 508 üzvündən 320-ci Dceolitti ilə həmrəy idilər. Belə olduqda, Dceolitti krala və Salandreyə elan etdi ki, Londonda aprelin 26-da bağlanmış müqavilə ilə razı deyildir. Salandra istefaya getdi.

Bu zaman hədsiz şovinistlər, müharibə tərəfdarları başda keçmiş sosialist Benito Mussolini, yazıçı-şovinist d′Annuntsio





Olmaqla Almaniya əleyhinə müharibə aparmaqla əlaqədar hədələyici nümayiş təşkil etdilər. Kampaniya Fransa qızılları hesabına aparılırdı. Faşist hərəkatının artmasından qorxuya düşən kral Salandrenin istefasını qəbul etmədi. Dceolitti Romanı tərk etməyə məcbur oldu. Qorxudulmuş parlament 1915-ci ilin mayın 20-də hökumətə fövqaladə səlahiyyətlər verdi. İndi Salandra vəziyyətin sahibi oldu. May ayının 23-də Avtriya-Macarıstan İtaliyaya müharibə elan etdi.

**1914-1915-ci illərdə Antanta dövlətlərinin qarşılıqlı münasibətləri.**Yeni müttəfiqlər cəlb etmək uğrunda mübarizə vuruşan qrupların əsas üzvləri arasında rəqabəti kəskinləşdirdi. Mərkəz dövlətlərin düşərgəsində Almaniya gücdə şəriksiz üstünlüyə malik idi. Bu isə müttəfiqlər arasındakı münaisbətləri aydınlaşdırırdı.

Antanta dövlətləri arasında münasibətlər mərkəz dövlətlərlə müqayisədə daha mürəkkəb idi. 1914-cü ilin sentyabrın 5-də Rusiya, İngiltərə və Fransa müharibə dövründə seperat sülh bağlamamaq, həmçinin sülh dövründə əvvəlcədən müttəifqlərlə razılaşma olmadan saziş bağlamamaq haqqında öhdəlik götürən saziş imzaladılar. Bu saziş eynigüclü ittifaq müqaviləsi idi. Antanta formal ittifaqa çevrildi. Bu o demək deyildir ki, Antanta daxilində ziddiyyətlər yox olmuşdur, ya da zəifləmişdir. İtaliyaya Cənubi slavyan torpaqlarının verilməsi üstündəki mübahisələr onlar arasında gələcək münasibətlərin necə olacağınan xəbər verirdi.

Müharibə başlandığı andan müttəfiqlər arasında müharibənin strateji planı məsələsində fikir müxtəlifliyi yarandı. İngiltərə və Fransa hökumətləri Qərb cəbhəsini əsas cəbhə hesab edirdilər. Rus ordusunun mühüm rol oynayacağını fikirləşmirdilər. Rus ordusu öz gücündən düşmənə qarşı o vaxt istifadə etməli idi ki, bunu ondan ingilis-fransız komandanlığı tələb etsin. Həqiqətdə isə 1914-cü ilin avqust-sentyabr aylarında Şərqi Prussiyada rus qoşunlarının hücumu Parisi xilas etdi və Marna yaxınlığında fransızların qələbəsinə imkan yaratdı. Əvəzində ruslar külli miqdarda itki verməli oldular. 1914-1917-ci illərin müharibəsi əvvəlcədən görünməyən və tələb edilməyən



downloaded from KitabYurdu.org

silah, döyüş ləvazimatı, xüsusilə artilleriya mərmisi və digər materialların istehsalını sənaye qarşısında qoydu. 1915-ci ildə döyüş ləvazimatı ilə lazımi qədər təmin edilməməsi rus ordusunun geri çəkilməsinə səbəb idi. Çar Rusiyasının iqtisadi geriliyi bü tələbləri ödəyə bilmirdi. Ona görə də Çar Rusiyası İngiltərə və Fransaya müraciət etməli oldu. Paris və London bu sahədə ona ləng də olsa kömək etdilər, hərbi material göndərdilər.

Danışıqlar gedirdi ki, müttəifqlər hərbi güclərini hər iki başlıca cəbhədə birləşdirsinlər. Məhz bunun nəticəsi idi ki, 1916-cı ildə rus generalı Brusilovun parlaq hücum təşkil etməsi Verdenin xilas edilməsində əsas rol oynadı və İtaliya cəbhəsinin sabitliyini təmin etdi.

1915-ci ilin yazında alman komandanlığı əsas zərbəni şərq cəbhəsinə vurdu. Qəhrəmancasına vuruşmalarına baxmayaraq pis silahlandıqlarına görə ruslar geri çəkilməli oldular. İri miqyaslı əməliyyatlarda Almaniyanın uğurları  müharibənin gedişində əsaslı dönüşə səbəb olmadı. Alman Baş Ştabının rəisi general Falkeyhayn hücumu Rusiyanın içərilərinə qədər davam etdirməyə qorxdu. O, hesab etdi ki, Moskvaya hücum Alman ordusunu «sahilsiz vilayətə» gətirər.

1915-ci il kampaniyası İngiltərə və Fransaya öz silahlı qüvvələrini, resurs və sənayesini yenidən səfərbərliyə almağa imkan verdi. Rusiya ordusuna minnətdar olmaq lazım idi ki, 1916-cı ilə yaxın almanlar müharibənin əvvəllərində malik olduqları sərvtələrini artıq itirmişdilər. Silahlar kəmiyyət və keyfiyyət cəhətdən, ehtiyat hərbi hazırlıq səviyyəsinə görə xeyli aşağı düşmüşdü. Ancaq İngiltərə və Fransa öz tərəflərindən 1915-ci ildə Rusiyanın vəziyyətini yaxşılaşdırmaq üçün heç bir ölçü götürmədilər. Qərb müttəfiqləri vaxtında Fransa cəbhəsində hücuma keçmək istəmədilər.

Böyük gecikmə ilə onlar Şampanda öz miqyasına və nəticəsinə görə cüzi bir hücuma başladılar.

Antanta ölkələri arasında qüvvələri mərkəzləşdirmək haqqında diplomatik danışıqlar müharibənin uzanmasına səbəb oldu. Fransız baş komandanlığının yerləşdiyi Şantildə 1915-ci ill ərzində müttəfiqlərarası hərbi müşavirə keçirildi. Burada 1916-cı





ilin yazında Almaniya və Avtriya – Macarıstana qarşı bütün cəbhələrdə hücuma keçmək qərara alındı. Bununla belə, Qərb müttəfiqləri bu qərarın həyata keçirilməsinə bir qədər gec və yaxşı hazırlanmamış bir vəziyyətdə başladılar. Artıq 1916-cı ildə Antanta ancaq ordunun sayı, cəhətdən deyil, həm də texnika cəhətdən Almaniyadan üstün idi. Razılaşdırılmamış hərəkətlər almanlara tab gətirməyə kömək etdi. Lloyd Corc öz memuarında yazırdı ki, «Mən bu nəticəyə gəlmişəm ki, biz 1916, lap olsun, bir qədər gec – 1917-ci ildə qələbəyə nail ola bilərdik, bu şərtlə ki, strateji rəhbərlik hərbi əməliyyatlara sağlam ağıl və həmrəyliklə yanaşa idi». Britaniyalı nazir səhv etmirdi.

Müttəfiqlərarası siyasətdə müharibənin maliyyələşdirilməsi məsələsi də xeyli yer tuturdu. Müharibə başlanandan sonra Fransa bütün ödənişləri üzərinə moratorium qoydu. Çar hökuməti Fransa banklarına qoyduğu əmanətlərini 1914-cü ilin son aylarında geri götürmək üçün xeyli zəhmət çəkməli oldu. Bu puldan Rusiya hərbi xərcləri üçün istifadə etməyi planlaşdırmışdı. Lakin Fransa vermədi, Rusiyadan isə borclarını aldı.

Antantanın bütün ölkələrinin əsas kreditoru İngiltərə hökuməti və ingilis kapitalı idi. Müharibə zamanı Fransa böyük ordu yaratsa da, onun hərbi-iqtisadi potensialı son dərəcə zəif idi. O, xeyli zəiflətmişdi, mühüm ərazilərini, o cümlədən əhəmiyyətli sənaye raoynlarını itirmişdi. Bütün bunlar Fransanın maliyyə gücünü zəiflətmişdi. O, öz müttəfiqlərinə əhəmiyyətli kreditlər vermək bacarığını itirmişdi. Bu azmış kimi, Fransa Londonun pul bazarına qaçmağa məcbur idi. O, çar Rusiyasına da müraciət etməli olurdu. Bir sözlə, hərbi materialların çoxunu ona xaricdən almaq lazım gəlirdi.

Britaniya hökuməti və ingilis bankirləri müharibənin ehtiyacları üçün Rusiyaya borc verirdilər. Çox vaxt bu borclar hərbi ləvazimat, nadir hallarda isə vəziyyət ağır olduqda pul şəklində verilirdi.

Bütün bu borclar Rusiyaya bəlkə də böyük qızıl ehtiyatlarını İngiltərəyə vermək hesabına başa gəlirdi.

1915-ci ilin yanvarında Parisdə üç dövlətin maliyyə nazirlərinin müharibənin maliyyələşdirilməsi məsələsinə həsr



downloaded from KitabYurdu.org

edilmiş müşavirəsi oldu. Rusiyanın maliyyə naziri Bark hesab etdi ki, 1915-ci ildə Rusiyaya 100 mln. f.st. xarici kreditin verilməsi lazım gəlir. Həm də o, bunu material formasında deyil, istiqraz formasında götürmək istəyir. İngiltərənin maliyyə naziri Lloyd Corc bunun əvəzində qızıl verilməsini tələb etdi. Uzun mübahisələrdən sonra 1915-ci ilin fevralın 5-də saziş imzalandı. Rusiyaya Fransa və İngiltərə hökumətləri 100 mln. F.st. dəyərində kredit təqdim edirdilər. Faktiki olaraq bu iki ölkənin hər biri ancaq 25 mln. f.st. kredit verdiyindən, Rusiya cəmi 50 mln. f.st. kredit ala bildi. Digər saziş İngiltərənin qızıl ehtiyatlarının birgə qorunmasına dair idi. Bu ehtiyat 90 mln. f.st. hesablanırdı. Rusiya və Fransanın hər biri  öz banklarında 6 mln. f.st. saxlaya bilərdi. Bu sazişdə ABŞ-a xüsusi üstünlük verilirdi.

Nəhayət, müşavirədə xırda müttəfiq dövlətlərə maliyyə köməyi göstərmək məsələsində qayda yaradıldı. Qərara alındı ki, Antantanın hər üç böyük dövləti bu xırda dövlətlərə bərabər səviyyədə kömək göstərsinlər. Rusiya öz payını rublla verməyi təklif etdi. «Üç böyük dövlətin maliyyə ehtiyatlarını birləşdirmək və ümumi düşmənə qarşı qarşılıqlı yardım haqqında» bağlanan saziş Antanta dövlətlərinin maliyyələşdiriməsində İngiltərənin rəhbər vəziyyətini möhkəmləndirdi. «Üç nazir gəldilər ki,…bankir Morqanın evi ilə əlaqədar bir mühüm əlavə sazişə imza atsınlar».

1915-ci ilin yanvarın 15-də qəbul edilmiş İngiltərə hökumətinin bu qərarı həyata keçirilməyə başladı. Bundan sonra İngiltərə hökumətinin ABŞ-dan aldığı hər şey bu maliyyə qrupu vasitəsilə həyata keçirilməli idi.

Çar hökuməti hələ bundan xeyli əvvəl ABŞ-a böyük hərbi sifarişlər vermişdir. İngiltərənin vasitəçiliyi ilə ABŞ-da rus ordusu üçün İngiltərənin kreditləri hesabına əlavə olaraq külli miqdarda silahlar və hərbi materiallar sifarişi yerinə yetirilirdi. Sifarişlər böyük gecikmə ilə yerinə yetirildiyindən 1915-ci ildə rus ordusuna köməyi olmadı. Lakin buna baxmayaraq Rusiya onun haqqını ödəməli oldu.



__________Milli kitabxana__________
ABŞ tədricən Antantanın bütün dövlətləri üçün silah və döyüş ləvazimatı göndərən başlıca ölkə oldu. İngiltərə də özünün vasitəçi, nüfuzedici rolunu saxlayırdı.

Çar Rusiyasının maliyyə asılılığı, irsi iqtisadi zəifliyi ona gətirib çıxardı ki, çarizmin xaricdə olan nümayəndələri – diplomatları, maliyyəçiləri və hərbçiləri tez-tez ABŞ və Qərb müttəfiqləri ilə alçaldılmış xahiş dili ilə danışsınlar. 1915-ci il ilin avqustun 19-da Nazirlər Sovetinin gizli iclasında dövlət nəzarətçisi P.A.Xaritanov aşağıdakı sözləri ilə müttəfiqlərin mövqeyinin düzgün səciyyəsini vermişdir. O yazırdı ki, deməli, dırnaqdan boğaza qədər xeyirxah müttəfiqlərimiz bizi sıxır. Gah qızıl verirsən, yoxsa bir qəpik də almırsan. Allah onlara sğalamlıq versin, ancaq belə mövqeli adamlar güzəştə getmirlər. Bir başqa rus nazir göstərirdi ki, bizim cəbhədəki qələbələrimizin onların xilas edilməsi ilə nəticələnməsinə pərəstiş edən mütəfiqlərimiz pul məsələsində «bizi istənilən sələmcidən də daha çox sevirlər».

1915-ci ilin sentyabrın 30-da çar hökuməti öz ingilis müttəfiqdən yeni istiqraz aldı. O, 300 mln.f.st. və ya 3 mlrd. rubla yaxın idi. Hər ay 25 milyon f.st olmaqla 12 aya istiqraz təqdim edilməli idi. Rusiya isə əvəzində İngiltərəyə 40 mln.f.st. dəyərində qızıl təqdim etməli idi. Rusiyada qızıl aparılmasını rus hökuməti deyil, İngiltərə bankı lazım gəldikdə, təyin etməli idi. Əlavə sazişdə göstərilirdi ki, gələcəkdə Rusiyaya təklif edilən bütün materiallar məsələsinə Londonda baxılacaqdır. Rusiya üçün İngiltərənin verdiyi kredit üçün göndəriləcək material İngiltərə hökumətinin təyin etdiyi ali rütbəli vəzifəli şəxslərin məsləhəti olmadan mümkün deyildir. Beləliklə, rus çarizminin sifarişləri üzərində İngiltərənin qəyyumluğu möhkəmlənmiş oldu.

1915-ci ilin oktyabrın 4-də Rusiyaya Fransa kreditlərinin verilməsi haqqında saziş imzalandı. O, İngiltərənkindən xeyli az, cəmi 562 mln. rubl idi.

1914-cü ilin sonunda Qərbdə müharibə müxalifəti yaranmış oldu. Hər iki düşərgədə fikirləşirdilər ki, düşmənə qarşı hansı üsuldan istifadə edilsin ki, müharibəni tez qurtarsınlar. Fransız və ingilis komandanlığı Qərb cəbhəsini həlledici cəbhə hesab edirdilər. Müttəifqlərin fikrincə, buradan daha asanlıqla



downloaded from KitabYurdu.org

Almaniyanı məğlubiyyətə uğratmaq olardı. Fransada «şərqçilər» adlandırılanlara general Qallieni və Franse Desperi daxil idi. Ən çox «şərqçilər» İngiltərədə idi. Onların sıralarına çox nüfuzlu adamlar – hərbi nazir Kitçener, Lloyd Corc, Çörçill daxil idilər.

1915-ci ilin yanvarın 3-də qərar qəbul edildi ki, Dardanellin arxasına əməliyyata başlanılsın «Qərbçilər» - Joffer, Milyeran, Frenç bunun əksinə çıxdılar. Dardanel əməliyyatı kifayət qədər qüvvə ilə başlanmadığına görə tam məğlubiyyətə düçar oldu. 1915-ci ilin yazında bu tam aydın idi.

Bununla yanaşı, Dardanel əməliyyatının uğursuzluğu müttəfiqlərə imkan verdi ki, boğazların taleyi məsələsi ilə əlaqədar danışıqlr aparsınlar.

**Antanta ölkələrinin işğalçılıq planları.** Gələcək qənimətləri bölüşdürmək haqqında Antanta ölkələri arasında danışıqlar müharibə başladıqdan azacıq sonra başlandı. Sazanovun 1914-cü ilin sentyabrın 14-də İngiltərə və Fransa səfirinə təqdim etdiyi proqramda göstərilirdi ki, Almaniya və onun müttəifqlərini darmadağın etmək başlıca məqsəddir. Bu proqramın başlıca məzmunu aşağıdakı kimi idi: 1)müttəfiqlərin başlıca məqsədi Almaniyanın gücünü sarsıtmaqdır; 2) Ərazi dəyişiklikləri milli prinsiplər nəzərə alınaraq müəyyənləşdirilməlidir; 3) Rusiyaya Neman çayının aşağı axarı və Şərqi Qalisiya (Qərbi Ukraynanın bir hissəsi) birləşdirilir, Poznan, Sileziya və Qərbi Qalisiya Polşanın tərkibinə daxil olur, Rusiyanın tərkibinə daxil olan dövlət səviyyəsində Polşa bərpa olunurdu; 4) Elzas və Lotaringiya Fransaya qaytarılır, Reyn vilayətinin müəyyən hissəsi və Palatinataya nəzarət də ona verilirdi; 5) Belçika ərazisi Almaniya hesabına xeyli genişləndirilirdi; 6) Şlezviq və Halşteyn Danimarkaya qaytarılırdı; 7) 1866-cı ildə Prussiyaya birləşdirilmiş Hannover krallığı bərpa edilirdi; 8) Avstriya-Macarıstan Avstriya, Macarıstan, Çexiyadan ibarət trialist monarxiyaya çevrilirdi; 9) Serbiyaya Bosniya-Hersoqovina, Dalmasiya və Şİmali Albaniya verilirdi; 10) Serbiya Makedoniyası hesabına Bolqarıstan mükafatlandırılırdı; 11) Yunanıstana Cənubi Albaniya birləşdirilirdi, Valona İtaliyadan çıxırdı; 12) Almaniya



__________Milli kitabxana__________

kaloniyaları İngiltərə, Fransa, Yaponiya arasında bölünürdü; 13) Almaniya və Avstriya hərbi xərcləri ödəməli idi;

Sentyabrın 26-da Sazanov əlavə tələblər də irəli sürdü: Rusiya boğazlarından öz gəmilərini sərbəst keçirmək üçün təminat almalıdır. Türk torpaqlarını işğal etmək üçün Rusiya hökuməti heç bir iddia irəli sürməyəcəkdi.

Türkiyənin bölüşdürülməsi məsələsi ilk dəfə ingilis diplomatiyası tərəfindən irəli sürülmüşdür. Sazanovun təklifinə cavab olaraq Qrey öz fikrini belə ifadə etmişdir ki, əgər Türkiyə Almaniya ilə birləşərsə, o, mövcudluğunu itirməlidir.

Sazanovun təkliflərinin bir çoxunu Qrey qəbul etməyə razı idi. Lakin o, İtaliya və Rumıniyanın ərazi maraqlarını da qəbul etməyi lazım bilirdi. Qrey Reyn vilayətinin Fransaya verilməsinin qəti əleyhinə idi. Beləliklə, müharibənin ilk aylarından injilis-fransız ziddiyyətləri müşahidə olunmağa başlamışdı.

Türkiyə mülkü üzərində artıq 1914-cü ildə müttəifqlər arasında diplomatik mübarizə genişləndi. Türkiyə ordusuna zərbəni ruslar ən asan İrandan vura bilərdilər. İngiltərə isə bunun əleyhinə idi. O, istəmirdi ki, türklərə qarşı hərbi əməliyyat İran ərazisi vasitəsilə başlansın. Həmçinin, İngiltərə Rusiyanın alman cəbhəsindən yayınmasını da istəmirdi. Qreyin fikrincə, Almaniya üzərində qələbə Türkiyənin də taleyinin həll edilməsi deməkdir. Bu həm də Rusiyanın maraqlarının təmin edilməsi, onun İstanbul və boğazlara sahib olması demək idi. Qərb cəbhəsində müttəfiqlərin çətin vəziyyətə düşməsi onları digər strateji istiqamətlər müəyyən etməyə məcbur etdi. 1915-ci ilin fevralın 25-də Britaniya və Fransa gəmiləri Dardanel boğazındakı limanlara güllə atmağa başladılar. Onlar belə hesab edirdilər ki, Dardanel əməliyyatının uğurlu olması Yunanıstanın da Antantanın tərəfində müharibəyə qoşulmasına səbəb olardı. Bu zaman Yunanıstan Qara dənizə donanma və desant göndərməyə hazır olduğunu bildirdi. Rusiya bundan qorxuya düşdü ki, birdən İngiltərə və Fransa İstanbulu yunanlara verər. Bunu nəzərə alan Rusiya Yunanıstanın Dardanel ekspedisiyasında iştirakına qəti etirazını bildirdi.



downloaded from KitabYurdu.org

Yunanıstan kralı Konstantin Almaniyanın tərəfində olduğu üçün Antanta tərəfdarı baş nazir Venizelosi istefaya göndərdi. Yunanıstan yenə də bitərəf dövlət kimi qaldı.

Dardanel əməliyyatının uğurlu olması Qara dəniz boğazlarının İngiltərə və Fransanın sərəncamında olması demək idi. Dardanel əməliyyatının başlaması ilə əlaqədar olaraq Sazanov 1915-ci ilin martın 4-də müttəfiqlərdən tələb etdi ki, boğazların Rusiyaya verilməsi haqqında öhdəlik götürsünlər. O, bilirdi ki, əgər müttəfiqlər bu öhdəliyi götürməsələr, onun istefaya getməkdən başqa yolu qalmır. 1915-ci ilin martın 12-də İngiltərə rəsmi nota ilə öhdəlik götürdüyünü bildirdi ki, İstanbul, Bosfor boğazı və Mərmərə dənizinin qərb sahilləri, Hallipol yarımadası, İzmir körfəzinə qədər Cənubi Frakiya Rusiyaya veriləcəkdir. Rusiya həmçinin Bosfor boğazı və Mərmərə dənizinin Şərq sahillərini, Mərmərə dənizdəki adaları və Egey dənizindəki İmbros və Fenedos adalarını alırdı. Bunların ancaq müharibə qurtardıqdan sonra veriləcəyi də bildirilirdi. Bunun əvəzində İranın neytral zonası İngiltərənin nüfuz dairəsinə daxil edilməli idi. Bu isə həmin ərazinin neft sərvətlərinin İngiltərənin əlinə keçməsi demək idi. Çar Rusiyası İngiltərənin təklifləri ilə razılaşdığını ğildirdi.

Fransa dövləti Türkiyəyə çoxlu istiqraz verdiyinə görə Türkiyənin bölüşdürülməsində İngiltərə ilə bərabər o da maraqlı idi. Ona görə də boğazların Rusiyaya verilməsi ilə o, çox həvəssiz razılaşdı. Fransa dövləti aprelin 10-də Rus-ingilis sövdələşməsi ilə razı olduğunu bildirdi.

**Almaniyanın işğalçılıq planları.**Almaniyanın işğalçılıq planları Antantanınkından daha geniş idi. Onlar dünyanın köklü surətdə yenidən bölüşdürülməsi istəyirdilər. Almaniyanın hakim siniflərinin hazırladığı iki sənəd (Ali nəhəng iqtisadi təşkilatın memorandumu və professorların memorandumu) bunu aydın göstərirdi. Bu sənədlərdən birincisində müstəmləkə mülklərini ingilis, fransız, Belçika və digərlərinin müstəmləkələrini tutmaq hesabına genişləndirmək, Antantanın üzərinə təzminat qoymaq, Belçika üzərində protenktoratlıq, La-Manj sahillərindən Somma çayına qədər olan Fransa ərazisini Almaniyaya birləşdirmək,





dəmir-filizi hövzəsi olan Brieyi, həmçinin Verden əyintisini də işğal etmək tələb edilirdi. Fransa ərazisində olan orta və iri torpaq mülklərinin almanlara verilməsi də tələb edilirdi.

Şərqdə Rusiyanın hesabına da geniş ərazilər tutmaq planlaşdırıldı. Almanların fikrincə, müharibədən sonra kənd təsərrüfatı bazarını genişləndirmək tələb olunacaq. Bunun üçün isə Rusiyanın «Pribaltika quberniyalarının ərazisinin cənuba qədər» tutmaq tələb olunurdu.

Almaniyanın hakim dairələri şovinizm əhval-ruhiyyəsində idilər, özlərinin dünya ağalığın qurmaq istəyirdilər. Lakin artıq onlar «məğlubedilməz tefton» qılıncı» nəzəriyyəsini dirçəltmirdilər. Betman-Holviqin sözlərinə görə, Almaniya qazanclı müharibə aparacaq, Almaniyanın hakimiyyəti altında bu və ya digər formada geniş ərazilər birləşəcəkdir.

Yeni tədqiqatlar Almaniya hökumətinin işğalçılıq planlarını geniş aydınlaşdırır. 1914-cü ilin sentyabr ayının 9-da bu planın əsas məzmununu kansler özü xüsusi yazıda ifadə etmişdir. Bu proqramın əsasında Avropanın ortasında «Almaniyanın hegemonluğunu» yaratmaq dururdu. Bu ideya məşhur təbliğatçı P.Nauman tərəfindən irəli sürülmüş, məşhur inhisar birlikləri sahibləri Ratenau, fon Qvinner təraifndən müharibədən əvvəl müdafiə edilmişdir. Betmanın proqramında Fransanın tamamilə zəifləməsi və dağılması nəzərdə tutulurdu. Bundan məqsəd onun böyük dövlət kimi dirçəlməsinə imkan verməmək idi. Betman Fransanı tamamilə Almaniyadan asılı vəziyyətə düşmüş bir dövlət kimi görmək istəyirdi. Belçikadan Lyeji ayırıb götürmək nəzərdə tutulurdu. Anterverpeni götürməyə Betman şübhə edirdi. Bununla belə, o belə hesab edirdi ki, Belçika, Almaniyadan asılı olan, vassal dövlətə çevrilməlidir. Betman tərkibində Avstriya-Macarıstan, Fransa, Belçika, Hollandiya, Danimarka, Polşa, hətta ola bilsin ki, İtaliya, İsveç, Norveç də daxil olmaqla, faktiki olaraq almanların rəhbərliyi altında olan «Orta Avropa iqtisadi ittifaqını» təşkil etməyi arzu edirdi.

Almaniyanın proqramında Şərqə doğru «Rusiyanı sıxışdırmaq» əsas məsələlərdən biri idi. Bunun üçün Rusiyada Polşanın, Pribaltikanın, Finlandiyanın alınması nəzərdə tutulurdu.



downloaded from KitabYurdu.org

Gələcəkdə onlar iştahalarını Ukraynaya və hətta Qafqaza qədər genişləndirmək fikrində idilər. Gələcəkdə bunların hamısı reyxdən asılı olan Almaniyanın müstəmləkələri olmalı, onlardan «bufer dövlətlər» təşkil edilməli idi. Berlinin hökumət dairələrində belə bir fikir var idi ki, polyakları Polşa əyalətindən köçürmək, keçmiş alman-rus sərhədi olan Varta-Naveri bərpa etmək lazımdır. Suvalki rayonu da Almaniyaya qaytarılmalıdır. Yəhudiləri də bu ərazilərdən köçürmək nəzərdə tutulurdu. Almaniya belə hesab edirdi ki, Rusiya ilə bağlanmış ticarət sazişinə əsasən Rusiya Almaniyanın aqrar əlavəsinə çevrilməli idi. 1916-cı ilin sonunda Polşa çarlığının qalan hissəsinin taleyi məsələsi həll edilməli idi. Almaniya və Avstriya-Macarıstan arasındakı uzunmüddətli mübahisələrdən sonra 1916-cı ilin sonunda «Rusiya Polşasında oyuncaq dövlət yaratmaq qərara alındı».

1917-ci ilin aprelin 23-də kansler Almaniya və Avstriya–Macarıstanın Ali Baş komandanlıqları və Xarici İşlər nazirləri ilə birgə müharibənin məqsədləri haqqında məsələni müzakirə etdi. Qərara alındı ki, alman qoşunlarının işğal etdiyi Kurlandiya və Litva Almaniyaya birləşdirməklə yanaşı, digər Pribaltika torpaqlarının Almaniyaya birləşdirilməsinə cəhd göstərilsin.

Almaniya heç də başqa kontinentdə müstəmləkə işğalında da maraqsız deyildi. Ən çox diqqət verilən məsələlərdən biri Yaxın Şərqdə geniş nüfuz dairəsi təşkil etmək idi. Buraya Türkiyədən başqa onun ərəb əyalətləri, Misir, mümkün olsa, İran da daxil idi.

Almaniyanın müstəmləkə planlarında Fransa və Belçika Konqosunun, həmçinin İngiltərə, Fransa və Portuqaliyanın müstəmləkələri hesabına Mərkəzi Afrikada müstəmləkə imperiyası təşkil etmək də az yer tutmurdu. Müharibə uzandıqca Almaniyanın qələbə qazanacağı şansı da azalırdı. Almaniyada sosial-demokrat və Mərkəz partiyasının sol liberal qrupları tərəfindən «razılaşma üzrə sülh uğrunda şüarı səslənməyə başladı. Şovinist dairələr bunu Almaniyanın işğalçılıq iddiaları üçün təhlükəli səs-küy hesab edirdilər. Onlar xalqın başını müharibənin güya müdafiə xarakteri daşıdığı haqqında xam xəyallarla




aldadırdılar. Belə bir meyl də güclənməkdə idi ki, Rusiyanın hesabına Qərb dövlətləri ilə danışıqlar aparsınlar. Artıq 1916-cı ildə «Razılıqla sülh uğrunda» hərəkatın üzvləri xeyli artmışdı. Rusiyada Fevral burjua-demokratik inqilabının qələbəsi də bu məsələyə təsirini göstərməkdə idi.

Avstriya-Macarıstan imperializminin ididalarına gəldikdə onlar Bütün Balkan ölkələrini öz hökmranlığı altında birləşdirmək ididasında idilər. Onlar slavyan xalqlarının müstəqillik uğrunda azadlıq mübarizəsini yatırmağa çalışırdılar.

**Yaponiyanın Çinə qarşı «21 tələbi».**Avropada gedən müharibə Yaponiya üçün əlverişli şərait yaratdı. Artıq Çindəki və Sakit okeandakı alman mülkləri onun əlində idi. 1914-cü ilin sonunda yaponlar Çinə hücum etmək qərarına gəldilər. 1914-cü ilin dekabrın əvvəllərində Yaponiyanın xarici işlər naziri Kato Yaponiyanın siyasəti haqqında tam açıqlıqla çıxış etdi. O, Almaniyaya 1914-cü ilin avqustun 15-də verdiyi ultimatumda göstərirdi ki, güya Tszyaçjou limanını Almaniyadan alıb Çinə qaytarmaq niyyətindədir. İndi isə Kato bildirirdi ki, bundan məqsəd güya məsələləri dinc yolla həll etmək idi. Bir sözlə, Yaponiya Uzaq Şərqdə ancaq alman mülklərini tutmaqla razılaşmaq istəmirdi.

Söhbət bütün Çindən gedirdi. 1915-ci ilin yanvarın 18-də Çin dövlətinə nota təqdim edildi ki, o, beş qrupa bölünmüş 21 tələbdən ibarət idi.

**Birinci qrup tələblər** ondan ibarət idi ki, Şandun Almaniyanın təsir dairəsindən çıxıb Yaponiyanın təsir dairəsinə kesin.

**İkinci qrup tələblər** Şərqi Daxili Monqolustan və Cənubi Mancuriyanın Yaponiyanın təsir dairəsinə verilməsi ilə əlaqədar idi. Port-Artur, cənubi Mancuriya və Andun-Mukden dəmir yolunun icarəsini daha 99 il uzatmaq təklif edilirdi. Onlar tələb etdikləri əyalətlərdə istədikləri sənaye və ticarət fəaliyyəti ilə məşğul olmaqda azad idilər. Çinə təklif edilirdi ki, yaponlara bir sıra dağ konsesiyaları təqdim etsin. Çinin icazəsi yox idi ki, bu əyalətlərlə əlaqədar xarici dövlətlə hər hansı bir razılığa gəlsin.



downloaded from KitabYurdu.org

Çinə, nəhayət, təklif edilirdi ki, Qirin-Çançun dəmir yolunun idarə edilməsi və onun üzərində nəzarəti Yaponiyaya versin.

**Üçüncü qrup tələblər** Yaponiya kapitalının Xanyepin kompaniyası üzərində imtiyazlarını təmin etməli idi. Kömür-metalurgiya kombinatı, Jantszı çayındakı mülklərə də bu imtiyazlar şamil edilməli idi. Kampaniya qarışıq yapon-çin cəmiyyətinə çevrilməli idi. 2007-ci ilə qədər Yaponiyanın bu cəmiyyətdə imtiyazları qalırdı.

**Dördüncü qrup tələblər** güya Çinin ərazi bütövlüyünün müdafiəsi haqqında idi ki, əslində dövlət müstəqilliyi məsələsi Yaponiyanın xeyrinə pərdələnirdi.

**Ən ağır beşinci qrup tələblər** idi. Bu tələblər əslində birbaşa Çini Yaponiyanın protektoratına çevirirdi. Beşinci qrup tələblərin birinci maddəsində göstərilirdi ki, Çinin mərkəzi dövləti hərbi, maliyyə və siyasi işlərdə nüfuzlu yaponları məsləhətçi sifətində dəvət edəcəkdir. 3-cü maddədə isə göstərilirdi ki, Çinin polis sistemində və digər mühüm yerlərində çinlilərlə yaponların birgə işləməsi vacibdir və bu vəzifələrə çox sayda yaponları cəlb etmək lazımdır.**4-cü maddədə isə** Çində Yaponiyanın 50% və daha çox silahlı qüvvələrin olması göstərilirdi ki, güya buna Çin hökumətinin özünün ehtiyacı vardır. Çində çin-yapon arsenalının təşkili də nəzərdə tutulurdu. Formoza (Tayvan) adası da Yaponiyanın nüfuz dairəsi hesab edilirdi. Fuctzyani limanını tutmaqla yaponlar hesab edirdilər ki, Fillipinin və Honkonqun hərbi əhəmiyyətini zəifləddəcəklər.

Əgər «21 tələb» həyata keçirilərdisə, Çin tamamilə yapon imperializmindən asılı hala düşərdi.

ABŞ Yaponiyanın Çində yerləşməsinə  öz mənafeyi naminə narahat olduğuna görə ona göndərdiyi notada «21 tələb»in əleyhinə olduğunu bildirirdi.

Rusiya da Yaponiyanın tələblərindən narazı idi və Yaponiyaya bununla əlaqədar etibarızını bildirdi.

Yuan-Şi-Kay hökuməti Yaponiya hökumətinə cavabı gecikdirdiyinə görə, Yaponiya Şandun, Mancuriya, digər yerlərdə ordunu gücləndirdi. Öz tərəfindən Çin hökuməti də Tszyaçjounu Çinə qaytarmaq məsələsini qoydu. Buna cavab olaraq 1915-ci ilin




mayın 4-də Yaponiya Çinə ultimatum verdi. Həm də bildirdi ki, əgər ultimatuma cavab verilməzsə, Yaponiya istənilən ölçünü götürməyə hazırdır. Doğrudur, ABŞ-ın müdaxiləsindən qorxan Yaponiya beşinci qrup tələbələrin xeyli hissəsindən əl çəkdi. Onlardan ancaq Tutszyan əyalətinə aid maddə saxlanıldı. ABŞ digər dövlətlərin də bu məsələyə müdaxiləsini təşkil etmək istədi. Lakin nə Rusiya, nə də İngiltərə Almaniya ilə müharibə şəraitində Yaponiya ilə münasibətləri gərginləşdirmək istəmədilər. Mayın 8-də Çin Yaponiyanın ultimatumunu qəbul etdi.

Bundan bir neçə gün sonra ABŞ Tokioya bildirdi ki, o, Çin və Yaponiya arasında ABŞ-ın maraqlarına toxunan belə sazişi tanımır, hansı ki, Çin bütün millətlərin bərabər hüquqlarını bu sazişlə pozur. ABŞ-ın bəyənatı bununla da məhdudlaşdı. Onlar Çinə həqiqətdə heç bir kömək etmədilər.

**Bolqarıstanın müharibəyə girməsi.**Uzaq Şərqdə gedən hadisələrlə yanaşı Balkanlarda da müharibə genişləndi. Burada Bolqarıstanın nüfuzu daha güclü idi. Birincisi, bütün Balkan dövlətləri içərisində Bolqarıstan ən güclü orduya malik idi. İkincisi, coğrafi vəziyyətinə görə Bolqarıstan plasdarm idi. Oradan həm Serbiya və Rumıniyaya, həm də Yunanıstana zərbə endirmək olard.

Beləliklə, 1914-cü ildə müharibə şəraitində Bolqarıstan bütün Balkan yarımadasının açarı idi. Ona görə də müharibə başlanan ilk gündən Sazanov bu ölkəni Rusiyanın tərəfinə cəlb etməyə xüsusi diqqət yetirirdi. Burada o, Balkan blokunu yenidən təşkil etməyi mühüm addım hesab edirdi. Antanta ancaq Serbiya və Yunanıstanın Bolqarıstandan 1913-cü ildə aldıqları ərazilərin qaytarmasını təşkil etməklə Bolqarıstanı öz tərəfinə çəkə bilərdi. Artıq 1914-cü ilin avqustundan Sazanov inadkarlıqla Serbiya və Yunanıstana məsləhət gördü ki, Bolqarıstana güzəştə getsinlər. Yunanıstan buna qətiyyən razı deyildi. Çox maraqlıdır Ki, İngiltərə hökuməti Yunanıstanla sıx əlaqələr yaratmağı daha üstün hesab edərək Rusiya hökumətini nəinki dəstəkləmədi, hətta ona qarşı çıxış etdi.

Sazanovun Belqradda böyük nüfuzu var idi. Serbiya hökumətinin naziri Paşiç razı idi ki, Serbiya Makedoniyası



downloaded from KitabYurdu.org

hissəsini Bolqarıstana versin. Serbiya belə güman edirdi ki, müharibə Antantanın qələbəsi ilə qurtarardısa, Serbiya Avstriyadan Cənubi Slavyan vilayətlərini ala bilər. Yəqin ki, bununla qeyri-müəyyən müddətdə Bolqarıstan hökumətini özünə tərəf çəkmək olardı. Bolqarıstan Makedoniyadan başqa, Yunanıstanın sahib olduğu Qərbi Frakiyanı, Enos-Midiya xəttindən qərbə doğru torpaqları tələb edirdi. Bu torpaqlar ancaq qələbədən sonra verilə bilərdi. Lakin Bolqarıstanın baş naziri Radoslavov bildirirdi ki, əgər Antanta Bolqarıstanın onun tərəfində müharibəyə girməyini istəiyrsə, qoy dərhal Makedoniyanı ona versin. Belə olduqda Serbiya bildirdi ki, onun Avstriyaya tam tabe olması Makedoniyanı Bolqarıstana verməkdən daha yaxşıdır.

Mərkəz dövlətlərin Sofiyada nüfuzu müqayisə edilməyəcək dərəcədə güclü idi. Çar Ferdinand onların tərəfində idi. Müharibənin ilk günlərindən Almaniya və Avstriya diplomatiyası Bolqarıstan hökumətini Serbiyaya hücum etməyə razı salmışdılar. Mərkəz dövlətlərin diplomatiyası nəticəsində Bolqarıstanın əsas ərazi iddiaları Serbiyanın hesabına genişləndirilirdi. Almaniya və onun müttəfiqləri bütün Makedoniyanı, hətta Köhnə Serbiyanı da Bolqarıstana verməyi vəd edirdilər. Əgər Rumıniya Antantanın tərəfinə keçərdisə, Bolqarıstana nəinki Cənubi Dobruca, həmçinin Rumıniyanın şimal hissəsi də verilməli idi. Bununla belə, Bolqarıstan hələ müharibəyə hazır deyildi. O, hələ qəti şəkildə Mərkəz dövlətlərlə birləşmək qərarına gəlməyərək, birətəf olmağı daha məqsədəuyğun hesab edirdi. Qəti şəkildə müharibəyə başlamağı Bolqarıstan vəziyyət dəyişdikdən sonra qərara aldı.

Dardanel ekspediyasının uğursuzluğundan sonra rus ordusu Qalisiya, Polşa, Litva, Belorusiyanın bir hissəsini düşmənə qoyaraq geri çəkilməyə başladı. Mərkəz dövlətlərin Serbiyaya da hücumu gücləndi. Almaniyanın hərbi uğurları bolqar hakim dairələrinin Antanta qarşısındakı qorxusunu aradan qaldırdı. Çar Ferdinand və onun ətrafı çox təhlükəli riskə getdi. 1915-ci ilin sentyabrın 3-də Türkiyə-Bolqarıstan sazişi, sonra isə sentyabrın 6-da isə Almaniya, Avstriya, Macarıstan, Bolqarıstan arasında





ititfaq müqaviləsi bağlanmaqla Dördlər İttifaqı təşkil edilmiş oldu.

Yunanıstanda Venizilos parlament vasitəsi yenidən hakimiyyətə qaytarıldı. Yünanıstan Antanta nümayəndəsinə bildirdi ki, 1913-cü il Yunanıstan-Serbiya müqaviləsinin öhdəliklərinə əməl etməyə hazırdır. Lakin, o, ancaq bu şərtlə bunu yerinə yetirəcək ki, Antanta Yunanıstana kömək üçün Salonikada 150 min ordu yerləşdirsin. İngiltərə və Fransa buna razı olduqlarını bildirdilər. 130 min nəfərə qədər Salonikidə ordu yerləşdirildi. Kral Konstantin hələ danışıqlar gedərkən ikinci dəfə Venizelosu vəzifəsindən azad etdi və Yunanıstanın bitərəfliyini elan etdi.

1915-ci ilin oktyabrın 14-də bolqarlar Serbiyaya hücum etdilər. Serbiyanın şimalından isə Almaniya və Avstriya-Macarıstan hücum etdi. Balkan cəbhəli açılmış oldu. Bütün Serbiya ərazisi Almaniya və onun müttəfiqləri tərəifndən tutuldu, Serb ordusunun qalıqları Korf adasına evakuasiya edildi.

**Rumıniyanın müharibəyə girməsi.**Müharibə başlanandan Buxarestdə diplomatik mübarizə gedirdi. Vuruşan hər iki qrup Rumıniyanı öz tərəfinə çəkmək istəiyrdi. 1883-cü ildə Rumıniyanın «Üçlər İttifaqı» ilə başladığı müqavilə müharibə başlayarkən əhəmiyyətini itirdi. Rumıniyanı öz tərəfində müharibəyə cəlb etmək üçün alman bloku Transilvaniyanı ona verməyi Macarıstandan tələb edirddilər. Hətta onlar Rumıniyaya Bessarabiyanı da vəd edirdilər. Rumıniyanın baş naziri Bratianı bildirirdi ki, Rumıniya ancaq Rusiya dağılsa, Bessarabiyanın işğalına gedər. Öz növbəsində Rusiya da Rumıniyanı şirnikləndirmək üçün ona Transilivaniyanı təklif edirdi. Rumıniyanın hakim dairələri müharibənin gedişində dönüş yaradılana qədər gözləmək qərarına gəlmişdilər. Onlar öz bitərəfliklərini daha baha qiymətə satmaq istəiyrdilər. Bratianu Avstriya-Macarıstandan kompensasiya almaqda daha çox uğur əldə etdi. 1914-cü ilin sentyabrın 1-də rus-rumın sazişi bağlandı. Bu sazişə əsasən Rusiya Rumıniyanın ərazi bütövlüyünə təminat verirdi. Rumıniya rumınlar yaşayan Avstriya-Macarıstan ərazisini öz ərazisi hesab edə bilərdi. Bu şərtlə ki, rus ordusu uğur



downloaded from KitabYurdu.org

qazanana qədər Rumıniya bitərəfliyini saxlasın. Bu təminat Rumıniyanı Bolqarıstanın revanşından qoruyurdu. Rumıniya hökuməti London bazarlarından da istiqraz almağa müvəffq oldu ki, bu da bitərəfliyi saxlamaq üçün idi. Almaniyaya da Rumıniyaya bitərəfliyi üçün pul ödəmək lazım gəldi.

1915-ci ilin yazındı Rumıniya hökuməti Antantadan tələb etdi ki, təkcə Transilvaniyanı deyil, həm də Prut və Tisa çayına qədər olan Avstriya-Macarıstan ərazisi də Rumıniyaya verilsin. Bu, Rusiya və Serbiya dövlətlərinin mənafeyinə zidd idi. Onda Rusiya Qalisiya və Bukovinanı, Serbiya isə Cənubi Slavyan əyalətini tələb etdi. 1916-cı ildə Verden əməliyyatı və Brusilovun uğurlu döyüş əməliyyatları Antantanın mövqeyini möhkəmləndirdi. 1916-cı ilin avqustun 17-də Rumıniya və dörd böyük Antanta dövləti arasında müqavilə imzalandı. Rumıniya Avtriya-Macarıstan əleyhinə müharibəyə bağlamağı öhdəsinə götürdü. Bunun üçün ona Transilivaniya, Banat və Bukovinanın xeyli hissəsi vəd edildi. Rus komandanlığı Rumıniyanın müharibəyə girməsini faydasız hesab edirdi.

**Asiya Türkiyəsini bölüşdürülməsi planı.**Antanta və Mərkəz dövlətlər arasında diplomatik mübarizə getməsi ilə yanaşı Antanta dövlətlərinin öz daxilində də 1914-1915-ci illərdə boğazlar məsələsi ilə əlaqədar bağlanmış müqavilələr ətrafında mübarizə davam edirdi. Uzun və mürəkkəb alqı-satqıdan sonra müttəfiqlər, nəhayət, Asiya Türkiyəsinin bölüşdürülməsi haqqında razılığa gəldilər. Təşəbbüs Qərb dövlətlərinə məxsus idi. İngiltərə tərəfindən Sayks, Fransa tərəfindən isə Piko danışıqları aparırdı.

1916-cı ilin martın 9-da onlar danışıqların yekunları haqqında Rusiya hökumətinə məlumat verdilər. Plana görə, Türkiyənin böyük bir hissəsi işğal edilməli, ancaq sırf türk hissəsi qalmalı idi. Gələcəkdə ingilis-fransız və rus dövlətləri arasında bir bufer dövlətin yaradılması məsələsinin qoyulmaması Sazanova xoş gəlmədi. Bunun ətrafında onun xeyli iradları da toplandı. Yeni danışıqlar başlandı. Uzun müzakirələrdən sonra nəhayət, rus dövləti planla razılaşdı. İngilis-fransız sazişindən sonra 1916-cı ilin aprelin 26-da fransız-rus sazişi bağlandı. Bundan sonra bu




sazişlərə yekun vuran və tarixə «Sayks-Piko sazişi» kimi düşən saziş imzalandı.

Sazişə görə İngiltərə Bağdadla birlikdə Mosuldan başqa bütün Mesopotamiyanı alırdı. Ərəbistan yarımadasının xeyli hissəsi İngiltərənin təsir dairəsinə daxil edilirdi. Fələstinə beynəlxalq nəzarət təşkil edilirdi. Xayfa və Akka limanları İngiltərəyə təqdim edilməli idi.

Bu bölüşdürmədə Suriya, Livan, Kiçik Ermənistan, Kilikiya, Kürdüstanın xeyli hissəsi, hətta Şərqi Anadolu da Fransaya verilməli idi. Ərəbistan yarımadasının yuxarı hissəsi də onun təsir dairəsinə daxil edilir, Şimalda sərhəd Nejd və Mosul vilayəti hesab edilirdi.

Rusiyaya Trabzon, Ərzurum, Bəyazit, Van və Bitlis rayonları, Kürdüstanın bir hissəsi Qərbdən Trabzona qədər Qara dəniz sahil zolağı verilməli idi. Bundan başqa ona İstanbuldakı körfəzlər də təqdim edilirdi. Rusiyaya məxsus ərazidə yerləşən Fransa dəmiryol konsessiyası qüvvədə qalırdı.

İtaliya-Avstriya-Macarıstanla müharibəyə girsə də, o, hələ Almaniyaya müharibə elan etmədiyinə görə onun üçün ərazi müəyyən edilməmişdi. 1916-cı ilin avqustunda İtaliya Almaniyaya müharibə elan etdikdən sonra ona da Cənubi və Cənub-Qərbi Anadoludan bir hissə ayrıldı ki, buraya Adaliya, Konya, Aydin və Smirna daxil idi. Türkiyənin əlində ancaq Mərkəzi və Şimali Anadolu qaldı.

Müharibə başlayan ilk andan ingilis kəşfiyyatı Lourensin başçılığı altında Osmanlı imperiyasının ərəb hissəsində təbliğatı gücləndirdi.

Bu dövlətlərin Yaxın Şərqə dair siyasətini hər üç ölkənin burjua siyasi xadimləri də müdafiə edirdi.

**1916-cı ildə Antanta ölkələrinin maliyyə münaisbətləri.** 1916-cı ilin iyulun 14-də Londonda Antanta dövlətlərin maliyyə nazirlərinin ikinci konfransı ilə başladı. Ribo və Bark Fransa və Rusiyanı, Mak-Kenn isə İngiltərəni təmsil edirdi. İndi Konfransa İtaliya da dəvət edilmişdi. Onu Karkano təmsil edirdi. Fransanın irəli sürdüyü layihə İngiltərənin vasitəçilik rolunu heçə endirdiyinə görə Mak-Kenn onun qəbul edilməsinə imkan



downloaded from KitabYurdu.org

vermədi. Konfransın işi ancaq bütün Antanta üzvlərinin sifarişlərinin yerləşdirilməsi haqqında qarşılıqlı məlumat üzrə Londonda komissiya yaradılması ilə məhdudlaşdırıldı.

Avqustun 24-də İngiltərənin Fransaya 150 mln. f.st. istaqraz verməsi haqqında Kaledə müqavilə imzalandı. Əslində. Rusiyanın daha çox maddi köməyə ehtiyacı var idi. Ancaq Rusiyaya ABŞ kredit vermədi. Ona görə də Rusiya keçmiş kreditorları olan İngiltərə və Fransaya müraciət etdi. Bark və Ribo arasında olan danışıqlar nəticəsində Fransa Rusiyaya verdiya aylıq kreditləri 125 mn. frankdan 150 mln. franka qaldırmağa söz verdi.

İngiltərə isə bildirdi ki, Rusiyanın 30% qızılına ancaq biz 100% kredit verə bilərik, o isə ancaq ABŞ bazarı imkan verdiyi təqdirdə mümkündür. Rusiyanın maliyyə naziri buna cavab olaraq bildirdi ki, 30% qızılla, İngiltərənin köməyi olmadan da, ABŞ-dan kredit almaq olar. Vəziyyətin belə olduğunu görən Rusiyanın Ali Komandanlığının Baş ştabının rəisi general Alekseyev bildirdi ki, rus ordusunun strateji planı dəyişdiriləcək. Bu İngiltərəni qorxutdu. Çünki rus ordusu növbəti hücum əməliyyatından imtina edərdisə, Qərb cəbhəsində ingilis ordusunun vəziyyəti ağırlaşardı. Mak-Kenn İngiltərənin dərhal Rusiyaya 150 mln. f.st. kredit vreməsinə razılıq verdi. İngiltərə təkid etsə də, Rusiya bunun əvəzində qızıl verməkdən imtina etdi.

1916-cı ilin oktyabrın 27-də səfir Benkendorfla Qrey kredit haqqında saziş bağladılar. Qərara alındı ki, Rusiya ancaq o halda kreditin əvəzinə qızıl verməlidir ki, İngiltərə banklarının qızıl ehtiyatları 85 mln.f.st-dən az olsun. Bu sazişdən sonra Rusiya ABŞ-a çoxlu sifarişlər verə bildi. Fevral inqilabına qədər ABŞ Rusiyaya 250 mln. rubla qədər kredit vermişdi.

1916-cı ildə ABŞ-ın «Neyşil siti» bankı Rusiyada öz şöbəsini də açmışdı. Amerika kapitalının Rusiyanın sərvətlərini istismar etmək üçün marağı getdikcə artırdı.

**1916-1917-ci illərdə müttəfiqlərarası konfranslar.**1916-cı ilin noyabrında müttəfiq dövlətlərin komnadanlıqlarının nümayəndələrinin Şantilyada konfransı oldu. Əsas məsələ bütün cəbhələrdə müttəfiqlərin hücumlarını razılaşdırmaq idi. Hücum 1917-ci ilin fevralına qədər nəzərdə tutulurdu. 1917-ci ilin




hücumları Rusiyanın iştirakı olmadan Romada müzakirə olundu. Nəhayət, dörd müttəfiq dövlət Petroqradda birgə konfransa toplaşdılar. Bu konfrans 1917-ci ilin fevralın 1-dən 20-nə qədər davam etdi. Bu dövrdə artıq Rusiyanın xarici işlər naziri Sazanov deyil, Pokrovski idi. Rus nümayəndələri belə hesab edirdilər ki, 1917-ci ilin may ayından tez hücuma başlamaq mümkün deyildir. Həm də rus nümayəndə heyəti hazırlıq üçün Rusiyaya yenə kredit verilməsini tələb edirdi.

Petroqrad konfransı rus çarizminin nümayəndələrinin müharibə dövründə iştirak etdiyi sonuncu beynəlxalq görüş oldu. 1917-ci ilin əvvəllərində gələcək sülhün şərtləri ilə əlaqədar olaraq rus və fransız hökumətləri arasında daha bir saziş bağlandı. Rusiyanın xarici işlər naziri fevralın 14-də bildirdi ki, Fransanın Elzas-Lotaringiya və Saar kömür hövzəsinə olan iddialarını müdafiə etməyə hazırdır. Reynin sol sahilində isə «muxtar və bitərəf dövlət» təşkil edilsin. Fransa hökuməti martın 11-də ona göndərdiyi cavab notasında bildirirdi ki, İstanbul və körfəzlər haqqındakı sazişi təsdiq edir və Rusiyanın qərb sərhədlərini müəyyən etməkdə sərbəstliyini tanıyır. Saziş İngiltərə hökumətini narazı saldı. Sazişin onsuz bağlanması və Fransanın güclənməsi qorxusu onu narahat edirdi. İngiltərə həmçinin Reynin sol sahilinin də Fransaya verilməsi əleyhinə idi.

**Dünya müharibəsinin gedişində dönüş.**1914-cü ildən 1916-cı ilə qədər gedən döyüşlərdə .tərəflərdən heç biri həlledici qələbəyə nail ola bilmədi. İlk baxışda Almaniyanın nailiyyətləri daha çox görünürdü. Almaniya Belçikanı, Fransanın xeyli hissəsini, Polşanı, Pribaltkanın bir hissəsini və Belorusiyanı tutmuş, Serbiya və Rumıniyanı dağıtmışdı. Bu müddətdə Antanta ancaq Marnada qalib gəlmiş, Verdeni xilas etmşidir. Lakin almanların qısamüddətli müharibə aparmaq strategiyası son nəticədə Antantanın qələbəsinə imkan yaratdı. Almaniya müharibəyə daha yaxşı hazırlaşmış olsa da, Antantanın daha çox iqtisadi resursları, daha artıq canlı qüvvəsi və pulu var idi. Şliffen planının iflasa uğraması və müharibənin uzunması Antantaya imkan verdi ki,öz qüvvələrini səfərbər etməkdə Almaniyanı qabaqlasın.



downloaded from KitabYurdu.org

Artıq 1917-ci ilin sonunda müharibəni kim udacağını aydın etmək çətin deyildir. Britaniya donanması tədricən Almaniya ətrafında mühasirə halqası yaratmış oldu. İngiltərə hökuməti bitərəf dövlətlərlə söhbət aparırdı ki, onlar Almaniyaya ixrac etdikləri məhsulları məhdudlaşdırsınlar. Müharibənin birinci mərhələsində ABŞ buna etiraz etsə də, sonra bunu qəbul etməyə məcbur oldu. İngiltərə hökuməti beynəlxalq hüquq normalarını aşaraq Almaniyanın dənizdə müharibə normalarını pozmasından istifadə etdi və 1914-cü ilin noyabrın 3-də Şimal dənizini hərbi zona elan etdi. Niderland və Skandinaviya limanlarından Almaniyaya mal göndərilməsinə maneçilik göstərməyə başladı. 1916-cı ilin iyulun 7-də İngiltərə hökuməti rəsmən və açıq şəkildə bildirdi ki, o London bəyənatından imtina edir.

İtaliya müharibəyə girdikdən sonra Almaniyanın bütün quru yolları sərhədi cəbhəyə çevrildi. Bu İngiltərə blokadasının da səmərəsini artırdı. Bu, Almaniyanın Mərkəzi və Cənubi-Şərqi Avropanın resurslarından istifadə etməsində də çətinliklər yaratdı. Rumıniyanın işğalı İngiltərənin mühasirəsinin səmərəsini bir qədər zəiflətsə də, lakin Rumıniyanın taxıl və neft ehtiyatları Almaniya və onun müttəfiqlərinin böyük tələbatını ödəmək üçün kifayət deyildi.

Çar Rusiyasının da vəziyyəti ağır idi. Xammal və əhali ölkədə kifayət qədər olsa da, iqtisadi gerilik yenə də davam edirdi. Sənayenin zəif inkişaf etməsi, nəqliyyatdaki dağıntılar ölkədəki inqilabi hərəkatı gücləndirirdi. Rusiya 1915-ci ildən Almaniya ilə seperat sülh bağlamaq istəyirdi. Hətta Almaniya Rusiyanın xeyrinə boğazlar məsələsinin həll edilməsində Türkiyəyə təsir göstərəcəyini də bidirirdi. Almaniya Rusiyanın almanlara qədimdən simpatiyası olan irticaçı dairələrindən də istifadə edirdi. Almaniyanın kansleri Betman bunun üçün vasitəçi kimi Danimarka kralından istifadə etmək istəyirdi. Almaniya, çar II Nikolaya üç məktub göndərdi və Almaniya imperatorunun sülh bağlamağa hazır olduğunu bildirdi. Həmçinin çariçanın alman qohumları vasitəsi ilə danışıqlar aparıldı.





Sazanov seperat sülh bağlanmasının əleyhinə olduğuna görə istefa verdi. Onu almanpərəst Ştyurmer əvəz etdi. Rasputin seperat sülhün tərəfdarı idi.

Almaniya hökuməti özü də bilmədən seperat sülhün bağlanmasına mane oldu. Belə ki, Almaniya və Avstriya-Macarıstan 1916-cı ilin noyabrın 5-də «müstəqil» Polşa dövlətinin yaradılması haqqında bəyənat verdilər. II Nikolayı bu akt çox qəzəbləndirdi. Çar hökuməti elan etdi ki, bəyənatı rəsmi sənəd hesat etmir. Rus burjuaziyası içərisində çarizmə qarşı müxalifət artdı. Dövlət Dumasında Ştyurmerə danışmağa imkan verməyərək onu tribunanı tərk etməyə məcbur etdilər. Noyabrın 14-də Milyukov Ştyurmeri xəyanətdə təqsirləndirdi. II Nikolay Ştyurmeri istefaya göndərdi. Xarici İşlər naziri Pokrovski təyin edildi. İngiltərədə Askvit hökuməti də müharibəni  təm qüvvə ilə aparmaqda bacarıqsız olduğunu göstərdi. 1916-cı ilin dekabrında Askvit kabineti istefaya getməli oldu. Onu son qələbəyə qədər müharibə aparmağı şüar edən L.Corc əvəz etdi.

Almaniyada kəskin ərzaq çatışmazlığı müşahidə olunurdu. Cəbhədə itki böyük idi. Xalqda inqilabi əhvali-ruhiyyə güclü idi. Kansler Betman ölkədə inqilabi əhval-ruhiyyəni zəiflətməyə çalışırdı. 1916-cı ilin dekabrında Almaniya Buxaresti tutduqdan sonra dekabrın 12-də neytral dövlətlərin hökumətlərinə sülh bağlamaq təklifi ilə müraciət etdi. Təcili sülh danışıqlarına başlamağa hazır olduğunu bildirdi. Əslində bu təklifdən iki məqsəd var idi. Birinci məqsəd Almaniyanın sülh istədiyinə, müharibənin uzanmasında Antanta dövlətlərinin təqsirkar olduqlarına xalqı inandırsınlar. Halbuki bu dövrdə Alman komandanlığı amansız sualtı müharibəyə hazırlaşırdı. İkincisi isə Antanta razılaşacağı təqdirdə alman diplomatiyası sülh danışıqlarından istifadə edərək Antanta dövlətləri içərisinə ixtilaf və parçalanma salmaq və onlardan hər hansı biri ilə o birilərinin əleyhinə sülh bağlamaq idi. 1916-cı ilin noyabrında Avstriya-Macarıstan hökumətinin tələbi ilə mərkəz dövlətlərinin iştirakı ilə sülh konfransının çağrılmasına da Almaniya hökuməti razılıq verdi.



downloaded from KitabYurdu.org

Antanta dövlətləri Almaniyanın məqsədini bildikləri üçün onun təklifini rədd etdilər. Lakin yenə də həm Avstriya-Macarıstan, həm də Almaniya hələ 1917-ci ilin fevralında da Rusiya ilə seperat sülh bağlamağa çalışırdılar. Lakin bu ümidlər özünü doğrultmadı. Alman imperializminin sağ qanadı belə hesab edirdi ki, indi ancaq sualtı müharibəyə başlamaqla tam qələbə əldə etmək olur. Bu tədbirin nəticələrindən kansler ehtiyat edirdi. O qorxurdu ki, ABŞ bu hadisə nəticəsində Antantanın tərəfində müharibəyə girsin.

Sualtı müharibə İngiltərəyə də ağır ziyan vurdu. Bununla belə, onun dəniz qüdrəti sarsılmadı. Lakin Almaniya üçün daha təhlükəli vəziyyət yaranmış oldu.

**Avropada müharibə və ABŞ-ın siyasəti.Latın Amerikası ölkələrinə ABŞ-ın müdaxiləsi.**Müharibə başlayarkən ABŞ öz bitərəfliyini elan etdi. ABŞ üçün müharibə edən tərəflərdən birinin və ya digərinin tam qələbəsi əlverişli deyildi. ABŞ Avropanı bir-birinə rəqib iki düşərgəyə bölünmüş görmək istəyirdi. Nə Almaniyanın qələbəsi və hegemonluğu, nə İngiltərə və Rusiyanın tam təntənəsi ABŞ-ın hakim dairələrində təbəssümə səbəb ola bilməzdi. Lakin Almaniyanın qələbəsi onlar üçün daha qəbuledilməz idi. Çünki Almaniya hegemonluğunu böyük dövlət kimi bütün Avropaya aid edərdi. Həmçinin ABŞ-a Almaniyanın Latın Amerikası ölkələrinə qarşı müstəmləkə planları da aydın idi. Alman-yapon sazişi də ABŞ-a qarşı çevrilə bilərdi. Antantanın qələbəsi də arzu edilən deyildi. İngiltərə ilə arasında da dərin ziddiyyətlər var idi. Onlar dənizlərin azadlığını istəyirdilər. İngiltərə isə əksinə. Onlar Latın Amerikası ölkələri üstündə də rəqib idilər. Aralarında ziddiyyətlərin olmasına baxmayaraq yenə də ABŞ-a Almaniyanın qələbəsindən daha çox İngiltərənin qələbə çalması münasib idi.

1915-ci ilin sonunda ABŞ belə qərara gəldi ki, Antanta dövlətlərinin müharibədə məğlubiyyəti onun üçün əlverişli deyildir. Əks təqdirdə Almaniya bütün dünyada öz hərbi hökmranlığını quracaqdır. Lakin ümumilikdə ABŞ-ın siyasəti Avropada böyük dövlətlərin iki rəqib qrupunu saxlamaq idi.





Arvopadakı imperialist dövlətlər arasındakı ziddiyyətlərin kəskinləşməsindən istifadə edərək ABŞ Latın Amerikasında öz mövqeyini möhkəməndirməyə çalışırdı. Avropada müharibə başladıqdan sonra ABŞ, Kuba, Panama, Dominikan respublikası, ardınca Honduras və Nikaraquada da öz protektoratını yaratdı. 1914-cü ildə ABŞ dəniz piyada qüvvələri Haitini əhatə etdi. ABŞ-ın ən təcavüzkar müdaxiləsi Meksikaya oldu. Vaşinqtonun rəhbərliyi ilə 1913-cü ilin fevralında Meksikada prezident Madero devrildi. Ölkədə Uertanın mürtəce diktaturası quruldu. Ölkədə bu diktaturaya qarşı güclü hərəkat başlandı. Tezliklə Uertanın ingilislərlə sıx əlaqədə olduğu ABŞ-a məlum oldu . Bu, ABŞ-ı məyus etdi. Prezident Vilson onu Meksika prezidenti kimi tanımaqdan imtina etdi və öz səfirini geri çağırdı. ABŞ başlanan inqilabdan istifadə edərək Meskikada öz nüfuzunu gücləndirmək və İngiltərəni buradan çıxarmaq istədi. 1914-cü ilin yazından ABŞ bu ölkəyə silahlı müdaxiləyə başladı.

Avropadakı təhlükəli vəziyyəti nəzərə alaraq İngiltərə hökuməti ABŞ-la münasibətləri nizama salmağa cəhd göstərdi. Onlar Uertadan uzaqlaşdılar. Vilson da ingilislərlə görüşə razı oldu. ABŞ Panama kanalı haqqındakı ingilis-amerikan müqaviləsinə yenidən baxmaqdan imtina etdi.

ABŞ-ın Latın Amerikasında hegemonluğuna regionun öz dövlətləri olan Braziliya, Argentina, Çili ciddi müqavimət göstərirdilər.

Mərkəz Amerika respublikalarında vəziyyət daha ağır idi. 1914-cü ilin aprelində ABŞ hərbçiləri Meksika limanı olan Verakrusu tutdular. İyul ayında Uerta səlahiyyətlərindən əl çəkməyə və Avropaya getməyə məcbur oldu. Lakin yenə də Meksikada daxili mübarizə səngimədi.

1916-cı ilin yanvarın 7-də Meksikanın prezidenti Karransonun Meksikada ancaq Meksika hökumətinin razılığı ilə neftin yerləşdiyi yerlərdə kəşfiyyat aparmaq və quyu qazmaq haqqında verdiyi dekret prezident Vilsonun Meksikaya qarşı silahlı müdaxilə haqqında qərar qəbul etməsinə səbəb oldu. 1916-ci ilin martında general Perşinqin rəhbərliyi altında ABŞ qoşunları Meksika sərhədini keçib ölkənin içərilərinə doğru



downloaded from KitabYurdu.org

irəliləməyə başladılar. Bütün xalq işğalçılara – yankilərə qarşı silahlı mübarizəyə qalxdı. Bu, ABŞ-I geri çəkilməyə məcbur etdi. Bu dövrdə ABŞ-ın Almaniyaya qarşı müharibəyə girməsi də onun Meksikadan qoşunlarını geri çəkməsinə təsir göstərən amillərdən idi.

**ABŞ-ın Antanta dövlətləri ilə yaxınlaşması.**Beynəlxalq hərbi-siyasi vəziyyət Vilsonu öz mövqeyində düzəlişlər etməyə məcbur etdi. Artıq 1914-cü ilin qışında iki fakt aydın idi. Birinci, müharibə külli miqdarda hərbi ləvazimat tələb edirdi. İkincisi, müharibənin uzanması bu tələbatın da müddətini uzadırdı. 1914-cü ilin noyabrında ABŞ-ın nümayəndəsi Morqan Londona gələrək Britaniya hökuməti ilə Antanta dövlətlərinin ABŞ-a verdikləri hərbi sifarişlərin maliyyələşdirilməsi məsələsi barədə danışıqlara başladı. Artıq 1915-ci ildən ABŞ Antantanın hərbi sifarişlərini yerinə yetirən ölkə oldu. ABŞ-ın qarşısında irimiqyaslı yeni bazar açılmış oldu. Almaniyanın ABŞ-dan məhsul alması İngiltərənin hərbi blokadası üzündən xeyli çətin idi. Buna görə də hərbi gəlir əldə etməkdə maraqlı olan ABŞ inhisarları üçün Antantanın məğlubiyyəti onun kreditorlarına güclü iqtisadi itki olardı.

1915-ci ildə İngiltərə və Fransanın ABŞ-la bağladığı sazişə əsasən ABŞ onlara ilk dəfə böyük məbləğdə - 560 mln. dollar dəyərində istiqraz verdi. Onun ardınca Antanta ölkələri yeni istiqrazlar almağa başladı. Bu hal tədricən ABŞ-ın İngiltərəyə borclu vəziyyətini aradan qaldırdı və o, borcverən ölkəyə çevrilmiş oldu. Başda Morqan olmaqla ABŞ-ın nüfuzlu kapitalist dairələri Vilsondan tələb etdilər ki, Antanta ölkələrini müdafiə etsinlər.

Müharibəyə hazırlıq ABŞ-da surətlə gedirdi. ABŞ-da əhali arasında «dənizlərin sərbəstliyini» alman militaristlərindən qorumaq haqqında təbliğat da öz işini gördü. Almaniyanın apardığı amansız sualtı müharibə də buna imkan yaratmış oldu. Bu müharibə ABŞ mallarının Avropaya, ilk növbədə Antanta öklələrinə gətirilməsinə mane olurdu. «Luzitaniya», «Arabika», xüsusilə «Sassekla» gəmilərinin batması ABŞ-da güclü etiraza səbəb olmuşdu. 1916-cı ilin mayında kansler Betmanın tələbi ilə sualtı müharibə zəiflədi. Bu ABŞ-ın Almaniyanın düşmənləri




tərəfində müharibəyə girməmək təhlükəsi yaratdı. 1916-cı ilin fevralın 22-də ABŞ nümayəndəsi Xauzla Qreyin birgə imzaladığı sənəddən də məlum olur ki, Vilson sülh konfransı çağırmaq təşəbbüsünü öz üzərinə götürür. Lakin bu şərtlə ki, Fransa və İngiltərə bunun vaxtını əlverişli hesab etsinlər. Sənəddə həmçinin göstərilirdi ki, Almaniya düşüncəsiz hərəkət edərək konfransın işini pozsa, onda ABŞ İngiltərə tərəfində müharibəyə girəcəkdir. Həmçinin Almaniyaya «Avropadan kənardakı» müstəmləkə mülkləri üçün heç bir kompensasiya verilməyəcəyi də göstərilirdi. Müharibəyə girməkdə ABŞ-ın birinci məqsədi müharibə aparan ölkələrin heç biri tərəfindən ona zərər vurulmamasını təmin etmək idi. 1916-cı il prezident seçkilərindən sonra da Vilson siyasi monevr edərək sülh təşəbbüsü ilə çıxış etdi. Amma o, yaxşı bilirdi ki, bunun heç bir nəticəsi olmayacaqdır. Çünki, Almaniya onu qabaqlayaraq hələ dekabrın 12-də sülh təşəbbüsü ilə çıxış etdi. Dekabrın 18-dəki Vilsonun notasına Almaniya dekabrın 26-da cavab verdi ki, müharibə iştirakçısı olan dövlətlər birbaşa danışıqlar yolu ilə sülhə nail olunmalıdır. 1916-cı ilin dekabrında Londonda keçirilən müttəfiqlərarası konfrans da Vilsona həmin cavabı verdi. Müttəfiq dövlətlərin 1917-ci ilin yanvarın 10-da göndərdiyi notada sülhün şərtləri aşağıdakı kimi idi: «Belçika Serbiya və Çernoqoriyanın müstəqililiyinin bərpa edilməsi, almanlar Rusiya, Rumıniya və Fransada yerləşdikləri ərazidən köçürülməli, «Milliyyətə görə hörmət etmək»» və onların hüquqlarını qorumalı; Avstriya-Macarıstan və Osmanlı imperiyasını parçalamaq; Çex və Slovakları azad etmək; Həmçinin Avstriya-Macarıstanın Polşa hissəsini azad etmək. Notada türklər haqqında daha kəskin yazılmışdır ki, Qərb mədəniyyətinə yad olan Osmanlı imperiyasını mütləq «Avropadan qovmaq» vacibdir. Polşa məsələsini isə çar hökuməti həll etməli idi. Polşa çar Rusiyasının «protektoratlığı» altında bərpa etməli idi. Notanın sonunda Avropanın yenidən qurulmasının vacibliyindən, təhlükəsizlik və sərbəstliyin təminatından bəhs edilirdi. Əlbəttə, bu nota da diplomatik və təbliğatı bir manevr idi.



downloaded from KitabYurdu.org

Almanlar özü Vilsonun müharibəyə başlaması üçün bəhanə vermiş oldular. İngiltərə kəşfiyyatı Meksikadakı alman səfirliyinə ünvanlanmış teleqramı aşkarladı ki, həmin teleqramda Meksikaya Almaniya ilə birləşmək və birgə ABŞ-a hücum etmək təklif olunurdu. Alman casusları və diversantlarının ABŞ-da törətdikləri cinayətlər ictimai rəyi Almaniya əleyhinə köklədi.

1917-ci ilin yanvarın 31-də Almaniya hökuməti Vilsona öz sülh şərtləri haqqında məlumat verdı. Almaniya şərqdə onun və Polşanın strateji və iqtisadi maraqlarını təmin edən sərhədin yaradılmasını tələb edirdi.

Əslində Almaniya Polşanı öz vassalına çevirmək istəyirdi. Almaniya onun iqtisadi maraqlarını müdafiə edən müstəmləkə mülkləri ilə təmin edilməli idi. Almaniyanın təhlükəsizliyi təmin edilmək şərti ilə Belçika bərpa edilməli idi.

Almaniya Elzas və Lotaringiyanı Fransanın ancaq kompensasiya ödəməsi şərti ilə ona qaytarmalı idi. Almaniyanın tutduğu ərazilərə kompensasiya ödəməklə yanaşı, müəssisələri və ayrı-ayrı şəxslərə də kompensasiyaların verilməsi də tələb edilirdi. Nəhayət, Almaniya ticarət azadlığı və dənizlər azadlığı ilə bağlı olan bütün müqavilə və tədbirlərdən imtina edilməsini tələb edirdi.

Almaniya 1917-ci ilin yanvarın 31-də sualtı müharibənin yenidən başlanması haqqında ABŞ-ı xəbərdar etdi. Bu hadisədən sonra Vilson 1917-ci ilin fevralın 3-də konqresdə bildirdi ki, ABŞ Almaniya ilə diplomatik münasibətləri kəsir.

1917-ci ilin yazında Antanta ölkələri cəbhədə bir neçə uğursuzluğa düçar oldu. İngiltərə qarşısında aclıq vahiməsi yarandı. Fevral inqilabından sonra Rusiyanın müharibədən çıxmaq təhlükəsi də yarandı. Ən təhlükəlisi isə o idi ki, Almaniya qələbə qazana bilərdi. Ona görə də ABŞ 1917-ci ilin aprelin 6-da Almaniyaya müharibə elan etdi.

**Rusiyada fevral burjua-demokratik inqilabı və böyük dövlətlərinin ona münasibəti.**Rusiya imperializm zəncirinin ən zəif halqası idi. Müharibə ölkədə inqilabi yüksəliş yaratdı. Ölkədəki bürokratik rejim, iqtisadi və texniki gerilik, üstəgəl müharibə Rusiyada siyasi vəziyyət gərginləşdirdi. Bu vəziyyətdən





çıxmaq üçün yuxarı dairələr 1915-1916-cı illərdə saray çevrilişi hazırlamağa başladılar. II Nikolayı qardaşı Mixaillə əvəz etməyi planlaşdırdılar. Dövlət Dumasında yaranmış «Mütərəqqi blok» İngiltərənin dəstəyi ilə bu işə rəhbərlik edirdi. İngiltərənin Rusiyadakı səfiri Byukenin, Fransanın səfiri Paleoloq bu sahədə daha çox canfəşanlıq edirdilər. Hətta lazım gələrsə, II Nikolayı öldürməyi məsləhət görürdülər. ABŞ səfiri Frensis də qəsdin iştirakçılarından idi. Lakin bu qəsddən qabaq Rusiyada 1917-ci il fevralın 27-də burjua-demokratik inqilabı başa verdi. Rusiyada çarizm devrildi, ikihakimiyyətlilik yaranmış oldu. Bunlardan biri real hakimiyyət olan və sinfi tərkibi fəhlə və əsgər şineli geymiş kəndliləri təmsil edən sovetlər, digəri isə rəsmi hakimiyyət olan, sinfi tərkibi burjuaziya və burjualaşmış mülkədarlardan təşkil olunan Müvəqqəti hökumət idi. Ölkədə xırda burjuaziyanın çoxluğu ikihakimiyyətliliyin yaranmasına imkan yaratmış oldu. Müvəqqəti hökumət müharibəni son qələbəyədək davam etdirəcəyinə müttəifqləri əmin etdi. Xarici İşlər naziri Milyukov oldu.

Antanta və ABŞ-ın diplomatları fasiləsiz Rusiyanın daxili işlərinə qarışmaqda davam edirdilər. 1917-ci ilin martın 22-də İngiltərə və Fransa Rusiyada qurulmuş Müvəqqəti hökuməti rəsmən tanıdıqlarını elan etdilər.

Sovetlərin təkidi ilə Milyukov 1917-ci ilin aprelin 9-da «Müvəqqəti hökumətin rus vətəndaşlarına müraciəti»ni elan etdi. Bu sənəddə müttəfiqlər qarşısında Rusiya götürdüyü öhdəlikləri yerinə yetirməklə yanaşı belə bir fraza da işlədildi ki, Rusiya digər xalqlar üzərində ağalığa çalışmır, azad olmaq istəyir və Rusiya başqa əraziləri tutmaq ididasında deyildir. Millətlərin öz müqəddəratını təyin etmək əsasında qurulmuş dünya tərəfdarıdır.

Antanta imperialistlərini bu sənəd narazı saldı. Müvəqqəti hökumətin zəifliyi Parisdə və Londonda böyük məyusluq doğurdu. Fransanın təkidi ilə Milyukov 1917-ci ilin mayın 1-də xarici dövlətlərə nota göndərdi ki, Rusiya «qəti qələbəyə» qədər müharibəni davam etdirəcəkdir. Müttəfiqlər bu notadan çox razı qaldılar.



downloaded from KitabYurdu.org

Lakin sovetlərin təzyiqi nəticəsində Milyukovu tezliklə Tereşenko əvəz etdi.

Təsərrüfat dağınıqlığı və müharibənin uzanması Rusiyanın müttəfiqlərindən asılılığını gücləndirirdi. İngiltərə Rusiyaya verəcəyi kreditləri son dərəcə ixtisar etdi. İngiltərə və Fransa böyük məsələləri Rusiyanın iştirakı olmadan və onun maraqlarını nəzərə almadan həll etməyə başladılar. 1917-ci ilin aprelində Fransa və İtaliyanın sərhədində yerləşən Sen-Jan de Marillinidə keçirilən konfransda Lloyd Corc və Ribo Rusiyanın iştirakı olmadan İtaliyaya Kiçik Asiyanın cənub-qərbində yerləşən Smirnanı vermək haqqında qərar qəbul etdilər. Müttəfiqlər hətta Yunanıstan haqqında məsələ ilə əlaqədar da Müvəqqəti hökumətin rəyi ilə hesablaşmadılar. Fransa dövləti Salonika cəbhəsini möhkəmləndirmək üçün Yunanıstanı müharibəyə cəlb etmək qərarına gəldi. Fransa belə hesab edirdi ki, bunun üçün Almaniya tərəfdarı olan və bitərəfliyi müdafiə edən Konstantini aradan götürmək lazımdır. 1917-ci ilin yayında «Antantanın baş komissarı» müttəifqlərin gəmiləri ilə Yunanıstanın Pirey limanına desant çıxartdı. Konstantin devrildi və o, hakimiyyəti Antantapərəst Venizelosa verdi. Yeni hökumət mərkəz dövlətlərinə müharibə elan etdi.

**Avstriya-Macarıstanda 1917-ci ildə vəziyyət.**1917-ci ildə Habsburqlar monarxiyasının hökm sürdüyü Avstriya-Macarıstanda vəziyyət Rusiyaya nisbətən yaxşı idi. Lakin aclıq, nəqliyyatın hərəkatının pozulması məzlum millətlərdə və ölkə əhalisi içərisində narazılığı artırırdı. Ordunun döyüş qabiliyyəti zəifləmişdi. Avstriya cəbhəsi əsasən almanların köməyi ilə davam gətirirdi. 1916-cı ilin sonunda kral Frans-İosif vəfat etdi. Kral öz taxt-tacını qorumaqdan ötrü seperat sülh bağlamağa hazır olduğuna görə Almaniya onu o qədər də sevmirdi. Yeni kral Karl oldu. 1917-ci ilin aprel ayının 12-də inqilabdan qaçmaq üçün yeganə yol tezliklə sülh bağlamaq idi. Dərhal II Vilhelm bu barədə xəbər tutdu. Hələ bundan xeyli əvvəl Berlindən gizli şəkildə Karl şahzadə Sikst Burbon vasitəsi ilə Antanta ilə danışıqlar aparmağa hazır olduğunu bildirdi. O, bildirdi ki, o, Elzas və Lotaringiyanın Fransaya qaytarılmasına kömək





edəcəkdir. Bunun üçün o, müharibəyə qədərki sərhədlərin bərpasını tələb edirdi. Danışıqlar Rusiyadan gizli gedirdi. Lakin İtaliyanın Triyesti Dalmasiya və Trentini işğal etməkdən imtina etmək arzusunda olması vəziyyəii dəyişdirdi.

**Alman imperializminin 1917-ci ildə «sülh» manevrləri.** Artıq 1917-ci ildə Almaniya hakim siniflərinin ayaqlarının altı ləngərləməyə başlamışdı. Rusiyadakı fevral inqilabı Almaniyaya dərin təsir göstərdi. Berlin və Leyspiqdə hərbi zavodlarda güclü tətillər baş verdi. Avqust ayında hərbi donanmada üsyan baş verdi. Almaniyanın ehtiyatları sona yaxınlaşmışdı. Bununla bərabər, Qərb cəbhəsində yeni ABŞ ordusunun peyda olunması gözlənilirdi. Almaniya diplomatiyası vəziyyətdən çıxmaq üçün hər cür manevrə əl atmağa hazır idi. 1917-ci ilin yazında hökumət alman sosial-demokratiyasının rəhbəri Şeydemanı beynəlxalq sosialist konfransı çağırmaq təşəbbüsü ilə çıxış etməyə razı saldı. Almaniyanın planı bolşevikləri ifşa etmək idi. Konfransın yeri Stokholm təyin edildi. İngiltərə və Fransanın bu işə qarışması nəticəsində konfrans, alman burjuaziyası içərisində müharibəni tez qurtarmaq üçün kompromisə gəlmək meyli də gücləndi.

Razılıq üzrə sülh tərəfdarları çoxaldı. 1917-ci ilin iyulun 19-da sosial-demokrat liberallar və milli-liberallar partiyası rexstaqa bu barədə qətnamə təqdim etdilər. Onlar işğaldan əl çəkməyi tələb edirdilər. Betman onları aldatmaq üçün belə bir təklif irəli sürdü ki, işğal olunmuş yerlərdə alman imperializminin rəhbərliyi altında «muxtar» dövlətlər təşkil edilsin. Güya bu alman imperializmini xilas etmiş olardı. Reystaqın sağ azlığı bunun qəti əleyhinə çıxdı. Lakin solların təklifi keçdi. Bu hadisədən bir neçə gün sonra sağlar kayzerin Betmanı istefaya göndərməsinə nail oldular. Yeni kansler Mixavlis Lyudendorfun əlində sakit oyuncağa çevrildi.

İngiltərə, Fransa, ABŞ tərəfindən də qətnamə gözlənilən həssaslıqla qarşılanmadı. 1917-ci ilin avqustunda Vatikan papası sülh bağlanması məsələsində vasitəçi kimi çıxış etməyə hazır olduğunu bildirdi. Papa əslində Avstriya-alman blokunun maraqlarını müdafiə edirdi. O, Habsburqlar monarxiyasının



downloaded from KitabYurdu.org

süqutunu istəmirdi. Çünki onlar ayrılmaz tellərlə kilsə ilə bağlı idilər. Antanta dövlətləri Vatikanın çağırışına cavab vermədilər.

**Qərb muttəfiqləri və Rusiya 1917-ci ildə.** Müvəqqəti hökumət Antantadakı çarizm dövründəkindən daha çox asılı idi. Bu onun hərbi zəifliyindən, ölkənin cəbhənin tələbatını ödəyə bilməməsindən və maliyyə yardımına daimi ehtiyacından irəli gəlirdi.

Müvəqqəti hökumət 1917-ci ilin iyulun 1-də rus ordusunu yenidən hücum etməyə məcbur etdi.

Bu hücumda qələbə ümidsiz idi. Rusiya bu hücumda lazım olmadığı halda çoxlu insan itirdi. Kerenski hökumətini müttəfiq dövlətlərin Kornilovu müdafiə etməsi də məyus etdi. Hətta İngiltərənin tank diviziya hissələri də qiyamda iştirak edirdilər. ABŞ mətbuatı may ayında Rusiya müharibədən çıxacağı təqdirdə Rusiyaya birlikdə hücum etmək haqqında ingilis-yapon sazişinin bağlanması haqqında yazırdı: «Müvəqqəti hökumət İngiltərə və Fransanın iştirakı olmadan ABŞ-la əməkdaşlığa girmək istədi. 1917-ci ilin iyununda Rusiyaya bu məqsədlə ABŞ senatoru Rut gəldi. Sibir dəmiryolunun vəziyyəti ilə tanış oldu. Amerikanlar həmin dəmiryolu üzərində nəzarəti ələ keçirməyə ümid edirdilər. Kerenski hökuməti ABŞ-ı İngiltərə hökumətinə qarşı qoymağa çalışırdı. Rusiya İngiltərə asılılığından qurtarmaq üçün ABŞ-dan kredit almaq istəyirdi. Rusiya üçün kreditorluq İngiltərədən ABŞ-a keçmiş oldu. 1917-ci ilin payızında ABŞ, İngiltərə və Fransa arasında Rusiyaya «köməyi» genişləndirmək haqqında saziş bağlandı. ABŞ rus dəmir yollarını təmir etməyi, İngiltərə dəniz ticarətini, Fransa ordunu öz üzərinə götürdü. Tezliklə sazişdə edilən dəyişikliyə əsasən Murmansk yolu İngiltərəyə keçdi, qərbi və cənub-qərbi yollar isə Fransaya keçdi. Bu əslində Rusiyanın nüfuz dairələrinə bölünməsinin başlanğıcı demək idi. 1917-ci ilin oktyabrın 9-da İngiltərə, Fransa, İtaliya səfirlərinin Kerenski hökumətinə birgə təqdim etdikləri notada inqilabla mübarizə üçün ordunun döyüş qabiliyyətinin yüksəldilməsi tələb edilirdi. Kerenski tam köməksiz olduğu üçün müttəfiqlərin bu tələbi onu sevindirdi.





Rusiyanın daxili vəziyyətinin gərgin olması 1917-ci ildə oktyabr çevrilişinə, Müvəqqəti hökumətin devrilməsinə səbəb oldu. Rus bolşevikləri öz hakimiyyətlərinin xilas yolunu təsərrüfat dağınıqlığından, həmçinin ölkənin nüfuz dairələrinə bölünməkdən xilas olmaqda görürdülər.

**V.Vilsonun «14 maddəlik» sülh proqramı.** Müharibənin törətdiyi iqtisadi dağıntılar dövrün real siyasət yeridən xadimlərini düşünməyə vadar etdi. Məhz bu dövrdə tarixə yeni demokratiya carçısı kimi daxil olan ABŞ prezidenti Vudro Vilson sülh təşəbbüsü ilə çıxış etdi və 1918-ci il yanvarın 8-də müharibədən sonra dünyanın ədalətli bölgüsünü müəyyən edən 14 maddəlik sülh proqramını elan etdi. Bu maddələr aşağıdakılar idi:

1) Sülh müqavilələrinin açıq müzakirəsi. Bundan sonra heç bir gizli beynəlxalq saziş olmayacaq, diplomatiya isə həmişə açıq-aydın və hamının gözü qarşısında fəaliyyət göstərəcək.
2) Ərazi suları xaricində həm sülh, həm də müharibə vaxtı gəmiçiliyin dənizlərdə mütləq sərbəstliyi.
3) Mümkün qədər bütün iqtisadi maneələrin ləğvi.
4) Dövlət təhlükəsizliyinə uğun olaraq silahların mümkün qədər azaldılması üçün ədalətli zəmanətlər.
5) Müstəmləkələr üzərində suverenliklə bağlı bütün məsələlərin həllində əhalinin maraqlarının hökumətlərin ədalətli tələblərinə nisbətdə bərabər tutulması prinsipinə əsaslanaraq bütün müstəmləkə mübahisələrinin sərbəst, səmimi və mütləq bitərəflik mövqeyindən həlli.
6) Bütün rus torpaqlarının azad edilməsi; Rusiya öz taleyini özü müəyyən etməli, istədiyi idarə formasını seçməli və Millətlər Cəmiyyətinə qəbul edilməlidir.
7) "Belçika….boşaldılmalı və bərpa edilməlidir."
8) Fransa boşaldılmalı, işğala məruz qalmış əraziləri bərpa edilməli, Elzas və Lotaringiya Fransaya qaytarılmalıdır.
9) İtaliyanın sərhədləri şəffaf görünən milli sərhədlərə görə dəyişdirilməlidir.



downloaded from KitabYurdu.org

10) Avstriya-Macarıstan xalqları… geniş muxtar inkişaf imkanları əldə etməlidirlər (sonralar muxtariyyət prinsipi tam müstəqilliklə əvəz edildi).
11) Rumniya, Serbiya və Qaradağ (Çernoqoriya) boşaldılmalıdır.
12) Osmanlı imperiyasının türk hissəsi… təminatlı və möhkəm suverenlik almalıdır; tabe edilmiş millətlərə təhlükəsizlik və "muxtar inkişafın mütləq pozulmaz şərtləri" təmin edilməlidir.
13) Müstəqil Polşa dövləti yaradılmalıdır.
14) Xüsusi müqavilələr əsasında ümumi millətlər birliyi (Millətlər Cəmiyyəti) yaradılmalıdır.

**Sovetlərin irəli sürdükləri sülh şərtləri.Almaniya bloku ilə Sovet Rusiyası arasında Brest sülhü.** Sülh danışıqları 1917-ci ilin dekabrın 2-də başladı. Dekabrın 15-də Sovet nümayəndə heyəti ilə barışıq sazişi imzalandı. Sülh haqqında dekretin prinsipləri əsasında Sovetlər Almaniya hökumətinə aşağıdakı sülh şərtlərini təklif etdi:

1. Müharibə zamanı tutulmuş heç bir ərazini zorla birləşdirməmək, qoşunları qısa müddətdə çıxarmaq;

2. Müharibə zamanı müstəqilliyini itirmiş xalqlarının tam siyasi müstəqilliyini bərpa etmək.

3. Müharibəyə qədər dövlətlərdən birinin tərkibində yaşayan və siyasi müstəqilliyi olmayan xalqların referendum yolu ilə dövlət müstəqilliyini müəyyən etmək;

4. Milli azlıqlara xüsusi qanunlarla inzibati muxtariyyət təqdim etmək;

5. Döyüşən dövlətlərdən heç birindən təzminat almamaq;

6. Müstəmləkə məsələləri 1, 2, 3, 4-cü maddələrə uyğun şəkildə həll edilsin.

Proqram «İlhaqsız və təzminatsız sülh» sözləri ilə qurtardı.

1917-ci ilin dekabrın 18-də Berlində reyxkansler Hertlinq, Hindenburq və Lyudendorfin iştirakı ilə keçirilən müşavirədə general Qofman qətiyyətlə sovetlərin sülh təklifinə qarşı çıxdı. Lakin dekabrın 25-də onlar zahirdə sülh şərtləri ilə razı





olduqlarını bildirdilər. 1918-ci ilin yanvarın 9-da on günlük fasilədən sonra sülh konfransı yenidən işə başladı. Sovet nümayəndə heyətinə əvvəl İoffe başçılıq edirdi. Almaniya istəyirdi ki, Polşanı, Litvanı, Estoniyanın bir hissəsini, Latviyanı, Belorusiyanı, Ukraynanı, Mouzund adalarını və Riqadan Fin və Botnik körfəzlərinə gedən dəniz yollarına nəzarət etmək imkanı əldə etsin. Petroqradı təhlükə altına alırdı. «Sol kommunistlər» buna qəti etiraz edirdilər. Trotski də Almaniya ilə sülh bağlamaq əleyhinə çıxdı. O, idida edirdi ki, almanlar hücum edə bilməzlər və etməyəcəklər. O, «Nə sülh, nə də müharibə! Şüaranı irəli sürərək ordunu tərxis etməyi təklif etdi. Brestdə nümayəndə heyətinə başçılıq edən Trotski fevralın 10-da Sovet Rusiyasının müqaviləni imzalamayacağını, lakin müharibəni dayandıracağını, ordunu isə tərxis edəcəyini bildirdikdə vəziyyət daha da pisləşdi. Bundan istifadə edən Almaniya fevralın 18-də bütün cəbhə boyu hücuma keçərək, fevralın 21-nə qədər 300 km-dən çox irəlilədilər. Fevralın 21-də «Sosialist vətəni təhlükədədir! çağırısı elan edildi».

1918-ci il martın 3-də Almaniya ilə Rusiya arasında Brest-Litovski sülhünün bağlanması ilə başa çatdı. Bu, Rusiya üçün alçaldıcı sülh idi. Brest sülhünün şərtlərinə görə Rusiya öz qoşunlarını Ukrayna, Belarusiya və Pribaltika ölkələrindən dərhal çıxarmalı, həmin ərazilərdə alman qoşunları yerləşdirilməli idi. Rusiya Ukraynada hakimiyyətdə olan radanı qanuni hökumət kimi tanımalı idi. Həmin sülhə görə bir mln. kv. km ərazi və 50 milyon adam yaşayan sahə Almaniyanın tərkibinə keçirdi. Sovet Rusiyası ilə Almaniya arasında diplomatik münasibətlər yaradılırdı.

Həmin sülhə görə Qars, Ərdahan, Batum Türkiyəyə qaytarılırdı. Rusiya 6 milyard marka məbləğində təzminat verməli idi. Ancaq sülh bağlanandan sonra da alman komandanlığı hücumu davam etdirdi. Apreldə Krım zəbt edildi, mayda isə alman qoşunları Gürcüstana daxil oldular. Hələ bundan əvvəl fin hökumətinin xahişi ilə alman qoşunları Finlandiyaya çıxarıldı. Rumıniya 1918-ci ildə Bessarabiyanı özünə birləşdirdi. Rusiyanın



downloaded from KitabYurdu.org

kənd təsərrüfatı məhsullarının 1/3-nin və sənaye məhsullarının ¼-nin istehsal olunduğu rayonların ələ keçirilməsi Dördlər ittifaqı ölkələrinə 1918-ci ildə öz vəziyyətlərini yaxşılaşdıracaqlarına ümid etməyə imkan verirdi. Lakin müharibə bu rayonları var-yoxdan çıxarmışdı, zəruri ərzaq və xammalın məcburi köçürülməsi üzrə hər hansı addım isə əhalinin müqavimətinə rast gəlirdi. Beləliklə, ərzaq təchizatında əsaslı yaxşılığa nail oluna bilmədi.

Antanta ölkələri bolşeviklərin hakimiyyət başına gəlməsini Almaniyanın şərq cəbhəsini dağıtma cəhdlərinin tərkib hissəsi sayaraq, Rusiyada müharibəni qələbəyədək davam etdirmək tərəfdarı olan qüvvələri müdafiə etməyə çalışırdı. Fransa Ukrayna ərazisindən, ingilislər Cənubi Qafqazdan və Murmanskdan hərəkət etməli idilər. Yaponlar və amerikanlar Vladivostoka qoşun çıxardılar. Hər yerdə Antanta qoşunları bolşeviklərə qarşı vuruşurdular. Onların əvvəlcə dağılmış Şərq cəbhəsini saxlamağa yönəlmiş hərəkətləri Sovet Rusiyasına qarşı xarici müdaxilənin tərkib hissəsi oldu.

Lakin Brest sülhü uzun sürmədi. Dördlər ittifaqı müharibədə məğlub edildikdən sonra 1918-ci il noyabrın 13-də Rusiya bildirdi ki, o, Brest sülhünün şərtlərindən imtina edir və onu qanuni saymır.

**Rumıniyanın təslim olması. Buxarest sülhü.**Müharibənin gedişində Rumıniya məğlub oldu. 1918-ci il mayın 7-də Buxarestdə Rumıniya ilə Almaniya bloku ölkələri arasında sülh müqaviləsi və bir sıra iqtisadi sazişlər bağlandı. Həmin sazişlər Rumıniyanın bütün təbii sərvətləri və ehtiyatlarından istifadə edilməsində Almaniya inhisarlarına müstəsna hüquq verirdi. Buxarest sülh müqaviləsinə görə Rumıniya strateji cəhətdən əhəmiyyətli və meşələrlə zəngin olan 15 min km-lik dağlıq sərhəd zolağını Avstriya-Macarıstana güzəştə gedirdi; Cənubi Dobrucanı Bolqarıstana qaytardı; Dobrucanın qalan hissəsini isə Köstəncə (Konstanma) limanı ilə birlikdə Almaniya bloku ölkələrinin istifadəsinə verirdi; istifadə olunmayan neft mədənlərinin 90 il müddətinə Almaniya kompaniyalarına təslim edirdi. Rumıniyanın





məğlub olması Almaniya bloku ölkələrinin vəziyyətinə ümumən müsbət təsir etsə də, onların xeyrinə əsaslı dönüş yaratmadı. Ən başlıcası isə, Almaniyanın yanacağa olan ehtiyacları ödənilmədiyindən əlavə mənbələr axtarmağa başladı.

**1918-ci ilin əvvəllərində döyüşən dövlətlər arasında qüvvələr nisbəti.**Almaniya Avropanın şərqində uğurlu hərbi əməliyyatlar aparıb geniş ərazilər tutduqdan sonra müharibənin artıq başa çatdığını və düşmən ölkələrə öz sülh şərtlərini qəbul etdirəcəyini düşünürdü. Lakin Almaniya bloku ölkələrinin ağır təsərrüfat-iqtisadi həyatı onların nəinki daxili icitmai-siyasi, həmçinin beynəlxalq vəziyyətinə də mənfi təsir edirdi. Bu ölkələrin əhalisi aclıq çəkirdi. Orduda zəruri olan şeylər çatışmırdı. Almaniya iqtisadi cəhətdən tükənmiş, əmək məhsuldarlığı isə aşağı düşmüşdü. Ölkədə yanacaq və xammal ehtiyatları çatışmırdı. Nəqliyyat bərbad hala düşmüş, insan ehtiyatı da tükənmişdi. Xalq müharibədən usanmışdı.

Aclıq çəkən Avstriya-Macarıstan ordusu döyüş qabiliyyətini itirmişdi. «Qurama imperiya»da yaşayan xalqların milli-azadlıq mübarizəsinin güclənməsi müharibəni davam etdirməyə daha imkan vermirdi.

Almaniyanın müttəfiqləri olan Osmanlı dövləti və Bolqarıstan da çətin hərbi, iqtisadi və siyasi vəziyyətə düşmüşdülər. Bütün bunlara baxmayaraq, həmin blok ölkələri içərisində yalnız Almaniya ordusu döyüş qabiliyyətini hələ qismən də olsa qoruyub saxlayırdı.

Antanta ölkələri də çətinliyə düşmüşdülər. İngiltərə, Fransa və İtaliyanın iqtisadi və ərzaq vəziyyəti əlverişli deyildi. Lakin onların tam tükənməyinə hələ çox var idi. Bu ölkələr içərisində yalnız İtaliyanın vəziyyəti daha fəlakətli olaraq qalırdı. İngiltərə və Fransanın strateji xammal, ərzaq, işçi qüvvəsi və əsgər aldığı müstəmləkələrlə ənənəvi əlaqələri Almaniyanın apardığı sualtı müharibə ucbatından xeyli çətinləşmişdi. Buna baxmayaraq, hərbi texnika sarıdan İngiltərə, Fransa və ABŞ Almaniya bloku ölkələrini üstələyirdilər. ABŞ-ın müttəfiqlərinə yardımı müharibədə mühüm rol oynayırdı.



downloaded from KitabYurdu.org

Artıq 1918-ci ilin yayında Almaniya ordusu döyüş qabiliyyətini tamamilə itirmişdi. Almaniya ali baş komandanlığı ordunun daha müqavimət göstərmək qabiliyyətində olmadığını bildirirdi. Almaniyada hökumət dəyişikliyi baş verdi. Liberal Maks Badenskinin başçılığı ilə yaradılan yeni hökumət oktyabr ayının əvvəllərində ABŞ prezidenti Vilsona nota göndərərək «14 maddə»nin şərtlərinə uyğun olaraq sülh bağlamağa razı olduğunu bəyan etdi. İki ölkə arasında notalar mübadiləsi bir ay çəkdi. Lakin ABŞ hökuməti imperator II Vilhelm vəzifəsindən getməyənə və alman ali hərbi komandanlığı siyasi hakimiyyətə tabe etdirilməyənədək müttəfiqlərin Almaniya ilə heç bir rəsmi danışıqlar aparmayacağını bildirdi. Belə olduqda hərbi idarəçilik sisteminə rəhbərlik edən general Enrix Lyüüdendorf vəzifədən uzaqlaşdırıldı. Özünü paytaxtda təhlükəsiz hiss etməyən II Vilhelm isə feldmarşal Paul Hindenburqun qərargahına getdi. Alman ordusunun hərbi əməliyyatlar aparmaq iqtidarında olmadığını görən müttəfiqlər növbəti döyüş planlarını hazırlamaqdan imtina etdilər.

**Alman blokunun iflasının sonunun yaxınlaşması.**1918-ci ilin yayında Almaniyanın vəziyyəti son dərəcə gərgin idi. Doğrudur, mart ayında o, Antanta üzərinə müvəffəqiyyətlə hücum edərək, hətta Parisi təhlükə altına aldı, ancaq həlledici qələbə qazana bilmədi. Almaniyanın əhəmiyyətli qoşun hissələri sovet sərhədində qalmaqda davam edirdi. Almaniyanın hakim dairələri hələ Rusiyanı bölüşdürməyi arzulayırdılar. II Vilhelm ataman Krasnova açıq şəkildə bildirmişdi ki, qonşucuğaz Rusiyanı təxminən 4-5 hissəyə parçalamağı arzulayır. Mərkəzi Rusiya, Ukrayna, cənubi-şərqi birləşmə; Zaqafqaziya və Sibir; Alman qoşunları Ukrayna, Krım, Cənubi Qafqaza hücum etdilər. 500 minə qədər əsgər Ukrayna və Belarusiyanı zəbt etmək üçün oraya atılmışdı. Lakin bu güc kifayət deyildir. İşğalçılar xalqın güclü müqaviməti ilə qarşılaşdılar. Qərb cəbhəsində vəziyyət daha həyəcanlı idi. Almaniya əslində iki, həm Qərb, həm də Şərq cəbhəsində müharibəni aparmaqda davam edirdi. Bu onun yaxınlaşmaqda olan məğlubiyyət səbəblərindən biri idi. Almaniya Ukrayna Mərkəzi Radasından vəd edilən ərzağı ala bilmədi.





Avstriya-Macarıstan qoşunları döyüş qabiliyyətini itirməyə başladılar.

Müharibənin uzanması, Oktyabr çevrilişinin təsiri alman qoşunlarının ruhunu qırdı. Alman ordusunda və arxa cəbhədə antimüharibə əhval-ruhiyyəsi gücləndi. Dizertirlərin sayı on minlərlə idi. Avstriya-Macarıstan ordusunda vəziyyət daha pis idi.

Antantanın da vəziyyəti parlaq deyildi. İnqilabi əhvali-ruhiyyə 1917-ci ildə Fransa ordusunun xeyli hissəsini bürümüşdü. Lakin ABŞ-ın müharibəyə girməsi Antantanın vəziyyətini xeyli yaxşılaşdırdı. ABŞ-dan Avropaya arasıkəsilmədən hərbi ləvazimat gətirilirdi. Bu müttəfiqlərə Viller-Kottra meşə sahəsində, Ena və Marna çayları arasındakı 45 km-lik cəbhədə 1918-ci ilin iyulun 18-də mərkəz dövlətlərinin qoşunlarına qarşı hücuma keçməyə və onları dəf etməyə imkan verdi.

İngilis tankları avqustun 8-də almanların əsas cəbhə xəttini yardılar. Səhərisi gün fransızlar hücuma keçdilər. Çoxlu Əsir düşdü. Alman ordusu geri çəkilməyə başladı. Bir neçə gün ərzində Almaniya 1918-ci ilin martında bütün əldə etdiklərini itirdi. Lyudendorf yazırdı ki, «8 avqust Almaniya tarixində ən qara gündür». Təcili tədbirlər görmək lazım gəlirdi. 1918-ci il avqustun…..Belçikanın Spa şəhərində Hindenburqun otağında Hindenburq, Lyudendorf, imperiya kansleri və xarici işlər naziri toplaşdılar. Lyudendorf bilirdi ki, alman ordusu cəbhədə hücuma keçmək iqtidarında deyildir. Müdafiə tədbirləri ilə sülhə nail olmaq üçün də imkan yoxdur. Qələbəni gözləmək lazım gəlmir; müharibəni diplomatik yolla qurtarmaq lazımdır.

Avqustun 14-də II Vihelmin sədrliyi keçirilən müşavirədə imperator məsləhət bildirdi ki, Niderland krallığının vasitəçiliyi ilə Antanta dövlətləri ilə sülh danışıqlarına başlamaq lazımdır. Elə həmin gün Spa şəhərinə Avstriya-Macarıstan imperatoru Karl, xarici işlər naziri Burian və Avstriya qoşunlarının baş komandanı fon Ars.Burian gələrək onlar da Antanta ilə sülh danışıqlarına başlamağı məsləhət gördülər. Alman imperialistləri öz ərazilərini və ölkənin istehsal potensialını qoruyub saxlamaq istəyirdilər. Onlar hərbi kadrları da qorumaq istəyirdilər. Alman



downloaded from KitabYurdu.org

imperialistləri belə bir şüar irəli sürürdülər ki, «Madam ki, məğlubiyyətdən qaçmaq olmaz, onda revansa hazırlaş!».

**Alman imperializminin təcavüzü davam etdirməsi.** Generallar dərhal sülh danışıqlarına başlamağı tələb edirdilər. Bir neçə ay qabaq əldə etdiyi müvəffəqiyyətlərdən o dərəcədə hipnoz olmuşdular ki, bu vəziyyəti ayıqcasına qiymətləndirməyə mane olurdu. Onlar yenə də Şərqdə yeni müvəffəqiyytələr qazanmaq istəiyrdilər. Onlar Litvada krallıq təşkil etməyi planlaşdırırdılar. Polşa buna da etirazını bildirdi. Belə olduqda Almaniya buranı Almaniyanın hərbi qüberniyasına çevirdi.

Pribaltika ölkələrində yaşayan almanlar almanların rəhbərliyi altında Baltika İttifaqı təşkil etmək istəiyrdilər. Almaniya Sovet Rusiyanı özünün yaratdığı vassal dövlətlərlə əhatə etmək istəiyrdi. 1918-ci ilin iyulun 6-da Moskvada alman səfiri Mirbaxın sol eser tərəfindən öldürülməsi Almaniya ilə Sovet Rusiyası arasında münasibətləri daha da kəskinləşdirirdi. Almaniya Moskvaya alman səfirliyini qorumaq məqsədi ilə qoşun yerləşdirmək istəsə də, sovet hökuməti buna qəti etirazını bildirdi. 8-ci Şərq alman ordusunda Petroqradı tutmaq planı hazırlansa da, o, reallaşmadı. 1918-ci ilin avqust ayının 27-də Brest-Litovski sülhünə əlavə olan alman-rus müqaviləsi imzalandı.

Bu sənəd İslandiya və İslandiyanın şərq sərhədlərini müəyyənləşdirdi. Litva və digər Baltikyanı ölkələrlə Rusiya ticarət sazişi bağlayırdı. Rusiya Bakı neftinin və neft məhsullarının ¼ hissəsini Almaniyaya verməli idi. Almaniyanın Donetsk kömür hövzəsinin işğalını davam etdirməklə yanaşı Rusiya da bir ton neftin əvəzində 3 ton kömür, bir ton benzinə isə 4 ton kömür ala bilərdi.

Almaniyanın Sovet Rusiyası ilə bağladığı maliyyə sazişinə görə Rusiya Almaniyaya altı dəfəyə 6 mlrd. marka ödəməli idi. Bunun əvəzində Almaniya Berezina çayından Şərqə olan ərazilərdən öz qoşunlarını çıxarmalı idi. Çayın Qərb hissəsi isə Almaniyanın işğal zonası kimi qalmalı idi. Sovet Rusiyasının bu müqavilədə ancaq diplomatik uduşu Finlandiyanın, rus torpaqlarına, xüsusilə Petroqrada hücum etməməsi haqqında Almaniyanın öhdəlik götürməsi idi. Almaniyanın müttəfiq-




lərindən ancaq Türkiyə bundan xəbər tutaraq Bakını tutmağa hazırlaşdı və bildirdi ki, əgər bu əlavə müqavilə qüvvədən düşməsə, o, Almaniya ilə ittifaq müqaviləsini pozacaqdır. O zaman Almaniya Türkiyənin Bakını tutmasına mane olmayacağını bildirdi. Türk qoşunlarının baş komandanı Ənvər Paşa Mesopotamiya cəbhəsindən qoşunların bir hissəsini götürərək onları Cənubi Qafqaza gətirdi. Alman komandanlığı bu tədbiri alqışladı.

Almaniya Qərbdə məğlub olsa da, ümidini şərqin sərvətlərini talamaqda davam edirdirməkdə görürdü.

**Avstriya-Macarıstanın sülh təklifi.**Antanta qoşunlarının sayı ABŞ-ın göndərdiyi əsgərlərin hesabına sürətlə artırdı. Alman qoşunları «Ziqfrid xəttinə» atılmış oldu.

Qraf Burian 1918-ci ilin sentyabrın 14-də nota ilə bütün döyüşən ölkələrə bitərəf dövlətlərin birinin ərazisində sülh danışıqlarına başlamaq üçün danışıqlarına konfransın çağlırmasını təklif etdi. Nota bitərəf ölkələrə və Roma papasına da göndərildi. Avstriya-Macarıstanın çıxışı müstəqil addım idi: lakin Almaniya da bunu bilməmiş deyildi. Nota Avstriya-Macarıstanın döyüşmək arzusunda olmadığını bildirirdi. Vilson sentyabrın 17-də dövlət katibinə tapşırdı ki, Vyana hökumətinin notasına cavab versin. Cavabda göstərilirdi ki, onlar hansı şərtlərlə Sülh danışıqları aparmaqda olduqlarını bildirsinlər.

İngiltərənin xarici işlər naziri Balfur da həmin gün çıxış edərək bildirdi ki, bu nota sülhü yaxınlaşdırmır, sadəcə olaraq müttəfiqləri parçalamaq məqsədini güdür.

Sonra Klemanso bəyənat verdi ki, mərkəz dövlətlərin törətdikləri cəzasız qalmamalıdır.

Avstriya-Macarıstanın diplomatik təklifi nəticəsiz qurtardı.

**Bolqarıstanın məğlub olması.Salonik barışığı.**Döyüşən dövlətlər arasında barışıq haqqında danışıqlar davam edərkən Almaniyanın müttəfiqləri bir-birinin ardınca müharibədən çıxmağa başladılar. 1918-ci ilin ikinci yarısında Bolqarıstanı kəskin iqtisadi və siyasi böhran bürüdü. Ölkə iqtisadiyyatı bərbad hala düşdü. Xalq və ordu aclıq çəkirdi. Müharibəni davam etdirmək artıq mümkün deyildi. Belə şəraitdə Almaniya da



downloaded from KitabYurdu.org

Bolqarıstanı silah, hərbi sursat və geyimlə təchiz etməyi dayandırdı. Sentyabrın 15-də Antanta ölkələrinin silahlı qüvvələri Dobro çölü rayonunda bolqar ordusunu darmadağın etdi. Sentyabrın 29-da isə müttəfiq komandanlığı Salonikdə Bolqarıstanla barışıq sazişini imzaladı. İmzalanmış barışığın şərtlərinə görə Bolqarıstan işğal etdiyi Serbistan, Yunanıstan və Rumıniya ərazilərini boşaltmağı öz öhdəsinə götürürdü. Bolqar yolları müttəfiq ordularının əlinə keçirdi. Belə vəziyyət coğrafi cəhətdən Almaniya ilə Osmanlını ayrı salır, onun və dağılmaqda olan Avstriya-Macarıstan imperatorluğunun məğlubiyyətini daha da sürətləndirirdi.

**Osmanlı dövlətinin məğlub olması. Mudros barışığı.** 1918-ci ilin oktyabrında türk ordusu Fələstin və Suriyada məğlubiyyətə uğradı. Oktyabrın 30-da Osmanlı dövləti adından Hüseyn Rauf, Antanta dövlətləri adından isə ingilis admiralı Kaltorp Aralıq dənizində Saqqız (Lemnos) adasındakı Mudros limanında barışıq sazişini imzaladılar. Barışığın şərtlərinə görə Qara dəniz boğazları müttəfiqlər tərəfindən işğal edilməli; Osmanlı sularındakı bütün qüvvələr və silahlı mövqelər haqqında müttəfiqlərə məlumat verilməli və onların zərərsizləşdirilməsi üçün yardım olunmalı; müttəfiqlərin hərbi əsirləri İstanbula gətirilərək müvafiq ölkələrə təslim edilməli; Osmanlı hökuməti daxili nizam-intizam və sərhədləri qorumaq üçün lazım olacaq hərbi qüvvələrdən başqa qüvvə saxlamaq hüququndan məhrum edilməli; ölkə daxilində asayişi qorumaq üçün lazım olacaq qüvvələrin sayı müttəfiqlər tərəfindən müzakirə edildikdən sonra müəyyənləşdirilməli; Osmanlı sularında üzən hərbi gəmilər müttəfiqlərə təslim edilməli idi. Müttəfiqlərin mövqelərinə qarşı təhlükə olacağı təqdirdə onlar Osmanlı dövlətinin istənilən strateji hissəsini işğal etmək hüququnu saxlayırdılar. Türk limanlarından Osmanlı dövlətinin müttəifqlərinin istifadə etmələri qadağan olunurdu. Osmanlı hərbi birləşmələri Güney Azərbaycandan dərhal çıxmalı və Osmanlı dövləti Qafqaz ərazisinin müttəfiqlərin nəzarətinə keçməsinə etiraz etməməli; qalib dövlətlər Batumi və Bakını işğal etməli; Almaniya və Avstriya-Macarıstanın bütün məmurları bir ay ərzində Osmanlı ərazilərini tərk etməli; Hicaz,





Yəmən, Suriya və Mesopotamiyadakı türk qarnizonları müttəifqlərə verilməli; Trablis və Kirenaikadəki türk emissar zabitləri İtaliya qarnizonuna tabe etdirilməli idi. Barışığın şərtinə görə hər hansı hərbi əmlakın məhv edilməsi qabağan olunurdu. Osmanlı hərbi əsirləri müttəfiqlərin nəzarəti altında mühafizə olunmalı idi.

Mudros barışığı Osmanlı dövlətinin vəziyyətini xeyli ağırlaşdıraraq müttəfiqlərdən asılı hala salırdı. Belə şəraitdə isə Avstriya-Macarıstanın məğlubiyyəti labüd idi.

**Avstriya-Macarıstanın parçalanması və təslim edilməsi. Padui barışığı.**1918-ci ilin payızında daxili sosial və milli ziddiyyətlər, hərbi əməliyyatlardakı uğursuzluqlar nəticəsində Avstriya-Macarıstan imperatorluğu dağılmağa başladı. Təsərrüfat dağınıqlığı, aclıq və cəbhələrdəki ağır məğlubiyyətlər milli-azadlıq hərəkatını gücləndirdi. Avstriya-Macarıstanda yaşayan müxtəlif xalqlar müstəqil siyasi həyata qədəm qoydular. Oktyabrın 21-də avstriyalı deputatlar özlərinin Avstriya Müvəqqəti Milli Məclisini yaratdılar. Oktyabrın 28-də isə Çex Milli Şurası Praqada Çexoslovakiyanı müstəqil dövlət elan etdi. Macarıstanda inqilab baş verdi. İmperator Karlın imperiyanı islahatlar həyata keçirmək yolu ilə saxlamaq cəhdləri uğursuzluqla nəticələndi. Oktyabrın 28-də Avstriya-Macarıstan ordusunun komandanlığı müharibəni dayandırmaq xahişi ilə İtaliyaya müraciət etdi. 1918-ci il noyabrın 3-də Avstriya-Macarıstan komandanlığı Paduidə təslim olmaq haqqında akt imzaladı. Barışığın şərtlərinə görə müttəfiqlər ölkənin təsərrüfatına tam sahib olurdular. Avstriya-Macarıstanın məğlubiyətindən sonra ingilis, fransız, italyan orduları Almaniya üçün cənub və cənub-şərqdən ciddi təhlükə yaratdılar. Belə şəraitdə Almaniyanın məğlubiyyətə uğrayacağı şəksiz idi.

**Almaniyanın barışıq haqqında xahişi.**Bolqarıstanla barışıq bağlandığı gün Spada Almaniyanın hərbi və siyasi xadimlərinin iştirakı ilə keçirilən müşavirədə Hindenburq, Lyudendorf təcili barışıq imzalanmasını tələb etdilər. Almaniyanın xarici işlər naziri Qintse təklif etdi ki, barışıq təşkil



downloaded from KitabYurdu.org

etmək Vilsondan xahiş edilsin. Generallar təklif etdilər ki, həm Vilsona, həm də İngiltərə və Fransaya nota göndərilsin.

Müşavirənin qərarı haqqında II Vilhelmə məlumat verildi. O bu qərarı bəyəndi və bu haqda lazımi tapşırıqları verdi. Sentyabrın 29-da gündüz Almaniya hökumətinin təşkili haqqında manifest tərtib edildi. Yeni hökumət parlament qarşısında məsuliyyət daşımalı idi. Sentyabrın 30-da kansler Pertlinq istefa verdi. Oktyabrın 1-nə qədər yeni hökumət formalaşmalı, sonra Vilsona nota göndərməli idi. Lakin təyin edilən vaxtda hökumət təşkil edilmədi. Antanta qoşunları Almaniyanın ərazisinə doğru irəliləyirdi.

Oktyabrın 3-də hökumətin göndərdiyi məktubda yazılırdı ki, təcili surətdə düşmənlərimizə sülh təklifi ilə müraciət etməliyik. Vəziyyət hər gün gərginləşirdi. Bu isə ali baş komandanlığı daha ağır qərarlar qəbul etməyə məcbur edə bilərdi.

Hindenburq hökuməti qorxudurdu ki, komandanlıq diplomatik danışıqları öz əlinə ala bilər. Çünki yaranmış vəziyyətdə yeganə xilas yolu bu ola bilərdidi.

Nəhayət, Maks Badenskinin rəhbərliyi ilə hökumət təşkil edildi. Onun tərkibinə sosial-demokratların nümayəndələri daxil edildi. Oktaybrın 5-də gecə Maks Badenski İsveçrə hökumətinin köməkliyi ilə Vilsona teleqram göndərdi ki, onun «14 maddə»si əsasında barışıq və sülh danışıqlarına bağlamağa kömək etsin. Almaniyanın daxilində qüdrətli antimüharibə hərəkatı qalxmışdı. Ölkə inqilab ərəfəsində dayanırdı. Belə bir şəraitdə Almaniyanın hakim dairələri ordunun tam dağılmasına və ölkədə inqilabın baş verməsinə yol verməmək üçün Antanta dövlətlərinə sülh danışıqlarına başlamağı təklif etdi. ABŞ prezidenti Vilsona göndərilmiş notanın mətni aşağıdakı kimi idi: «Almaniya hökuməti ABŞ prezidentindən xahiş edir ki, sülh danışıqlarını öz üzərinə götürsün və bu xahişi müharibə edən bütün ölkələrə elan etsin. Həmin ölkələr sülh danışıqlarına başlamaq üçün öz səlahiyyətli nümayəndələrini göndərsinlər. Gələcək qantökmədən qaçmaq üçün alman hökuməti xahiş edir ki, təxirə salınmadan suda, havada və quruda ümumi barışığa nail olmaq lazımdır».





Bu ölkə əhalisinə sarsıdıcı təsir göstərdi. Çünki hələ avqustun 1-də II Vilhelm elan etmişdi ki, ağır anlar keçmişdə qaldı. Lakin avqustun 8-də Almaniya ordusu hərbi fəlakətə uğradı. Senzura da ccəbhədəki ağır vəziyyəti gizlətməyi bacarmadı. Ölkədə, qar topası kimi, inqilab əhval-ruhiyyəsi də böyüməyə başladı.

Oktyabrın 5-də Almaniyanın təklifinə Avtsriya-Macarıstan da qoşuldu. Lakin ona etiraz edildi.

**Barışıq üçün hazırlıq danışıqları.**ABŞ-ın katibi Lansinq Vilsonun adından oktyabrın 8-də Almaniyanın notasına cavab verdi. Almaniya Vilsonun «14 maddəsi»nin şərtlərini qəbul etməli, Almaniya bütün tutduğu ərazilərdən qoşunlarını geri çəkməli idi. Müharibənin rəhbərləri, yəni imperator və alman komandanlığı hakimiyyətdən uzaqlaşdırmalı idi.

Oktyabrın 9-da hərbi kabinetin iclasında Lyudendorf məlumat verdi ki, o bir sıra orduların və cəbhələrin komandanlıqları ilə söhbət etmişdir. Onlar hamısı sülh tələb edirlər. Xarici işlər naziri ona sual verdikdə üç ay cəbhə davam gətirə bilərmi? Sualına isə o qəti olaraq «yox» cavabını verdi. Oktyabrın 12-də Almaniya yeni təkliflərə də hazırlaşdı. Vilsona məlumat verildi ki, kansler Almaniya hökuməti və xalqının adından danışır.

Almaniya sınmışdı. Lakin tamamilə yıxılmamışdı. ABŞ müharibəni davam etdirməkdə möhkəm deyildi. Müharibənin davam etdirilməsi inhisarlara gəlir gətirirdi. Lakin İngiltərə, Fransa və İtaliyanın vəziyyəti ağır idi. Müharibə ABŞ-ı ön sıraya çıxartdı. Belə bir gələcək müttəifqlər üçün görünmürdü. Avstriya-Macarıstanın məğlubiyyəti italyanlara imkan verirdi ki, öz planlarını reallaşdırsınlar. Ona görə də, daha vuruşmaq istəmirdilər! İngiltərə də istədiyinə nail olmuşdu. Almaniyanın kaloniyalarına yiyələnmişdi. Fransa da müharibənin tez qurtarmasını istəyirdi. Bütün müttfiq dövlətləri Almaniyada inqilab başlanacağından qorxurdular. Onada inqilab alovu bütün Avropaya yayıla bilərdi. 1918-ci ilin oktyabrın 29-da Parisdə keçirilən müttəfiqlər arası konfransda Fransa bildirdi ki, o, alman rəqibinin ciddi zəifləməsini, onun ikinci dərəcəli dövlətə



downloaded from KitabYurdu.org

çevrilməsini istəyir. Əslində Fransa bununla öz hegemonluğunu bərqərar etmək istəiyrdi. İngiltərə isə Avropada Fransanın həddindən artıq güclənməsini istəmirdi. ABŞ ilə o, birlikdə Almaniyanı silahlı şəkildə saxlamaq istəiyrdilər ki, lazım gələrsə, ondan rus bolşevizminə qarşı mübarizə məqsədi ilə istifadə etsinlər. İngiltərə konfransda kəskin şəkildə bildirdi ki, Vilsonun «dənizlərin sərbəstliyi» tələbi ilə razı deyildir. Fransa ilə birlikdə təkcə Şimali Fransa və Belçika üçün deyil bütün hərbi xərclərin və itkilərin əvəzini Almaniyadan almaq istəiyrdilər. Gərginlik o dərəcəyə qədər artdı ki, ABŞ heç bir vasitəçi olmadan Almaniya və Avstriya-Macarıstanla danışıqlara başlayacağını bildirdi. «Separativ sülh?» - deyə Klemanso soruşduqda ABŞ nümayəndəsi Bəli, - deyə cavab verdi. Klemansonun fikri ilə şərik olan Lloyd Corc müharibəni davam etdirə bilməyəcəklərinə təəssüfləndiyini bildirdi.

Nəhayət, noyabrın 5-də müttəfiqlər Vilsona onun «14 maddəsi» əsasında Almaniya ilə sülh danışıqlarına başlamağa razı olduqlarını bildirdilər.

**Kompyen barışığı.**Hadisələr Almaniyada yüksələn templə gedirdi. İnqilab qapını döyməkdə idi. Alman imperialistləri, hər şeydən əvvəl ölkənin rəhbər kadrlarını xilas etməyi düşünürdülər. Lyudendorf istefaya getmişdi. Hindenburq orduda intizamı saxlamaqda əsas sima idi. Mülki hökumət sülh danışıqlarını aparmağı öhdəsinə götürmüşdü, generallar bunun üçün şəraitin olmasını nəzarətdə saxlayırdılar. Komandanlıq donanmanın sualtı müharibəni kəsəcəklərinə söz versələr də, almanlar. «Leynster» sərnişin paraxodunu batırmışdılar. Alman şərbi dairələri özlərinə tamamilə haqq qazandırmaq üçün demşidilər ki, «Qələbədə - amansızlıq», «məğlubiyyətdə - alçaqlıq».

1918-ci ilin noyabrın 4-də üsyan edən alman matrosları, Kil limanını, səhərisi gün isə üsyançı fəhlələr və matroslar Lübeke, Hamburqu, Bremeni tutdular. İnqilab ölkəni bürüdü, orduya da sırayət etdi. Lyudendorfu əvəz edən general Qrener noyabrın 6-da cəbhədəki vəziyyətlə əlaqədar tələb edirdi ki, ordunun qəti məğlubiyyəti qaçılmazdır.




Hərbi kabinetin iclası çox əsəbi şəraitdə keçdi. Antantadan ardıcıl gələn teleqramlarda noyabrın 8-dən gec olmayaraq sülh danışıqlarına başlamaq tələb edilirdi. Danışıqlara başlamaq qərara alındı. Alman nümayəndə heyətinin başçısı Ersberqer təyin edildi. Ona lazımi sənədlər verildi. Kansler ona imza üçün ağ blank təqdim etdi ki, lazımi məsələ öz çərəncamında olsun. Axşam saat 7-jə alman nümayəndə heyəti avtomobildə ağ bayraqla cəbhəyə gəldi. Ersberqer ətrafındakılarla pərdələri salınmış vaqona əyləşdi və səhər Petond stansiyasına gəldi. Bu stansiya Kompyen meşəsində yerləşirdi. Orada Foşun ştab qatarı yerləşirdi. Dərhal nümayəndə heyətini qarşılaya marşal Foş almanlara əl verməyərək soruşdu:

- Siz nə istəyirsiniz, cənablar?

- Bizim sizinlə barışıq haqqında heç bir təklifimiz yoxdur, müharibəni davam etirmək bizim xoşumuza gəlir.

- Amma bizə sizin şərtləriniz lazımdır. Biz müharibəni davam etdirə bilmərik.

- Aha, siz beləsiniz, deməli, gəldiniz ki, barışıq xahiş edəsiniz? Bax bu başqa məsələ.

Bu üsulla alman nümayəndələrini barışıq xahiş etməyə məcbur edən marşal Foş onlara siyahıdakı şərtlərin yerinə yetirilməsini əmr etdi. Almaniya 15 gün ərzində Fransa, Belçika, Lüksemburqda tutduğu əraziləri təmizləməli, Elzas – Lotaringiya, Rumıniyanı tərk etməli idi. Avstriya-Macarıstan və Türkiyədən qoşunlarını çıxarmalı idi. O, Antantaya 5 min lokomotiv, 5 min sərnişin avtomobili, 5 min ağır və səhra silahı, 30 min pulemyot, 2 min təyyarə və s. verməli idi. Antanta Reynin sol sahilini öz qoşunları ilə tuturdu. İşğal ordusu Almaniyaya nəzarət etməli idi. Almaniya Brest-Litovsk və Buxarest sülhlərindən imtina edirdi. Şərqi Afrikadakı qoşunu o təhvil verməli idi. Almanların əsir aldıqları hərbiçilər geri qaytarılmalı idi. Lakin alman hərbi əsirləri geri qaytarılmırdı. Almaniya 6 drednout, 8 ağır kreyser, 350 sualtı qayıq verməli idi. Qalan gəmilər tərkisilah edilir və müttəfiqlərin nəzarəti altına keçirdi. Almaniyanın blokadası saxlanılırdı.

Kompyen barışığının şərtləri Almaniyadan Rusiyaya qarşı istifadə edilməsinə yönəldilmişdi. Barışığın 12-ci maddəsində



downloaded from KitabYurdu.org

göstərilirdi ki, müttəfiqlərin istədikləri təqdirdə alman qoşunları Rusiya ərazisini tərk edə bilər.

Alman nümayəndə heyətinə cavab üçün 72 saat vaxt verilmişdi. 72 saat noyabrın 11-də saat 11-də tamam oldu. Berlindən cavab gəldi ki, bu tələblər Almaniyanı bolşeviklərin qucağına itələyir. Alman nümayəndə heyəti ən çox Reyn vilayətinin işğalına qarşı çıxırdılar. Onlar ən çox çalışırdılar ki, Almaniyanın istehsal potensialı toxunulmaz şəkildə saxlanılsın.

Almanların əks təklifləri Taşa təqdim edildi. Berlinlə əlaqə saxlamaq imkanı yarandı. Məlum oldu ki, II Vilhelm və ətrafı Hollandiyaya qaçmışdır. Sol sosial-demokrat F.Ebertin başçılığı altında yeni hökumət məsləhət gördü ki, etirazımız qəbul edilmədikdə sülh şərtlərini imzalamaq, eyni zamanda Vilsona protest göndərmək lazımdır.

Alman nümayəndə heyəti yenidən hər iki tərəfində səlahiyyətli nümayəndələrinin xüsusi Müşavirəsinin çığırılmasına nail oldu. Konfransda alman nümayəndə heyəti böyük dövlətləri bolşevizm təhlükəsi ilə qorxudaraq tələblərin yumşaldılmasına nail oldular. Müşavirədə alman nümayəndə heyəti pulemyotların sayını 30 mindən 25 minə, təyyarələrin sayını isə1700-ə endirə bildi. Almaniya 300 sualtı qayıq yerinə, ancaq 100 sualtı qayıq verə biləcəyini bəyan etdi.

1918-ci ilin noyabrın 11-də səhər barışıq şərtləri imzalandı. Həmin gün saat 11-də müharibənin qurtardığını bildirən 101 güllə ilə artilleriya atəşfəşanlığı oldu.

Barışıqda Qərb cəbhəsində aşağıdakı maddələr nəzərdə tutulurdu: 1) Barışıq bağlandıqdan sonra 6 saat ərzində havada və quruda hərbi əməliyyatlar dərhal dayandırılmalı idi; 2) Belçika, Fransa, Lükemburq, Elzas-Lotaringiyadan alman qoşunları evakuasiya edilməli idi; 3) Girovlar da daxil olmaqla əhalinin əvvəlki yerlərində yerləşdirilməsi təmin edilməli idi; 4) Alman ordusu aşağıdakı hərbi materilaları güzəştə getməli idi; 5 min top, 25 min pulemyot, 3 min minomyot, 1700 aeroplan; 5) Alman ordusunun yerləşdiyi yerdən Reynin sol sahilinə köçürülməsi həyata keçirilməli idi. Müttəifqlərə 5 min parovoz, 150 min vaqon, 5 min yük maşını verilməli idi. 7) Bütün hərbi əsirlər,





hansı ki, Antanta ölkələrindən və ABŞ-dan idi, dərhal azad edilməli və vətənlərinə qaytarılmalı idilər.

Almaniyanın Şərq sərhədləri haqqında qəbul edilən maddələrdə isə aşağıdakılar nəzərdə tutulurdu ki, Avstriya-Macarıstan, Rumıniya, Türkiyədə müharibəyə qədər yerləşdirilmiş bütün alman qoşunları dərhal təcili surətdə Almaniyaya qaytarılmalıdır.

Dənizlərdə vəziyyətlə əlaqədar barışıqda qeyd edilirdi ki, Antantadakı müttəfiq dövlətlərə və ABŞ-a Almaniyanın bütün sualtı qayıqları (sualtı kreyserlər və minadaşıyan gəmilər də daxil olmaqla) verilməlidir. Almaniyanın suüstü hərbi gəmiləri Antantanın və ABŞ-ın göstərişi ilə dərhal tərksilah olunmalıdır.

Barışığın müddəti 36 gün uzadıla bilmək şərti ilə qəbul edilirdi. Əgər sazişi bağlayan tərəflərdən biri verilmiş şərtlərə əməl etmək istəmirsə, 48 saat əzində xəbər verməli idi.

Müharibə 51 ay və iki həftə davam etdi. Müharibə dünyanın bölüşdürülməsi üstündə başlamışdı və ununla da qurtardı.

1918-ci ilin noyabr ayının 11-də qurtaran müharibə nəticəsində 10 milyon adam öldü, 20 milyon yaralandı. 70 milyon adam bu müharibəyə səfərbərliyə alınmışdı. 1914-1918-ci illər müharibəsi vuruşan başlıca dövlətlərin milli sərvətinin orta hesabla üçdə bir hissəsini məhv etdi. 1772-1913-cü illərdəki müharibələrin hamısının birlikdə xərci cəmi 6 milyard dollar təşkil edirdisə, Birinci Dünya müharibəsi bəşəriyyətə 80 milyard dollara başa gəlmişdi. Birinci Dünya müharibəsi Avropada geosiyasi dəyişikliklərə səbəb oldu. Bir sıra yeni dövlətlər yarandı. Birinci dünya müharibəsi nəticəsində həmçinin demokratik və milli-azadlıq hərəkatları gücləndi.

1917-ci ilin aprelində müharibəyə qoşulmuş ABŞ hamıdan çox qazandı. Əgər müharibədən qabaq onun Avropa ölkələrinə 6 milyard dollar borcu vardısa, müharibədən sonra isə Avropa dövlətlərinin ona 10 milyard borcu oldu. Birinci Dünya müharibəsi nəticəsində ABŞ dünya maliyyə mərkəzinə çevrildi.

**Almaniya bloku ölkələrinin məğlubolma səbəbləri.** Almaniya və onun müttəfiqlərinin Birinci dünya müharibəsində məğlub olmasının başlıca səbəbləri ilk növbədə Antanta



downloaded from KitabYurdu.org

dövlətlərinin iqtisadi və insan ehtiyatları cəhətdən üstün olması idi. Müharibədə Almaniya bloku ölkələrinin hərbi və digər ehtiyatları tez tükəndi. Antanta ölkələrindəki neft və Daş kömür ehtiyatları Almaniya bloku ölkələrini xeyli üstələyirdi.

Hərbi qüvvələr nisbəti də Antanta ölkələrinin xeyrinə idi. Müharibənin gedişində Antanta ölkələri 48 mln. 355 min əsgər və zabiti və ya 525 diviziyanı, Almaniya bloku ölkələri isə 25 mln. 160 min əsgər və zabiti və ya 372 diviziyanı hərbi əməliyyatlara cəlb etmişdilər. Müharibə illərində Antanta ölkələri 9 mindən çox tank istehsal etmişdilər. Almaniya bloku ölkələrində isə tanklar demək olar ki, yox idi. Antanta ölkələri aviasiya sarıdan iki dəfə, hərbi dəniz donanması baxımından isə daha çox üstün idi. Beləliklə, Antanta blokunun hərbi cəhətdən üstünlüyü müharibədə qələbəni təmin edən əsas amillərdən biri oldu.

Almaniyanın siyasi üstqurumu hərbi əməliyytaların gedişində böhran vəziyyətinə düşdü. Ölkədə çevik idarəçilik çatışmırdı.

Alman bloku ölkələrinin hərbi nəzəriyyəsi, strategiya və taktikası rəqiblərindən zəif idi. Almaniyanın siyasi rəhbərliyi və hərbi komandanlığı mövcud şəraitdə müharibə aparılması şərtlərinə, başlıcası isə ölkənin iqtisadi, siyasi və hərbi imkanlarına cavab verməyən «Şliffen planı»nın əsiri oldu.

Almaniya və müttəfiqləri müharibəyə hərbi kəşfiyyat və informasiya baxımından yaxşı hazırlaşmamışdılar. Alman hərbi komandanlığı hətta Rusiya ərazilərinin xəritəsini kifayət qədər dəqiq hazırlaya bilməmişdi. Alman zabitləri hərbi əməliyyatların aparıldığı yerli şəraitə yaxşı bələd deyildilər. Antanta ölkələrinin hərbi kəşfiyyatı isə demək olar ki, qüsursuz işləyirdi.

Antanta ölkələri Almaniya bloku ölkələrini zəiflətmək və əsas diqqətlərini hərbi əməliyyatlardan yayındırıb daxili problemlərə yönəltmək məqsədilə Osmanlı dövləti və Avstriya-Macarıstan imperatorluğunda yaşayan milli azlıqları qiyamlara və separatçılığa təhrik etdilər. Ermənilərdən ibarət yaradılan silahlı dəstələr Osmanlı dövləti ərazisində yaşayan dinc türk əhalisinə – qoca, qadın və uşaqlara qarşı kütləvi qətllər törədərək dövlətə





arxadan zərbə vurdular. Bu isə Osmanlı hökuməti üçün daxildə çoxlu problemlər yaradaraq onu zəiflədirdi.

**Müharibənin nəticələri.**Kompyen barışığının imzalanması ilə əhalisi 1 mlrd. nəfərdən çox olan 34 ölkənin və səfərbərliyə alınmış 74 mln. nəfərin iştirak etdiyi birinci dünya müharibəsi sona çatdı. Müharibədə təxminən 10 mln. nəfər öldürüldü və 20 mln. nəfər yaralandı. Müharibəyə külli miqdarda vəsait xərcləndi. Birbaşa hərbi xərclər 208 mlrd. dollar təşkil edirdi.

Müharibənin bir sıra möhtəşəm beynəlxalq nəticələri oldu. Müharibə nəticəsində dünyanın siyasi xəritəsində ciddi dəyişikliklər əmələ gəldi. Kapitalizmin iqtisadi və siyasi inkişafının qeyri-bərabərliyi gücləndi.

Müharibə nəticəsində ABŞ dünya dövləti kimi tanındı. Müharibə müstəmləkə və yarımmüstəmlə dövlətlərinin iqtisadiyyatında mühüm dəyişikliklər etdi. Müharibə müstəmləmə və yarımmüstəmləkə ölkələrində milli azadlıq hərəkatını gücləndirdi. Xalqlar müstəqillik dövrünə qədəm qoydular. Müstəmləkə sisteminə sarsıdıcı zərbə vuruldu.

Müharibənin yaratdığı ağır sosial-iqtisadi vəziyyət bir çox ölkələrlə inqilabi hərəkatların meydana gəlməsinə səbəb oldu. Düşmüş olduğu belə ağır vəziyyətdə Türkiyənin müttəfiqi Antantanın düşmən münasibət bəslədiyi bolşevik Rusiyası idi. Antanta dövlətlərinin türk mülklərinə sahib olmaq və Rusiyada bolşevizmi «beşiyində boğmaq» istəyi Ankara və Moskvanı müttəfiqə çevirdi. Rusiya-Türkiyə yaxınlaşması Yaxın Şərqdə qüvvələr nisbətini dəyişdirdiyindən Avropa dövlətlərini narahat etməyə başladı. Belə şəraitdə Fransa Türkiyəni Rusiyadan ayıraraq öz müttəfiqinə çevirməyə və Yaxın Şərqdə İngiltərəyə qarşı istifadə etməyə cəhdlər göstərirdi. Uğursuzluğa düçar olacağını başa düşən Fransa türklərlə müharibəni dayandırıb sülh bağlamağı təklif etdi. Türk ordusu yunanları 1921-ci il avqustun 24-də Sakarya çayı ətrafında, sentyabr ayında İzmirdə məğlubiyyətə uğratdı. Oktyabr ayında Türkiyə ilə Antanta ölkələri arasında barışıq sazişi imzalandı. Beləliklə, Sevr sülh müqaviləsinin şərtləri ilə barışmayan türk xalqı istiqlal savaşında qalib gələrək ona sarsıdıcı zərbə vurdu.



downloaded from KitabYurdu.org

## III fəsil
## Birinci Dünya müharibəsindən sonrakı ilk illərdə beynalxalq münasibətlər
### 1.Paris sülh konfransı.

**Konfransın açılması.**ABŞ, İngiltərə və Fransa Almaniya və onun müttəfiqləri arasında müqavilələr bağlamaq və onları imzalamaq üçün hazırlığa başladılar. 1919-cu il yanvarın 18-də müharibədə iştirak edən 32 dövlətin nümayəndələri sülh konfransına toplaşdılar. Onlardan 5-i formal iştirak edirdi. Konfransda mindən artıq nümayəndə iştirak edirdi. Həmin günün seçilməsi təsadüfi deyildi. 1871-ci il yanvarın 18-i Versalda Almaniya imperiyasının yaradıldığı gün idi. Ona görə də Antanta dövlətləri həmin günü seçməklə əslində Almaniyaya daha bir mənəvi zərbə vurmaq istəyirdilər. Konfransda iştirak edən dövlətlərin 27-si həlledici səsə malik idi. Konfransda Latın Amerikası ölkələri də iştirak edirdilər. Bunlar formal olaraq Almaniyaya müharibə elan etmişdilər. Sülh konfransında iştirak edən üç dövlət (Polşa, Çexoslovakiya, Serb-Xorvat-Sloven krallığı) Almaniya təslim edildikdən sonra, Avstriya-Macarıstan imperiyasının dağılması nəticəsində yaranmışdı. Almaniya və onun müttəfiqəri konfransa buraxılmamışdılar. Onların nümayəndələri ancaq hazır mətnləri almaq üçün konfransa dəvət edilməli idilər. Konfransın iş qaydası antidemokratik tərzdə qurulmuşdu. Konfransa heç bir jurnalist buraxılmamışdı. Qalib dövlətlər içərisində İngiltərə, ABŞ, Fransa, İtaliya və Yaponiya əsas rol oynayırdı.

Konfransda müzakirə edilən əsas məsələləri aşağıdakı orqanlar həll edirdilər. Bu orqanlardan birincisi «Onlar şurası» adlanırdı ki, buraya ABŞ, İngiltərə, Fransa, İtaliya və Yaponiyanın hərəsindən iki nümayəndə (dövlət başçıları və xarici işlər nazirləri) daxil idi. İkinci, mühüm orqan «4-lər şurası» idi ki, buraya ancaq dörd dövlətin – ABŞ, İngiltərə, Fransa, İtaliyanın dövlət rəhbərləri (Klemanso, Lloyd Corc, Vilson, Orlando) daxil idi. Konfransda həlledici orqanlardan biri də «5-lər şurası» idi ki, buraya da ABŞ, İngiltərə, Fransa, İtaliya və Yaponiyanın xarici





işlər nazirləri daxil idi. Versal konfransında həmçinin Vilsonun təklifi ilə «hökümətlər fövqündə duran «Üçlük» yaradıldı ki, onun da üzvləri Vudro Vilson, Lloyd Corc və Corc Klemanso idi.

Konfransa rəhbərlik edən əsas liderlər, bir sözlə, Fransanın baş naziri Klemanso, İngiltərənin baş naziri Lloyd Corc, ABŞ prezidenti Vudro Vilson idi.

«Pələng» ləqəbi ilə tanınan Klemanso təcrübəli siyasətçi, çox qətiyyətli və başladığı işi axıra çatdırmağı bacaran bir adam kimi tanınırdı. O, Almaniyanın tamamilə sarsıdılmasına və parçalanmasına inadla səy göstərirdi. Vilson siyasi hiyləgər kimi şöhrət tapmışdı və o zaman kütlələr arasında geniş yayılmış olan «ədalətli, demokratik sülh», «Xalqların öz müqəddəratını təyin etməsi» şüarlarından məharətlə istifadə edirdi.

Britaniyanın baş naziri Lloyd Corc özünü kompromislərin, fitnələrin, xəlvəti danışıqların ustası kimi göstərmişdi. Lloyd Corc rəqiblərin arasındakı ziddiyyətlərdən konfransda bacarıqla istifadə etdi. Üç dövlət başçıları sosializmə və Sovet dövlətinə nifrət bəsləməkdə yekdil idilər.

ABŞ prezidenti Vudro Vilson göstərirdi ki, ABŞ-ın dünyaya «mənəvi rəhbərlik hüququ» vardır və «açıq qapılar» prinsipi həyata keçirilməlidir.

Konfrans beynəlxalq şəraitin əlverişli olmadığı bir şəraitdə başlamışdı. Sovet Rusiyası 1919-cu ilin əvvəllərində Ukrayna, Pribaltika, Belarusiyada müəyyən qələbələr qazanmışdı. Bavariyada, Macarıstanda Sovet hakimiyyəti qurulmuşdu.

Konfransa Antantanın üzvü olmasına baxmayaraq Sovet Rusiyası dəvət edilməmişdi. İmperialist dövlətlər belə hesab edirdilər ki, Rusiya öz müttəfiqlik borcuna sadiq qalmamış, 1918-ci il martın 3-də Almaniya ilə seperat sülh bağlamışdır həqiqətən də, Rusiyada bolşeviklər hakimiyyətə gəldikdən sonra Sovet hakimiyyətini itirməkdən qorxaraq öz müttəfiqlik öhdəliklərinə axıra qədər əməl etmədilər. Onlar Almaniya ilə seperat, həmçinin Rusiya üçün son dərəcə soyğunçu, təhqiredici sülh müqaviləsi bağladılar. Həmin sülhün şərtlərinə əsasən rus qoşunları təcili surətdə Ukrayna, İslandiya, Liflandiya və Finlandiyadan çıxarıldılar. Qars, Ərdahan, Batum Türkiyəyə verildi. 40 milyon



downloaded from KitabYurdu.org

əhalisi olan 1 milyon kv.m. ərazi Almaniyaya keçdi. Lakin Antanta dövlətləri tərəfindən Almaniya və onun müttəfiqləri məğlub edildikdən və 1918-ci il noyabrın 11-də Kompeyn barışığını imzaladıqdan iki gün sonra, yəni 1918-ci ilin noyabrın 13-də Sovet Rusiyası Brest sülhünün şərtlərindən imtina etdi.

Sovet Rusiyası Paris sülh konfransına nə üçün dəvət edilmədiyini öyrənmək istədikdə isə ona belə bir cavab vermişdilər ki, biz belə bir dövlət tanımırıq.

Konfransa Fransanın baş naziri Corc Klemanso sədrlik edirdi.

**Korfransda Rusiya məsələsi.** Konfransda mühüm məsələlərdən biri «Rus məsələsi» idi. Antanta dövlətləri Sovet Rusiyasının Avropaya təsirinə qarşı mübarizəni əsas vəzifələrindən biri hesab edirdilər.

Təsadüfi deyildir ki, konfransa sədrlik edən Klemanso bildirdi ki, Sovet Rusiyası ilə Avropa arasında dəmir qaya yaratmaq lazımdır ki, bolşevizm xəstəliyi Avropaya siyarət edə bilməsin. «Rus məsələsi»nin müzakirəsi zamanı kəskin mübahisələr baş verdi. Ümumiyyətlə, Avropa dövlətlərində Sovet Rusiyasına qarşı mübarizə məsələsində iki fikir var idi. Bəziləri belə fikir irəli sürürdülər ki, Sovet Rusiyası ilə iqtisadi əməkdaşlıq etməli və bu yolla da onu özündən asılı vəziyyətə salmaq və məhv etmək lazımdır. Lloyd Corc və Vudro Vilson konfransda elə bu təklifi müdafiə etdilər.

Sovet Rusiyasına münasibətdə ikinci meyl ondan ibarət idi ki, bolşevizmlə heç bir saziş ola bilməz, onun körpəsini beşiyindəcə boğmaq lazımdır. Klemanso bu fikri möhkəm müdafiə edirdi. Klemanso belə hesab edirdi ki, bolşevizmlə heç bir sazişə yol vermək olmaz, Sovetlər Respublikası ətrafında «sanitar kardonu» düzəltmək lazımdır. Vilson və Lloyd Corcun fikrinin əksinə olaraq Klemanso Çar Rusiyası tipində vahid və bölünməz Rusiya yaratmaq istəyirdi. Klemanso çalışırdı ki, həmin ölkəyə əsaslanaraq İngiltərə və ABŞ-la rəqabət aparsın. Paris sülh konfransında «rus məsələsi» müzakirə edilərkən konfrans və Antantanın Ali Şurası Sovet Rusiyası ilə hər cür danışığa etiraz etdilər. Onlar «Rus məsələsi»nin həllini Rusiyaya qarşı silahlı




müdaxiləni başlamaqda gördülər. Bunun da səbəbləri ondan ibarət idi ki, onlar Rusiyadakı müəssisələrini və oraya qoyduqları vəsaiti itirmək istəmirdilər. Həmçinin onlar bolşevizmin Avropaya sirayət etməsindən qorxurdular. Onlar Kolçakı Rusiyanın «Ali hakimi» kimi tanıdıqlarını bildirirdilər. Bununla belə, konfransda Antanta ordularının baş komandanı Foşun Moskvaya 1 milyonluq ordu göndərmək təklifi də rədd edildi. Antanta dövlətləri qərara aldılar ki, hələlik Kolçak, Denikin, Yeduniç ordularına maliyyə və hərbi sursat cəhətdən kömək edilməklə kifayətlənmək lazımdır. Həmçinin konfransda Sovet dövlətini ayrı-ayrı hissələrə – Sibirə, Ukraynaya, Qafqaza, Orta Asiyaya və i.a. parçalamaq və onları imperialist dövlətlərinin müstəmləkələrinə çevirmək məsələsi də müzakirə edildi.

**Konfransda Almaniya məsələsi.**Paris sülh konfransında Almaniya ilə sülh müqaviləsinin şərtləri məsələsində qızğın mübahisələr meydana çıxdı. Sülh konfransının gedişində yaxın vaxtlara kimi müttəfiq olan dövlətlər arasında kəskin ziddiyyətlər aşkara çıxdı. Müharibədə varlanmış amerikan milyarderləri dünyada hökmran olmaq iddiasında idilər. Onlar Vilsonun dili ilə ABŞ-ın dünyaya mənəvi rəhbərlik hüququ olduğunu bildirdilər və «açıq qapılar» prinsipinin geniş təbliğ edilməsini tələb etdilər. Fransanın və İngiltərənin Avropada hegemonluğuna yol verməmək üçün Amerika nümayəndə heyəti güclü hərbi Almaniyanın saxlanması tərəfdarı idi. Vilson bununla Avropada ABŞ-ın mövqelərini möhkəmləndirmək ümidində idi. Başlıcası isə Amerika imperialistləri Sovet Rusiyasına qarşı mübarizə etmək üçün mürtəce Almaniyanı saxlamağa çalışırdılar.

Fransa imperialistləri isə, əksinə, Avropada öz hegemonluğunu yaratmaq məqsədi ilə Almaniyanın mümkün qədər daha çox zəifləməsinə çalışırdılar.

Klemanso və Foş bu fikirdə idilər ki, Fransa Avropada hegemon olsun. Bu məqsəd üçün onlar Almaniyanın parçalanmasını, hərbi və iqtisadi cəhətdən zəifləməsini istəyirdilər. Onlar Reynin sol sahilini Almaniyadan ayırmaq və müstəqil Reyn respublikası təşkil etmək fikrini irəli sürdülər. Bu respublika Fransanın nəzarəti altında olmalı idi. Onlar Saardakı kömür



downloaded from KitabYurdu.org

hövzələrini də Fransaya verilməsini tələb edirdilər. Fransa nümayəndə heyəti tələb edirdi ki, Bavariya da Almaniyadan ayrılıb müstəqil olsun. Klemanso tələb edirdi ki, Almaniyaya qarşı müharibə edən ölkələrin müharibəyə sərf etdikləri vəsait Almaniyadan alınmalıdır. Fransa nümayəndələri bu məqsəd üçün Almaniyadan 800 milyard marka təzminat tələb etdilər ki, bu təzminatın 58%-i daha çox müharibədə dağıntıya məruz qaldığına görə Fransaya çatmalı idi.

Fransa diplomatiyası bir sıra dövlətlərin (Polşa, Çexoslovakiya, Rumıniya və b.) ərazilərini məğlub olmuşların hesabına genişləndirilməsində israr edərək, onlardan Avropada Almaniyaya və Sovet Rusiyasına qarşı blok düzəldilməsi fikrində idi. Fransa dövlətinin antisovet planlarında bu dövlətlər az yer tutmurdu. Klemanso Sovet Respublikasını «tikanlı məftillərlə çəpərləmək» niyyətində olduğunu bildirdi.

Birinci dünya müharibəsində ABŞ və Yaponiyadan sonra ən çox qazanan dövlət İngiltərə olmuşdu. O, öz məqsədlərinə hələ müharibə qurtarmamışdan qabaq nail olmuşdur. Almaniyanın iqtisadi və dəniz qüdrətini sarsıdaraq İngiltərə inhisarçı burjuaziyası keçmiş alman müstəmləkələrini Britaniya imperiyasının tərkibinə daxil etmək istəyirdi. Lloyd Corc Fransanın Almaniya hesabına güclənməsinə mane olmaq üçün özünün bütün diplomatik qabiliyyətlərini işə saldı. O, Almaniyanı Avropada Fransanın hegemonluğuna qarşı duran dövlət hesab edirdi. Fransanın Almaniyadan ərazi iddiaları münasibəti ilə Lloyd Corcun etirazına cavab olaraq Klemanso Britaniya baş nazirini məzəmmət etdi və dedi: «Qələbədən dərhal sonra İngiltərə bizim əleyhdarımız oldu». Lloyd Corc gülümsəyərək buna belə cavab verdi: «Onun ənənəvi siyasəti bundan ibarət deyilmi?» ABŞ prezidenti kimi İngiltərənin baş naziri də Almaniya imperializmindən antisovet məqsədlərlə də istifadə etmək niyyətində idi.

Bir sözlə, Lloyd Corc və Vudro Vilson Almaniyanın parçalanması və iqtisadi cəhətdən zəifləməsinə tərəfdar olmadılar. Onlar güclü, vahid Almaniya tərəfdarı idilər. Bu yol ilə İngiltərə və ABŞ Fransaya qarşı Almaniyadan istifadə etmək istəyirdilər.




Digər tərəfdən, Almaniyanı Sovet Rusiyasına qarşı alətə çevirmək istəyirdilər. Onlar Reyn respublikasına tərəfdar olmadılar. Saar kömür hövzəsinin Fransaya verilməsinə qarşı çıxırdılar. Təzminatın miqdarının azaldılmasını və Fransaya veriləcək faizin aşağı salınmasını tələb edirdilər. ABŞ Almaniyadan ancaq 223 milyard marka təzminat tələb edirdi.

Nəhayət, imperialistlər qarşılıqlı güzəştlərə getmək yolu ilə sülh müqaviləsi layihəsini tərtib edilməsinə başladılar.

**Konfransda İtaliya məsələsi.** Konfransda mühüm məsələlərdən biri də İtaliyanın bu konfransda mövqeyi məsələsi idi. İtaliya Üçlər İttifaqının üzvü idi. Fransanın 1881-ci ildə Tunisi tutması ilə əlaqədar o, pərişanlığından bu ittifaqa girmişdi. Lakin Balkanlarda və Dunay hövzəsində onun mənafeyi Avstriya-Macarıstanla toqquşduğuna görə Birinci Dünya müharibəsi başlayarkən Üçlər İttifaqının tərəfində müharibəyə girmədi. 1915-ci ilə qədər o, hansı tərəfdən müharibəyə girmək üçün tərəddüd edirdi. Antanta ona Üçlər İttifaqından daha çox vədlər verdiyinə görə 1915-ci il də Antantanın tərəfində müharibəyə girdi. Müharibə dövrünün sazişlərinə görə, ona Kiçik Asiya və Balkan yarımadasının şimal-qərbində geniş ərazilər vəd edilmişdi. Doğrudur, İtaliya müharibədən qalib dövlət kimi çıxdı. Lakin İtaliya burjuaziyasının iqtisadi cəhətdən digər qalib dövlətlərin burjuaziyasından zəifliyi bu dövlətə məğlublar içərisində qalib, qalib dövlətlər içərisində məğlub mövqeyi vermişdi. Ona görə o, dünya xəritəsinin Paris sülh konfransında bölünməsində iştirak etsə də, «yoxsul qohum» vəziyyətində idi. Antanta dövlətlərinin ona vəd etdiklərinin yerinə yetirilməsi İngiltərənin və Fransanın müdafiə etdiyi, Yunanıstan və Avstriya-Macarıstan imperiyasının parçalanması nəticəsində əmələ gələn Serb-Xorvat-Sloven krallığının mənafeyilə toqquşurdu. Həmin dövlətlərlə əlaqələri möhkəmlətməkdə marağı olan İngiltərə və Fransa hökumətləri ABŞ-ın yardımı ilə İtaliyanın iqtisadi və hərbi cəhətdən zəifləməsindən istifadə edərək 1915-1917-ci illərdə verilmiş vədləri yetinə yetirmədilər. Onlar 1915-ci il gizli müqaviləsinə əsasən vəd etdikləri Şimali Dolmasiyanı ona vermədilər. İtaliyanın Fium haqqında xahişini də yerinə yetirmədilər.



downloaded from KitabYurdu.org

Müttəfiqlərlə İtaliyanın münasibətləri kəskinləşdi. 1919-cu ilin aprelində İtaliya nümayəndələri konfransı tərk edərək getdilər. Lakin konfransı tərk etmək İtaliyanın vəziyyətini daha da pisləşdirdi. 1919-cu ilin mayında Klemanso, Lloyd Corc və Vilson vaxtilə İtaliyaya vəd edilmiş ərazini Yunanıstana verdilər. İtaliya nümayəndələri bu vəziyyəti gördükdə təkrar konfransa qayıtmağa və qoyulmuş şərtlərə razı olmağa məcbur oldular.

**Konfransda Millətlər Cəmiyyəti məsələsi.** Versal konfransında mühüm məsələlərdən biri də Millətlər Cəmiyyəti məsələsi idi. Hələ Birinci Dünya müharibəsi illərində bəzi ölkələrin burjua pasifistləri belə bir cəmiyyətin təşkil edilməsi ideyasını irəli sürdülər. V.Vilsonun «14 maddəlik» sülh proqramında da bu məsələ öz əksini tapdı. Paris sülh konfransında Antanta dövlətləri bu məsələ ətrafında çox güclü hay-küy qaldırdılar. Onlar bu yol ilə kütlələr içərisində bolşevizmlə müqayisədə daha sülhsevər olduqlarını göstərmək istəyirdilər. Paris sülh konfransında Millətlər cəmiyyətinin quruluşu haqqında ciddi mübahisələr oldu. Vilson istəyirdi ki, bu təşkilat İngiltərə və Fransanı hegemonluq vəziyyətindən məhrum etsin və beynəlxalq aləmdə rəhbərliyi ABŞ imperializminə şamil etsin. Müstəmləkələrin paylanması da həmçinin bu cəmiyyətə tapşırılsın. Lakin dünyada və konfransda qüvvələrin yeni nisbətinin yaranması Vilsonun bu planına mane oldu. Lloyd Corc və Corc Klemanso Yaponiyanın baş naziri Sindodan yardım alaraq müstəmləkələrin konfransda bölünməsinə nail oldular. Vilson da Millətlər cəmiyyətinin təşkili haqqında fikrinin reallaşması üçün konfransın qərarına tabe oldu. Lakin sonra ABŞ konqresi bu qərarı təsdiq etmədi.

Paris sülh konfransında qəbul edilmiş Millətlər Cəmiyyətinin Nizamnaməsində deyilirdi ki, «silahlanma minimum dərəcəyə endirilsin, Millətlər Cəmiyyəti üzvlərinin ərazi bütövlüyünə əmniyyət verilsin, müharibə və müharibə təhlükəsi yaranarkən buna qarşı tədbirlər görülsün. Təcavüzkarlıq göstərən dövlətə qarşı hərbi, maliyyə və iqtisadi tədbirlər tətbiq edilsin».

Millətlər Cəmiyyətinin fəaliyyəti assambley, onun şurası və katibliyi vasitəsi ilə davam etdirilirdi. Cəmiyyətin Şura üzvləri




əvvəl dörd nəfərdən (İngiltərə, Fransa, İtaliya, Yaponiya dövlət başçılarından) ibarət oldu. Konqresin qərarı ilə ABŞ burada iştirak etmədi. Cəmiyyətin katibliyi yanında Beynəlxalq Əmək Bürosu, Tərksilah Komissiyası və Beynəlxalq Ədalət məhkəməsi palatası var idi. Cəmiyyətdə başlıca rol İngiltərə və Fransaya məxsus oldu.

Cəmiyyətin nizamnaməsinin mühüm hissəsi mandat sistemindən ibarət idi. Konfransda İngiltərə, Fransa və Yaponiya dövlətləri belə bir fikir irəli sürdülər ki, həmin müstəmləkə ölkələrinin əhalisi özlərini idarə etmək qüdrətinə malik olmadıqları üçün onların idarəsi işlərinə Millətlər Cəmiyyəti vasitəsi ilə kömək etmək lazımdır. Bu yardım mandat sistemi vasitəsi ilə həyata keçirilirdi. Əslində mandat sistemi müstəmləkəçiliyin yeni formasından başqa bir şey deyildi.

Nizamnamədə həmçinin təcavüzkar dövlət barəsində kollektiv tədbirlər sistemi tətbiq etmək - sanksiyalar nəzərdə tutulurdu. Eyni zamanda Nizamnamədə təcavüzün nə demək olduğunun və təcavüzkarın kim olduğunun tərifi yox idi. Əslində Millətlər Cəmiyyəti beynəlxalq münasibətlərin yeni sistemini qorumaq sahəsində İngiltərə və Fransa siyasətinin aləti idi.

Müstəmləkələr üç mandat kateqoriyaya bölündülər. «A» kateqoriyasına əsasən Osmanlı İmperiyasına daxil olan Ərəb ölkələri daxil idi. Onların tezliklə müstəqillik qazanması nəzərdə tutulurdu. Fransa Suriya və Livanı, İngiltərə isə Fələstin, Transiordaniya və İraqı aldı.«B» və «C» kateqoriyaları birbaşa Almaniyanın müstəmləkələri idi. «B» kateqoriyasına Şərqi Almaniya Afrikası, Toqo və Kamerun daxil idi ki, bu İngiltərə və Fransaya çatırdı. «C» kateqoriyasına isə Cənub-Şərqi və Cənub-Qərbi Afrikadakı və Sakit Okeandakı Almaniya müstəmləkələri daxil idi. Bunlar faktiki olaraq Yaponiya, Avstraliya, Yeni Zelandiya və Cənubi Afrika İttifaqının mülklərinə çevrildilər.

**Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin iştirakı.** Paris sülh konfransına Azərbaycan Xalq Cümhuriyyəti hökuməti də 1918-ci il dekabr ayının 28-də öz nümayəndə heyətini göndərmək qərarına gəldi. AXC hökumətinin



downloaded from KitabYurdu.org

təqdimatı ilə təşkil edilmiş Azərbaycan nümayəndə heyətinə tanınmış siyasi xadim Respublika Parlamentinin sədri Ə.M.Topçubaşov rəhbərlik edirdi.

Azərbaycan nümayəndələri Parisə viza almaq üçün ciddi çətinliklərlə qarşılaşdı. Uç ay İstanbulda gözlədikdən sonra nümayəndəlik İstanbul-Soloniki-Pirey-Neapol-Roma xətti ilə Parisə yollandı.

1919-cu il may ayının 2-də ABŞ prezidenti V.Vilsonun təşəbbüsü ilə ilk dəfə Azərbaycan məsələsi Versal konfransının Dördlər Şurasının iclasında müzakirə edildi. May ayının 23-də Versalda olan İngiltərə nümayəndə heyətinin üzvü A.Mallet Ə.M.Topçubaşovu qəbul etdi. May ayının 28-də ABŞ prezidenti Vilson Azərbaycan nümayəndəliyini qəbul etdi. Danışıqlar zamanı Azərbaycan Respublikasının memorandumu V.Vilsona təqdim edildi.

Azərbaycan nümayəndələri avqust ayının 19-da və 26-da Sülh konfransının sədrinə məktubla müraciət etdilər. Bu sənəddə Qafqazdakı vəziyyət ətraflı təhlil edilərək konfrans qarşısında üç mühüm tələb qoyulurdu:

1) Könüllü Ordu Dağıstan vilayətinə münasibətdə müttəfiq komandanlığının müəyyən etdiyi demarkasiya xəttini pozmamalıdır

2) Könüllü Ordu ən qısa vaxtda Dərbənddən çıxmalıdır

3) Könüllü Ordunun əlinə keçən Xəzər Donanmasının gəmiləri Azərbaycan hökumətinə qaytarılmalıdır.

Versaldakı Azərbaycan nümayəndələrinin qarşılaşdığı ciddi çətinliklərdən biri də «Böyük Ermənistan» iddialarına qarşı mübarizə aparmaq idi. Azərbaycan nümayəndələri Qərb ölkələrinin siyasi dairələri tərəfindən müdafiə edilən və bilavasitə Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı yönələn «Böyük Ermənistan» iddialarını dəf etməyə nail oldular.

Bu dövrdə yeni yaranmış dövlətlər qarşılarına çıxan siyasi, iqtisadi və xüsusilə, maliyyə çətinliklərini həll etmək üçün özlərinə siyasi cəhətdən güclü, iqtisadi cəhətdən varlı himayəçi dövlətlər axtarırdılar. Azərbaycanın himayəçilik prinsipinə meyli xeyli dərəcədə xarici təhlükə ilə bağlı idi. Azərbaycan və




Gürcüstan nümayəndələri Versalda keçirdikləri birgə iclasda qərara gəldilər ki, yalnız Böyük Britaniyanın himayədarlığı Qafqaz respublikalarının mənafeyinə uyğundur. Bu məqsədlə ingilis nümayəndələri ilə aparılan danışıqlar nəticə vermədi. Avqustun axırlarında ingilis əsgərləri Azərbaycanı tərk etdilər.

Avropa dövlətləri ilə yanaşı Qafqaz mandatına namizədlərdən biri də ABŞ idi. Böyük Britaniya, Fransa və İtaliyadan fərqli olaraq Amerikanın Qara dəniz boğazları, İstanbul və bütövlükdə Qafqaz mandatını qəbul etməkdə marağı var idi. Bu məqsədlə iyul ayının 5-də ilk addımlar atıldı. Sülh konfransında «Onlar şurası» ABŞ təqdimatı əsasında polkovnik V.Haskeli Ermənistana ali komissar təyin etdi.

Haskelin Ermənistana müttəfiqlərin ali komissarı təyin edilməsi Azərbaycan Respublikasının da Amerikanın Qafqaz siyasətinə cəlb edilməsinə təsir göstərdi. Ermənilər indi ABŞ vasitəsilə Azərbaycana olan ərazi iddialarını həll etmək istəyirdilər. Avqustun axırlarında Bakıda apardığı danışıqlarda Haskel Qarabağın və Zəngəzurun Azərbaycanın ayrılmaz hissəsi olduğunu təsdiq etdi. Bununla belə Haskel təklif edirdi ki, İrəvan quberniyasının cənub hissəsində – Naxçıvan və Şərur-Dərələyəzdə ABŞ general-qubernatoru tərəfindən idarə olunan neytral zona yaradılsın.

1919-cu ilin oktyabr ayının 24-də Naxçıvanda ABŞ general-qubernatorluğu yaoadılması barədə Haskelin bəyənatı elan edildi və Amerika polkovniki Edmund Delli bu zonaya qubernator təyin edildi. Lakin Azərbaycan hökumətinin ciddi müqaviməti, Naxçıvan əhalisinin kəskin etirazı nəticəsində amerikanlar burada general – qubernatorluq yarada bilmədilər. Polkovnik Delli isə Naxçıvanda general-qubernator kimi deyil, Sülh konfransının nümayəndəsi kimi fəaliyyətə başladı.

1919-cu ilin noyabrında Versalda müzakirəsində V.Haskelin vəkalətinin Azərbaycana və Gürcüstana aid edilməsi barədə ABŞ-ın cəhdləri İngiltərə və Fransanın ciddi müqaviməti nəticəsində baş tutmadı.



downloaded from KitabYurdu.org

ABŞ-ın Qafqaz mandatına təkid göstərməməsi Qafqaza göndərilmiş digər bir missiyanın – Harbord missiyasının prezident V.Vilsona hazırladığı məlumatla bağlı idi.

1919-cu ilin noyabr-dekabr aylarında müttəfiqlər arasında aparılan danışıqlar Azərbaycanın və Gürcüstanın müstəqilliyinin tanınmasını artıq reallaşdırmışdı. Bu məqsədlə Böyük Britaniyanın təşəbbüsü ilə yanvar ayının 11-də müttəfiqlərin Ali Şurası İngiltərənin xarici işlər naziri Corc Kerzonun təklifi ilə aşağıdakı məzmunda qərar qəbul etdi: «Müttəfiqlər və birlik ölkələri Azərbaycan və Gürcüstan hökumətlərini de-fakto səviyyəsində tanıyırlar».

Azərbaycanın istiqlaliyyətinin Paris Sülh konfransı tərəfindən tanınması tarixi əhəmiyyətli hadisə idi. Azərbaycanın müstəqilliyinin tanınması ona olan marağı artırırdı. AXC bu hadisədən sonra təcridlikdən çıxıb geniş beynəlxalq əlaqələr sisteminə daxil oldu və xarici ölkələrlə əməkdaşlığı artdı.

**Versal sülhü.** 1919-cu il may ayının 1-də uzun müzakirələrdən sonra Almaniya ilə sülh müqaviləsinin layihəsi hazırlandı və konfransın sədri onu Parisə çağırılmış Almaniyanın Xarici İşlər naziri Brokdorf Rotcounun başçılıq etdiyi alman nümayəndə heyətinə təqdim etdi.

Alman nümayəndə heyəti sülh şərtləri ilə tanış olduqdan sonra yazılı bəyənat vermək üçün konfransdan icazə istədi. İcazə verilsə də. Sülh şərtlərinin heç bir maddəsinin, xüsusilə Almaniyanın müharibənin başlanmasında yeganə təqsirkar olması maddəsinin dəyişilməsinə razılıq verilmədi. Əksinə qalib dövlətlər bildirdilər ki, əgər Almaniya müqaviləni imzalamasa yenidən onunla müharibəyə başlayacaqlar. Belə olduqda Almaniyanın xarici işlər naziri Brokdorf Rotçou sülh müqaviləsini imzalamaqdan imtina etdi və öz vəzifəsindən istefa etdi. Bu hadisədən sonra alman nümayəndə heyəti Berlinə qayıtdı. Bütün ölkədə sülh müqaviləsinin imzalanmasını əlehdarları ilə tərəfdarları arasında diskussiya başladı. Nəhayət, sülh müqaviləsini imzalamaq tərəfdarları qabil gəldilər. Yeni xarici işlər naziri German Müllerin başçılığı ilə təzə nümayəndə heyəti sülh müqaviləsini imzalamaq üçün Parisə göndərildi və 1919-cu





ilin iyunun 28-də Versalın güzgülü sarayında sülh müqaviləsi imzalandı.

Sülh müqaviləsinin bir sıra şərtlərini aşağıda olduğu kimi vermək yerinə düşərdi.

1. …Bütün dövlətlər, dominionlar və koloniyalar Millətlər Cəmiyyətinin üzvü ancaq o şərtlə ola bilərlər ki, yığıncağın 2/3 hissəsi onun lehinə səs versin. Həm də bu dövlətlər beynəlxalq öhdəliklərə əməl etməli, Millətlər Cəmiyyətinin hərbi, dəniz və hava qüvvələrində iştirak etmək haqqında əsasnaməni qəbul etməlidirlər. Əgər dövlətlərdən biri Millətlər Cəmiyyətindən çıxmaq istəyirsə, 2 il əvvəldən xəbər verməli və bu iki il müddətində bütün beynəlxalq öhdəlikləri yerinə yetirməlidirlər.

2. Cəmiyyətin fəaliyyəti Məclis və Şura vasitəsilə, onların arasındakı dövrdə isə Katiblik vasitəsi ilə həyata keçirilir.

3. Məclis Cəmiyyətin üzvlərinin nümayəndələrindən toplanır. Onlar müəyyən edilmiş vaxtda toplaşırlar. Əgər vəziyyət fövqəladə şəkil alarsa, onlar növbədənkənar da toplaşa bilərlər. Məclis həm Cəmiyyətin yerləşdiyi yerdə, həm də digər yerdə aparıla bilər. Məclis o məsələlərə baxır ki, onlar Cəmiyyətin fəaliyyət dairəsinə daxil olsun. Həmçinin ümumi sülhə xələl gətirən məsələlər də onun fəaliyyət dairəsi hesab edilir.

Cəmiyyətin hər bir üzvü ancaq üç nümayəndənin yerinə səs verə bilər.

4. Şura Baş Şuranın və Millətlər Birliyinin üzvlərindən ibarətdir. Həmçinin dörd başqa dövlətin nümayəndələri də buraya daxil edilir. Bu dörd üzv Məclisdə müzakirə ediləcək məsələləri müəyyənləşdirir, həmçinin onun çağırılma vaxtını müəyyən edir. Əgər Məclis əksəriyyət səslə bəyənərsə, Cəmiyyətə yeni üzv də qəbul edilə bilər. Şura daimi fəaliyyət göstərən orqandır. Şura vəziyyət nə vaxt tələb edirsə, o zaman toplaşır. Şura da Cəmiyyətin fəaliyyət dairəsinə aid olan bütün məsələlərə baxa bilər. Şura üzvlərinin hərəsinin bir səsi var və hər biri ancaq bir nümayəndəni təmsil edir.

5. Əgər Cəmiyyətin qəbul etdiyi statusa və Müqaviləyə zidd bir şey yoxdursa, Məclisin qərarı Cəmiyyət üzvləri tərəfindən yekdilliklə qəbul edilir.



downloaded from KitabYurdu.org

7. Millətlər Cəmiyyətini yerləşmə yeri Cenevrə şəhəri müəyyən edilir.

8. Cəmiyyətin üzvləri bilirlər ki, sülhün saxlanılması ancaq milli silahlanmanın minimuma endirilməsi yolu ilə mümkündür. Ancaq bu yolla həm milli təhlükəsizliyi, həm də beynəlxalq öhdəliklərin yerinə yetirilməsini təmin etmək olar. Şura hər bir dövlətin coğrafi vəziyyətini, xüsusi şəraiti nəzərə alaraq bu dövlət üçün məhdudiyyətləri hazırlayır. Hər on ildən bir bu məsələ yenidən araşdırılmalıdır.

Müxtəlif hökumətlərin silahlanma həddi Şuranın razılığı olmadan müəyyənləşdirilə bilməz.

10. Cəmiyyətin üzvləri ona daxil olan bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörməti öz vəzifələri hesab edirlər və hər cür xarici müdaxilənin qəti əleyhinədirlər və onun qarşısını almalıdırlar. Müdaxilə baş verərsə, Şura bunun qarşısını almaq üçün müəyyən tədbirlər görür.

11. Hər cür müharibə və müharibə təhükəsi Cəmiyyətin üzvlərini narahat edir və onlar onu məhdudlaşdırmaq və aradan qaldırmaq üçün səy göstərməlidirlər. Belə hallarda Baş Şura nöbədənkənar Şura çağırır. Lakin Şuranın çağrılmasını bütün Cəmiyyət üzvləri tələb etməlidirlər.

Bundan başqa Cəmiyyətin hər bir üzvünün hüququ var ki, Məclisə və Şuraya dostluq qaydasında müraciət etsin və Məclisin, Şuranın diqqətini onu narahat edən məsələlərə cəlb etsin.

12. Cəmiyyətin bütün üzvləri razılaşırlar ki, əgər onların arasında mübahisə olarsa, onlar üçüncü bir dövləti bu məsələni həll etməkdə köməyə çağıra bilərlər, həmçinin Şuranın ixtiyarına verə bilərlər. Üç ay müddətində onlar bu məsələyə baxıb, lazımi ölçü götürməlidirlər.

16. Əgər Cəmiyyət üzvlərindən hər hansı biri 12, 13, 15-ci maddələrə əməl etməyərək müharibəyə girərsə, bu zaman həmin dövlətlə dərhal ticarət və maliyyə münasibətləri pozulmalı, onun vətəndaşları bütün cəmiyyətin üzvü olan dövlətlərdə fəaliyyət göstərməkdən məhrum edilməlidir.





Bu zaman Şura bütün məsələdə marağı olan dövlətlərə müəyyən tərkibdə hərbi, dəniz və hava silahlı qüvvələri təklif etməyə borcludur.

Cəmiyyətin üzvləri həmçinin iqtisadi və maliyyə məsələlərində bir-birlərinə qarşılıqlı kömək göstərməyə razılaşırlar. Onlar bərabər surətdə hər hansı bir dövlətə qarşı edilmiş haqsızlığa müəyyən tədbirlərlə müqavimət göstərirlər.

17. Münaqişə zamanı iki dövlətdən biri Cəmiyyətin üzvü, o biri onun üzvü deyilsə, yenə də məsələnin ədalətli həllinə çalışılmalı, Cəmiyyətin üzvü olan dövlətin diqqəti beynəlxalq öhdəliklərə əməl etməyə yönəldilməlidir.

18. Yuxarıda göstərilən prinsiplər müstəmləkələrə də şamil edilir. Müstəmləkələrin xalqlarına hərtərəfli kömək göstərilməsi sivilizasiyalı dövlətlərin müqəddəs missiyasıdır və Cəmiyyətin statusu da bunun təmin edilməsini öhdəsinə götürür. Çünki müstəmləkə ölkələrinin xalqları hələ elə bir səviyyəyə gəlib çatmamışlar ki, onlar özləri-özlərini idarə etməyi bacarsınlar. Onların idarə edilməsində qəyyumluğu Millətlər Cəmiyyəti öz üzərinə götürməlidir. Bu xalqları idarə etməyin ən yaxşı üsulu Mandatlar sisteminə riayət edilməsidir. Millətlər Cəmiyyəti ayrı-ayrı dövlətlərə bu xalqları idarə etmək üçün mandat verməlidir.

32. Almaniya bütünlüklə mübahisəli ərazi hesab edilən Morena ərazisi üzərində Belçikanın tam suverenliyini tanıyır. Həmin ərazi bitərəf (neytral) zona adlanır.

34. Almaniyanın Eypen və Malmedi mahallarında Belçikanın xeyrinə olmayan heç bir şey etməyə ixtiyarı yoxdur. Altı ay ərzində Eypen və Malmedi Belçika üçün açılmalıdır, bu ərazinin əhalisi tam suveren surətdə öz rəyini bildirə bilər.

40. Böyük Lüksemburq hersoqluğu 1919-cu il yanvarın 1-dən Almaniyanın tərkibindən çıxır, həmçinin Almaniya gömrük ittifaqını tərk edir. Onun artıq dəmir yollarını Almaniya istismar edə bilməz. O, neytral Böyük Lüksemburq hersoqluğu kimi bütün beynəlxalq sazişlərə qoşulur, İttifaq və Birləşmiş dövlətlər ona sərbəst öz münasibətlərini bildirə bilərlər.

42. Reynin sol sahili hərbisizləşdirilmiş zona elan edilir.



downloaded from KitabYurdu.org

43. Reynin sol sahilində heç bir silahlı qüvvə saxlanıla bilməz, 10 may 1871-ci ildə isə Frankfrutda bağlanan müqaviləyə əsasən Fransadan Almaniyaya keçmiş Elzas və Lotaringiya 1918-ci noyabrın 11-də bağlanmış Birinci Dünya müharibəsinin qurtarmasına dair Kompyen barışığına əsasən təkrar Fransaya qaytarılır. 1871-ci ilə qədər, yəni Versal müqaviləsi bağlanana qədər olan Fransa sərhəddi bərpa olunur.

80. Almaniya Avstriyanın suverenliyinə hörmət edir və onu müdafiə edir. Millətlər cəmiyyətinin razılığı olmadan bu dövlətlə əlaqədar heç bir məsələ müzakirə edilə bilməz.

81. Almaniya saziş və Birləşmiş dövlətlər birliyinin etdiyi kimi Çexoslovakiyanın da tam suverenliyini tanıyır, hansı ki, Rusiyanın Karpatdan cənubi muxtar ərazisini özünə birləşdirir. Almaniya bu dövlətin sərhədlərini tanıdığını bəyan edir və onun sərhədinin saziş və birləşmiş dövlətlər tərəfindən müəyyən edildiyi ilə razılaşır.

82. Almaniya ilə Çexoslovakiya arasında sərhəd keçmiş Avstriya-Macarıstan və Almaniya imperiyası arasında 1914-cü ilin avqustun 3-nə qədər olan sərhəd kimi müəyyənləşdirilir.

83. Almaniya Çexoslavakiya hökumətinin xeyrinə Sileziya ərazisinin ona məxsus olan hissəsində bütün hüquq və imtiyazlarından imtina edir.

87. Almaniya Polşanın da müstəqilliyini tanıyır və Polşanın xeyrinə onun ərazisində olan bütün hüquq və imtiyazlarından imtina edir. Ancaq Şərqi Almaniyada Baltik dənizinə çıxan kiçik bir ərazi onda qalır. Yuxarı Sileziya isə Polşa ilə Almaniya arasında referendum yolu ilə bölüşdürülür.

102. Baş Şura və Birləşmiş dövlətlər Dansiq (Qdansk) şəhərini 100-cü maddəni rəhbər tutaraq müstəqil şəhər elan edirlər və sərbəst zona kimi onun haqqında tədbirlər görməyi öhdələrinə götürürlər. Bütün su yollarından Polşa qeyri-məhdud, sərbəst istifadə edə bilər. Sərbəst şəhər kimi Dansiq də bu hüquqlardan istifadə edir.

116. Keçmiş Rusiya imperiyasının 1914-cü ilin avqustun 1-nə kimi olan ərazisinin bütünlüyünə və toxunulmazlığına hörmət





etmək Almaniyanın vəzifəsidir və Almaniya onu tanıdığını bildirir.

119. Almaniya qalib dövlətlərin və Millətlər Cəmiyyətinin xeyrinə özünün dənizarxası bütün mülklərindən imtina edir.

160. Almaniya 1920-ci ilin martın 31-dən gec olmayaraq yeddi piyada və üç süvari diviziyadan 100 min nəfərdən artıq ordu saxlaya bilməz. Bu ordu ölkədə və sərhəddə asayişi qorumağa xidmət etməlidir.

Almaniyanın zabitlər heyəti müqaviləyə əsasən dörd mindən artıq olmamalı idi. Almaniya Baş general ştabı və digər hərbi orqanları buraxılır və heç bir halda təkrar bərpa edilə bilməz.

173. Almaniyada bütün formalarda ümumi hərbi qulluq təxirə salınır. Alman ordusu ancaq könüllü muzdlular hesabına qurula və komplektləşə bilərdi.

175 Zabitlər yenidən həqiqi xidmətdə olmalı idilər. Onların qulluq müddəti ən azı 25 il müddətində olmalı idi. Özü də bu fasiləsiz xarakter daşımalı idi.

180. Reyndən şərqə doğru 50 km-lik bütün Almaniya ərazisində olan möhkəmləndirilmiş qalalar və digər yerlər dərhal tərksilah edilməli idi. Almaniyaınn cənub və şərq sərhədlərinin möhkəmləndirilməsi sistemi müasir vəziyyətə uyğunlaşdırılmalı idi.

181. Bu müqavilə qüvvəyə mindikdən sonra iki ay müddətində Almaniya hərbi donanması aşağıdakı miqdardan yuxarı qalxa bilməzdi:

1) altı bronenos
2) altı yüngül kreyser
3) 12 minadaşıyan
4) 12 əks-minadaşıyan

Onlar özlərinə heç bir sualtı qayıq götürməməli idilər.

183. Almaniya hərbi donanmasında, donanmanın ekipajında, sahillərin qorunmasında, semafor xidməti inzibati idarəsində ancaq bütün hərbi rütbələrdən olan 15 min zabit çalışa bilərdi. Zabitlərin tərkibini ancaq 1500-ə qədər artırmağa icazə verilə bilərdi.



downloaded from KitabYurdu.org

191. Hər cür tipdən olan sualtı qayıqlar istehsalı, hətta ticarət məqsədi ilə də yaradılmış olsa belə, Almaniyada qadağan edilirdi.

198. Almaniyanın hərbi qüvvələri özünə heç bir hərbi və dəniz aviasiyası təşkil etməməli idi. Almaniyanın yuxarıda göstərilən tərkibdən artıq olan bütün zabit və əsgər heyəti iki ay müddətində buraxılmalı idi.

Müqavilədə ittifaqlararası nəzarət komissiyası haqqında da müəyyən müddəalar öz əksini tapmışdır. Bunlardan bir neçəsi üzərində dayanmaq məqsədəuyğun olardı.

203. Bütün Almaniya qarşısında qoyulmuş təəhhüdlərin yerinə yetirilməsi vəziyyətinə İttifaqlararası nəzarət komissiyası rəhbərlik etməlidir ki, onun tərkibi qalib dövlətlərin və Millətlər cəmiyyəti üzvlərinin içərisindən müəyyən edilib seçilir.

231. Qalib dövlətlər və Millətlər Cəmiyyəti elan edir ki, Almaniya və onun müttəfiqləri müharibə nəticəsində qalib və digər dövlətlərdə baş vermiş bütün itki və fəlakətlərin səbəbkarıdırlar. Çünki bu itkilər Almaniya və onun müttəfiqlərinin basqınları nəticəsində baş vermişdir.

233. İtkilərin və zərərin həcmi İttifaqlararası komissiya tərəfindən müəyyənləşəcək və Almaniya bunu ödəməyə borcludur. Bu, təzminat komissiyası tərəfindən müəyyənləşdiriləcəkdir. Həmçinin təzminatın miqdarı 1921-ci ilin 1 mayından gec olmayaraq Almaniya hökumətinə bildirilməlidir. Komissiya təzminatın ödənilməsi sxemini də tərtib edir. Həmin sxemdə 1921-ci ilin 1 mayından başlayaraq 30 il müddətində Almaniyanın verdiyi təzminatın həcmi və forması göstərilməlidir.

235. Almaniya 1919-1920-ci illərdə müxtəlif şəkildə (qızıl, mal, gəmi, qiymətli kağızlar və s.), hansı ki, bunu təzminat komissiyası müəyyənləşdirir, iyirmi milyard qızıl marka qalib dövlətlərə verməli idi.

249. Almaniyanın 1918-ci ilin noyabrın 11-dən, yəni təslim olduğu vaxtdan ərazisində bütün qalib dövlətlərin və Millətlər Cəmiyyətinin ordusu saxlanılacaqdır.

331. Aşağıdakılar beynəlxalq zona elan edilir:

1) Vyatovadan Elbayadək və Praqadan Vyatova qədər





2) Optadan Oderə qədər

3) Qrodnodan Nemana qədər

4) Ulmdan Dunaya qədər

344. Əgər Almaniya 42 və 43-cü maddələri pozardısa, bu hadisə həmin dövlətlərə münasibətdə düşməncəsinə akt kimi qəbul edilə bilər.

345. Fransanın Birinci Dünya müharibəsində çox böyük maddi və mənəvi itkiyə məruz qaldığını nəzərə alaraq Almaniyanın Saar vilayətinin kömür mədənləri ona verilir.

349. Almaniya Millətlər Cəmiyyətinin mənafeyinə uyğun olaraq həmin ərazilər haqqında müqavilədə əksini tapanları tanıdığını etiraf edir. Bir sözlə, Saar vilayəti 15 il müddətinə Millətlər Cəmiyyəti tərəfindən idarə olunacaq.

Müqavilədə həmçinin göstərilirdi ki, 1870-1871-ci il Fransa-Prussiya müharibəsində Fransa məğlub edildi. Onun zəngin kömür ehtiyatına malik olan Elzas-Lotaringiya Almaniya tərəfindən zəbt edildi. Bu ərazinin işğalı XIX əsrin sonunda Almaniyanın sürətli iqtisadi inkişafına təkan verən amillərdən biri idi. Lakin Birinci Dünya müharibəsində Antanta dövlətlərinin mərkəz dövlətlər üzərində qələbəsi nəticəsində Elzas-Lotaringiya təkrar Fransaya qaytarıldı və bu Versal müqaviləsində öz əksini tapdı. Bu məsələ ilə əlaqədar müqavilənin bəzi maddələrindən misal göstərmək olar.

428. Almaniya ilə bağlanmış Müqaviləyə uyğun olaraq Reyndən qərbə tərəf ərazidə qalib dövlətlərin və Millətlər Cəmiyyətinin qoşunları qalacaqdır və onlar 15 il müddətində bu ərazini tərk etməyəcəklər. Bu tarix Müqavilə qüvvəyə mindiyi gündən hesablanır.

430. Əgər Almaniya 15 il ərzində Müqavilənin şərtlərinə düzgün əməl etməzsə və təzminatı ödəməsə, onda Qalib dövlətlər və Millətlər Cəmiyyəti təkrar Almaniyanın bütün ərazisinə qoşun yeridə bilər.

431. Əgər keçən 15 il ərzində Almaniya onunla bağlanmış bütün müqavilələri yerinə yetirərdisə, onda bağlanmış müqaviləyə uyğun olaraq 15 ildən sonra Qalib dövlətlərin və Millətlər Cəmiyyətinin qoşunları Reyn ərazisini tərk etməli idilər.



downloaded from KitabYurdu.org

**Sen-Jermen sülh müqaviləsi.**Versal müqaviləsi Almaniya imperializminin əsaslarına toxunmadı. Almaniyanın hərbi-sənaye potensialı ləğv edilmədi, yalnız məhdudlaşdırıldı. Sülh müqaviləsinin hərbi maddələri müzakirə edilərkən Vilson bildirdi ki, «daxili qayda-qanunu gözləmək və bolşevizmi boğmaqdan ötrü» zəruri olan ordunu Almaniya üçün saxlamaq lazımdır.

Versal müqaviləsi sülhə təminat vermədi. Həmçinin Almaniyanın demokratik və sülhsevər dövlətə çevrilmək ideyasını da irəli sürmədi.

Birinci dünya müharibəsinin sonunda Milli-azadlıq hərəkatı nəticəsində çoxmillətli Avstriya-Macarıstan imperiyasında parçalanma əmələ gəldi. Bu imperiyanın yerində Mərkəzi və Cənub-Şərqi Arvopada yeni dövlətlər Polşa, Çexoslovakiya, Serb-xorvat-sloven krallığı, Avtsriya, Macarıstan əmələ gəldi.

Habsburqlar monarxiyasının süqutu və yeni dövlətlərin yaradılması Avropa tarixində mütərəqqi hadisə idi. Yaranan yeni dövlətlərdə Fransa silahlı qüvvələri yerləşdirilmişdi. Avtsriya ilə sülh müqaviləsi layihəsinin hazırlanması zamanı da qızğın mübahisələr baş verdi. Ən kəskin mübahisə Dunay hövzəsi və Balkan yarımadası üstündə oldu. İtaliya tələb edirdi ki, Cənubi Tirol, Triyes, İstriya, Dolmasiya, Dodakez yarımadası ona verilsin.

Qızğın mübahisələrdən sonra Avstriya ilə sülh müqaviləsi 1919-cu il sentybarın 10-da sen-Jermendə bağlanıldı. Müqaviləyə əsasən, Avstriya özünün slavyan malikanələrindən məhrum oldu. Mərkəzi və Şərqi Avropada yeni slavyan dövlətləri yarandı. Yunanıstan İngiltərənin təsiri altına düşdü. Avstriya müstəqil dövlət kimi təşkil edilirdi. Onun bir daha Almaniya ilə ittifaq bağlaması (anşlüs) qadağan edilirdi. Bu müqaviləyə əsasən Avstriya Çexoslovakiyanın istiqlaliyyətini tanıdı və Çexiyanı, Moraviyanı və Sileziyanın ona məxsus olan hissəsini Çexoslovakiyaya verdi. Avstriya Serb-Xorvat-Sloven krallığının istiqlaliyyətini tanıdı və ona öz cənubi slavyan əyalətlərini verdi. Bu ərazilərinin Yuqoslaviya ilə İtaliya arasında bölünməsi 1920-ci ildə bağlanmış Rapallo müqaviləsi ilə başa çatmış oldu. İtaliya Yuliyek – Kraynı, Triyest və bir sıra adaları öz ixtiyarına aldı.





Avtsriya Bukovinanı Rumıniyaya verdi. Bu ərazilərin əhalisinin 70%-i slavyan idi. Yuqoslaviyaya Avstriyanın sabiq malikanələrindən Sleveniya, Dolmasiya, Bosniya- Hersoqovina verildi. Avstriya Dunay və Adriatik dənizində olan bütün hərbi və ticarət donanmasından məhrum olur və onları müttəfiqlərə verməli idi. Avstriyanın ancaq 30 min nəfər muzdla tutulmuş ordu saxlamağa ixtiyarı var idi.

**Neyi və Trianon müqavilələri .**1919-cu ilin noyabr ayının 27-də Neyidə (Parisin kənarında yerləşir) Bolqarıstanla müqavilə bağlandı. Bolqarıstan ərazisinin mühüm hissələrindən məhrum oldu. Qərbi Frakiya Yunanıstana verildi. Buna görə də o, Egey dənizinə çıxa bilmədi. Cənubi Dobruçi Rumıniyada qaldı. Bolqarıstan 20 min nəfərlik muzdlu ordu saxlaya bilərdi. Makedoniyanın Bolqarıstana aid hissəsi Serb-xorvat-sloven krallığına verildi. Bolqarıstan 2,25 milyard frank məbləğində təzminat verməli idi. O, bu təzminatı 37 il müddətinə ödəməli idi. Neyn müqaviləsi Bolqarıstan xalqına zərbə vurdu. O, ancaq dörd minadaşıyan, motorlu qayıq saxlaya bilərdi. Müqavilə Bolqarıstanda milli ədavəti gücləndirdi. Bolqarıstan altı ay müddətində Serb-xorvat-sloven krallığı, Rumıniya və Yunanıstana 70 min baş mal-qara, beş il ərzində Rumıniyaya 50 min ton kömür verməli idi. Bolqarıstan bu müqavilədən sonra xeyli çətinliklərlə qarşılaşmalı oldu.

Məğlub dövlətlər içərisində Macarıstan da var idi. 1920-ci il iyun ayının 4-də Versalın böyük Trianon zalında Macarıstanla müqavilə imzalandı. Bu tarixdə Trianon müqaviləsi adlanır. Bu müqavilə əsasında Macarıstandan slavyan torpaqları alındı. Macarıstan Serb-xorvat-sloven krallığının istiqlaliyyətini tanıdı və sabiq əyalətləri olan Xorvatiya, Sloveniya, Raçki və Banatın qərb hissəsini ora verməli oldu. Macarıstan Transilvaniya və Şərqi Banatı Rumıniyaya verdi. Macarıstan 35 min nəfərlik muzdla tutulmuş ordu saxlaya bilərdi. Ölkədə hərbi mükəlləfiyyət ləğv edilirdi. Macarıstan Burqunland əyalətini Avstriyaya verdi.

**Sevr müqaviləsi.**Dördlər ittifaqının üzvlərindən biri də Osmanlı imperiyası idi. 1920-ci ilin avqustun 10-da Parisin yaxınlığındakı Sevrdə Türkiyə ilə müqavilə imzalandı



downloaded from KitabYurdu.org

Bu müqavilə tarixdə Sevr müqaviləsi adlanır. Türkiyəyə aid olan mülklər qalib dövlətlər arasında bölüşdürüldü. Qalib dövlətlər Türkiyənin öz ərazisini də hissələrə böldülər. Suriya, Livan, Mesopotamiya mandat ölkəsi kimi İngiltərə və Fransaya verildi. Türkiyə Ermənistanın istiqlaliyyətini tanıdı və onun ərazisinə məxsus olan əyalətlərdən əl çəkdi. Kürdüstan Türkiyədən ayrıldı. Türkiyə Misir malikanələrindən də məhrum oldu. Bu malikanələr İngiltərənin himayəsinə verildi. Dardanelin Avropa sahili, İzmir, Şərqi Frakiya, Adrianopol Yunanıstanına verildi. Dodakanez adaları İtaliyaya verildi. Boğazlar ticarət və hərbi gəmilər üçün açıq elan edildi. Türkiyənin maliyyə məsələsi sülh konfransında təşkil edilmiş beynəlxalq komissiyaya tapşırıldı. Türkiyə ancan 50 min nəfərlik muzdla tutulmuş ordu saxlaya bilərdi. Sevr müqaviləsi faktiki olaraq Türkiyənin suverenliyini ləğv etdi və onu müstəmləkə halına saldı.

Sevr müqaviləsinə görə, təkcə İstanbul Türkiyənin əlində qalırdı. Kilikiya qonşu ərazilərlə, həmçinin Anadolunun cənubu Fransa təsir dairəsinə daxil edilirdi. Anadolunun şərq hissəsi Ermənistana keçirdi. Cəub-Şərqi Anadolu «muxtariyyət» qazanmış Kürdüstana verilirdi. Bundan başqa, Anadoluda İtaliya və Fransanın təsir dairəsi yaradılırdı. Türkiyə maliyyəsi üzərində qalib dövlətlər ciddi nəzarət qoymalı idilər.

Müqavilənin şərtinə görə, Bosfor və Dardanel boğazlarına xüsusi komissiya başçılıq edirdi. Bu komissiyanın özünün silahlı qüvvələri, özünün bayrağı və özünün büdcəsi var idi. Bu komissiyanın tərkibinə İngiltərə, Fransa, ABŞ, İtaliya, Yaponiya nümayəndələri daxil idi. Onların hərəsinin iki səsi var idi. Rusiya, Türkiyə və Bolqarıstan Qara dəniz dövlətləri olmasına baxmayaraq ancaq Millətlər Cəmiyyətinə daxil olduqdan sonra onun üzvü ola bilərdilər.

Sevr sülhü Türkiyə üçün ölüm təhlükəsi olsa da, qalib dövlətlər onu həyata keçirə bilmədilər. Hətta formal da olsa, bu sənəd qüvvəyə minmədi. Sultan Türkiyəsi hələ onun altına imza atmamışdan qabaq İstanbul, Şərqi Frakiya, İzmir və digər rayonlar imperialist dövlətlərinin qoşunlarından təmizləndi.




Anadolunun tutulmamış hissələri isə Türkiyə Böyük Millət Məclisi tərəfindən idarə edilirdi.

Versal, Sen-Jermen, Neyi, Trianon, Sevr sülh müqavilələri Birinci dünya müharibəsindən sonrakı kapitalizm dünyasının mühüm hissəsini yenidən quran bir sistem idi. Ona görə də bu müqavilələr Versal sistemi kimi də xarakterizə edilir. Versal sistemi Qərbi, Mərkəzi, Şərqi və Cənub-şərqi Avropa məsələsini nizama saldı. Həmçinin bu sistem Yaxın Şərq və Afrika məsələsini də yeni tərzdə həll etdi. Beləliklə, bu sistem Yaxın Şərq və Hindistan, İngiltərənin digər dominionlarında olan yollar üzərində Böyük Britaniyanın ağalıq mövqeyini müəyyən etdi. Versal sisteminin xarakterik xüsusiyyətlərindən biri onun antisovet istiqamətində olması idi. Bu sistem Sovet Rusiyasından Pribaltika ölkələrinin, Qərbi Belarusiya və Qərbi Ukraynanın, Bessarabiyanın ayrılmasını təsdiq etdi. «Sanitar kardonu» prinsipini irəli sürdü. Qalib dövlətlər «sanitar divar» vasitəsi ilə Avropanı bolşevizmdən qorumaq istəyirdilər. Sovet Rusiyasının qərbində Antanta dövlətləri bir neçə xırda dövlətlərdən divar düzəltdilər. Bu yol ilə onlar Sovet kommunizminin Avropaya yayılmasına mane olmaq istəyirdilər.

Qalib dövlətlər Millətlər Cəmiyətini yaratmaqla onu Versal sistemini qoruyan alətə çevirdilər. Həmin dövlətlər bu təşkilat vasitəsi ilə Sovet Rusiyasına və yeri gəldikdə digər dövlətlərə qarşı diplomatik və başqa mübarizə vasitələrini işə salırdılar. Onların yaratdıqları Millətlər Cəmiyyəti müstəmləkəçilik sistemini müdafiə edən orqan oldu.

Versal sistemi dövlətlər arasındakı ziddiyyətləri ləğv etmədi. Qalib dövlətlərlə məğlub dövlətlər arasındakı ziddiyyətlər kəskinləşdi. Qalib dövlətlərin öz aralarındakı ziddiyyətlər də gücləndi Fransanın Avropada hegemonluq mövqeyi İngiltərə, İtaliya və digər dövlətlərin xoşuna gəlmədi. Bu sistemin Uzaq Şərqdə Yaponiyaya verdiyi üstünlük ABŞ-la Yaponiya arasındakı ziddiyyətləri kəskinləşdirdi. İngiltərə ilə ABŞ arasındakı ziddiyyətlər də artdı. Təsadüfi deyildir ki, ABŞ konqresi Versal sistemini təsdiq etmədi və ABŞ Millətlər Cəmiyyətindən çıxdı. Versal müqaviləsinin alçaldıcı şərtləri Almaniyada revanşın



downloaded from KitabYurdu.org

başlanması üçün şərait yaratdı. Versal sistemi sülhü təmin etmədi, İkinci Dünya müharibəsinin başlanmasına hazırlıq üçün sadəcə tənəffüs verdi.

## 2.Genuya konfransı*

Versal-Vaşinqton sülh sistemi diplomatik-siyasi münasibətləri tənzimləsə də, dünya təsərrüfatını və ticarətini bərpa etmədən dövlətlər arasında mövcud olan problemləri nizama salmaq xeyli çətin idi. Buna görə də Avropanın qalib dövlətləri, ilk növbədə İngiltərə və Fransa beynəlxalq iqtisadi münaisbətləri həll etmək məqsədilə yollar axtarmağa başlamışdılar. Müttəfiqlərin 1922-ci il yanvarın əvvəlində Kannda keçirilən Ali Şurasının iclasında İngiltərənin baş naziri Lloyd Corc beynəlxalq iqtisadi konfrans çağırmaq barədə təklif irəli sürdü. Yanvarın 6-da Ali Şura Lloyd Corcun təklifi ilə razılaşaraq müvafiq qətnaməni təsdiq etdi. Konfransı keçirməkdən ötrü aşağıdakı 6 şərt qəbul olundu: heç bir dövlət digər dövlətə özünün mülkiyyət sistemini, daxili iqtisadi həyatını və idarə sistemini sırıya bilməz; başqasına kredit verən dövlət öz vətəndaşlarının hüquq və əmlakının qorunmasına əmin olmalıdır; ticarəti aparmaqdan ötrü maliyyə-pul dövriyyəsini təşkil etmək lazımdır; xarici kreditlərdən istifadə etmək istəyən dövlət bütün əvvəlki borc və öhdəlikləri qəbul etməlidir; mövcud quruluşu devirmək üçün təbliğat aparılmasından imtina olunmalıdır; bütün ölkələr qonşularına hücum etməkdən qarşılıqlı şəkildə imtina etməlidirlər.

Kannda qəbul olunan qətnaməyə görə Genuyada çağırılacaq konfransda baş nazirlər iştirak etməli idilər. İngiltərə və Fransa Almaniyadan təzminatı almağı, borclar və Yaxın şərq məsələlərini həll etməyi vacib sayırdılar.

Dəvəti İtaliyanın Vaşinqtondakı səfiri vasitəsilə alan ABŞ hökuməti iqtisadi deyil, əsasən siyasi xarakterli məsələlərin müzakirə olunacağını əsas gətirərək konfransda yalnız müşahidəçi

* Musa Qasımlıj Muasir tarixj Bakı-2003jBirinci hissəj




sifəti ilə iştirak edəcəyini bildirdi. ABŞ-ın İtaliyadakı səfiri Çayld konfransda müşahidəçi statusu ilə iştirak etdi.

Rusiyanın konfransa dəvət edilməsi məsələsi mübahisələr yaratdı. Antanta dövlətləri Rusiyanı konfransa dəvət edərdilərsə, bu, bolşevizmi tanımaq kimi qiymətləndirilərdi. Bolşevik hökuməti konfransa çağırılmadıqda isə borclar məsələsini həll etmək müşkülə düşəcəkdi. Nəhayət, uzun mübahisələrdən sonra Almaniya və Rusiyada mövcud olan bolşevik hökuməti tanınmadan konfransa dəvət edildilər. Sovet hökumətinin göstərişi ilə fevralın 22-də Azərbaycan, Ermənistan, Belorusiya, Buxara, Gürcüstan, Uzaq Şərq, Ukrayna və Xarəzm respublikalarının nümayəndələri konfransda mənafelərini qorumaq hüququnu Rusiya Sovet Federativ Sosialist Respublikasına (RSFSR) verməyi nəzərdə tutan protokol imzaladılar. Nümayəndə heyətinin başçısı RSFSR xalq xarici işlər komissarı G.Giçerin təyin edildi.

Genuya konfransı aprelin 10-da San-Corco sarayında 29, İngiltərənin dominionları ilə birlikdə 34 dövlətin iştirakı ilə açıldı. Konfransda İtaliyanı baş nazir Fakta, İngiltərəni baş nazir Lloyd Corc, Fransanı xarici işlər naziri Lui Bartu, Almaniyanı kansler Virt təmsil edirdi. İtaliyanın baş naziri konfransın sədri seçildi. Konfransda dörd komissiya yaradıldı: siyasi, maliyyə, iqtisadi və nəqliyyat. İqtisadi komissiyanın iclasında fransızların Almaniyaya qarşı irəli sürdükləri tələblər rədd edildi. Siyasi komissiyanın iclasında konkret siyasi məsələlərlə məşğul olmaqdan ötrü yarımkomissiya yaratmaq qərara alındı. Burada ekspertlərin məruzəsi əsasən iki məsələyə həsr edilmişdi: Avropa və Rusiyanın bərpası. Məruzənin 7 maddədən ibarət olan birinci fəslində aşağıdakı tələblər irəli sürüldü: bolşevik Rusiyası çar hökumətinin və müvəqqəti hökumətin maliyyə öhdəliklərini öz üzərinə götürür; bu öhdəliklərin yerinə yetirilməsini qəbul edir; həmin məsələlərə baxmaqdan ötrü xüsusi olaraq Rusiya borcları komissiyası yaradılır və s.

Konfransda Böyük Britaniya nümayəndə heyəti sovet respubilkalarının bolşevik işğalına məruz qalaraq «sovetləşdiyini» və zorla «sovet respublikaları»na çevrildiklərini, Rusiya



downloaded from KitabYurdu.org

nümayəndə heyəti isə bu respubilkaların «müstəqil» və «müttəfiq» olduqlarını bildirdi.

Avropa dövlətləri Rusiyadan 18 mlrd. qızıl rubl borcun ödənilməsini, bolşevik nümayəndə heyəti isə birinci dünya müharibəsi, vətəndaş müharibəsi və xarici hərbi müdaxilə dövründə vurulan zərər üçün bu dövlətlərdən 30 mlrd. dollar tələb edirdi. Rusiya borcları ödəməyə aşağıdakı şərtlərlə razı idi. Əlavə kredit və vaxt verilsin. Lakin Avropa dövlətlərinin düşmüş olduğu çətin maliyyə-iqtisadi vəziyyət bu tələbləri yerinə yetirməyə imkan vermirdi.

Genuya konfransanın gedişində rus-alman yaxınlaşması baş verdi. Aprelin 22-də Rapollada iki ölkə arasında imzalanan müqavilənin şərtlərinə görə tərəflər hərbi xərcləri və müharibə vaxtı vurulmuş ziyanları ödəməkdən, hərbi əsirləri saxlamaq üçün ayrılan vəsaitdən imtina edirdilər; iki ölkə arasında diplomatik və konsul münasibətləri dərhal bərpa olunurdu; ticarət və təsərrüfat məsələləri əlverişli şərtlərlə tənzimlənirdi.

Rapallo müqaviləsinin Almaniya və Rusiya üçün böyük diplomatik-siyasi və iqtisadi əhəmiyyəti var idi. Konfrans iştirakçılarını heyrətləndirən müqavilə qərb dövlətlərinin vahid mövqedən çıxış etməsini zəiflədirdi. Sənədin imzalanması Rusiyanın diplomatik blokadaya alınmasına son qoyurdu.

Elə həmin ildə iki ölkə arasında hərbi əməkdaşlığa dair saziş də imzalandı. Sazişə görə Almaniya sovet ərazisində hərbi bazalar yarada, Rusiya isə alman hərbi texnikasından istifadə edə bilərdi. Lakin bu saziş kağız üzərində qaldı.

Sənədlərində «neft» ifadəsi işlədilməsə də, Genuya konfransının gedişində neft məsələsi mühüm yer tutdu. Bakı nefti uğrunda mübarizə aparan ABŞ, Fransa, Belçika və İngiltərə aprel işğalı nəticəsində itirdikləri mülklərini qaytarmağa və kompensasiyalar almağa çalışırdılar.

Konfransda Azərbaycan SSR-dən N.Nərimanov ümumi sovet nümayəndə heyətinin tərkibində, Ə.Topçubaşov başda olmaqla isə mühacirətdəki Azərbaycan Xalq Cümhuriyyətinin nümayəndələri iştirak edirdilər. Topçubaşov işğalçı bolşevik hökuməti tərəfindən Azərbaycanın təbii sərvətlərinin paylanması




cəhdinə etirazını bildirdi. Rapollo müqaviləsindən sonra Almaniya Azərbaycan SSR-ni tanıdığını bildirərək Bakıda nümayəndəlik açdı.

Konfransa məsələlərin müzakirəsinə türklərin buraxılmaması vəziyyəti xeyli mürəkkəbləşdirirdi. Belə mövqe Kiçik Asiyada sülhün bərpasına mane olurdu.

Mayın 19-da keçirilən son plenar iclasda konfransın işini Haaqada davam etdirmək barədə qətnamə qəbul olundu.

### 3.Haaqa konfransı

Haaqa konfransı 1922-ci il iyunun 15-dən iyulun 20-dək keçirildi. Konfransda rus və qeyri-rus komissiyaları; xüsusi mülkiyyət, borclar və kredit yarımkomissiyaları yaradıldı. İyunun 27-də keçirilən kredit yarımkomissiyasının ilk iclasında sədr qərar qəbul etmək deyil, bu sahədə yaranmış mövcud vəziyyəti öyrənmək üçün toplandıqlarını bildirdi. Borclar üzrə yarımkomissiya da eyni nəticəyə gəldi. Xüsusi mülkiyyət yarımkomissiyasında xarici ölkə vətəndaşlarının Rusiyada olan mülklərinin qaytarılması tələb edildi. İlk növbədə neft mədənlərinə olan iddialar irəli sürüldü. Xüsusi mülkiyyətin qaytarılması tələbi və Rusiyanın buna qarşı yersiz iddiaları konfransın işini pozdu. Bu şəraitdə müzakirələrin aparılması səmərəsiz idi. İyulun 19-da sovet nümayəndə heyəti belə bir təklif irəli sürdü: müharibədən əvvəlki borcları qəbul edir və onları ödəməyə hazırdır; Rusiyada mülkiyyəti olan və kompensasiyalar ala bilməyən keçmiş sahibkarların haqqını ödəyəcəkdir; iki il müddətində maraqlı şəxslərlə borcların ödənilməsi haqqında sazişə gələcəkdir. İngilislər bu təklifə tərəfdar, fransızlar isə əleyhinə çıxdılar. Ruslar xaricilərin müraciətlərinə ayrı-ayrılıqda baxılmasının, fərdi qaydada konsessiyalar verilməsinin mümkünlüyünü, Avropa dövlətləri isə vahid konsorsium yaradılması ideyasını irəli sürürdülər. Rusların təklifləri əməli mahiyyət daşımaqdan uzaq olub daha çox Avropa dövlətləri arasında ixtilaflar yaratmaq və təbliğat məqsədi güdürdü. Ona görə də iyulun 20-də konfrans belə bir qətnamə qəbul etdi:



downloaded from KitabYurdu.org

Rusiyadan ayrı-ayrılıqda konsessiyalar alınması ideyası rədd edilsin. Konfransda bolşevik nümayəndə heyətinin Rusiyanın keçmiş borclarının olmasını qəbul etməsi Avropa dövlətlərini razı saldı. Bununla da konfrans öz işini başa çatdırdı. Lakin dövlətlər arasında mövcud olan maliyyə-iqtisadi məsələləri həll etmək mümkün olmadı.

## 4.Lozanna konfransı†

Bu dövrdə mühüm hadisələr Türkiyə ətrafında cərəyan edirdi. Milli azadlıq mübarizəsinin gedişində ingilis-yunan işğalçıları üzərində qələbə qazanan türklər Qara dəniz boğazlarına dair konfrans çağırılmasını tələb etməyə başladılar. Avropa dövlətləri tərəfindən qəbul edilən bu təklif əsasında çağırılan Lozanna konfransı 1922-ci il noyabrın 20-dən 1923-cü il iyulun 24-dək keçirildi. Konfransda İngiltərəni Lord Kerzon, Fransanı Puankare, İtaliyanı Mussolini təmsil edirdi. Bundan başqa konfransda Yaponiya, Türkiyə, Yunanıstan, Yuqoslaviya, Bolqarıstan və Rumıniya nümayəndələri də iştirak edirdi. Konfransda üç müşahidəçi komissiya yaradıldı: ərazi və hərbi məsələlər siyasi komissiyada, xaricilərin və milli azlıqların hüquqları məsələsi hüquqi komissiyada, maliyyə və iqtisadi məsələlər isə iqtisadi komissiyada müzakirə olundu.

İsmət İnönü başda olmaqla türk nümayəndə heyəti Türkiyənin sərhədlərinin 1913-cü ildəki kimi qurulmasını tələb edirdi. Bunun əksinə olaraq ingilislər Türkiyəyə Avropada daha az ərazi saxlamağa çalışırdılar.

Konfransda Mosul məsələsi də müzakirə edildi. 1909-cu ilədək sultan mülkiyyəti olan həmin ərazi gənc türklər inqilabından sonra müsadirə olunmuşdu. Osmanlı dövləti birinci dünya müharibəsində məğlub olduqdan sonra türk sultanı Mosulu Əbdülhəmidin varislərinə qaytarmışdı. Varislər də öz növbəsində hüquqlarını ABŞ kompaniyalarına vermişdilər. Türkiyənin başqa

† Musa Qasımlıj Muasir tarixj Bakı-2003jBirinci hissə





dövlətə vermək istəmədiyi Mosul təkcə zəngin neft rayonu deyil, həmçinin coğrafi mövqeyinə görə Kürdüstanın açarı idi. İngiltərə ona ya özü sahib olmağa, ya da Millətlər Cəmiyyətinin müzakirəsinə verməyə çalışırdı. ABŞ bu rayonda ziddiyyətləri yumşaltmaq məqsədilə İngiltərə, Fransa və İtaliyanın üstünlüyünə qarşı çıxaraq bütün dövlətlər üçün «açıq qapılar» prinsipinin həyata keçirilməsini irəli sürürdü.

Konfransda boğazlar haqqında məsələ də müzakirə olundu. Türk diplomatiyası həm boğazlarda, həm də Türkiyənin digər ərazilərində işğal rejiminin ləğv olunmasına israr edirdi.

1923-cü il yanvarın 31-də Lord Kerzon İngiltərə, Fransa və İtaliya adından boğazlara dair saziş layihəsini türklərə təqdim edərək cavab üçün 5 günlük möhlət verdi. Türklər buna cavab olaraq aşağıdakı şərtləri irəli sürdülər: Türkiyənin dövlət müstəqilliyi və suverenliyi təmin edilsin; Sevr müqaviləsi və işğal rejimi ləğv edilsin; başlıca türk əraziləri saxlanılsın və b.

Fevral ayının 4-də ultimatumun vaxtı qurtardı. Türk nümayəndə heyəti ulimatumu qəbul etmədi. Beləliklə, konfransın işi pozuldu.

Bundan sonra İtaliya və Fransa Türkiyə ilə yaxınlaşmaq xətti götürdülər. 1923-cü il aprelin 9-da Lozanna konfransı öz işinə yenidən başladı. Yunanlar türklərdən, türklər isə müttəfiqlərdən vurulan ziyana görə təzminat tələb edirdilər. İngiltərə belə gərgin vəziyyətdə aşağıdakı kompromiss variantı irəli sürdü: Türkiyə təzminat tələbindən əl çəkir, əvəzində Qarağac və ətraf əraziləri alır. Türklər bu təkliflə razılaşıb təzminat almaqdan imtina edərək güzəştə getdiklərini bildirirdilər.

Səkkiz aylıq müzakirələrdən sonra 1923-cü il iyulun 24-də Lozanna protokolu imzalandı. Protokola görə Türkiyə Ərəbistan, Sudan, Tripolitaniya, Mesopotamiya, Fələstin, Suriya və bir sıra başqa ərazilərini itirir, Kıbrısı Böyük Britaniyaya, Dodekanez adalarını İtaliyaya, Egey dənizindəki bir sıra adaları güzəştə gedirdi. Bununla belə, Türkiyə başlıca türk ərazilərini özündə saxladı. İzmir, Ədirnə ilə birlikdə Şərqi Frakiya, Dardanelin Avropa sahilləri, Hallipoli yarımadası və b. ərazilər Türkiyəyə



downloaded from KitabYurdu.org

qaytarıldı. Türkiyənin yeni sərhədləri beynəlxalq birlik tərəfindən tanındı.

Razılaşmaya əsasən Mosul məsələsi doqquz ay müddətində İngiltərə ilə Türkiyə arasında bilavasitə ikitərəfli münasibətlərdə müzakirə edilməli idi. Əgər onlar razılığa gəlməsəydilər, məsələ Millətlər Cəmiyyətinin müzakirəsinə veriləcəkdi. Lozanna protokoluna əsasən Türkiyədə işğal rejimi, beynəlxalq maliyyə nəzarəti və türk ordusu üzərindəki məhdudiyyətlər ləğv edilirdi. Qara dəniz dövlətlərinin ticarət və hərb gəmiləri dinc və müharibə vaxtı boğazlardan sərbəst şəkildə keçə bilərdilər; Bosfor və Dardanel boğazları hərbisizləşdirilirdi; İstanbulda türk nümayəndəsinin sədrliyi altında beynəlxalq boğazlar komissiyası təsis edilirdi; onun tərkibinə Fransa, İngiltərə, İtaliya, Yaponiya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Rusiya, Yuqoslaviya və Türkiyə daxil olurdular.

Konfransın qərarlarına görə yunanlar İstanbuldan başqa bütün türk ərazilərindən çıxarılmalı idilər. Ermənilərin Türkiyə ərazisində də Ermənistan yaratmaq planları boşa çıxdı. Böyük dövlətlər müdafiə etmədiklərindən onlar öz istəklərinə nail ola bilmədilər. Türkiyə ərazisindəki Antanta dövlətlərinin əlində olan Almaniya, Avstriya və Macarıstan vətəndaşlarının mülkləri xüsusi müqavilə bağlananadək müttəfiqlərdə saxlanılırdı.

Lozanna protokolunu bir tərəfdən İngiltərə, Fransa, İtaliya, Yaponiya, Yunanıstan, Rumıniya, Yuqoslaviya, digər tərəfdən isə Türkiyə imzaladı. Sənəd imzalanan gün Belçika və Portuqaliya da ona qoşuldular. Beləliklə, türk diplomatiyasının qələbəsi olan Lozanna konvensiyası regiondakı qüvvələr nisbətini tənzimlədi və mövcud ziddiyyətləri bir qədər yumşaltdı.

### 5.Vaşinqton konfransı

1919-1920-ci illərdə Paris sülh konfransında bağlanmış müqavilələr 1914-1918-ci illəri əhatə edən Birinci dünya müharibəsindən sonrakı dövr üçün Avropanın böyük dövlətləri arasındakı yeni münasibətləri müəyyən etdi. ABŞ Avropadakı öz rəqibləri ilə mübarizədə diplomatik uğursuzluğa düçar oldu. Bu




hər şeydən əvvəl, Vudro Vilsonun İngiltərənin baş naziri Lloyd Corc və Fransanın baş naziri Corc Klemenso ilə müqayisədə siyasi cəhətdən təcrübəsizliyi ilə əlaqədar idi. Vudro Vilson ABŞ-a üstünlük qazandırmağı bacarmadı. Lloyd Corc və Corc Klemenso isə öz dövlətlərinə üstünlük qazandırmağı məharətlə bacardılar. Məhz buna görə də ABŞ Paris sülh konfransında öz planlarının heç birini həyata keçirə bilmədi, daha doğrusu bacarmadı. Bir sıra məsələlər, o cümlədən Uzaq Şərq və Sakit okean məsələsi isə həll edilməmiş qaldı.

Paris sülh konfransı nəinki sülhü təmin etmədi, hətta demək olar ki, imperialist dövlətləri arasındakı ziddiyətləri daha da kəskinləşdirdi. ABŞ-da Versal sülhünü qəbul etməmək uğrunda mübarizə hələ 1919-cu ilin yazında başlandı. Tezliklə hər iki partiya arasında intensiv diskussiyalar başlandı. Hər şeydən əvvəl, konqresin özündə bu məsələ müzakirə obyektinə çevrildi.

Müzakirələrin gedişində Vilsonun tərəfdarlarım təcridçilər adlandırmağa başladılar. Bu siyasətin mahiyyəti Avropa ilə iqtisadi, xüsusilə hərbi əməkdaşlıqdan imtina etmək və hələ 1796-cı ildə C. Vaşinqtonun etdiyi vəsiyyətə əməl etmək idi.

"Barışmazlıq" tərəfdarları isə irəli sürürdülər ki, Versal müqaviləsinə düzəlişlər etmək lazımdır. Bu düzəlişlərdə bütün dövlətlərdə hərbi mükəlləfiyyətlərin ləğv edilməsi, iri dövlətlərin ordu və donanmalarını ixtisar etmək, həmçinin hərbi büdcəni azaltmaq və s. məsələlər öz əksini tapmalıdır. Onlar İngiltərə, Fransa və Yaponiyanı Avropanı, Almaniya koloniyalarını, Çin və Türkiyə ərazilərini bölüşdürməkdə təqsirləndirir, bunu "imperialist soyğunu və işğalı" hesab edir, buradakı insanlara müraciəti isə "heyvanla münasibətə" bənzədirdilər

Vilsona qarşı duran cəbhədə respublikaçılar partiyasının liderlərindən olan Morqan və Rokfeller birləşdilər. Onlar ilk növbədə İngiltərə əleyhinə istiqamətdə köklənmişdilər. Onlar istəyirdilər ki, Yaxın Şərqdən Meksikaya qədər bütün neft sərvətlərinə ABŞ rəhbərlik etsin. Onlar göstərirdilər ki, ABŞ-ın maraqlarında birinci yeri Avropa, sonra Latın Amerikası və Asiya tutmalıdır.



downloaded from KitabYurdu.org

Vilsonun əleyhdarları belə hesab edirdilər ki, ABŞ Millətlər Cəmiyyətinə daxil olmamalı və onun nizamnaməsindəki onuncu maddənin ləğv edilməsinə nail omaq lazımdır. Millətlər Cəmiyyətində İngiltərə və Fransanın birinciliyi, hər şeydən əvvəl, Monro doktrinasını təhlükə altına alırdı. Onlar Amerikanın avropalaşması haqqında şaiələr yayırdılar.

Təcritçilər proqramında kontinentə sahib olmaq, Latın Amerikasında ABŞ-ın hökmranlığını təmin etmək, həmçinin Yaponiyanı Çinin Şandun əyalətindən və Sakit okeandakı adalardan məhrum etmək, mandat sisteminə yenidən baxmaq nəzərdə tutulurdu.

Lodcistlər və "barışmazlıq" tərəfdarları arasında fikir ayrılığı olmasına baxmayaraq, onlar 1919-cu ildə birləşdilər. Lakin ziddiyət yenə də qalmaqda idi. Lodc belə hesab edirdi ki, Versal müqaviləsinə ABŞ maraqlarına uyğun gələn maddələr daxil edilsə, onu qəbul etmək olar. Bor isə elan etdi ki, ABŞ bütün hallarda Versal müqaviləsinə, Millətlər Cəmiyyəti əleyhinə səs verməlidir. Nəhayət bu iki qrup arasında mübarizədə lodcistlər qələbəyə nail ola bildilər. 1919-cu ilin iyulunda Vilson rəsmi şəkildə Versal müqaviləsini təsdiq üçün senata təqdim etdi. Bu məsələ ilə əlaqədar müzakirə səkkiz ay davam etdi. Senat ABŞ-ın xeyrinə 48 əlavə 4 düzəliş tələb edirdi. Lodc isə 15 düzəliş tələb edirdi. Senatda Versal müqaviləsinin leyhinə 39, əleyhinə 56 nəfər səs verdi.

1920-ci ilin martın 19-da Versal müqaviləsinin qəbul edilməsindən imtina edən qətnamə qəbul edildi. Bir sözlə, Versal müqavilələri ABŞ konqresi tərəfindən ratifikasiya edilmədi. Həmçinin bu hadisələr bir daha sübut etdi ki, hakimiyyətdə prezidentlə konqres arasında kəskin ziddiyətlər mövcuddur.

ABŞ-ın xarici siyasət kursu əhəmiyyətli dərəcədə 1920-ci ildə noyabr ayında keçiriləcək prezident seçkilərinin keçirilməsindən asılı idi. Vilson beynəlxalq səhnədə məğlub vəziyyətdə idi. Ölkə daxilində isə artıq ona rəğbət qalmamışdı.

Təcritçilərin millətçilik ruhunda təbliğatları öz işini gördü. Respublikaçıların prezident seçkiləri kampaniyası inhisarçılar tərəfindən yaxşı maliyyələşdirildi. 1920-ci ilin noyabr





seçkilərində respublikaçılar partiyası qalib gəldi və Oqayo ştatından olan Hardinq prezident seçildi.

Hakimiyyətə gələn respublikaçılar partiyası dərhal Versal müqaviləsinə yenidən baxmağı qərara aldı. Bunun üçün Vaşinqtonda yeni bir konfrans çağırmaq üçün hazırlıq işləri görməyə başladı. Bu konfransın çağırılması 1918-1920-ci illərdə ABŞ-ın xarici siyasətinin məntiqi nəticəsi idi. Versal müqaviləsindən sonra ABŞ qarşısına revanşı və dünyaya rəhbərliyini öz əlinə almağı məqsəd qoydu. Lakin o, məqsədini əvvəlki dövrlərdən fərqli olaraq çox ehtiyatla həyata keçirməyə başladı. Dünya ağalığı ideyasını dirçəltmək ideyası hələ 1920-ci ilin oktyabrın 16-da 31 nəfər görkəmli respublikaçının imzaladığı bəyanatda öz əksini tapdı. Onlar təsdiq edirdilər ki, bu partiya "Dərin millətlər assosasiyasının" yaradılmasını təmin edəcəkdir.

Prezident Hardinq hələ seçkilərdən sonrakı birinci müşavirəsində göstərdi ki, bu məsələ ABŞ-ın xarici siyasətinin mərkəzində duracaqdır.

Hardinq hökuməti beynəlxalq konfransın çağırılmasını və orada ilk növbədə aşağıdakı məsələlərin müzakirə edilməsini lazım bilirdi: Silahların məhdudlaşdırılması; mandatların bölüşdürülməsinə yenidən baxılması; Çində "açıq qapılar" doktrinasının keçirilməsi; "rus məsələsinin müzakirəsi"; beynəlxalq münasibətlərin yeni prinsiplərini işləyib hazırlamaq və s.

İngiltərə ancaq ona nail ola bildi ki, çağırılacaq konfrans ancaq Uzaq Şərq və Sakit okean məsələləri ilə məşğul olsun. Bu məsələdə isə ən çox dörd dövlət – ABŞ, İngiltərə, Fransa və Yaponiya iştirak etməlidir. Fransa uzun müddət burada iştirak etməyə cəhd etdi və nəhayət, buna nail ola bildi. Fransa həm də çalışırdı ki, konfransın gündəliyinə borclar haqqında məsələ də daxil edilsin. Fransa mətbuatı o zaman həyacanla yazırdı ki, ona imkan vermək olmaz ki, hər bir yeni ABŞ prezidenti öz beynəlxalq təşkilatını yaratsın. Yaponiya isə qətiyyətlə bildirdi ki, artıq Uzaq Şərqdə zəbt edilmiş və həll edilmiş ərazilərlə bağlı heç bir məsələ gündəliyə daxil edilməsin

Müzakirənin gedişində qarşıda duran forum "Silahların məhdudlaşdırılması, Sakit okean və Uzaq Şərq məsələləri üzrə



downloaded from KitabYurdu.org

konfrans" adını aldı. 20-ci illərin əvvəllərində Uzaq Şərq və Sakit okeanda ağalıq üstündə imperialist dövlətləri arasındakı ziddiyyətlər daha da kəskinləşdi. ABŞ bu dəfə mübarizənin önündə getməyə başladı. ABŞ, hər şeydən əvvəl, Çinin müstəmləkə işğalında özünün birinciliyini nəzərə çarpdırmağı qarşısına məqsəd qoydu. Məhz buna görə də ABŞ diplomatiyası 1921-ci ildə konfrans çağırmaq təşəbbüsündə olduğunu bildirdi. Həmçinin ABŞ bildirdi ki, bu konfransı çağırmaqda onun məqsədi müharibədən sonrakı beynəlxalq münasibətlərin yeni sisteminin təşkilini başa çatdırmaqdı. Həmçinin ABŞ kapitalizm dünyasında sülh üçün böyük fasilə yaratmaq fikrində olduğunu da elan etdi. Əlbəttə, bütün bunların arxasında ABŞ-ın öz maraqları dururdu. O, Sakit okean, Uzaq Şərq və Çində hegemonluğa nail olmaq fikrində idi. Bunun üçün onun kifayət qədər iqtisadi və müdafiə qüdrəti vardı. İmperialist dövlətləri arasında bir şeyə nail olmaq üçün ən güclü vasitə isə qüvvə idi.

Birinci dünya müharibəsi ABŞ-ın inkişafına güclü təkan verdi. ABŞ üçün əlverişli şərait yarandı. Avropa hərbi əməliyyatlar meydanına çevrilsə də, ABŞ bundan kənarda qaldı. ABŞ ordusu hərbi əməliyyatlarda ancaq 1918-ci ilin yayından iştirak etməyə başladı. Ona görə də canlı insan itkisi müharibədə iştirak edən digər dövlətlərlə müqayisədə ABŞ-da az oldu. 50 minə yaxın insan həlak oldu, 230 min isə yaralandı.

Hərbi materialların, ərzağın və xammalın Avropa ölkələrinə ixracı ABŞ-ı dünyanın ən qüdrətli sənaye ölkələrindən birinə çevirdi. 1920-ci ildə ABŞ dünyada istehsal edilən avtomobillərin 85%-ni, neftin 67%-ni, qara metalların 60%-dən çoxunu verirdi. ABŞ-da bu dövrdə polad istehsalı 4,5 dəfə artdı. Fransaya nisbətən bu artım 14 dəfə çox oldu. ABŞ-ın milli sərvəti 1914-1920-ci illərdə 2,5 dəfə artdı.

Müharibə ABŞ-da dövlət inhisarçı kapitalizmi gücləndirdi. Milli gəlirin 60%-i 2% amerikalıya, 5%-i isə ölkə əhalisinin 66%-nə məxsus idi. ABŞ-ın xarici ölkələrə kapital qoyuluşu əgər 1913-cü ildə 2,6 milyard dollar idisə, 1922-ci ildə 7 milyard dollar təşkil edirdi.




ABŞ-da güclü urbanizasiya prosesi getməyə başladı. 1920-ci il siyahıya alınmasına görə ABŞ əhalisi 105,7 milyon nəfər idi ki, bunun da 54,2 milyonu artıq şəhərlərdə yaşayırdı. Bu ABŞ-ın tarixində yeni bir hadisə idi ki, şəhər əhalisi artıq kənd əhalisini ötüb keçmişdi.

İqtisadiyyatda dövlətin vəziyyəti ABŞ-da güclü inhisar birləşmələrinin yaranmasına səbəb olmuşdu. Bütün bunlar isə ABŞ-a imkan verdi ki, dünya ağalığı fikrinə düşsün. ABŞ bu planını ilk növbədə Cənub-Şərqi Asiyada, xüsusilə Çində həyata keçirmək istəyirdi.

ABŞ bütün Çin ərazisində üstünlüyü ələ almağa çalışaraq 20-ci illərin əvvəllərində, xüsusilə Çinin təsir dairələrinə bölünməsinin ləğv edilməsini tələb edirdi. Bu tələb bütün imperialist dövlətlərinə, birinci növbədə isə İngiltərəyə aid idi. Həmçinin ABŞ kapitalı daha çox bu dövrdə Çinə nüfuz etməyə başladı. ABŞ xüsusilə Yantszı çayı hövzəsində və Çinin cənubunda bu sahədəki fəaliyyətini genişləndirdi. Bu isə aydındır ki, İngiltərənin mənafeyinə toxunmaya bilməzdi. İngiltərə və ABŞ-ın maraqları həmçinin Cənub-Şərqi Asiyanın digər ölkələrində də toqquşurdu. İngiltərə və ABŞ münasibətlərində ən kəskin problemlər dənizdə silahlanma və ingilis-yapon sazişi məsələsində idi. İngiltərə ilə Yaponiya arasında bu saziş 1902-ci ildə bağlanmış, hər iki dövlət müəyyən sahədə birgə öhdəlik götürmüşdülər. Bu isə ABŞ-ın, Uzaq Şərq, Çin və Sakit okean planlarına maneçilik törətdiyinə görə ABŞ hər vəchlə bu sazişin ləğv olunmasına çalışırdı.

1919-cu ildə ABŞ konqresi hələ müharibə illərində hərbi-dəniz quruculuğu haqqındakı proqramını hazırlayıb təsdiq etdi. Bu proqramda göstərilirdi ki, elə etmək lazımdır ki, ABŞ-da hərbi-dəniz quruculuğu 1924-cü ilə qədər dünyada ən qüdrətli və güclü olsun.

Bu proqramın qəbul edilməsi əslində İngiltərə üçün bir çağırış demək idi. Çünki ABŞ bu proqramı qəbul etməklə İngiltərənin dənizdə hökmranlığını əlindən almaq, "dənizlər hökmdarını" məğlub etmək istəyirdi. Dənizdə sürətlə silahlanma məsələsində 20-ci illərin əvvəllərində İngiltərə ABŞ-la rəqabətə



downloaded from KitabYurdu.org

girə bilməzdi. Çünki buna iqtisadi gücü yox idi. Buna səbəb isə o idi ki, İngiltərə müstəmləkə imperiyası idi. Onun öz ərazisindən 109 dəfə çox əraziyə malik müstəmləkələri var idi. Birinci dünya müharibəsindən sonra isə bu müstəmləkələrin bir çoxunda milli-azadlıq hərakatı başlandı.

Müstəmləkələrdən gələn gəlirlər hesabına dolanan İngiltərə Birinci dünya müharibəsinə qədər "dünya faytonçusu", "dünya emalatxanası", "dünya maliyyə mərkəzi" hesab edilsə də müharibədən sonra bu keyfiyyətlərdən məhrum olmuşdu. ABŞ-ın anası hesab edilən və ona həmişə borc verən İngiltərə müharibədən sonra ABŞ-a borcu olan bir dövlətə çevrilmişdi.

İrlandiyada baş verən hadisələr, İngiltərənin özünün daxili və beynəlxalq vəziyyəti ona imkan vermirdi ki, ABŞ-la münasibətləri kəskinləşdirsin. Bir sözlə, onun ABŞ-ın istəyi ilə hesablaşmamağa gücü yox idi. Bu vəziyyəti ABŞ hakim dairələri də çox gözəl başa düşürdü. Ona görə də əlverişli imkandan çox bacarıqla istifadə edirdi.

ABŞ İngiltərəyə təzyiq vasitələri içərisində ilk növbədə İngiltərənin maliyyə sahəsindəki çətinliklərindən istifadə etdi. O, İngiltərədən tələb etdi ki, əgər konfransın çağırılmasına razılıq verməsə, onda ABŞ ondan müharibə dövründə verdiyi hərbi borcunu, yəni 850 milyon funt-sterlinqin, (4 milyard dollar) qaytarılmasını tələb edəcəkdir. Amerikanlar İngiltərənin kredit bazarındakı mənafeyinə də toxunurdular. Amerika banklarının təzyiqi altında 1920-ci ildə İngiltərə funt-sterlinqinin qızıl paritetini 79%-ə qədər aşağı endirdi. Ümumiyyətlə, funt-sterlinqin kursu aşağı düşdü.

ABŞ-la İngiltərə arasında birinci dünya müharibəsindən sonra kapital qoyuluşu, satış bazarları və xammal mənbələri uğrunda mübarizə gücləndi.

Çin üzərində İngiltərə və ABŞ arasında ziddiyətlər daha kəskin xarakter daşıyırdı. Məsələlərə aydınlıq gətirmək üçün deyək ki, Çin hələ orta əsrlərdən bütün qabaqcıl dövlətlərin diqqət mərkəzində olsa da heç birinin müstəmləkəsinə çevrilməmiş, daha doğrusu, kapitalist dövlətləri bunu bacarmamışdılar. Çin həmişə özünə xas olan təcridçiliyini saxlaya bilmişdir. Çini müstəmləkə





edə bilməyən dövlətlər onun ancaq ayrı-ayrı limanlarında möhkəmlənə bilmişdir. Məsələn, Rusiya Port-Arturda, Fransa Quançjouda, Almaniya Tzsyançjouda, İngiltərə isə Veyxoveyidə, Honkonqda özünü möhkəmlətmişdir. Yantszı çayı hövzəsində və Mərkəzi Çində isə İngiltərənin təsiri daha güclü idi. Demək olar ki, bu ərazi İngiltərənin təsir dairəsi hesab edilirdi. XIX əsrin sonunda isə ABŞ bütün bunları diqqətlə izləyirdi.

İngiltərənin nüfuzlu siyasi dairələri dənizdə silahlanma məsələsində ABŞ-la kompromisə meyl etməyə başladılar. 1921-ci ilin martında İngiltərənin hərbi dəniz donanması naziri Lord Li belə bir nitqlə çıxış etdi ki, buna nail olmaq lazımdır ki, dənizdə İngiltərə və ABŞ donanması arasında paritet, yəni bərabərlik yaransın. Bir aydan sonra İngiltərə hökuməti ABŞ-a öz fikrini belə bəyan etdi ki, o dənizdə silahlanmada və donanmada üstünlüyü daim öz əlində saxlamaq ideyasında deyildir. O, ABŞ-la sazişə gəlməyə və bu sahədə onunla paritet yaratmağa razıdır. O, İngiltərə və ABŞ donanmalarının bərabər səviyyədə olmasına etiraz etmədiyini bildirdi. Bunun üçün İngiltərə Atlantik okeanda ABŞ-ın təhlükəsizliyini təmin etməyi vəd etdi ki, bu da imkan verməli idi ki, Sakit okeanda amerikanlar öz donanmalarını cəmləşdirməyi bacarsınlar.

İngiltərə məcburiyyət qarşısında qaldı ki, həmçinin ABŞ-la 1902-ci il ingilis-yapon sazişi barədə də danışıqlara girsin. Bu saziş həm antialman, həm antirus, həm də antiamerikan ruhunda bağlanmışdır. 1920-ci ildə ABŞ senatoru Lodc bildirmişdi ki, ingilis-yapon sazişi bizim Sakit okeanda və Uzaq Şərqdə qarşılıqlı münasibətlərimiz üçün təhlükəli elementdir. O, təkcə ABŞ-da deyil, həmçinin Kanada da həyacan doğururdu. Həmçinin bu saziş Yaponiyanın hərbi ruhunu müdafiə edir və onun dənizdə və quruda yeni münaqişələr törətməsinə imkan verirdi.

ABŞ diplomatiyası qətiyyətlə ingilis-yapon sazişinin ləğv edilməsini tələb etdi. İngiltərəyə təzyiq göstərmək üçün ABŞ İrlandiya məsələsindən bacarıqla istifadə etdi. 1921-ci ilin iyununda ABŞ konqresi İrlandiya respublikasının tanınması məsələsini müzakirə etdi. Müzakirə zamanı ABŞ-ın o zamankı dövlət katibi Yuz İngiltərənin ABŞ-dakı səfirinə bildirdi ki,



downloaded from KitabYurdu.org

konqresin necə qərar çıxartması İngiltərə ilə Yaponiya arasındakı qarşılıqlı münasibətlərin xarakterindən asılı olacaqdır.

İngiltərə-Yaponiya sazişi Britaniya imperiyasının öz daxilində də narazılıq doğurmağa başladı. 1921-ci ilin iyulunda Kanada və Cənubi Afrika ittifaqının nümayəndələri bildirdilər ki, onlar İngiltərənin dominionları kimi belə hesab edirlər ki, ABŞ-la yaxşı münasibətlər yaratmaq və onu qorumaq İngiltərə-ABŞ münasibətlərinin əsasını təşkil etməlidir. Yaponiya ilə saziş isə bu münasibətləri pozur, korlayır. İmperiya konfransında çıxış edən Kanada baş naziri Meyson təklif etdi ki, İngiltərə-Yaponiya sazişinin əvəzində dörd dövlət sazişi – ABŞ, Böyük Britaniya, Yaponiya, Fransa müqaviləsi bağlansın. İki digər dominionların – Avstaliya və Yeni Zelandiyanın nümayəndələri belə təklif etdilər ki, ingilis-yapon sazişində yeniləşmə getsin. Yaponiyaya hücum əleyhinə təminat verilsin, həmçinin bir sıra dəyişikliklər edilsin ki, onlar amerikanları razı salsın.

İmperiya konfransı nəticədə bu məsələni həll etmək üçün xüsusi konfrans çağırmaq və burada ABŞ-ın da iştirakını təmin etmək haqqında qərar qəbul etdi.

Bütövlükdə götürsək, İngiltərənin özü də Yaponiya ilə sazişin yeniləşməsinin əleyhinə idi. Çünki Birinci dünya müharibəsi dövründə Yaponiyanın mövqeyinin Çində möhkəmlənməsi İngiltərənin maraqlarına ciddi zərbə vurmuşdu. İmperialist dövlətlərinin, xüsusilə İngiltərənin Avropada başlanmış müharibəyə başlarının qarışmasından istifadə edən Yaponiya 1914-1918-ci illərdə Çində nüfuzunu möhkəmlətməyə xüsusi diqqət yetirdi. Bu dövrdə Çinə kapital qoyuluşunun həcmini artıraraq bu sahədə İngiltərə ilə yaxınlaşmaq həddinə çatdı. Bu Çinlə bağlı məsələlərə baxan təşkilat olan və Londonda fəaliyyət göstərən "Çin assosasiyası"nı da narahat etməyə başladı. Yapon kapitalının sürətlə İngilis kapitalını sıxışdırdığını görən bu assosasiya hansı ki, iri İngiltərə sənayeçiləri, qabaqcıl ticarət nümayəndələrini birləşdirirdi, 1921-ci ilin iyulun 22-də İngiltərə xarici işlər nazirinə xüsusi məktubla müraciət etdi. Məktubda göstərilirdi ki, 1902-ci il ingilis-yapon sazişi hazırki dövrdə İngiltərənin xarici siyasət kursuna və siyasi maraqlarına uyğun





gəlmir. Xüsusilə Yaponiyanın son dövrlərdə yeritdiyi siyasət İngiltərənin maraqları əleyhinədir. Ona görə də biz xahiş edirik ki, bu saziş ləğv edilsin və İngiltərənin mənafeyinə uyğun olan dörd dövlət sazişi ilə əvəz edilsin.

Yaponiyanın Çində və Sakit okeanda sahib olduğu ərazilər, həmçinin iqtisadi gücünün artması ABŞ-ın rəhbər dairələrini, xüsusilə inhisarçı dairələri narahat edirdi. Doğrudan da, Paris sülh konfransı nəticəsində Çinin Şandun əyalətinin (müharibəyə qədər Şandun əyaləti Almaniyanın təsir dairəsində idi. Birinci dünya müharibəsi başlayarkən Yaponiya Almaniyadan tələb etdi ki, Şandun əyaləti ona verilsin. Lakin Almaniya bu tələbi rədd etdi. Belə olduqda, Yaponiya Antantanın tərəfində 1914-cü il avqustun 23-də müharibəyə girdi.) həmçinin Sakit oeandakı Marşall, Karolina, Mariya adalarının Yaponiyaya verilməsi onun nüfuzunu xeyli gücləndirmişdi. Birinci dünya müharibəsi nəticəsində ABŞ-dan sonra ən çox qazanan dövlət Yaponiya idi. ABŞ isə bununla barışmaq istəmirdi. Hələ müharibənin sonuna yaxın Yaponiyanın Çindəki nüfuzunu ABŞ sarsıtmağa və zəiflətməyə çalışmağa başladı. Bu məqsədlə 1918-ci ilin iyununda ABŞ beynəlxalq bank konsersiumu təşkil etmək layihəsini irəli sürdü ki, bu layihəyə əsasən Çinə kredit verilməsinin bütün növlərini bu qrup inhisara almalı idi. Danışıqlar iki ilə qədər davam etdi. Yaponiya formal olaraq ona maraq göstərsə də, heç bir fəallıq nümayiş etdirmədi.

Şandun əyalətinin Yaponiyaya verilməsi Çində böyük həyacana səbəb oldu. 1919-cu il may ayının 4-də Çində bununla əlaqədar kütləvi hərakat başladı. Çində baş verən hərəkat bir daha sübut etdi ki, imperialist dövlətlər artıq bu ölkə ilə istədiklər kimi rəftar edə bilməzlər. Bu ölkə ilə münasibətlərdə dəyişiklik etmək çox vacibdir. Həmçinin bu hərəkatdan sonra Çin hökuməti də konsersiumun təklifini qəbul edə bilmədi və bundan ehtiyat etdi. ABŞ planının müvəffəqiyyətsizliyə uğramasının digər səbəbi isə Yaponiyanın rəhbər dairələrinin buna müqavimət göstərməsi idi. Çünki bu layihəyə dəstək vermək Çinin açarını ABŞ-a vermək demək idi.



downloaded from KitabYurdu.org

Müharibədən sonra dünyanın maliyyə mərkəzi də ABŞ oldu. Məhz bunun nəticəsi idi ki, amerikan burjuaziyası üçün Uzaq Şərq bazarlarının əhəmiyyəti daha da artırdı. 1920-ci ildə Panama kanalının açılması ABŞ-ın Uzaq Şərqlə dəniz yolunu qısaltmış oldu. Uzaq Şərq, xüsusilə Çin uğrunda mübarizə ABŞ xarici siyasətində əsas yer tutdu.

İstər ABŞ-da, istərsə də Yaponiyada irticaçı dairələr yenidən bu iki dövlət arasında toqquşmalar baş verəcəyini söyləməyə başladılar. ABŞ donanmasının əsas qüvvələri Atlantik okeandan Sakit okeana gətirildi.

Çin və Uzaq Şərq uğrunda mübarizədə Yaponiyanın vəziyyəti ABŞ-la müqayisədə daha əlverişli idi. ABŞ-da bunu yaxşı başa düşürdülər. Yaponiyanın hərbi dəniz qüvvələri Tayvan və Rüküdə idi, dayaq məntəqəsi isə Saxalin, Kuril, Mariana, Karolin, Marşall adaları idi. Bu da imkan verirdi ki, manevr etsin və dənizdən olacaq hər hansı bir hücumdan özünü müdafiə etsin. Sakit okeandan uzaq bir məsafədə yerləşən ABŞ üçün yenidən Yaponiya ilə müharibə aparmaq  çətin idi. Konqres ancaq 1921-ci ildə qərar qəbul etdi ki, Filippin və Quam adalarında silahlanmanı gücləndirmək üçün hazırlıq işləri aparılsın.

Sovet Uzaq Şərqinə  münasibətdə də Yaponiya ilə ABŞ arasındakı münasibətlər kəskinləşdi. Amerika imperialistləri əvvəlki kimi yenə də Sovet Rusiyasını tanımaq və onunla münasibət yaratmaq əleyhinə idilər. 1920-ci il seçkilərində demokratların məğlubiyyətindən sonra prezident seçilmiş respublikaçılar partiyasından olan Hardinq antisovet kursu davam etdirməklə bərabər, onu daha da dərinləşdirdi. Yaponiyanın Uzaq Şərq Respublikası üzərində tam hökmranlığa nail olmaq cəhdi, Sovet Uzaq Şərqində möhkəmlənmək istəyi ABŞ hakim dairələrində böyük narahatçılığa səbəb oldu. ABŞ hökuməti yapon işğalçılarının Uzaq Şərqdə Sovet hökumətinə  qarşı təcavüzünü bəyənsə də, Yaponiyanın daha çox əl-qol açmasını istəmirdi.

1921-ci ilin mayında Uzaq Şərq respublikası hökuməti razılaşdı ki, Saxalinin Cənubundakı neft yataqlarını ABŞ-ın Sinkler neft kompaniyasına təqdim etsin və onlar Saxalinin şərq





sahilində iki liman tiksinlər. Dövlət departamenti bunun üçün lazımi tədbirlər həyata keçirdi.

1921-ci ilin avqustunda Dayrend (Dallində) Uzaq Şərq Respublikası nümayəndələrinin konfransında tələb edildi ki, Yaponiya öz qoşunlarını təcili surətdə Uzaq Şərqdən köçürsün və heç bir şərt irəli sürmədən Sovet Rusiyasının nümayəndələri konfransda iştirak etsinlər. Lakin yapon tərəfi bu təklifi qəbul etmədi. Yaponiya Uzaq Şərq respublikasına təzyiqi artırdı. Yaponiya konfransa "17 tələb" təklifini irəli sürmüşdü ki, onun mahiyyəti faktiki olaraq Uzaq Şərq respublikasını Yaponiyanın müstəmləkəsinə çevirmək idi.

Yapon imperialistləri çalışırdılar ki, rusların Vladivastok rayonunda və Koreya sərhədlərindəki qalaları ləğv edilsin. Uzaq Şərq respublikası dəniz donanması yaratmaqdan imtina etməli idi. Yaponiyanın iş adamlarının Uzaq Şərq respublikasının ərazisində yerli vətəndaşlarla bərabər hüquqda ticarət və sənətkarlıqla məşğul olmaq azadlığı təmin edilməli idi. Uzaq Şərq respublikası təminat verməli idi ki, öz ərazisinə "kommunist rejimi"nin  ayaq basmasına imkan verməyəcəkdir. Həmçinin o, Saxalinin şimal hissəsini Yaponiyaya icarəyə verməli idi.

Uzaq Şərq respublikasının nümayəndələri bu təklifləri rədd etməklə bərabər yaponlarla danışıqları da davam etdirdilər. Çünki onlar imkan vermədilər ki, yaponlar onları konfransın işini pozmaqda ittiham etsinlər.

1921-ci ilin oktyabrında Yaponiya tərəfindən silahlandırılan ağqvardiyaçılar  Uzaq Şərq respublikasına hücuma keçdilər. Lakin Uzaq Şərq respublikasının ordusu onlara ciddi müqavimət göstərdi. Asiyada başlanan milli azadlıq hərəkatı  Yaponiya və ABŞ-a imkan vermədi ki, onlar Sovet Rusiyasını məhv etsinlər. Əksinə, Uzaq Şərqdə və Çində başlanan milli-azadlıq hərəkatı onların bu ərazini müstəmləkəyə çevirmək planını pozdu. Lakin bütün bunlara baxmayaraq bu və ya digər dərəcədə Yaponiya bu regionda müdaxiləçilik siyasətini davam etdirirdi. Bu isə Yaponiya-ABŞ münasibətlərinə öz təsirini göstərməyə bilməzdi.

Göstərdiyimiz səbəblər Amerika diplomatiyasına konfrans çağırmaq təşəbbüsünü də irəli sürməyə imkan verirdi. Konfrans



downloaded from KitabYurdu.org

Sakit okean və Uzaq Şərqlə bağlı olan problemlərə baxmalı və onları həll etmək yollarını göstərməli idi.

1921-ci ilin iyulun 10-da ABŞ dövlət katibi Yuz Vaşinqtonda beynəlxalq konfrans çağırmaq təklifi ilə çıxış etdi. Avqust ayının 11-də dünyanın böyük dövlətlərinə dəvətnamə göndərildi.

Lakin konfransa nə Uzaq Şərq, nə də Sovet Rusiyası dəvət edilmədi. Sovet Rusiyası məsələsi konfransın gündəliyinə daxil edilməsə də aydın idi ki, konfransın işində əsas yer tutmalı idi. ABŞ-ın nüfuzlu qəzetlərindən birində yazılmışdır ki, "Rus məsələsi şübhəsiz, Vaşinqton konfransında Hardinq və digər nümayəndələr tərəfindən ən çox müzakirə edilən məsələlərdən biri olacaqdır.

Sovet Rusiyası iki dəfə 1921-ci il iyulun 19-u və noyabrın 2-də etirazını bildirdi ki, o da Sakit okean dövlətidir və konfransda iştirak etməlidir. Lakin konfrans qəti bildirdi ki, konfransın qərarı ilə o, qanuni qüvvəyə malik olmayacaqdır. Konfrans 14 dövlətin iştirakı ilə 1921-ci ilin noyabrın 12-də Vaşinqtonda açıldı.

Konfransın iclasları açıq keçirilirdi. Nümayəndələrin çıxışları da çap edilirdi. Burjua mətbuatı nümayiş etdirirdi ki, gizli diplomatiya, bağlı qapı arxasında söhbətlərin artıq sonu çatmışdır. Həqiqət isə bundan çox uzaq idi. İkinci dərəcəli məsələlər xalqa bildirilsə də, əsas məsələlər ancaq dar dairədə həll edilirdi. Gizli keçirilən müşavirələrdə ancaq dörd dövlətin – ABŞ, İngiltərə, Yaponiya, Fransanın nümayəndələri iştirak edirdilər. Konfransda iştirak edən digər dövlətlərin rəyi ilə, demək olar ki, çox az hallarda razılaşırdılar. Bəzən isə bu nümayəndələrin çıxışına heç diqqət verilmirdi.

Konfransın rəsmi gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir: 1) Dəniz silahlarının məhdudlaşdırılması, həmçinin müharibədə yeni silahlardan istifadə qaydaları; 2) Sakit okean və Uzaq Şərq məsələləri (Çin, Sibir və Mandat altında olan ölkələr) İngilis-Yapon sazişi haqqında məsələ konfransın gündəliyinə daxil edilməmişdi. Lakin bir şey aydın idi ki, başqa problemlər üzrə sazişə gəlmək üçün onun həlli vacib idi.





Konfransda başlıca rolu ABŞ oynayırdı. O, Versal sülh müqaviləsində buraxdığı səhvləri düzəltməyi qarşısına məqsəd qoymuşdu. ABŞ nümayəndə heyəti konfransda özünün birinci vəzifəsini ingilis-yapon sazişini ləğv etməkdə görürdü. Bu digər məsələlərin həlli üçün açar rolunu oynayırdı. Bu məsələ ilə bağlı gizli şəkildə üç dövlət— ABŞ, İngiltərə, Yaponiya arasında ciddi söhbət və müzakirə keçirildi. Danışıqlarda ABŞ tərəfindən Yuz, İngiltərə tərəfindən Balfur, Yaponiya tərəfindən Kato əsas rol oynayırdı. Balfur əvvəl məsələni belə qoydu ki, saziş ləğv edilməsin, İngiltərə, Yaponiya və ABŞ arasında üç tərəfli sazişlə əvəz edilsin və bu hərbi müdafiə sazişi olsun. ABŞ dövlət katibi Yuz İngiltərənin ingilis-yapon sazişini yeni formada saxlamaq cəhdini qəti rədd etdi və təkid etdi ki, Fransa da bu danışıqlarda iştirak etsin. ABŞ belə hesab edirdi ki, Fransanın ABŞ-a borclu olması, həmçinin İngiltərə ilə Fransa arasında Yaxın Şərq, alman və digər məsələlərlə bağlı ziddiyyətlər Fransanın İngiltərə və Yaponiya əleyhinə olmasına səbəb olacaq və ABŞ-ın mövqeyini müdafiə edəcəkdir.

1921-ci il dekabr ayının 10-da konfransın nümayəndələrinin əksəriyyəti üçün gözlənilməz şəkildə ABŞ nümayəndəsi belə bir təklif irəli sürdü ki, Sakit okeandakı adaların toxunulmazlığına təminat haqqında dörd dövlət – ABŞ, Yaponiya, İngiltərə, Fransa arasında saziş bağlansın İtaliyanın sazişdə iştirak etmək haqqında tələbləri nəzərə alınmadı və qəbul edlmədi. Lodcun çıxışından sonra İngiltərə nümayəndə heyətinin başçısı Balfur çıxış edərək göstərdi ki, ABŞ-ın təklifini sevinclə qəbul edir, çünki bu onun ABŞ, İngiltərə, Yaponiya və Fransanın dostluğunu möhkəmləndirmək haqqında arzusunun həyata keçməsi deməkdir. Balfurun çıxışı da əslində nəzakətli formada ingilis-yapon sazişinin ləğv olunduğu demək idi. Təsadüfi deyildir ki, yapon nümayəndəsi açıq formada ingilis nümayəndəsinə bildirdi ki, "Siz hər halda bizim ittifaqımız üçün əla dəfn yaratdınız".

Vaşinqton konfransının mühüm məsələlərindən biri də "Dörd dövlət müqaviləsi"nin bağlanması idi. Bu müqavilə ABŞ, İngiltərə, Yaponiya, Fransa arasında 1921-ci ilin dekabrın 13-də



downloaded from KitabYurdu.org

bağlandı. Müqavilədə qeyd edilirdi ki, müqavilə ratifikasiya olunduqdan sonra ingilis-yapon müqaviləsi qüvvədən düşür. Bu, ABŞ diplomatiyasının böyük qələbəsi demək idi. Çünki burada rəhbər rolu ABŞ oynamalı, İngiltərə isə ona tabe olmalı idi.

Bununla birlikdə müqavilə müstəmləkə və asılı ölkələrdəki milli-azadlıq hərəkatlarına qarşı çevrilmişdi.

Müqavilənin mətni cəmi dörd maddədən ibarət idi. Bunlar aşağıdakıları əhatə edirdi: Sakit okean regionunda olan ada mülklərinə və ada ərazilərinə qarşılıqlı hörmət hüququnu saxlamaq, hər hansı digər dövlət tərəfindən bu ərazilərə təhlükə yarandıqda "hərəkət tədbirləri" haqqında birgə qərar qəbul etmək; Avtomatik olaraq uzatma şərti ilə müqavilənin müddətini on il müəyyən etmək; 1902-ci ildə bağlanmış İngiltərə-Yaponiya sazişi artıq əhəmiyyətini itirir və bu dörd dövlət müqaviləsi onu əvəz edir.

Amerika inzibati idarəsi, o cümlədən ABŞ tarixçiləri bu müqaviləni cəmi dörd maddədən ibarət olduğuna görə ikinci dərəcəli hesab edirlər. Əslində isə dörd dövlət müqaviləsində ABŞ məharətlə öz məqsədini gizlətməyi bacarmışdır. Bu məqsəd əslində ABŞ-ın özünəməxsus formada və öz rəhbərliyi altında "Uzaq Şərq Antantası"nı yaratması idi. Məhz bu baxımdan dörd dövlət müqaviləsi əslində ABŞ-ın "Millətlər assosasiyası" yaratmaq ideyasının qismən ifadə edilməsi demək idi və bu mənada da prinsipial əhəmiyyət kəsb edirdi. Təsadüfi deyildir ki, o konfransda ilk imzalanan müqavilə idi.

Müqavilənin 4-cü bəndi 1902-ci il İngiltərə-Yaponiya sazişinin ləğvinə aid idi ki, bu əslində Vaşinqtonun böyük qələbəsi demək idi. Çünki bu Uzaq Şərqdə ABŞ-ın əsas rəqiblərini bir-birindən ayırdı. Yaponiyanı dayağından məhrum etdi ki, hansı ki, onun vasitəsilə Yaponiya bir çox adaları işğal etmişdir.

Müqavilənin birinci maddəsi də az əhəmiyyət kəsb etmirdi. Belə ki, bu maddə ABŞ-ın Sakit okeanda Millətlər Cəmiyyəti vasitəsilə olan bölgünü tanıdığını bildirirdi. Bu maddə həmçinin o demək idi ki, əgər Çin ipə-sapa yatmasa, onun əleyhinə dörd dövlət birgə hərbi çıxış təşkil edə bilərlər. Əslində





bu maddə həm Çinə, həm də Sovet Rusiyasına qarşı yönəlmişdi. Həmin planda suda, havada və quruda silahlanmanın məhdudlaşdırılması öz əksini tapmışdır. Lakin bütün bunlar əslində formal xarakter daşıyırdı. Qısa müzakirələrdən sonra məlum oldu ki, Fransa Avropada qayda-qanunu saxlamaq üçün ən böyük quru qoşunlarına malikdir. Yaponiya xüsusi Uzaq Şərq situasiyasını saxlamaq üçün silahlanmışdır. Nəticədə iştirakçılar belə fikrə gəldilər ki, quruda və havada hələlik tərkisilah mümkün deyildir. Bu ABŞ dövlət katibini tamamilə razı saldı. Əslində ABŞ-ı bu məsələ o qədər də narahat etmirdi. Onu narahat edən İngiltərə və Yaponiyanın dənizdə silahlanması idi. Aviasiyaya gəldikdə isə ABŞ özü də bu sahənin yeni texnika əsasında inkişaf etdirilməsində maraqlı idi.

Konfransda yeganə birgə müzakirə edilməsi mümkün olan məsələ müharibənin gedişində kimyəvi vasitələrdən istifadə etmək üzrə məsələyə baxılmasına dair beş dövlət, ABŞ, Böyük Britaniya, Yaponiya, Fransa və İtaliya komitəsinin təşkili idi. Lakin komitənin yaradılmasında dövlətlər yekdil qərara gələ bilmədilər. Konfransda müharibədə kimyəvi vasitələrdən istifadə haqqında ümumi müzakirədən sonra əlavə beş dövlət müqaviləsi bağlandı. Bir sözlə, Vaşinqton konfransında ancaq dənizdə "tərksilah" məsələlərinə baxıldı.

Dənizdə silahlanmanın məhdudlaşdırılmasına Hardinq hökuməti xüsusi əhəmiyyət verirdi. Yuzun məruzəsində göstərilirdi ki, ABŞ, İngiltərə və Yaponiya xətt gəmilər aşağıdakı nisbətdə müəyyən edilsin. Belə ki, ABŞ və İngiltərə 500 min ton su tutumu, Yaponiyaya isə 300 min ton su tutumu olan gəmilər istehsal edə bilərdi. Nisbət 5:5:3 olmalı idi. ABŞ-ın məqsədi İngiltərəyə çatmaq, Yaponiyanı isə ikinci yerdə saxlamaq idi. Həmçinin Yuz belə bir bəhanədən də istifadə etdi ki, guya böyük gəmilər xüsusi təhlükə təşkil edir, ona görə də 35 min ton su tutumundan yuxarı gəmilər tikilməsin. Bu həm də ona görə lazım idi ki, ABŞ üçün Atlantik okeandan Sakit okeana, Sakiit okeandan Atlantik okeana donanma köçürmək çətinlik törətməsin. Böyük dövlətlərin mənafeyinə uyğun olaraq dənizdə yeni silahlanmanın əsası qoyulmuş oldu. Yuz çox böyük çətinlik



downloaded from KitabYurdu.org

bahasına linkorların nisbətini aşağıdakı qaydada müəyyən edə bildi. ABŞ və İngiltərə üçün 525 min tona qədər, Yaponiya üçün 315 min tona qədər, Fransa və İtaliya üçün isə 175 min tona qədər. Bu nisbətin qəbul edilməsi əslində ABŞ-ın daha iri gəmilər tikməsinə şərait yaradılması demək idi. İngiltərə və Fransa arasında kəskin müzakirələr kreyserlərin və sualtı qayıqların məhdudlaşdırılmasına imkan vermədi.

Konfrans həmçinin təyyarə daşıyan gəmilərlə əlaqədar razılığa gələ bilmədi. Bu münasibətlə elə ilk təqdim edilən layihə rədd edildi. Bütün bu sahələrdə müqavilələrin bağlanmamasının səbəkarı isə Fransa və güzəştə getməyi bacarmayan İngiltərə oldu.

ABŞ-ın müvəffəqiyyətləri tam olmadı, o bir neçə güzəştə getməyə məcbur oldu. Bu, onun Yaponiyaya yaxın ərazilərdə hərbi baza yaratmamağı öhdəsinə götürməsi idi. Nəticədə onun hərbi bazalarının hamısı Perl-Xarbor və Sinqapurla məhdudlaşdırılmış oldu. Bu özü ABŞ-ın konfransı müntəzəm davam edən orqana çevirmək planından imtina etməsi demək idi. ABŞ-ın planına görə həmin orqan Millətlər Cəmiyyətinə qarşı çevrilməli və iqtisadi və maliyyə məsələlərini əhatə edən fəaliyyət sahəsini əhatə etməli idi.

Beş dövlət müqaviləsinin müzakirəsi göstərdi ki, Avropa dövlətləri və Yaponiya ABŞ-ın hegemonluq iddiasını qəbul etmək istəmirlər. Hətta ayrı-ayrı istiqamətlərə də bunu şamil etmək niyyətində deyildilər. Bununla bərabər Yuz ona müvəffəq olmağı bacardı ki, Vaşinqton konfransında iki qətnamə qəbul etdirsin. Bunlardan biri "tərksilah" məsələsinin gələcəkdə müzakirə edilməsi zəruriliyi, digəri isə konfrans iştirakçılarının 8 ildən sonra bir daha konfrans çağırıb xətt gəmilərinin tonnajını təsdiq etmək öhdəliyi haqqında idi. Bu nisbət belə müəyyən edilirdi. 5:5:3:1,75:1,75. Bu qətnamələr ABŞ-a imkan verdi ki, dənizdə silahlanmanı öz nəzarəti altına alsın və tərksilah məsələsi üzrə növbəti konfrans çağırmaq təşəbbüsünü öz əlində saxlamış olsun.

Vaşinqtonda silahların məhdudlaşdırılması məsələsinin müzakirəsinin nəticələri ABŞ senatında kəskin müzakirəyə səbəb oldu.Tənqidçilər hökuməti fövqəladə güzəştlərə getməkdə təqsirləndirirdilər. Göstərirdilər ki ABŞ, nümayəndələri hədsiz





dərəcədə sülh xülyalarına qapılmışlar. Senator C. Rid təsdiq edirdi ki, müqavilə göstərir ki, biz ingilislərə necə xeyirxahlıq göstəririk. Digərləri isə ABŞ-ın Yaponiyaya güzəştə getməsini pisləyirdilər. Debat belə bir amilə imkan verdi ki, sağlar bundan istifadə edərək hərbi hazırlığı gücləndirməyi, müəssisələrin hərbi sifarişlər qəbul etməsinə icazə verilməsini tələb etsinlər.

Soldan tənqiddə senator Bora, Uilyam, Uinq və digərləri qeyd edirdilər ki, Sakit okeanda bazalarını möhkəmləndirməkdən imtina edən ABŞ çalışmalıdır ki, Filippin və Quamda möhkəmlənməkdən imtina etməməklə bərabər özünə geniş imkanlar yaratsın. İngiltərə və Yaponiya isə Sakit okeanın qərb hissəsində möhkəmlənməməlidir. Bütün böyük dövlətlərin donanmalarını azaltmamalı, əksinə onlar daha güclü olmalıdırlar. Xərclər qoy çox olsun, lakin sürətlə silahlanmada kreyser, sualtı qayıq və təyyarələr istehsalı artırılsın.

Beş dövlət müqaviləsinə senatda cəmi bir nəfər səs vermədi, ancaq 24 senator bu məsələdə bitərəf qaldı, qalanlar leyhinə səs verdi.

Müqaviləyə əlavədə Yuz göstərdi ki, dənizdəki hərbi gəmilər və köməkçi döyüş vasitələrinin nisbəti dünyanın böyük dövlətləri arasında proporsional qaydada bölünməlidir. Bundan ABŞ-ın birinci növbədə məqsədi o idi ki, İngiltərənin xətt gəmilərinin ABŞ üzərindəki üstünlüyü ləğv edilsin. Çünki İngiltərə artıq xətt gəmilərinin tikintisinə başlamışdı, ABŞ-da isə hələ bu tikinti başlamamışdı. İngiltərə üçün ABŞ-ın təklifini rədd etmək çətin idi. Çünki bu dövrdə İngiltərə çox böyük maliyyə çətinlikləri ilə qarşılaşmışdı, dənizdə donanma saxlamaq isə ona çox baha başa gəlirdi. Ona görə də Balfur Yuzun təklifini müdafiə etməli oldu. Yapon nümayəndəsi Kato isə ABŞ-ın təklifi ilə əlaqədar olaraq öz proporsional sazişini elan etdi. Bununla belə konfransda ABŞ-ın layihəsi konkret şəkildə müzakirə edildikdə müxtəlif məsələlər meydana gəldi. Yaponlar təkid edirdilər ki, ABŞ, İngiltərə və Yaponiya arasında xətt gəmilərində nisbət 10:10:7 olsun. Halbuki Yuz təklif edirdi ki, bu nisbət 10:10:5 olsun. Cavabında ABŞ bildirirdi ki, əgər Yaponiya inadkarlığını davam etdirərsə, ABŞ hər bir yapon gəmisinə qarşı dörd gəmi



downloaded from KitabYurdu.org

tikintisinə başlayacaqdır. Belə olduqda yaponlar ABŞ-ın təklifinə razı olduqlarını bildirməyə məcbur oldular. Lakin onlar belə bir şərt qoydular ki, ABŞ Sakit okeanda belə gəmilərin tikintisi ilə məşğul olmayacaqdır və hərbi-dəniz bazası yaratmayacaqdır. ABŞ nümayəndəsi Yaponiyanın bu tələblərinə etirazını bildirdi, xüsusilə Havay adalarına da bunu şamil etməsinə razılşmadığını bildirdi. Öz növbəsində Fransa da təkid etdi ki, ona 35 min tonnaj su tutumu olan 10 linkor tikintisi üçün icazə verilsin. İtaliya da onun Fransa ilə bərabərhüquqlu səviyyədə tutulmasını və Fransaya aid ediləcək proporsiyanın ona da şamil edilməsi tələbini bildirdi.

ABŞ nümayəndələri konfransda İngilislərin köməyi ilə quru qoşunlarının və aviasiyanın ixtisarı haqqında məsələ qaldırdı. Əslində nə ABŞ, nə də İngiltərə ümumi formada silahlanmanı ixtisar etmək istəmirdilər. Bundan məqsəd Yaponiyanın mövqeyini Çində, Fransanın mövqeyini isə Avropada və Yaxın Şərqdə sarsıtmaq idi. Manevr alınmadı. Fransa quruda silahlı qüvvələrin qəti surətdə ixtisar edilməsi əleyhinə çıxdı. Fransız nümayəndə heyətinin başçısı Brian konfransda antisovet əhval-ruhiyyəsini biruzə verərək göstərdi ki, Fransaya böyük ordu lazımdır ki, Polşa və Qərbi Avropanı bolşevizm təhlükəsindən qoruya bilsin. Həmçinin o göstərdi ki, Almaniya istənilən an özünə yarım milyonluq ordu yarada bilər. Quru qoşunlarının ixtisarına qarşı Yaponiya, İtaliya, Belçika da öz etirazlarını bildirdi. Kəskin fikir ayrılıqlarının meydana çıxması nəticəsində quru qoşunlarının, həmçinin sualtı donanmanı və hərbi hava qüvvələrini məhdudlaşdırmaq məsələsi də həll edilməmiş qaldı. Bununla belə İngiltərə və ABŞ-ın təzyiqi nəticəsində Fransa onların hərbi-dıniz tonnajı haqqında təkliflərini qəbul etməli oldu.

Nəhayət üç aylıq gərgin mübarizədən sonra ABŞ, Böyük Britaniya Yaponiya, Fransa və İtaıiya birgə 1922-ci il fevralın 6-da beş dövlət sazişini imzaladılar ki, bu "Dəniz qüvvələrinin məhdudlaşdırılması haqqında" saziş adlanır. Saziş dövlətlər arasındakı nisbəti bu şəkildə müəyyən etdi:5:5:3:1,75:1,75. Bu




müqavilə 1936-cı ilin 31 dekabrına qədər qüvvədə hesab olunurdu.

Beş dövlət sazişi İngiltərə ilə ABŞ arasında xətt gəmilərində bərabərliyi rəsmiləşdirdi. Amerika nümayəndə heyəti həmçinin hərbi kreyserlərin də məhdudlaşdırılmasını təklif etdi, çünki İngiltərə bu sahədə birinci yeri tuturdu. Lakin İngiltərə nümayəndə heyəti bunu qətiyyətlə rədd etdi, çünki kreyser donanması dənizdə kommunikasiya xətlərinə nəzarət etmək üçün mühüm əhəmiyyət kəsb edirdi və İngiltərə onun vasitəsi ilə müstəmləkələri ilə əlaqə saxlaya bilirdi. Beləliklə İngiltərə bir sıra sahələrdə dənizdə üstünlüyünü qoruya bildi.

ABŞ-ın Sakit okeanda yeni dəniz bazaları tikməsi sazişə əsasən qadağan edilirdi. Lakin bu qadağa ABŞ-ın adalarına, Kanadaya, Avstraliyaya, Yeni Zelandiyaya, Panama kanalı zonasına, Havay adalarına aid edilmirdi.

Konfransın müzakirə etdiyi mühüm məsələlərdən biri də Çin məsələsi idi. Vaşinqton konfransında Pekin hökuməti nümayəndələri Çinin maraqlarını müdafiə etmək qabiliyyətinə malik deyildi. Cənubi Çin hökumətinin nümayəndələri, hansı ki, ona Sun-Yatsen başçılıq edirdi, konfransa buraxılmamışdı.

Ancaq Çində baş verən antiimperialist hərəkatlar Çin nümayəndə heyətini məcbur etmişdi ki, konfransda Çinin milli maraqlarını qismən olsa da, müdafiə edən tələblər proqramı irəli sürsün. Çin böyük dövlətlərdən tələb edirdi ki, onun ərazi bütövlüyünə toxunulmasın və ona hörmət edilsin., həmçinin onun siyasi və iqtisadi müstəqilliyi təmin edilsin. Çin nümayəndə heyəti habelə öz tərəfindən vəd edirdi ki, öz ərazisinin müəyyən hissəsini xarici kapitalistlərə icarəyə verə bilər. Çin nümayəndə heyəti "Açıq qaplar və bərabər imkanlar" prinsipi ilə razılaşdığını bildirdi. Lakin Çin nümayəndə heyəti bağlanan sazişlərdə özünün bərabərhüquqlu dövlət kimi iştirakını tələb edirdi, hansı ki, bu sazişlər Sakit okeanla və Çinlə birbaşa bağlı idi. Çin nümayəndə heyətinin irəli sürdüyü "on maddə"də həmçinin bir sıra mühüm tələblər vardı ki, bunlar Çin ərazisində bütün xarici dövlətlərin hər cür imtiyaza və üstünlüyə malik olmasının qadağan edilməsi, Şandunun Çinə qaytarılması və Yaponiyanın 17 tələbinin rədd



downloaded from KitabYurdu.org

edilməsi", "nüfuz dairəsi" və "icarə"lər formasında xarici dövlətlərin Çin ərazisində ağalığının ləğv edilməsi, xarici qoşunların çıxarılması və başqaları idi.

Bu proqram xarici dövlətləri, ilk növbədə ABŞ-ı təmin etmirdi. ABŞ ancaq o maddələri müdafiə edirdi ki, onlar Yaponiyanın əleyhinə çevrilmişdir. ABŞ özü də Çinə müdaxiləsini genişləndirmək istəyirdi, lakin bunu hərbi təzyiq yolu ilə yox, özünəməxsus xüsusi vasitələrlə həyata keçirmək istəyirdi. Çində ABŞ-ın "Standart Oyl" inhisarının, Düponun konserninin, "Betlaxem Stil"in, "Vesteri Elektrikin" və başqalarının filialları yerləşirdi. ABŞ-ın təşəbbüsü ilə 1920-ci ilin oktyabrında burada beynəlxalq bank konsersumu da təşkil edilmişdi. Bundan məqsəd Çinə dəmiryol, sənaye müəssisələri, iqtisadi islahatlar üçün təqdim edilən istiqrazları cəmləşdirmək idi. 1919-cu ilin martılndan ABŞ-ın təşəbbüsü ilə dəmiryollara aid saziş imzalanmağa başlandı. ABŞ çalışırdı ki, ideoloji metodla Çinə nüfuz etməyə xüsusi diqqət yetirsin. Çinli tələbələrin ABŞ universitetlərində oxumasına xüsusi şərait yaradılırdı. Həmçinin Çinin özündə ABŞ-ın köməyilə tədris müəssisələri açılırdı. Məsələn 1920-cı ildə Çindəki 16 universitetdın 8-ni ABŞ özü, 3-nü isə Kanada və İngiltərə birlikdə açmışdır.

ABŞ çalışırdı ki, Çində İngiltərə, Yaponiya və Fransanın təsir dairələrini ləğv etsin. O əslində istəyirdi ki, Çinin birləşməsi Amerikapərəst Çin hökuməti tərəfindən yenidən təşkil edilsin. Yaponiyanın Çinə hər cür müdaxiləsinin məhdudlaşdırılması Vaşinqton konfransında ABŞ-ın başlıca məqsədlərindən biri idi. ABŞ-ın digər məqsədi Çində milli-azadlıq hərakatını zəiflətmək idi, çünki bu dövrdə etiraf etmək lazımdır ki, Çində Rusiyadakı Oktyabr çevrilişinin təsiri ilə milli-azadlıq hərəkatı başlanmış, və geniş vüsət almışdı. Kommunist partiyası yaranmışdı. Çində milli-azadlıq hərəkatının ən bariz nümunəsi özünü 1919-cu ilin 4 may hərəkatında tapdı. Bu hadisə Şandun əyalətinin Yaponiyaya verilməsi haqqında Paris sülh konfransının qərarına qarşı yönəlmişdi. Bu hərəkat Pekin hökumıtini məcbur etdi ki, o, Versal müqaviləsini imzalamaqdan imtina etsin. Belə bir şəraitdə isə maraqlı tərəf kimi ABŞ çıxış etməyə başladı.




ABŞ-ın Çinə münasibəti Vaşinqton konfransında hər şeydən əvvəl, iri kapital nümayəndələrinin planına uyğun gəlməli idi. Onları isə ən çox Çində baş verən siyasi hadisələr narahat edirdi. ABŞ köhnə müstəmləkə metodlarının əleyhinə çıxış etməklə bərabər, Çindəki inqilabi demokratik antiimperialist hərəkatdan qorxaraq ona dominion hüququ verilməsini təklif edirdi.

Konfransda Kantondakı demokratik hökumətin nümayəndələrinin iştirakına icazə verilməmişdi. Çinin tələbləri içərisində mərkəzi yeri Şandun məsələsi tuturdu.

1922-ci il fevralın 4-də Yaponiya və Çin saziş bağladılar. Yaponiya öz qoşunlarını Şandundan çıxartmağı öz öhdəsinə götürdü. Kömür və dəmir filizi mədənləri Çin-Yaponiya birgə kompaniyasının əlinə keçdi. Taidao-Teinan dəmiryol xətti Çinə qaytarıldı. Yaponiya Çinə istiqraz təqdim etdi. Şandun əyaləti ilə bağlı Versal müqaviləsinə yenidən baxılması Yaponiyanın məğlubiyyəti, ABŞ diplomatiyasının isə böyük qələbəsi demək idi.

1922-ci ilin fevralın 6-da konfransda "Doqquz dövlət müqaviləsi" adlanan müqaviləni ABŞ, İngiltərə, Fransa, Yaponiya, Belçika, İtaliya, Hollandiya, Portuqaliya, Çin imzaladı. Müqavilənin iştirakçıları üzərlərinə öhdəlik götürdülər ki, Çinin suverenliyinə hörmət edirlər, onun ərazi və inzibati bütövlüyünə toxunmayacaqlar. Lakin Çinin suverenliyini təmin etmək üçün böyük dövlətlər heç bir təminat vermədilər.

ABŞ "Doqquz dövlət sazişi"nin bağlanmasını özünün ən böyük nailiyyəti hesab edirdi. Yuz göstərirdi ki, bu sazişə minnətdar olmaq lazımdır ki, o "açıq qapılar"ı reallığa çevirdi. Bu yolla onlar Çin bazarında ağalıqlarını həyata keçirmək istəyirdilər.

Çin üçün "açıq qapılar" doktrinası onun müsətqilliyinə böyük zərbə demək idi. Çin böyük dövlətlərin sövdələşmə obyektinə çevrildi. Bu müqavilə Çinin milli-azadlıq hərəkatını boğmaq üçün imperialistlərin birləşməsi demək idi. Çində xaricilərin rabitə şöbələri və radiostansiyaları ləğv edilmədi. Çin gömrük məsələsində bərabər hüquq almadı, xarici dövlətlər polis



downloaded from KitabYurdu.org

və qoşununu onun ərazisindən çıxartmadı. Mühüm strateji ərazilər yenə də böyük dövlətlərin sərəncamında qaldı. Yaponiya Lyaodun yarımadasını, İngiltərə isə Honkonqu öz əraziləri hesab etdilər.

"Doqquz dövlət müqaviləsi" Uzaq Şərqə dair imperialist dövlətləri arasındakı ziddiyətləri həll etmədi. Şandun məsələsinə 36 iclas həsr edilmişdi ki, burada yapon diplomatları ilə kəskin mübarizə getmişdi. ABŞ və İngiltərə burada "barışdırıcı" mövqedə olan tərəflər kimi çıxış edərək bildirirdilər ki, Şandun dəmiryolu konsersiuma verilsin. Tsindao limanı açıq limana çevrilsin. Bu isə əslində Şandunun ABŞ və İngiltərənin olmasının təmin edilməsi demək idi.

"Doqquz dövlət sazişi"nə əlavə olaraq dörd əlavə saziş də bağlandı. Gömrük tarifi haqqında müqaviləyə görə Çin gömrüyü 5 % yüksəldə bilərdi. Qiymətləri isə 1843-cü ildəkindən cəmi 7,5 % yüksəldə bilrərdi. Halbuki Çin nümayəndə heyəti tələb edirdi ki, 12,5 % yüksəltməyə hüququ olsun. Həmin doqquz dövlət qətnamə qəbul etdilər ki, Çindən xarici qoşunlar çıxarılsın. Nəhayət, qərar qəbul edildi ki, səkkiz dövlətin iştirakı ilə komissiya yaradılsın ki, bu komissiya eksterritoriallıq hüququnun təxirə salınması haqqında məsələni diqqətlə öyrənsin.

Paris sülh konfransında olduğu kimi, Vaşinqton konfransında da "rus məsələsi" vacib yer tuturdu. Dövlətlərin Sovet Rusiyasını və Uzaq Şərq Respublikasını konfransa dəvət etməkdən imtina etmələri Sovet Rusiyasının bəyanat verməsinə səbəb oldu.

Konfransın antisovetizm əhval-ruhiyyəsində olması burada tez-tez ŞÇDY (Şərqi Çin Dəmir Yolu) məsələsinin müzakirə obyektinə çııxarılmasında da özünü göstərirdi. ABŞ hakim dairələri çalışırdılar ki, ya onu neytrallaşdırsınlar, ya da onun üzərində, beynəlxalq nəzarət qoysunlar. Konfransda texniki-ekspertlər komissiyası yaradıldı ki, o yolun idarə edilməsini yeni şəkildə təşkil etməli idi.

RSFSR hökuməti qəti surətdə buna etirazını bildirdi və göstərdi ki, bu məsələ Çin və Rusiyaya aid məsələdir. Sovet hökumətinin qəti mövqeyi və iştirakçılar arasında fikir




müxtəlifliyi konfransda bu məsələ ilə əlaqədar qərar qəbul edilməsinə mane oldu.

Konfransa dəvət edilməsə də, Uzaq Şərq respublikasının nümayəndə heyəti konfransa gəldi və öz bəyanatını ABŞ nümayəndə heyətinin başçısı Yuza 1921-ci il dekabrın 22-də təqdim etdi. Burada Uzaq Şərq respublikasının kənarlaşdırılmasına etiraz öz əksini tapmışdı. Həmçinin Yaponiyanın Uzaq Şərq respublikasına aid verdiyi "17 tələb" də rədd edilirdi.

1922-ci ilin yanvarın 23-də konfransınUzaq Şərq komissiyasının iclasında Yaponiyanın nümayəndəsi Sidexara bildirdi ki, o, Rusiyanın ərazi bütövlüyünə hörmət edir və Priamuryedən və Saxalindən qüvvələrini evakuasiya edəcək. Lakin bunun saxtalığı o idi ki, burada müddət göstərilmirdi. ABŞ sözdə Yaponiyanın fikri ilə razılaşsa da həqiqətdə isə Sovet hakimiyətinə qarşı mübarizədə Yaponiyadan istifadə etmək istəyirdi Ona görə də konfrans Sovet Uzaq Şərqindən yapon qoşunlarının çıxarılması məsələsinin üzərindən sükutla keçdi.

Vaşinqton konfransı Sakit okeanda qüvvələrin yeni quruluşunu müəyyənləşdirdi. Konfransın qərarları 1919-1920-ci illərin Paris konfransının qərarlarını müəyyən dəyişikliklərlə tamamlamış oldu.

Vaşinqtonda bağlanmış sazişlər əslində ilk növbədə ABŞ imperialistlərinin maraqlarına cavab verirdi. Yaponiya bir sıra güzəştlərə getməli oldu. Onlardan ən vacibi Şandundan imtina idi. Lakin bununla belə o Şimal-Şərqi Çinin cənub hissəsində və Sakit okeanın qərb hissəsində güclü hərbi-dəniz bazalarını saxlaya bildi. İngilis-Yapon sazişinin ləğv edilməsi də Yaponiyanın məğlubiyyəti idi.

Həm ABŞ və İngiltərənin təzyiqi Uzaq Şərqdə yapon müdaxiləsinə qarşı qalxan uğurlu mübarizə, həm də ölkənin daxili vəziyyəti Yaponiyanın güzəştə getməsinə səbəb olan amillərdən idi. .

Çin xalqının milli azadlıq mübarizəsi də göstərdi ki, artıq Çinlə əvvəlki kimi rəftar etmək qeyri-mümkündür. Bununla bərabər konfransdan sonra imperialst dövlətləri Çin uğrunda mübarizəni gücləndirdilər. Vaşinqton konfransı həmçinin sovet



downloaded from KitabYurdu.org

dövlətinə qarşı çevrilmişdi. Konfransın qərarları vahid antisovet cəbhə yaradılmasında əməkdaşlıq yaratmağa kömək edirdi. Onlar Uzaq Şərqdə “hasar” yaratmaq və sovet ölkəsini mühasirəyə almaq istəyirdilər.

Vaşinqton konfransının qərarları bir sıra məsələlərdə tam müvəffəqiyyətsizliyə uğradı. Belə ki, Uzaq Şərqdə Sovet hakimiyyəti quruldu. Sovet Rusiyasının Sakit okean dövləti kimi rolu artmağa başladı. Çində milli azadlıq hərəkatının yüksəlişi də Vaşinqton konfransının qərarlarının möhkəm olmadığını göstərdi. Həmçinin Uzaq Şərqə aid ingilis-yapon və yapon-amerikan ziddiyyətləri nəinki ləğv olunmadı, əksinə daha da artdı.



__________Milli kitabxana__________

**Ədəbiyyat**


1. Новая история (1870-1918) Под ред. И.С.Галкина, Н.Е.Застенкера. В.М.Хвостова 2-е изд. М., Высшая школа, 1973.
2. История дипломатия. М., Госполитиздат 1959, т. Ы, ., 1963, т. 2.
3. Верти Ф. За кулисами Антанты. Дневник британского посла в Париже. М-Л, 1927.
4. Бюлов Б. Воспоминания (1914-1918). М-Л., 1935.
5. Бисмарк О. Мысли и воспоминания. Т. 1. 3, М., 1940.
6. Ерофеев Н. Очерки по истории Англии 1815-1917. М., 1959.
7. Ллойд Джордж Д. Военные мемуары. Т. 1-6, М., 1934-1938.
8. Пуанкаре Р. Воспоминания 1914-1918. М., 1936.
9. Хауз Э. Архив полковника Хауза. 1914-1917 гг. т. 1-4, М., 1937-1944.
10. Зубок Л. Экспансионистская политика США в начале XX в. М., 1969.
11. История США. Т.II (1877-1918) . М., 1985.
12. Мортон А. История Англии. М., 1954.
13. Манфред А. Внешняя политика Франции 1871-1891 годов. М., 1952.
14. Очерки новой и новейшей истории США. М., 1960.
15. Бовыкин В. Из истории возниконвения первой мировой войны. 1961.
16. Отношения России и Франции в 1912-1914 гг. М., 1964.
17. А.И.Уткин. Первая мировая война. Москва, 2001.
18. Новейшая история зарубежных стран Европы и Америки XX века. Москва, 2004.
19. Musa Qasımlı. Müasir tarix. I hissə.Bakı, 2004.
20. S.M.Mustafayeva. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. I hissə. Bakı, 2007.




downloaded from KitabYurdu.org

## MÜNDƏRİCAT

**GİRİŞ……………………………………………………………3**

**Birinci Dünya müharibəsinə hazırlıq dövründə beynəlxalq münasibətlər………………………………………4**

**Birinci Dünya müharibəsinin gedişi və bu dövrdə beynəlxalq münasibətlər……………………………………..71**

**Birinci Dünya müharibəsindən sonrakı ilk illərdə beynəlxalq münasibətlər…………………………………….159**







downloaded from KitabYurdu.org